$$\frac{\partial\Psi_2}{\partial t}=\Delta^{-1}\left\{B_p\left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_1}{r}\right)rA_{s_k}+\frac{\partial}{\partial r}\left(\frac{\Psi_2}{r}\right)rC_{s_k}\right]\frac{\partial p}{\partial r}-B_{s_k}\left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_1}{r}\right)rA_p+\right.\right.$$

$$\left.\left.+\frac{\partial}{\partial r}\left(\frac{\Psi_2}{r}\right)rC_p\right]\frac{\partial p}{\partial r}-\frac{\partial}{\partial r}\left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_1}{r}\right)rA\right]-\frac{\partial}{\partial r}\left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_2}{r}\right)rC\right]\right\}. \qquad (15)$$

Başlanğıc və sərhəd şərtləri:

$$\Psi_1(r,\bar{T})=0,\quad \Psi_2(r,\bar{T})=0 \qquad (16)$$

$$\left[\Psi_2\left(C_p-CA^{-1}A_p\right)\frac{\partial p}{\partial r}-\frac{\partial}{\partial r}\left(\frac{\Psi_1}{r}\right)rA-\frac{\partial}{\partial r}\left(\frac{\Psi_2}{r}\right)rC-2\left(p-p_q(t)\right)\right]_{r=r_q}=0,$$

$$\left[\Psi_2\left(C_{s_k}-CA^{-1}A_{s_k}\right)\right]_{r=r_q}=0 \qquad (17)$$

$$\left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_1}{r}\right)rA\right]_{r=R_k}=0,\quad \left[\frac{\partial}{\partial r}\left(\frac{\Psi_2}{r}\right)rC\right]_{r=R_k}=0 \qquad (18)$$

Burada $A_p$, $B_p$, $C_p$, $D_p$, $A_{s_k}$, $B_{s_k}$, $C_{s_k}$, $D_{s_k}$ $p$-yə və $s_k$-ya görə törəmələrdir və $\Delta=\begin{vmatrix}B_p & D_p\\ B_{s_k} & D_{s_k}\end{vmatrix}\neq 0.$

$J(\alpha_1,\alpha_2)$ funksiyası üçün artım aşağıdakı ifadə ilə təyin olunur:

$$\Delta J(\alpha_1,\alpha_2)=\left\{\iint_G\left[\Psi_1\frac{1}{r}\frac{\partial}{\partial r}\left(rA_{\alpha_2}\frac{\partial p}{\partial r}\right)+\Psi_2\frac{1}{r}\frac{\partial}{\partial r}\left(rC_{\alpha_2}\frac{\partial p}{\partial r}\right)\right]drdt+\right.$$

$$+\int_0^{\bar{T}}[\Psi_1 A+\Psi_2 C]A^{-1}A_{\alpha_2}\frac{\partial p}{\partial r}\bigg|_{r=r_q}dt+2\varepsilon\alpha_2\Bigg\}\cdot\Delta\alpha_2-\Bigg\{\iint_G\Bigg[\Psi_1\frac{\partial}{\partial t}B_{\alpha_1}+$$

$$+\Psi_2\frac{\partial}{\partial t}D_{\alpha_1}\Bigg]drdt+2\varepsilon\alpha_1\Bigg\}\cdot\Delta\alpha_1+\eta\,, \qquad (19)$$

Qeyd edək ki, $\eta$ - $\Delta\alpha=\Delta\alpha_1+\Delta\alpha_2$ - ya nəzərən yüksək tərtibdən sonsuz kiçik kəmiyyətdir.

Beləliklə, $J(\alpha_1,\alpha_2)$ funksiyasının qradienti $\frac{\partial J}{\partial\alpha}=\left(\frac{\partial J}{\partial\alpha_1},\frac{\partial J}{\partial\alpha_2}\right)$ şəkilini alar:

Burada
$$\frac{\partial J}{\partial\alpha_1}=-\iint_G\left[\Psi_1\frac{\partial B_{\alpha_1}}{\partial t}+\Psi_2\frac{\partial D_{\alpha_1}}{\partial t}\right]drdt+2\varepsilon\alpha_1,$$

$$\frac{\partial J}{\partial\alpha_2}=\iint_G\left[\Psi_1\frac{1}{r}\frac{\partial}{\partial r}\left(A_{\alpha_2}r\frac{\partial p}{\partial r}\right)+\Psi_2\frac{1}{r}\frac{\partial}{\partial r}\left(C_{\alpha_2}r\frac{\partial p}{\partial r}\right)\right]drdt+$$

$$+\int_0^{\bar{T}}[\Psi_1 A+\Psi_2 C]A^{-1}A_{\alpha_2}\frac{\partial p}{\partial r}\bigg|_{r=r_q}dt+2\varepsilon\alpha_2 \qquad (20)$$

şəkilində təyin olunur.

Beləliklə, $(\alpha_1,\alpha_2)$ cütünü tapmaq üçün aşağıdakı iterasiya təşkil olunur:

$$\alpha_i^{k+1}=\alpha_i^k-\lambda_k\frac{\partial J(\alpha_1^k,\alpha_2^k)}{\partial\alpha_i},\qquad i=1,2, \qquad (21)$$

Burada $k=0,1,...,$ iterasiyanın sayı, $\lambda_k\geq 0$ - qradientlər üsulunun addımıdır.

(20) qradiyentlərinə daxil olan $B_{\alpha_1}$ və $D_{\alpha_1}$ hesablanarkən $B(r,\alpha_1,p,s_k)$ və $D(r,\alpha_1,p,s_k)$ funksiyalarından $\alpha_1$ - ə nəzərən törəmə alınması lazım gəlir. Həmin funksiyaların ifadələrindən istifadə etməklə alarıq:

$$B_{\alpha_1}=\left(m\left(\frac{(1-s_\kappa)p\beta}{z(p)p_{atm}}\left[1-c(p)\bar{\gamma}(p)\right]+s_\kappa\frac{S_k(p)}{a_k(p)}\right)\right)\Bigg|_{\alpha_1}=m_{\alpha_1}\left(\frac{(1-s_\kappa)p\beta}{z(p)p_{atm}}\left[1-c(p)\bar{\gamma}(p)\right]+s_\kappa\frac{S_k(p)}{a_k(p)}\right),$$

$$D_{\alpha_1}=\left(m\left(\frac{(1-s_\kappa)p\beta c(p)}{z(p)p_{atm}}+s_\kappa\frac{1}{a_k(p)}\right)\right)\Bigg|_{\alpha_1}=m_{\alpha_1}\left(\frac{(1-s_\kappa)p\beta c(p)}{z(p)p_{atm}}+s_\kappa\frac{1}{a_k(p)}\right).$$

$m(0)=m_0$ şərti nəzərə alınmaqla $m+\alpha_1\frac{\partial m}{\partial t}=m_0e^{\beta_s(p-p_0)}$ tənliyinin inteqral yazılışı üçün [6] işində verilmiş yazılışa analoji olaraq yaza bilərik:

$$m = m_0 e^{-\frac{t}{\alpha_1}} + \frac{m_0}{\alpha_1}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau .$$

Beləliklə, alarıq:

$$m_{\alpha_1} = \left( m_0 e^{-\frac{t}{\alpha_1}} + \frac{m_0}{\alpha_1}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau \right)_{\alpha_1} = \frac{m_0}{\alpha_1^2} e^{-\frac{t}{\alpha_1}} - \frac{m_0}{\alpha_1^2}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau +$$

$$+\frac{m_0}{\alpha_1}\left( \int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau \right)_{\alpha_1} = \frac{m_0}{\alpha_1^2} e^{-\frac{t}{\alpha_1}} - \frac{m_0}{\alpha_1^2}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau + \frac{m_0}{\alpha_1^3}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau =$$

$$= \frac{m_0}{\alpha_1^2}\left( e^{-\frac{t}{\alpha_1}} - \int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau \right) + \frac{m_0}{\alpha_1^3}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau .$$

Nəhayət,

$$m_{\alpha_1} = \frac{m_0}{\alpha_1^2}\left( e^{-\frac{t}{\alpha_1}} - \int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau \right) + \frac{m_0}{\alpha_1^3}\int_0^t e^{-\frac{t-\tau}{\alpha_1}} e^{\beta_s(p-p_0)} d\tau . \qquad (22)$$

Beləliklə, $\alpha_1$ və $\alpha_2$ naməlum parametrləri üçün başlanğıc qiymətlər seçilməklə ($\alpha_1 \neq 0$) (20) və (22) daxilində (21) iterasiyası aparılır. Realizə olunan iterasiya prosesi nəticəsində $J(\alpha_1^k, \alpha_2^k)$-nın elə qiyməti təyin olunur ki, onun $k-1$-ci iterasiya zamanı alınan $J(\alpha_1^{k-1}, \alpha_2^{k-1})$ qiyməti arasındakı fərq verilmiş minimal dəqiqliyə cavab versin. Bu halda $\alpha_1$ və $\alpha_2$ naməlum parametrləri təyin olunmuş hesab olunurlar.

Qeyd olunan qayda ilə qazkondensat qarışığının relaksasiyalı deformasiya olunan layda süzülməsi zamanı tələb olunan naməlum lay parametrlərinin (relaksasiya vaxtı və keçiriciliyin dəyişmə əmsalı) təyini və beləliklə də layın müəyyən dövr üçün məlum olan mədən məlumatları (ilk növbədə, quyudibi təzyiqinin faktiki ölçülmüş qiymətləri) əsasında məsaməlik və keçiriciliyin identifikasiyası həyata keçirilə bilər.

## Ədəbiyyat

1. Абасов М.Т., Джалалов Г.И., Ибрагимов Т.М., Мамедов А.М., Мамиев В.С. Гидрогазодинамика глубокозалегающих деформируемых коллекторов месторождений нефти и газа. Баку:Nafta-press, 2012, 530 с.

2. Абасов М.Т., Джалалов Г.И., Фейзуллаев Х.А. Идентификация параметров гидродинамической модели газоконденсатной залежи // Изв. НАН Азерб., серия Наук о Земле, 2008, №2, с.78-90

3. Абасов М.Т., Оруджалиев Ф.Г. Газогидродинамика и разработка газоконденсатных месторождений. М.: Недра, 1989, 262 с.

4. Васильев Ф.П. Методы решения экстремальных задач. М.: Наука, 1980, 520 с.

5. Джалалов Г.И., Фейзуллаев Б.Х. Моделирование и исследование нестационарных полей давления и температуры в деформируемом пласте при фильтрации газоконденсатной смеси // ВНИИОЭНГ, "Нефтепромысловое дело", 2017

6. Кулиев А.М., Казымов Б.З.Деформация горных пород и ее влияние на их фильтрационно-емкостные свойства и на процессы фильтрации и разработки месторождений нефти и газа. Баку: Элм, 2009, 88 с.

7. Молокович Ю.М. Неравновесная фильтрация и ее применение в нефтепромысловой практике. М.: ЦентрЛитНефтеГаз, 2006., 214 с.

8. Фейзуллаев Х.А. Совершенствование моделирования гидрогазодинамических основ разработки глубокозалегающих газоконденсатных месторождений: Дис. … док.тех.наук. НАНА ИГ, 2011, 303 с.

9. Jalalov G.I., Kuliyev G.F., Feyzullayev Kh.A., Damirov A.A. Parametrical identification of the filtration models of gas with condensed mixture // An international Journal Applied and computational mathematics, 2008, v.7, № 2, pp.214- 222

## DETERMINATION OF PARAMETERS OF DEFORMABLE LAYER AT GAS-CONDENSATE MIXTURE FILTRATION

**Kh.A.Feyzullayev, A.A.Damirov, B.Z.Kazymov**

### SUMMARY

The solution of the set identification task for adequate determination of the porosity and permeability of deformable layer at gas-condensate mixture filtration is proposed in this article.

## ОПРЕДЕЛЕНИЕ ПАРАМЕТРОВ ДЕФОРМИРУЕМОГО ПЛАСТА ПРИ ФИЛЬТРАЦИИ ГАЗОКОНДЕНСАТНОЙ СМЕСИ

**Х.А.Фейзуллаев, А.А.Дамиров, Б.З.Казымов**

### РЕЗЮМЕ

В статье предлагается решение поставленной идентификационной задачи для адекватного определения пористости и проницаемости деформируемого пласта при фильтрации газоконденсатной смеси.

# PROQRAMLAŞDIRMA BÖLMƏSİ

# SECTION OF PROGRAMMING

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# FORECASTING TECHNOLOGY USING PROPHET API

**R.Kh.Zulfugarova**
Azerbaijan State Oil and Industrial University
Baku AZ1010, 20 Azadlig Avenue
email: zulfugarova.rena@yandex.ru

***Açar sözlər:*** proqnozlaşdırma, vizual proqramlaşdırma, Prophet API funksiyalarının kitabxanası, Python proqramlaşdırma dili

***Key words:*** forecasting, visual programming, library of Prophet API functions, programming language Python

***Ключевые слова:*** прогнозирование, визуальное программирование, библиотека функций Prophet API, язык программирования Python

It is known that with the development of the computer technology market there arise various problems with forecast of various indicators. These can be the forecast of volume of sales, the forecast of demand and supply, or the forecast of various technical characteristics and computer components.

In this work, we estimate the prospects for the development of personal computer processors. We will focuse on processor frequency which is one of CPU parameters (Fig.1). We first explore different microprocessors, then analyze and compare the performance of microprocessors, and finally, create system for evaluation of development prospects of modern PC processors.

| | A | B | C | D | E | F | G | H |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | DESKTOP CPUS WITH THE BEST OVERALL PERFORMANCE | | | | | | | |
| 2 | Processor Name | Release Date | Processor Base Frequency | # of Cores | Cache L2 | Cache L3 | Manufacture process | Score (Out of 10) |
| 3 | Intel Pentium III 1BGHz | 13.03.2000 | 1 GHz | 1 | 0.25 MB | N/A | 180 nm | 3,4 |
| 4 | AMD Athlon XP 2700+ | 16.09.2002 | 2.17 GHz | 1 | 0.5 MB | N/A | 130 nm | 4 |
| 5 | AMD Athlon 3200+ | 04.09.2003 | 2 GHz | 1 | 1 MB | N/A | 130 nm | 4,1 |
| 6 | Intel Pentium 4 550 | 01.02.2004 | 3.4 GHz | 1 | 1 MB | N/A | 90 nm | 4,3 |
| 7 | Intel Pentium 4 670 | 06.09.2005 | 3.8 GHz | 1 | 2 MB | N/A | 90 nm | 4,3 |
| 8 | Intel Core2 X6800 | 13.06.2006 | 2.93 GHz | 2 | 4 MB | N/A | 65 nm | 4,9 |
| 9 | Intel Core2 QX9650 | 29.11.2007 | 3 GHz | 4 | 12 MB | N/A | 45 nm | 4,6 |
| 10 | Intel Core2 QX9775 | 14.02.2008 | 3.2 GHz | 4 | 12 MB | N/A | 45 nm | 4,9 |
| 11 | Intel Core i7 975 | 26.06.2009 | 3.33 GHz | 4 | 1 MB | 8 MB | 45 nm | 4,9 |
| 12 | Intel Core i7 980X | 15.03.2010 | 3.33 GHz | 6 | 2 MB | 12 MB | 32 nm | 5,2 |
| 13 | Intel Core i7 3960X | 17.11.2011 | 3.3 GHz | 6 | 2 MB | 15 MB | 32 nm | 6,2 |
| 14 | Intel Core i7 3970X | 25.11.2012 | 3.5 GHz | 6 | 2 MB | 15 MB | 32 nm | 5,8 |
| 15 | Intel Core i7 4770R | 16.04.2013 | 3.2 GHz | 4 | 1 MB | 6 MB | 22 nm | 10 |
| 16 | Intel Core i5 4690T | 24.02.2014 | 2.5 GHz | 4 | 1 MB | 6 MB | 22 nm | 9,7 |
| 17 | Intel Core i3 4170 | 19.01.2015 | 3.7 GHz | 2 | 2 MB | 15 MB | 22 nm | 8,5 |

Figure 1. Data collection

## Necessary tools and their analysis

To solve the problem, we suggest a prediction technology based on Python programming language 3 using the Prophet API library.

For collection of input data, we use the website www.cpuboss.com. Here we can find various CPU parameters (in our case we need frequency). Prophet library in fact contains additive regression model, which in turn, contains the following components:

$$y\ (t) = g\ (t) + s\ (t) + h\ (t) + \varepsilon t,$$

where

g(t) is a trend piecewise linear or logistic function,
s(t) are seasonal components,
h(t) is a stochastic component, and
εt is an error.

To create a system of development frequency of modern PC processors, we open new document in Python 3 from dropdown menu and select the list of libraries (Fig.2).

```
In [ ]: %matplotlib inline
        import pandas as pd
        from fbprophet import Prophet
        import matplotlib.pyplot as plt
```

Figure 2. Library list

Using this package, we can create pivot tables and groups. Then we upload the real data, namely, the CSV file. In our case, we have one CSV file, which is based on the real data: frequency.csv. (Fig. 3). We will use these data for forecasting process:

```
jupyter frequency.csv ✔ 2 minutes ago
File Edit View Language

Release_Date,Base_Frequency
2000-03,1
2002-09,2.17
2003-09,2
2004-02,3.4
2005-09,3.8
2006-06,2.93
2007-11,3
2008-02,3.2
2009-06,3.33
2010-03,3.33
2011-11,3.3
2012-11,3.5
2013-04,3.2
2014-02,3.2
2015-01,2.5
2016-04,3.7
```

Figure 3. Frequency.csv file

Based on the Prophet requirements, Data Frame (input data) should contain columns with information about date and parameter that are to be predicted (Fig.4):

```
In [25]: df['Release_Date'] = pd.DatetimeIndex(df['Release_Date'])
         df.dtypes

Out[25]: Release_Date      datetime64[ns]
         Base_Frequency           float64
         dtype: object
```

Figure 4. Setting datetime  and dtype for Release_Date column

## Prophet API implementation

Now we can construct an object: Prophet. Prophet allows setting some arguments. Then we set the uncertainty interval range via interval_width and call the pattern matching method for the created object (Fig.5).

```
In [28]: my_model = Prophet(interval_width=0.95)
         my_model.fit(df)
```

Figure 5. Construct the object Prophet and call the method

Our next step is to get the forecast base on Prophet API with DataFrame. Then we set include_history = 'TRUE', which allows us to involve historical data as well. Here we predict values for the next 10 years. Then DataFrame with forecasted values will be used as input data of forecast method (Fig.6).

```
In [40]: future_dates = my_model.make_future_dataframe(periods=3652, include_history = 'TRUE')
         future_dates.tail()
         forecast = my_model.predict(future_dates)
         forecast[['ds', 'yhat', 'yhat_lower', 'yhat_upper']].tail()

Out[40]:
```

| | ds | yhat | yhat_lower | yhat_upper |
|---|---|---|---|---|
| 3663 | 2026-03-28 | 5.317561 | 4.369655 | 6.266714 |
| 3664 | 2026-03-29 | 5.333185 | 4.441559 | 6.290874 |
| 3665 | 2026-03-30 | 5.351909 | 4.413413 | 6.285029 |
| 3666 | 2026-03-31 | 5.373162 | 4.470868 | 6.283372 |
| 3667 | 2026-04-01 | 5.396311 | 4.447565 | 6.258671 |

Figure 6. Predicted values

Main columns:

- ds: time label of forecasted value
- yhat: forecasted value of metrics
- yhat_lower: bottom borderline of predict
- yhat_upper: top borderline of predict.

Prophet API allows a very comfy function for data visualization of forecasted values (Fig.7). Figure 7 shows yearly volume of base frequency which increases linearly over the time.

## Conclusion

This article proposes a prediction algorithm based on visual programming with the use of Prophet API library. The use of this technique allows to modernize the statistical methods of forecasting and to obtain a more accurate forecast.




Figure 7. Visualized forecasted data for Base Frequency parameter

**References**

**1.** Microprocessors: With Applications in Process Control. 272 pages Publisher: McGraw Hill Education India Pvt Ltd (1 January 1980), ISBN-10: 0074515101 ISBN-13: 978-007451510.

**2.** Microcomputers And Microprocessors: The 8080, 8085 and Z-80 Programming, Interfacing and Troubleshooting 2nd Edition by John E. Uffenbeck (Author).

**3.** https://docs.python.org/3/

## PROPHET API ƏSASINDA PROQNOZLAŞDIRMA TEXNOLOGİYALARI

**R.X.Zülfüqarova**

## XÜLASƏ

Məqalədə Prophet API kitabxanasından istifadə edərək, əyani proqramlaşdırma əsasında bir proqnozlaşdırma alqoritmi təklif olunur. Bu texnikanın istifadəsi bizə proqnozlaşdırmanın statistik üsullarını modernləşdirməyə və daha dəqiq proqnoz əldə

etməyə imkan verir.



**ТЕХНОЛОГИЯ ПРОГНОЗИРОВАНИЯ НА ОСНОВЕ PROPHET API**

**Р.Х.Зульфугарова**

**РЕЗЮМЕ**

В статье предлагается алгоритм прогнозирования на основе визуального программирования с использованием библиотеки Prophet API. Использование этой технологии позволяет модернизировать статистические методы прогнозирования и получить более точный прогноз.

# T E X N İ K A   E L M L Ə R İ
# B Ö L M Ə S İ

# S E C T I O N   O F
# T E C H N I C A L   S C I E N C E S

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# MULTİFAZALI QAZ KƏMƏRLƏRİNDƏ HİDRODİNAMİK KORROZİYA PROBLEMLƏRİ VƏ ONLARIN HƏLLİ YOLLARI

**E.X.İskəndərov, Q.Q.İsmayılov, F.B.İsmayılova**
Azərbaycan Dövlət Neft və Sənaye Universiteti
Bakı, Azadlıq prospekti 20
e-mail: e.iskenderov62@mail.ru

***Açar sözlər:*** qaz kəməri, qazın nəqli, korroziya, eroziya, mexaniki qarışıq, fraksiya tərkibi, sürtünmə gücü, korroziya sürəti, hidrodinamik rejim
***Keywords:*** gas pipeline, gas transport, corrosion, erosion, mechanical mixture, fractional composition, friction power, corrosion speed, hydrodynamic mode
***Ключевые слова:*** газопровод, транспорт газа, коррозия, эрозия, механическая смесь, фракционный состав, мощность трения, скорость коррозии, гидродинамический режим

Karbohidrogen qazların çıxarılması, yığılması, hazırlanması və nəqli məhsulun laydan yer səthinə qaldırılması, separasiya məntəqələrinə yönləndirilməsi, təmizlənməsi və mədəndaxili nəql məsələləri ilə bağlı prosesləri özündə cəmləşdirən təbii və səmt qazları, lay suyu və mexaniki hissəciklərdən ibarət olan multifazalı qarışıqların hərəkətinə əsaslanır. Qazların multifazalılığı ilə bağlı yaranan mədən problemlərinə onların yığılması, hazırlanması və nəqli zamanı ayrı-ayrı qurğuların, texnoloji boru kəmərlərinin sıradan çıxması, qiymətli xammal itkisi, ətraf mühitin çirklənməsi və baş vermiş qəzaların nəticələrini aradan qaldırmaq üçün əlavə maliyyə resurslarının sərfi kimi halları daxil etmək olar. Təhlil göstərir ki, multifazalı qazları nəql edən boru kəmərlərinin dağılmasının böyük əksəriyyəti eroziya və ya eroziya-korroziya xarakterli dağılmalardır. Belə ki, kəmərin dağılması onun aşağı səthi boyu baş verir və qısa zaman ərzində korroziya-eroziya prosesləri borunun divarını dağıdan yarıq əmələ gətirir [1, 2].

Ümumiyyətlə, korroziya fəallığının qiymətləndirilməsi üzrə aparılan tədqiqatların nəticələrinə görə əgər qazın tərkibində hidrogen-sulfid qazı yoxdursa, o aşağı korroziya fəallığı olan mühit hesab edilir. Belə ki, bu zaman polad borular üçün korroziya sürəti çox da böyük olmur və 0,1 mm/il təşkil edir. Yüksək minerallaşma dərəcəsinə malik olan lay suları belə statik şəraitdə orta korroziya fəallığına malik olur. Adətən belə mühitdə polad konstruksiyaların korroziyaya uğrama sürəti 0,3 mm/il-dən çox olmur. Nisbətən böyük korroziya sürəti hazırlıq mərhələsini tam keçməyən, kondensləşən qazların nəqlini həyata keçirən boru kəmərlərində müşahidə olunur. Belə ki, bu zaman korroziya sürəti 3-5 mm/il-ə çatır və təsadüfi deyil ki, həmin kəmərlər 1-2 il ərzində sıradan çıxa bilər. Bu proses qazın tərkibində mexaniki qarışıqlar olduqda daha da sürətlənir.

Mədən təcrübəsi onu da təsdiqləyir ki, qarışığın böyük sürətlərində polad boru kəmərləri korroziyaya qarşı daha dayanıqlı olur. Mövcud faktlara əsasən demək olar ki, korroziya sürəti ilə qarışığın boru xətlərində hərəkət rejimləri arasında korrelyasiya əlaqəsi xeyli güclüdür.

Aktiv dağılmalar daha çox qaz kəmərlərinin trasının qalxan hissələrinin başlanğıcında baş verir. Bu hissələrin daha çox eroziyaya məruz qalması onunla bağlıdır ki, məhz bu hissələrdə maye fazanın (su, kondensat), bərk mexaniki hissəciklərin toplanması və on-

ların qarışığın axını boyu dövrü olaraq aşağı-yuxarı yerdəyişməsi baş verir. Ümumiyyətlə, neft-qaz yığımı şəbəkəsinin və həmin şəbəkəyə daxil olan ayrı-ayrı boru xətlərinin dağılmasının statistikası ətraf mühitə neft dağılmaları və təmir-izolyasiya işlərinin həcminin əhəmiyyətli dərəcədə çox olduğunu göstərir. Ən başlıca rolu oynayan amil isə bu cür axınlar üçün hidrodinamik rejimin necə dəyişməsidir. Boru kəmərlərində eroziyalı (yarıq) korroziyaların baş verməsinin digər əsas səbəblərindən ümumi korroziya fəallığını və nəql olunan qazların təmizlənməməsini göstərmək olar.

Çox da aktiv olmayan korroziya mühitində müəyyən uzunluqda yarıqların, özü də məhz boru xətlərinin alt hissəsində yaranmasının tam izahı hələlik mövcud deyil. Ümumiyyətlə, dinamik korroziya problemləri geniş tədqiq olunmayıb və istismarda olan mədən texnoloji boruların alt hissələrində müşahidə olunan lokal korroziya dağılmaları bir çox hallarda müəmmalı görünür.

Boru kəmərlərinin aşağı hissəsində baş verən korroziya-eroziya proseslərinin qarşısının alınması probleminin həlli geniş tədqiqatlar tələb edir. İlk növbədə daxili amillər hesabına baş verən bu proseslər multifazalı axınların, o cümlədən tərkibində mexaniki qarışıqlar olan qaz axınlarınınstrukturu və hidravlik xüsusiyyətlərinin nəzərə alınmasını tələb edir. Hər şeydən öncə, yataqların abadlaşdırılması mərhələsində (və ya onların istismarı prosesində) qaz yığım-nəql xətlərinin kiçildilmiş diametrinin hesablanmış qiymətləri nəzərə alınmalıdır ki, borularda multifazalı qarışıqların hərəkət sürətlərinin optimal səviyyəsi təmin edilə bilsin.

Boru kəmərində hərəkət zamanı mexaniki hissəcik üçün daxili səthdə sürtünmə qüvvəsi aşağıdakı asılılığa əsasən müəyyən edilir:

$$F = (\rho_{m.h.} - \rho_q)\, g\, \varphi\pi\, d^3/6 \qquad (1)$$

Burada, $d$ - mexaniki hissəciyin diametri;

$\rho_{m.h.}$ və $\rho_q$ - uyğun olaraq mexaniki hissəciyin və qazın sıxlığı;

$\varphi$ - hissəciyin metalla sürtünmə əmsalıdır.

Mexaniki hissəciyin yerdəyişmə sürətini kəmərin en kəsiyi boyu sürətin aşağıdakı paylanma qanunundan istifadə edərək müəyyənləşdirmək olar:

$$\upsilon = u\left[1 - \left(\frac{2r}{D}\right)^2\right] \qquad (2)$$

Burada, $u$ - qaz axınınınorta sürəti kimi qəbul edilə bilər.

$r$- axının oxu ilə mexaniki hissəciyin oxu arasındakı məsafədir (Şəkil 1).




Şəkil 1. Mexaniki hissəciyin qaz axınında sürəti

Nəzərə alsaq ki, $r = \frac{D-d}{2}$ , alarıq:

$$\upsilon = \frac{ud(2-\frac{d}{D})}{D} \qquad (3)$$

$F$ və $\upsilon$ -nin ifadələrinə əsasən sürtünmə qüvvəsinin gücü aşağıdakı kimi olacaqdır:

$$N = F\upsilon = 5{,}144(\rho_{m.h.} - \rho_q ¿\varphi u\ (2- d/D)\ d^4\ /D$$

Sonuncu ifadədən görünür ki, boru kəmərinə eroziya təsirinin gücü daha çox mexaniki hissəciklərin diametrindən asılıdır.

Aşağıda multifazalı qarışıqların dinamikası nəzərə alınmaqla Azərbaycan yataqlarının timsalında neft-mədən texnoloji qaz boru kəmərlərinin korroziyası proseslərinə baxılmış və təhlil edilmişdir.

Laylardan daxil olan mexaniki qarışıqların əsasən qumlardan ibarət olduğunu nəzərə alsaq və ayrı-ayrı fraksiyaların orta ölçüləri və onların borulara olan təsirinə görə nisbi paylanmasını şərti olaraq cədvəl 1-də göstərildiyi kimi qəbul etsək boru kəmərinə olan eroziya təsirinin gücünü (5) ifadəsinə əsasən hesablamaq olar. Hesablamalar aşağıdakı ilkin məlumatlara əsasən aparılmışdır:

D = 200mm = 0,2 m;
$\rho_{m.h.}$ = 1500 kq/m$^3$;
$\rho_q$ = 3 kq/m$^3$;
$\upsilon$= 5; 10; 15; 20 m/s.

Hesablamaların nəticələri Cədvəl 1-də və Şəkil 2-də verilmişdir. Cədvəl və şəkildən göründüyü kimi, demək olar ki, 100% sürtünmə gücünün payı əsasən ölçüsü d ¿ 0,5 mm olan fraksiyaların - mexaniki hissəciklərin payına düşür. Maraqlısı odur ki, eroziya effektinin böyük əksəriyyətini (95%) ən böyük diametrli (1-2 mm) fraksiyalar yaradır. Digər mühüm nəticə ondan ibarətdir ki, 0,1-0,3 mm ölçülü fraksiyaların mexaniki qarışıqların ümumi həcminin yarıdan çoxunu (56%) təşkil etməsinə baxmayaraq onların ümumi sürtünmə gücündə payı yox dərəcəsindədir (Cədvəl 1 və Şəkil 2). Deməli, korroziya-eroziya sürəti mexaniki hissəciklərin qaz kəmərinin daxili səthində sürtünmə gücü ilə mütənasib olaraq artır və bu artım mexaniki hissəciklərin miqdarından çox onların ölçüsündən asılıdır.

Göründüyü kimi, qaz kəmərini bərk mexaniki hissəciklərin təsirindən (eroziyadan) qorumaq məqsədilə həmin hissəciklərin borunun alt divarından qoparaq axının nüvəsinə düşməsi və orada hərəkət etməsi vacibdir. Bunun üçün axında statik təzyiq qradiyenti (*dP/dr*) mexaniki hissəciyin və qazın xüsusi çəkilərinin təzyiqindən çox olmalıdır.

$$dP/dr\ (¿¿\rho_{m.h.} - \rho_q)\ g \qquad (4)$$

**Cədvəl 1**

Mədən qaz-yığım xətlərində axının müxtəlf sürətlərində mexaniki hissəciklərdən yaranan sürtünmə gücünün hissəciklərin ölçüsündən asılılığı

| Mexaniki hissəciklərin orta diametri, mm | Həcmdə hissə payı | Sürtünmənin gücü (müxtəlif axın sürətlərində), *N*, $10^{-11}$Vt | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | 5,0 m/san | | 10,0 m/san | | 15,0 m/san | | 20,0 m/san | |
| | | güc | pay nisbəti | güc | pay nisbəti | güc | pay nisbəti | güc | pay nisbəti |
| 2,00 | 0,01 | 294100,00 | 0,72 | 588141,00 | 0,72 | 882120,00 | 0,72 | 1176280,00 | 0,72 |
| 1,50 | 0,02 | 93160,00 | 0,23 | 186325,00 | 0,23 | 279488,00 | 0,23 | 372651,00 | 0,23 |
| 1,00 | 0,03 | 18430,00 | 0,05 | 36851,20 | 0,05 | 55276,80 | 0,05 | 73702,40 | 0,05 |
| 0,50 | 0,05 | 1153,00 | 0,00 | 2306,09 | 0,00 | 3459,13 | 0,00 | 4612,17 | 0,00 |
| 0,30 | 0,25 | 149,50 | 0,00 | 299,01 | 0,00 | 448,52 | 0,00 | 598,04 | 0,00 |
| 0,20 | 0,16 | 29,54 | 0,00 | 59,08 | 0,00 | 88,62 | 0,00 | 118,16 | 0,00 |
| 0,10 | 0,15 | 1,85 | 0,00 | 3,69 | 0,00 | 5,54 | 0,00 | 7,39 | 0,00 |
| 0,08 | 0,05 | 0,76 | 0,00 | 1,51 | 0,00 | 2,26 | 0,00 | 3,03 | 0,00 |
| 0,06 | 0,03 | 0,24 | 0,00 | 0,48 | 0,00 | 0,72 | 0,00 | 0,96 | 0,00 |
| 0,04 | 0,06 | 0,05 | 0,00 | 0,09 | 0,00 | 0,14 | 0,00 | 0,19 | 0,00 |
| 0,02 | 0,08 | 0,00 | 0,00 | 0,01 | 0,00 | 0,01 | 0,00 | 0,01 | 0,00 |
| 0,01 | 0,11 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 | 0,00 |
| | | | 1,00 | | 1,00 | | 1,00 | | 1,00 |




Şəkil 2.Mədən qaz-yığım xətlərində axının müxtəlif sürətlərində mexaniki hissəciklərdən yaranan sürtünmə gücünün hissəciklərin ölçüsündən asılılığı

Yuxarıdakı hesablamalardangöründüyü kimi, mexaniki hissəciklərin diametrinin *d* ¿ 0,5 mm qiymətlərində eroziya təsirinin nəzərə alınmaması mümkün olduğundan axının sürətinin hansı qiymətində (4) şərtinin ödənilməsini müəyyən etmək olar. Belə ki, qəbul etmək olar ki, $\alpha$ = 0,995 qiymətində boru kəmərinin aşağı səthində qalan qatın qalınlığı 0,005*D* təşkil edəcəkdir.Yerdə qalan mexaniki hissəciklər qaz axını ilə hərəkət edəcəkdir. Beləliklə, dibdə olan hərəkətsiz qat boru divarının eroziyaya uğramasına səbəb olmayacaqdır.

Qeyd olunanları nəzərə alaraq boru kəmərinin eroziya - korroziyaya uğraması üçün axın sürətinin qiymətini aşağıdakı ifadəyə əsasən müəyyən etmək olar:

$$\upsilon = A\sqrt{\left(1-\frac{\rho_q}{\rho_{m.h.}}\right)D} \qquad (5)$$

Burada, A = 7,86 əmsaldır, $\frac{\sqrt{m}}{s}$ .

Sonuncu ifadədən göründüyü kimi, hissəciklərin qaz axını ilə daşınma sürəti fazaların sıxlıqları nisbəti və kəmərin diametrindən asılı olaraq müxtəlif olacaqdır. Alınmış ifadəyə əsasən, müxtəlif diametrli qaz kəmərləri üçün $\alpha$ = 0,995 qiymətində mexaniki hissəciklərin hansı axın sürətlərində aparılması müəyyən edilmişdir. Hesablamalar $\rho_q / \rho_{m.h.}$ parametrinin müxtəlif qiymətləri üçün aparılmış və alınan nəticələr Cədvəl 2-də verilmişdir.

**Cədvəl 2**

Müxtəlif diametrli texnoloji qaz kəmərləri üçün mexaniki hissəciklərin axında daşınma sürəti ($d$ = 1,0 mm)

| Qaz kəmərinin diametri, $D$, m | Hesablanmış sürətlər, $\upsilon$, m/s |
|---|---|
| 0,10 | 2,48 |
| 0,15 | 3,04 |
| 0,20 | 3,51 |
| 0,25 | 3,93 |
| 0,30 | 4,30 |
| 0,35 | 4,65 |
| 0,40 | 4,97 |
| 0,50 | 5,56 |

Qaz kəmərlərində mexaniki hissəciklərin qaz axını ilə daşınma sürətinin hesablanmış qiymətlərinin kəmərin diametrindən asılı olaraq dəyişməsini əks etdirən qrafik Şəkil 3-də göstərilmişdir. Şəkildən göründüyü kimi, boru kəmərinin diametri artdıqca ölçüləri 1,0 mm-dən böyük olan mexaniki hissəciklərin qaz axını ilə daşınması üçün lazım olan sürətin qiyməti də çoxalır.




Şəkil 3. Qaz kəmərində mexaniki hissəciklərin qaz axını ilə daşınma sürətinin kəmərin diametrindən asılılığı.

Beləliklə, multifazali qaz kəmərlərində hidrodinamik korroziya problemlərinin təhlilinə əsasən aşağıdakı nəticələri qeyd etmək olar:

1.Təbii qazların yığılması və nəqli zamanı boru xətlərində lokal şəkildə eroziya-korroziya hadisələrindən baş verən dağılmaların qarşısını almaq üçün ən çox eroziyaya səbəb olan mexaniki hissəciklərin (diametri 1,0 mm-dən böyük olan fraksiyaların) boru

kəmərlərinin başlanğıcında süzgəcdən keçirilərək yığılması korroziya sürətinin xeyli azalmasına səbəb olar.

2. Qaz kəmərlərinin dağılmadan mühafizə üsullarından biri elə hidrodinamik rejimin seçilməsidir ki, bu zaman qazın hərəkət sürəti mexaniki hissəciklərin qaz axını ilə daşınmasını təmin etsin.

### Ədəbiyyat

1. Сулейманов А.Б., Кулиев Р.П. и др. Эксплуатация морских нефтегазовых месторождений. Москва, Недра, 1986, 285 с.

2. Лутошкин Г.С. Сбор и подготовка нефти, газа и воды. Москва, Недра, 1977, 192 с.

3.Манжосов В.К., Новикова О.Д., Новиков А.А. Теоретическая механика. Часть II. Динамика. Аналитическая механика. Ульян.Гос.Техн.Ун-т. Ульяновск,Ул. ГТУ, 201, 194 с.

4. Пустовит Б.В. Механика движения жидкостей в трубах. Л., Недра, 1980, 160 с.

## PROBLEMS OF HYDRODYNAMIC CORROSION IN MULTIPHASE GAS PIPELINES AND THE WAYS TO SOLVE THEM

**E.K.Iskandarov, G.G.Ismayilov, F.B.Ismayilova**

### SUMMARY

This article analyzes the reasons of corrosive and erosive processes in multiphase gas pipelines of hydrocarbon collection and transportation system. The influence of fractional composition of mechanical impurities contained in oil on the erosion-corrosion processes in the infield gas pipelines is studied with the consideration of the hydrodynamics of multiphase flows. Specific ways to reduce the rate of corrosion-erosion processes in field gas pipelines are suggested in the presence of mechanical impurities.

## ПРОБЛЕМЫ ГИДРОДИНАМИЧЕСКОЙ КОРРОЗИИ В МУЛЬТИФАЗНЫХ ГАЗОПРОВОДАХ И ПУТИ ИХ РЕШЕНИЯ

**Э.Х.Искендеров, Г.Г.Исмайылов, Ф.Б.Исмайылова**

### РЕЗЮМЕ

В статье проанализированы причины коррозионных и эрозионных процессов в мультифазных газопроводах системы сбора и транспорта углеводородов. Исследовано влияние фракционного состава содержащихся в нефти механических примесей на эрозионно-коррозионные процессы в внутрипромысловых газопроводах с учетом гидродинамики мультифазных потоков. Предложены конкретные возможные варианты снижения скорости коррозиионно-эррозионных процессов в промысловых газопроводах при наличии механических примесей.

# İ Q T İ S A D İ Y Y A T

# B Ö L M Ə S İ

# S E C T I O N O F

# E C O N O M I C S

**2017 - № 47**

# RUSİYA REGİONLARINDA DÖVLƏT-ÖZƏL TƏRƏFDAŞLIĞININ MALİYYƏLƏŞDİRİLMƏSİ MEXANİZMLƏRİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**C.K.Əliyev**
G.V.Plexanov adına Rusiya İqtisad Universiteti
117997, Rusiya Federasiyası, Moskva şəhəri, 36-cı Stremyannıy dalan
e-mail: dzhamil616@gmail.com

***Açar sözlər:*** dövlət-özəl tərəfdaşlığı (DÖT), regionlar, regional iqtisadiyyat, regional büdcələr, investisiyalar, dövlət-özəl tərəfdaşlığının maliyyə təminatı

***Key words:*** public-private partnership (PPP), regions, regional economy, regional budgets, investments, financing of PPP

***Ключевые слова:*** государственно-частное партнерство (ГЧП), регионы, региональная экономика, региональные бюджеты, инвестиции, финансирование ГЧП

## Giriş

Rusiyada dövlət-özəl tərəfdaşlığı haqqında 224-FQ saylı federal qanunun qəbul edilməsi iqtisadi münasibətlərin son vaxtlara qədər federal səviyyədə tərəfdaşlığın yalnız bir neçə növü – konsessiyalar, məhsul bölgüsü sazişləri və xüsusi iqtisadi zonalar barəsində nizamlanan və indi fövqəladə tələbat duyulan bu formasının normativ-hüquqi bazasını əhəmiyyətli dərəcədə möhkəmləndirdi (4). Hazırda Rusiya Federasiyasının subyektləri səviyyəsində qəbul edilmiş dövlət-özəl tərəfdaşlığı haqqında 70-dən çox qanun qüvvədə olsa da, sistemli federal qanunun qəbul edilməsinə qədər bu regional hüquqi aktların regionlarda real təsərrüfatçılıq və idarəetmə təcrübəsinə təsiri olduqca məhdud idi.

Buna görə də federal qanunun qəbul edilməsi ilə bağlı yenilik nəinki bütövlükdə ölkə üzrə dövlət-özəl tərəfdaşlığı münasibətlərinin inkişafı üçün daha əlverişli şərait yaradır, həm də dövlət-özəl tərəfdaşlığı təcrübəsinin Rusiya iqtisadiyyatının subfederal, yəni regional və bələdiyyə səviyyələrində daha fəal tətbiqinə ümid etməyə imkan verir. Bu çox vacibdir, çünki hazırda regional həlqənin ardıcıl möhkəmləndirilməsi, Federasiya subyektlərinin təşəbbüsünün və məsuliyyətinin gücləndirilməsi, ərazilərin inkişaf və “özünü inkişaf etdirmə” mexanizmlərinin və stimullarının formalaşması Rusiya iqtisadiyyatının iqtisadi durğunluq və böhran zolağını dəf etməsinin əsas şərtlərindən biri kimi özünü təsdiqləyir.

## Dövlət-özəl tərəfdaşlığı regionlarda: yaxşı perspektivlər və ciddi maneələr

Hazırda RF ərazisində artıq 1500-dən çox dövlət-özəl tərəfdaşlığı layihəsi işlənib hazırlanmanın və realizənin müxtəlif mərhələsindədir. Təkcə 2014-2015-ci illər ərzində dövlət-özəl tərəfdaşlığı layihələrinin ümumi sayı 10 dəfədən çox artmışdır.

Bu, ilk növbədə, yalnız dövlət-özəl tərəfdaşlığı haqqında qanunvericiliyin inkişafı ilə deyil, həm də federal, regional və bələdiyyə səviyyəli publik tərəfdaşların infrastrukturun modernləşdirilməsi, idxalın əvəzlənməsi və ölkənin ixrac potensialının yüksəldilməsi vəzifələrini həll etməyə qadir olan müasir yüksək texnologiyalı istehsalın inkişafı üçün bu təsərrüfat mexanizminin tətbiqinə marağın artması ilə izah olunur.

«IPT Group» analitik agentliyinin məlumatına görə, 2016-cı ildə dövlət-özəl tərəfdaşlığı layihələrinə cəlb edilmiş özəl investisiyaların ümumi həcmi 2,33 trln. rubla çatmışdır (2, www...). 2017-ci ilin sonunda bu investisiyaların həcmi artıq 3,1 trln. rubla yaxınlaşacaq. «IPT Group» qiymətləndirməsinə görə, bu vəsait 1,8 min layihə arasında paylanacaq. Lakin artıq bir ildən sonra Rusiyada dövlət-özəl tərəfdaşlığı layihələrinin sayının 2,3 minə çatacağı gözlənilir. Hazırda layihələrin ümumi sayının 39,3%-i energetika sahəsinə, 37,5%-i kommunal sahəyə, 15,8%-i sosial sahəyə, 7,4%-i nəqliyyat sahəsinə aiddir. Lakin Rusiya iqtisadiyyatının innovativ modernləşdirilməsi mərhələsi yalnız dövlət-özəl tərəfdaşlığı layihələrinin sayının artmasını deyil, həm də onların real sektorun yüksək texnologiyalı sahələrində fəal tətbiqini tələb edir, bu da belə layihələrin investisiya payının xeyli artırılmasını nəzərdə tutur. Bu tələb xüsusilə subfederal (regional və yerli) səviyyədə irəli sürülən və reallaşdırılan dövlət-özəl tərəfdaşlığı layihələrinə aiddir, burada onlar, əsasən, ərazilərin infrastruktur kompleksində cəmləşir, konsessiyalar mexanizminə əsaslanır və çox zaman özəl tərəfdaşın böyük investisiya qoyuluşlarını nəzərdə tutmur. Məsələn, MFD regionlarında hazırda təxminən 300 dövlət-özəl tərəfdaşlığı layihəsi reallaşdırılır, onların 75%-ni mənzil-kommunal sahədə konsessiya sazişləri təşkil edir.

Dövlət-özəl tərəfdaşlığı təcrübəsinin Rusiyanın müxtəlif regionlarında yayılma dərəcəsinin fövqəladə diferensiasiyası da diqqəti cəlb edir. Belə ki, lider regionlarda konsessiyalar, məhsul bölgüsü sazişləri əsasında irimiqyaslı dövlət-özəl tərəfdaşlığı layihələri reallaşdırılır; federal və regional xüsusi iqtisadi zonalar, üstün inkişaf əraziləri, texnologiya parkları, sənaye parkları və s. yaradılır. Əksinə, çox zaman hətta Federasiya subyektinin müvafiq qanunu olduğu halda, reallaşdırılan dövlət-özəl tərəfdaşlığı layihələrinin sayının az olduğu böyük regionlar qrupu mövcuddur (dövlət-özəl tərəfdaşlığının inkişaf səviyyəsinə görə Rusiya regionlarının reytinqi) (8, www...).

Bu vəziyyətin səbəbləri sırasında qeyd etmək olar ki, dövlət-özəl tərəfdaşlığı münasibətlərinin inkişafı əvvəlki tək müxtəlif xarakterli maneələrlə qarşılaşır, bu maneələrin təbiəti həmin münasibətlərin realizəsinin regional səviyyəsi üçün də spesifikliyə malikdir. Bu spesifiklik ondan ibarətdir ki, belə maneələr yalnız ümumfederal xarakterli amillərlə deyil, həm də Federasiya subyektləri səviyyəsində layihələrin irəli sürülməsi və reallaşdırılmasına xas olan xüsusi hallarla müəyyən olunur. Belə maneələrin üç qrupunu fərqləndirmək mümkündür: siyasi-hüquqi, iqtisadi, informasiya-metodik, institusional və kadr maneələri.

Siyasi-hüquqi maneələrə, ilk növbədə, özəl investorların dövlətə inamsızlığı (onun dövlət-özəl tərəfdaşlığı müqaviləsi üzrə bütün öhdəliklərini, o cümlədən layihələrin (birgə) maliyyələşdirilməsi, torpaq sahələrinin ayrılması və s. üzrə öhdəliklərini tam və vaxtında yerinə yetirmək qabiliyyətinə inamsızlıq) aiddir. Belə maneələr sırasında habelə keyfiyyətsiz normativ-hüquqi tənzimləmə, o cümlədən dövlət-özəl tərəfdaşlığı, sənaye siyasəti və strateji planlaşdırma haqqında federal qanunların uzlaşmaması; o cümlədən torpaq-əmlak münasibətləri sahəsində idarəetmə səlahiyyətlərinin bəzi növlərinin Federasiya, onun subyektləri və yerli özünüidarə orqanları arasında fəqləndirilməsində qeyri-müəyyənliyin mövcudluğu; dövlət-özəl tərəfdaşlığı perspektivlərinə uzunmüddətli yanaşmanın olmaması, yəni dövlət-özəl tərəfdaşlığı təcrübəsinin regional strateji planlaşdırma sisteminə məntiqi surətdə daxil edilməməsi qeyd olunmalıdır. Dövlət-özəl tərəfdaşlığından istifadə perspektivləri Federasiya subyektlərinin sosial-iqtisadi inkişafına dair strateji sənədlərində, habelə onların investisiya strategiyalarında lazımi əksini tapmır. Buraya inves-

torların və mülkiyyətçilərin dövlət-özəl tərəfdaşlığı sazişlərində iştirakla əlaqədar yaranan mənafelərinin adekvat hüquqi (məhkəmə) müdafiəsinin olmaması da aid edilməlidir.

İqtisadi xarakterli maneələrə subfederal (regional və bələdiyyə) büdcələr sisteminin kəsirli olması və qeyri-sabitliyi; dövlət-özəl tərəfdaşlığı layihələrinin idxal komponentinin kəskin bahalaşmasına səbəb ola biləcək rublun məzənnəsinin qeyri-sabitliyi;hazırda xüsusilə subfederal səviyyədə dövlət-özəl tərəfdaşlığı layihələrinin birgə maliyyələşdirilməsində adi bank kreditlərinin iştirakını, praktik olaraq, heçə endirən "bahalı pul" vəziyyətinin qalması; iqtisadiyyatın real sektorunda istehsalın rentabelliyinin aşağı səviyyəsi və zərərlə işləyən müəssisələrin xüsusi çəkisinin yüksək olması aid edilə bilər.

İnformasiya-metodik maneələr sırasına zəruri məsrəflər və özəl tərəfdaş üçün gözlənilən fayda analitik şəkildə əsaslandırılmaqla subfederal (regional və bələdiyyə) səviyyədə reallaşdırılması potensial cəhətdən mümkün olan dövlət-özəl tərəfdaşlığı layihələri haqqında adekvat informasiyanın olmaması; dövlət-özəl tərəfdaşlığı layihələrinin hazırlanmasını, ekspert qiymətləndirilməsini və onların reallaşdırılmasının, o cümlədən yekun səmərəliliyinin sonrakı monitorinqini peşəkar səviyyədə həyata keçirməyə imkan verən metodik sənədlərin yetərli dairəsinin olmaması aiddir.

Nəhayət, biz institusional və kadr xarakterli maneələrə bir çox Federasiya subyektlərində regionda dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılmasını təklif etməyə, nəzərdən keçirməyə və onun monitorinqini həyata keçirməyə qadir ixtisaslaşdırılmış institutların olmamasını, yaxud formal şəkildə mövcud olmasını; müxtəlif iqtisadi fəaliyyət növləri üzrə belə layihələrlə iş təcrübəsinə malik səriştəli kadrların olmamasını aid edirik.

Bu maneələrin ardıcıl surətdə aradan qaldırılması dövlət-özəl tərəfdaşlığının regional səviyyədə təsərrüfatçılıq təcrübəsində tətbiqini fəallaşdıraraq, bu layihələrin investisiya-stimullaşdırma təsirinin güclənməsini təmin edəcəkdir. Gerçəklikdə bu, yalnız sabit maliyyələşdirmə mənbələrini və məqsədli stimullaşdırıcı alətləri ehtiva edən daha təkmil maliyyə mexanizmi tələb etmir. Bu mexanizmin uğurlu tərəfdaşlıq təcrübəsinin digər komponentləri, xüsusilə torpaq-əmlak münasibətləri, innovativ proseslərin stimullaşdırıl-
ması, dövlət-özəl tərəfdaşlığı layihələrinin informasiya və kadr təminatı ilə daha sıx uzlaşdırılması zərurətə çevrilir.

Xüsusilə regional səviyyədə dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılmasının maliyyə mexanizmlərinin təkmilləşdirilməsi üçün yalnız bu və ya digər dövlət-özəl tərəfdaşlığı layihəsi üçün "sahə"nin formalaşdığı ayrı-ayrı iqtisadi fəaliyyət sahələrinin və növlərinin spesifik şəraitinə uyğunluğun təmin edilməsi məqsədilə yalnız bu mexanizmlərin müxtəlifliyi vacib deyildir. Bu layihənin həm özəl, həm də publik tərəfdaş tərəfindən tam və vaxtında maliyyələşdirilməsini təmin edən mənbələrin mövcudluğu da vacibdir (3, s.64-66). Dünya təcrübəsi göstərir ki, bu, maliyyələşdirmə mənbələrinin şaxələndirilməsi, publik və özəl borclanmalar üçün əlverişli şəraitin təmin edilməsi, məqsədli ehtiyat fondların formalaşdırılması, habelə dövlət-özəl tərəfdaşlığı layihələrinin reallaşdırılması prosesində mümkün olan müxtəlif investisiya risklərinin sığortalanması mexanizmlərindən istifadə yolu ilə əldə olunur.Bu "fəaliyyət alqoritmi" müasir xarici təcrübədə aydın müşahidə olunur (7, s.20-29).

Dövlət-özəl tərəfdaşlığı münasibətlərinin bu və ya digər layihəsinin məqsədli maliyyələşdirilməsi ilə bağlı olan növləri arasında istifadə olunan maliyyə mexanizmlərinin

üç əsas növü fərqləndirilə bilər. Bu, layihələrin, ilk növbədə, investorlara məqsədli subsidiyalar şəklində birbaşa (birgə) maliyyələşdirilməsi, vergi güzəştləri və publik maliyyə sisteminə vəsaitin tam daxil olmaması hesabına digər üstünlüklər şəklində dolayı (birgə) maliyyələşdirmə (məsələn, investisiya vergi krediti, güzəştli amortizasiya, dövlət, yaxud bələdiyyə əmlakının güzəştli icarəsi) və dövlət və bələdiyyə təminatları sistemidir. Sonuncu halda söhbət birbaşa məsrəflərdən deyil, müvafiq büdcə vəsaitlərinin sonra bir növ həmin büdcələrin gəlir hissəsinə qaytarılan bir hissəsinin ehtiyat saxlanılmasından gedir.

Birbaşa (birgə) maliyyələşdirmə dövlət-özəl tərəfdaşlığı sazişi üzrə publik tərəfdaşın investisiya layihəsinin dəyərinin müəyyən hissəsinin maliyyələşdirilməsini, yaxud dövlət-özəl tərəfdaşlığı obyekti olan vahid əmlak kompleksinə daxil olan müəyyən obyektlərin tikintisinin maliyyələşdirilməsini öz üzərinə götürdüyü hallarda reallaşır. Maliyyə mexanizminin bu variantı federal inkişaf institutlarının, ilk növbədə, RF İnvestisiya Fondunun fəaliyyəti, habelə XİB tərəfindən birgə maliyyələşdirməsi həyata keçirilən layihələr üçün xarakterikdir. Bu zaman publik tərəfdaş tərəfindən birgə maliyyələşdirmə obyekti qismində yalnız konkret əmlak (maddi) aktivlərə investisiyalar deyil, həm də dövlət-özəl tərəfdaşlığı layihəsi üzrə bütün hazırlıq və layihə-axtarış işləri, habelə bu layihə çərçivəsində reallaşdırılması nəzərdə tutulan innovativ araşdırmaların həyata keçirilməsi çıxış edə bilər. Əsas vəsaitlərin alınmasına dair kiçik və orta sahibkarlıq subyektlərinə subsidiya verilməsi proqramları da analoji şəkildə reallaşdırılır.

Belə "paralel maliyyələşdirmə" mexanizmlərindən regional səviyyədə də fəal istifadə olunur.Misal kimi Kaluqada «Volkswagen» avtomobil konserninin zavodunun yaxınlığında sənaye "A-park"ı göstərilə bilər. Bu dövlət-özəl tərəfdaşlığı layihəsi həmin şirkət tərəfindən Kaluqa vilayət inkişaf kororasiyası və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə birgə reallaşdırılır. "A-park" Kaluqa vilayətində formalaşmış avtomobil klasteri üçün detal istehsalçılarına ünvanlanmışdır. Park «built-to-suit» sxemi üzrə reallaşdırılır, onun çərçivəsində istehsal obyektlərinin tikintisi xərcləri özəl investorun, bütün infrastruktur məsrəfləri isə dövlətin üzərinə düşür. Bu, dövlət-özəl tərəfdaşlığı layihələri çərçivəsində qarşılıqlı münasibətlərin ən geniş yayılmış modeli olub, tərəflərin dövlət-özəl tərəfdaşlığı sazişi üzrə öhdəliklərinin icrasını maksimim sadə və dəqiq təsbit etməyə imkan verir.

Dolayı (birgə) maliyyələşdirmə dövlət-özəl tərəfdaşlığı layihəsi çərçivəsində publik tərəfdaşın özəl tərəfdaşa vergi güzəştləri və digər güzəştlər (məsələn, Federasiya subyektinin büdcəsinə daxil olan vergilər şəklində; dövlət və bələdiyyə mülkiyyətində olan əsas vəsaitlərin və/ya torpaq sahələrinin icarəsi üzrə və s.) təqdim etdiyi hallarda reallaşır. Çətinlik bundan ibarətdir ki, vergi qanunvericiliyi ünvanlı (fərdiləşdirilmiş) vergi güzəştlərinin verilməsini qadağan edir. Belə güzəştlərin benefisiarı qismində yalnız vergi qanunvericiliyi ilə müəyyən olunmuş əlamətlərə malik və ya federal qanunlarla, yaxud Federasiya subyektlərinin qanunları ilə belə ərazinin statusuna görə rezidentlərinə vergi güzəştlərinin ünvanlandığı ərazilərin hüdudlarında fəaliyyət göstərən təsərrüfat subyektləri (o cümlədən investorlar) çıxış edə bilər. Belə dövlət dəstəyi mexanizmi dövlət-özəl tərəfdaşlığı layihələrinin konsessiya forması, habelə xüsusi iqtisadi zonalar (XİZ), üstün sosial-iqtisadi inkişaf əraziləri, sənaye parkları və s. kimi federal və regional səviyyəli inkişaf institutları üçün xarakterikdir.

Ayrı-ayrı hallarda, məsələn, federal XİZ, özəl tərəfdaşlara maliyyə dəstəyi müxtəlif büdcələr hesabına, həm birbaşa, həm də dolayı formada həyata keçirilir. Məsələn, möv-

cud məlumatlara görə, 2006-cı ildən etibarən 33 federal XİZ-ə 186 mlrd. rubl büdcə vəsaiti xərclənmişdir; bunun 122 mlrd. rublu federal büdcə tərəfindən, qalanı isə regional və yerli büdcə tərəfindən verilmişdir (1, www...). Bu zaman söhbət yalnız XİZ rezidentlərinə verilmiş vergi və gömrük güzəştləri hesabına bütün səviyyələrdən olan büdcələrin almadıqları gəlirlər şəklində rezident-investorların dolayı birgə maliyyələşdirilməsi nəzərə alınmadan birbaşa maliyyələşdirmədən gedir.

Bundan başqa, Rusiya regionlarının iqtisadiyyatında dövlət-özəl tərəfdaşlığının investisiya-stimullaşdırıcı rolu vurğulanmaqla, tərəfdaşlıq münasibətlərinin səmərəsi məhz dövlət-özəl tərəfdaşlığı layihələrinin investisiya prosesinə töhfəsi ilə müəyyən olunan yeni formalarına daha çox tələbat duyulur. Yalnız dövlət-özəl tərəfdaşlığı təcrübəsinin ümumi büdcə "yük"ünü azaltmayıb, həm də publik tərəfdaşın bu və ya digər dövlət-özəl tərəfdaşlığı layihəsinə daxil etdiyi iqtisadi ehtiyatların xərclənməsinə daha dəqiq və operativ nəzarət etməyə imkan verən dövlət-özəl tərəfdaşlığı növləri və onların arxasında duran maliyyə mexanizmlərinə də (büdcə vəsaiti və dövlət mülkiyyəti obyektləri) daha çox tələbat yaranır.

**Dövlət-özəl tərəfdaşlığının yeni növləri regionların iqtisadiyyatında investisiya prosesini hərəkətə gətirə bilər**

Hakimiyyətin və biznesin qarşılıqlı fəaliyyətinin artıq xarici ölkələrdə səmərəliliyini sübuta yetirmiş, lakin Rusiya üçün yeni olan belə investisiya yönümlü forması həyat tsikli müqavilələri (HTM) olmuşdur. HTM dövlət-özəl tərəfdaşlığının publik tərəfdaşın müsabiqə əsasında özəl tərəfdaşla obyektin fəaliyyətinin "həyat tsikli"nin bütün müddəti (bütün mərhələləri) üçün obyektin layihələndirilməsinə, tikintisinə və istismarına dair saziş bağladığı növü kimi müəyyən olua bilər.Bu zaman publik tərəfdaş özəl tərəfdaşın layihə üzrə xərclərinin ödənişini yalnız obyekt istismara verildikdən sonra və özəl tərəfdaşın bu obyekti, o cümlədən müəyyən növ məhsulun, xidmətin realizəsi şərtlərinə görə verilmiş funksional tələblərə uyğun saxlaması şərtilə bərabər hissələrlə həyata keçirir. Qeyd olunanlar HTM və onun maliyyə mexanizminin bu müqavilə növünü Rusiyada tətbiq edilən bütün qalan dövlət-özəl tərəfdaşlığı mexanizmlərindən fərqləndirən aşağıdakı əsas üstünlüklərini müəyyən etməyə imkan verir:

1) bu dövlət-özəl tərəfdaşlığı növü obyektin "həyat"ının və publik və özəl tərəfdaşın maliyyə əməkdaşlığının bütün mərhələlərini, layihələndirmə, tikinti, istismar kimi mərhələləri əhatə edir;

2) HTM üzrə özəl tərəfdaş müstəqil surətdə layihənin icrası üçün zəruri olan bütün layihə və texniki qərarları qəbul edir və bütün texniki riskləri, layihə qərarları risklərini və investisiya risklərini daşıyır;

3) əvvəlcədən layihəyə maliyyələşdirmənin cəlb edilməsi öz mülahizəsinə görə müxtəlif mənbələrdən ehtiyatları cəlb edən xüsusi layihə (maliyyə) şirkətinin şəxsində özəl tərəfdaş tərəfindən həyata keçirilir;

4) dövlət tərəfdaşı layihə üzrə ödənişləri yalnız obyektin istismarına başlandığı andan özəl tərəfdaşın müqavilə üzrə funksional tələbləri yerinə yetirməsinin keyfiyyətindən asılı olaraq illik (yaxud rüblük) "xidmət haqqı" kimi həyata keçirir; belə təcrübə özəl tərəfdaş tərəfindən dövlət-özəl tərəfdaşlığı sazişinin icrasına xüsusi nəzarət imkanları verir və büdcə vəsaitlərindən səmərəsiz istifadənin qarşısını alır. Lakin publik tə-

rəfdaş tərəfindən ödənişlərə bütün müqavilə dövründə təminat verilməlidir (məsələn, onlar sığortalanmalıdır).

Dövlət-özəl tərəfdaşlığının digər formaları qarşısında HTM-in əsas üstünlüyü özəl tərəfdaşın, mənfəət daxil olmaqla, layihənin reallaşdırılması çərçivəsində çəkilmiş məsrəflərə görə kompensasiya alması mexanizminin spesifikliyindən ibarətdir. Konsessiya zamanı özəl tərəf konsessiya sazişinin obyektindən xidmətlərin/məhsulların son istehlakçısından pul vəsaiti əldə etməyi nəzərdə tutursa, HTM-də, ümumi qaydaya görə, belə ödənişlər vəzifəsi müstəsna surətdə publik tərəfdaşın üzərinə düşür. Aydındır ki, birinci halda özəl tərəfin gəlirləri (qoyulmuş investisiyaların qayıtması və rentabelliyi) istehlakçılar tərəfindən konsessiya obyektinin xidmətlərinə/məhsullarına tələbdən asılıdır: tələb olmasa, maliyyə daxilolmaları da olmayacaq, deməli, konsessioner zərərə uğrayacaq. HTM halında bunun əksi baş verir: ödənişlər istehlakçıların tələbindən asılı olmayaraq publik tərəfdaşdan daxil olacaq, lakin bu şərtlə ki, özəl tərəfdaş müqavilə ilə nəzərdə tutulmuş öhdəliklərini lazımi şəkildə yerinə yetirsin. HTM mexanizminin bu xüsusiyyəti onu obyektin yaradılması və saxlanması xərclərinin tam şəkildə son istehlakçıya aid edilməsinin mümkün, yaxud məqsədəuyğun olmadığı avtomobil yollarının, mənzil-kommunal təsərrüfatı, nəqliyyat və sosial infrastruktur obyektlərinin tikintisi kimi sahələrdə dövlət-özəl tərəfdaşlığının səmərəli alətinə çevirir.

Belə ki, İngiltərədə ümumi istifadə yollarının təxminən 90%-i (o cümlədən məşhur La-Manş tuneli) məhz həyat tsikli müqavilələri üzrə tikilir və təmir olunur. Bu hallarda HTM dövlət və özəl sektor arasında münasibətləri düzgün qurmağa və sırf kommersiya baxımından apriori xərcini gec çıxaran və ya hətta zərərli olan böyük layihələrə investisiyaları cəlb etməyə kömək göstərir. Rusiyada hələ məsələn, yol-nəqliyyat infrastrukturunun inkişafı və saxlanması məqsədilə ölkənin nəqliyyat arteriyalarının tikintisi və istismarı zamanı HTM prinsipləri əsasında tərəfdaşlıqdan istifadə perspektivləri daha aşkardır. Belə ki, məsələn, "Rusiya avtomobil yolları" Dövlət Şirkəti federal avtomobil yollarının tikintisi və yenidən qurulması (məsələn, "Moskva-Sankt-Peterburq" avtomobil yolunun pullu sürətli sahəsinin (15-58-ci km-lər sahəsi) tikintisi, M1 "Belarus" federal avtomobil yolunun (33-456-cı km-lər) yenidən qurulması layihələri) üçün HTM-dən istifadə edir.

HTM-nin yüksək sürətli dəmir yollarının tikintisi və istismarı üçün, habelə lokomotiv təsərrüfatının modernləşdirilməsi və yüksək keyfiyyətinin qorunması məqsəilə tətbiqi perspektivli hesab olunur. Regional səviyyədə HTM təcrübəsindən bələdiyyə ictimai nəqliyyatının modernləşdirilməsi və lazımi vəziyyətdə saxlanması üçün, habelə istilik mərkəzlərinin, istilik şəbəkələrinin tikintisi və s. zamanı səmərəli istifadə oluna bilər. Məsələn, 2014-cü ilin martında Moskva metropoliteninin 108 qatarı üçün HTM modeli üzrə müqavilə bağlanmışdır. Satınalma predmeti qismində sonradan satın alınma və vaqonlar üzərində mülkiyyət hüququnun metropolitenə keçməsi şərtilə qatarların həyat tsikli dövründə hazırlığının təmin edilməsi üçün onlara xidmət göstərilməklə müvəqqəti sahibliyə və istifadəyə əldə etmə çıxış edirdi.Bununla əlaqədar sifarişçinin (publik tərəfdaşın) ödənişləri sahibliyə və istifadəyə görə ödənişlərdən və xidmət ödənişlərindən ibarətdir.

Analoji şəkildə bu dövlət-özəl tərəfdaşlığı növü dövlət və bələdiyyə ehtiyacları üçün satınalmalar sistemində, məsələn, regionlar tərəfindən yüksək texnologiyalı tibb texnikasının satın alınması zamanı perspektivlidir. Lakin bu, belə satınalmaların mümkün variantlarından biri kimi HTM-nin federal qanunvericiliyin müvafiq blokunda dəqiq təsbi-

tini tələb edir.

Mühüm investisiya səmərəsi verən daha bir tərəfdaşlıq növü "xüsusi investisiya müqavilələri"dir (XİM). XİM ölkədə hüquqi dövriyyəyə və iqtisadi münasibətlərə "Rusiya Federasiyasında sənaye siyasəti haqqında" 488-FQ №-li Federal qanuna uyğun daxil edilmişdir (5). XİM bağlanması və reallaşdırılması qaydası RF Hökumətinin 708 №-li xüsusi Qərarı ilə tənzimlənir (6). XİM bağlanması üzrə operator qismində Sənayenin İnkişafı Fondu kimi yeni federal inkişaf institutu çıxış edir. XİM investor və Rusiya Federasiyası, yaxud onun subyekti arasında sazişdir, bu sazişdə özəl tərəfdaş-investorun müəyyən öhdəlikləri, ilk növbədə, sazişlə nəzərdə tutulmuş müddətdə müəyyən növ sənaye məhsulunun istehsalını mənimsəmək öhdəliyi təsbit olunur. Habelə Rusiya Federasiyasının və/ya onun subyektinin publik tərəfdaşlar kimi öhdəlikləri təsbit olunur. Bunlar vergi və tənzimləmə şərtlərinin sabitliyini təmin etmək və vergi stimullaşdırması tədbirləri təqdim etmək və/ya investisiya layihəsinə birbaşa dəstək vermək öhdəlikləridir. XİM müddəti layihənin əməliyyat mənfəətinə çatma müddəti üstəgəl 5 il təşkil edir, lakin 10 ildən artıq ola bilməz. Müəyyən olunmuş qaydaya görə, belə müqaviləni federal hakimiyyət orqanları, regional hakimiyyət orqanları və investor özü imzalamalıdır.

XİM modelində tərəfdaşlıq, ilk növbədə, böyük investisiya layihələrini reallaşdıran və ilk növbədə, avtomobil sənayesində, maşınqayırma və gəmiqayırma sahələrində əlavə təminatların təsbitində maraqlı olan investorlar üçün mühüm maraq kəsb edə bilər.XİM institutu, bir tərəfdən, ölkədə analoqu olmayan məhsulların istehsalının artırılmasına, digər tərəfdən, şirkətlərin istehsalın Rusiya Federasiyasında lokallaşdırılmasına stimullaşdırılmasına yönəlmişdir (məsələn, avtomobil istehsalının Rusiyada lokallaşmasının orta səviyyəsi 45% təşkil edir). Hazırda Sankt-Peterburq və dünyanın bir sıra aparıcı avtomobil istehsalçısı bu sahəvi yönümlü XİM bağlanması perspektivini nəzərdən keçirirlər.

Bundan başqa, XİM təcrübəsi dövlət ehtiyacları üçün (həm federal, həm də regional səviyyədə) malların və xidmətlərin satın alınması bazarında fəaliyyət göstərən və bu bazarda mövqelərini xeyli genişləndirməyə səy göstərən sahibkarlar üçün maraq kəsb edə bilər. Bu, onunla bağlıdır ki,  dövlət və bələdiyyə ehtiyacları üçün satınalmalar sistemində belə üstünlüklər XİM şərtləri sırasına daxil edilə bilər (özəl tərəfdaşın öz məhsulunu yeganə təchizatçı kimi satmaq hüququ). Bundan əlavə, istehsalı XİM obyekti olan məhsullar, yaxud xidmətlər əvvəlcədən bu satınalmalar bazarı üçün potensial zəruri kimi müəyyən oluna bilər. Bu halda demək olar ki, XİM mexanizmi sayəsində dövlət satınalmaları sahəsi məhz ən sadə şəkildə belə satınalmalar təcrübəsinə xas olmayan dövlət və biznesin tərəfdaşlıq münasibətləri əlamətləri kəsb edir.

Qanun həm federal, həm də regional XİM bağlanmasına yol verir. Birinci halda (federal XİM) özəl investorlar barəsində stimullaşdırıcı tədbirlər qismində vergilər və yığımlar haqqında qanunvericiliyin XİM iştirakçılarının vəziyyətini pisləşdirən müddəalarının XİM müddəti başa çatana qədər tətbiq olunmaması; amortizasiya olunan əsas vəsaitlər barəsində (2-dən yuxarı olmayan) əmsalın tətbiqi imkanı; federal büdcəyə ödənilməli olan mənfəət vergisi üzrə 0% səviyyəsində vergi dərəcəsinin müəyyən olunması qeyd olunmalıdır. İkinci halda (regional XİM) Federasiya subyektlərinin büdcəsinə ödənilməli olan mənfəət vergisi üzrə vergi dərəcəsinin 0% səviyyəsinədək azaldılması imkanı mövcuddur. Mənfəət vergisi üzrə güzəştlər XİM çərçivəsində layihənin reallaşdırılması nəticəsində istehsal olunmuş malların satışından gəlirlərin təsərrüfat subyektinin vergi bazası müəyyən olunarkən nəzərə alınan bütün gəlirlərin azı  90%-ni təşkil etməsi şərtilə mümkündür.

Federal mərkəz tərəfindən XİM iştirakçısı olan müəssisələr üçün mümkün vergi və digər güzəştlər müəyyən olunmuşdur. Lakin Federasiya subyektləri bu güzəştlər və imtiyazlar siyahısını Federasiya subyektlərinin büdcələrinə daxil olan vergi gəlirləri hesabına genişləndirmək hüququna malikdir. XİM bazasında layihələrin reallaşdırılmasının əsas şərtləri federal qanunverici tərəfindən təzə müəyyən olunduğundan, hazırda dövlət və özəl biznesin tərəfdaşlıq münasibətlərinin bu formasının yalnız ilkin inkişaf mərhələsindən söz açmaq mümkündür. Buna baxmayaraq, XİM modeli əsasında bizneslə tərəfdaşlıq münasibətlərinin inkişafı ideyası artıq ölkədə və onun regionlarında praktik tətbiqini tapmışdır.

Perm vilayəti bu sahədə liderlərdən biridir. Bu və digər nəzərdə tutulan XİM layihələrinin tənzimlənməsi və dəstəklənməsi üçün diyarda qəbul edilən xüsusi normativ-hüquqi sənədə görə, XİM investorun öz gücü və/ya cəlb edilmiş tərəfin gücü ilə diyar ərazisində yeni sənaye istehsalını mənimsəmək öhdəliyini təsbit edir. Bu zaman yeni sənaye istehsalını mənimsəmək dedikdə investisiya layihəsi çərçivəsində yaradılmış əmlak kompleksindən istifadə olunmaqla məhsul buraxılışı üzrə tədbirlər başa düşülür.Regionda XİM realizəsinin zəruri hissəsini özəl tərəfdaşın investisiya layihəsinin reallaşdırılmasının gedişində azı 250 yeni iş yerinin yaradılması və onların XİM müddəti başa çatana qədər saxlanılması öhdəliyi təşkil edir.

XİM mexanizmi əsasında tərəfdaşlıq münasibətlərini reallaşdıran investorlara dəstək məqsədilə Perm vilayəti XİM realizəsi nəticəsində yaradılmış və mənimsənilmiş sənaye məhsullarının istehsalı üçün nəzərdə tutulmuş obyektlər barəsində əmlak vergisinin regional hissəsini sıfırlayır. Diyar təşkilatların region büdcəsinə ödənilməli olan mənfəət vergisi üzrə vergi dərəcəsini 13,5% səviyyəsinə (mənfəət vergisinin federal hissəsi) qədər azaldır. Bundan başqa, Lısvensk metallurgiya zavodu ilə bağlanmış XİM-də iştirak edən bələdiyyə qurumu (Lısvensk şəhər dairəsi) özəl investoru torpaq vergisinin ödənişindən azad etmişdir.

Bizim fikrimizcə, subfederal (regional və yerli) səviyyədə XİM təcrübəsi bir neçə müəyyənedici istiqamətə malik olacaqdır. Bu, ilk növbədə,mono-şəhərlərdə şəhər yaradıcı müəssisələri dirçəltməyə və müasir, rəqabət qabiliyyətli məhsul istehsalı səviyyəsinə çıxarmağa qadir olan investorların cəlb edilməsidir. Daha sonra regional və bələdiyyə ehtiyacları üçün keyfiyyətli məhsullar və xidmətlər təqdim edən müəssisələr təbəqəsinin formalaşdırılmasıdır. Nəhayət, bu təsərrüfatçılıq həlqəsində XİM region iqtisadiyyatının infrastruktur obyektlərinin modernləşdirilməsinə böyük investisiyaların həyata keçirilməsi zərurəti yarandıqda tətbiq oluna bilər.

## Nəticə

Qeyd olunanlar bu nəticəyə gəlməyə imkan verir ki, regional səviyyədə dövlət-özəl tərəfdaşlığı təcrübəsindən istifadə ardıcıl surətdə Federasiya subyektlərinin ümumtəsərrüfat və sosial infrastrukturun inkişafı məqsədləri üçün büdcə vəsaitlərinin çatışmazlığının yerini doldurmağa qadir olan investisiya əhəmiyyətli layihələr istiqamətində irəliləməklə bərabər, həm də real sektora əlavə investisiya həcminin cəlb edilməsi hesabına bütövlükdə region iqtisadiyyatının inkişafına impuls verəcəkdir.Bu, belə layihələrin maliyyə təminatı mexanizmlərinə tələbləri xeyli yüksəldir. Lakin regional büdcələrin cari imkanları böyük deyildir, bir çox regionlar böyük borc yükü daşıyır, bu da Federasiya subyektlərinin bu və ya digər dövlət-özəl tərəfdaşlığı layihələrində iştirakının

maliyyələşdirilməsi üçün alternativ mənbələrin cəlb olunmasını tələb edəcək. Bir neçə belə mənbə mümkündür. Bunlar, ilk növbədə, region iqtisadiyyatının inkişafı və onun vergi-büdcə bazasının möhkəmləndiriılməsi üçün onlardan müstəsna surətdə investisiya qoyuluşunda istifadə məqsədilə əhalinin müvəqqəti sərbəst vəsaitlərinin səfərbər olunmasına yönəlmiş məqsədli istiqrazlardır. Rusiya Maliyyə Nazirliyi regionların "bahalı" (ilk növbədə bank) borclarının ucuz federal kreditlərlə əvəzlənməsi siyasəti yeritməklə regionların kredit faizlərindən qənaət olunmuş vəsaiti "yeməmək", yalnız investisiya layihələrində, o cümlədən dövlət-özəl tərəfdaşlığının bu və ya digər növləri vasitəsilə reallaşdırılan layihələrdə istifadə etmək vəzifəsini təsbit edə bilərdi. Nəhayət, HTM, yaxud XİM investisiya layihələri reallaşdırıldıqca yaranan əlavə vergi daxilolmalarının regional büdcələrin məqsədli fondlarına yönəldilməsi yolu ilə getmək mümkündür.Bu, regionlara layihələr reallaşdırıldıqca büdcəyə ifrat "gərginlik" vermədən bu layihələr üzrə özəl tərəfdaşın bütün məsrəflərinin sonradan ödənilməsi üçün vəsait toplamağa imkan yaradardı.

## Ədəbiyyat

1. В Кремле прокомментировали информацию о закрытии особых экономических зон // Лента.ру, 2016. URL: https://lenta.ru/news/2016/06/09/oesbanpeskov/

2. Мерешко Н. Государственно-частное партнерство развивается преимущественно за счет концессий в муниципальной сфере // Известия, 2016. URL: http://izvestia.ru/news/635484#ixzz4M2HSdyiO

3. Мокин С. К вопросу о регулировании отношений в сфере ГЧП на уровне регионов // Рынок ценных бумаг, 2015, № 2, с.64-66

4. О государственно-частном партнерстве, муниципально-частном партнерстве в Российской Федерации и внесении изменений в отдельные законодательные акты Российской Федерации: федер. закон Рос. Федерации от 13.07.2015 № 224-ФЗ: принят Гос. Думой Finances, monetary circulation and credit 157 Financial mechanisms of PPP in the regions of Russia Федер. Собр. Рос. Федерации 01.07.2015: одобр. Советом Федерации Федер. Собр. Рос. Федерации 08.07.2015 // Российская газета, 2015, 17 июля

5. О промышленной политике в Российской Федерации: федер. закон Рос. Федерации от 31.12.2014 № 488-ФЗ: принят Гос. Думой Федер. Собр. Рос. Федерации 16.12.2014: одобр. Советом Федерации Федер. Собр. Рос. Федерации 25.12.2014 // Российская газета, 2015, 12 января

6. О специальных инвестиционных контрактах для отдельных отраслей промышленности: постановление Правительства РФ от 16.07.2015 № 708 // Российская газета, 2015, 21 июля

7. Привлечение частных инвестиций в инфраструктурные проекты в Великобритании // Экономика и управление в зарубежных странах. 2015, № 3, с.20-29

8. Рейтинг регионов России по уровню развития государственно-частного партнерства 2014-2015 гг. URL: http://www.pppi.ru/regions

## IMPROVING PPP FINANCING MECHANISMS IN THE REGIONS OF RUSSIA

**J.K.Aliyev**

**SUMMARY**

Complicated financial and budgetary situation in the most of Russian regions in 2014-2016 as well as the necessity to intensify the investment process in the economy as the foundation for overcoming economic crisis dictate the need for a wider use of the public-private partnership (PPP). The author proves that under current conditions the importance of the investment-stimulating function of PPP significantly increases. Along with investment effect, the implementation of PPP projects adds to the economy of the Russian regions a number of other positive effects such as the improvement of methods of project planning and program management, and the application of modern project financing and financial control methods. However, these positive results are only achievable under the condition that there are financial mechanisms which provide a sustainable economic base for the realization of PPP projects.

## СОВЕРШЕНСТВОВАНИЕ МЕХАНИЗМОВ ФИНАНСИРОВАНИЯ ГЧП В РЕГИОНАХ РОССИИ

**Дж.К.Алиев**

**РЕЗЮМЕ**

Сложная финансово-бюджетная ситуация, характерная для большинства регионов России в период 2014-2016 годов, необходимость активизировать инвестиционный процесс как основу преодоления экономического кризиса диктуют регионам необходимость более широкого использования практики государственно-частного партнерства (ГЧП). Автор показывает, что в современных условиях существенно возрастает значимость инвестиционно-стимулирующей функции ГЧП. При этом одновременно с инвестиционным эффектом реализация проектов ГЧП привносит в экономику российских регионов целый ряд иных позитивных эффектов. Это совершенствование методов проектного планирования и программно-целевого управления, использование современных механизмов проектного финансирования и методов финансового контроля. Однако эти позитивные результаты достижимы лишь при условии, что им соответствуют финансовые механизмы, обеспечивающие устойчивую экономическую базу реализации проектов ГЧП.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# MÜASİR ƏRƏB ÖLKƏLƏRİNİN QARŞILIQLI İQTİSADİ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI XÜSUSİYYƏTLƏRİ

**E.Y.Qasımzadə**
Azərbaycan Dövlət İqtisad Universiteti
Bakı, İstiqlaliyyət küçəsi 6
e-mail: sveysova@mail.ru

***Açar sözlər:*** inteqrasiya, qloballaşma, özəl sektor, bazar rəqabəti, rəqabətqabiliyyətlilik, xalq təsərrüfatı, iqtisadi tənzimləmə, iqtisadi resurslar

***Keywords:*** integration, globalization, private sector, market competition, competitiveness, national economy , economic regulation, economic resources

***Ключевые слова:*** интеграция, глобализация, частный сектор, рыночная конкуренция, конкурентоспособность, народное хозяйство, экономическое регулирование, экономические ресурсы

Əsrlər boyu ərəb dünyası daim qabaqcıl dünya ölkələrinin diqqət mərkəzində olmuşdur. Ərəb dünyası adlanan coğrafi məkan iki qitə - Asiya və Afrika, iki okean - Hind və Atlantik okeanları hövzəsinin qovşağında yerləşir və Aralıq və Qırmızı dənizlərə çıxışı vardır. Ərəb ölkələrinin dəniz sahillərinin uzunluğu 26 min km-dir. Daxili suları 7 mln ha sahəni əhatə edir. Hal-hazırda 12,4 mln kv km ərazini və 338,9 mln nəfər əhalini əhatə edən ərəb dünyası dövlətləri siyasi quruluşlarının rəngarəngliyi ilə diqqəti cəlb edir. Ərazi Misirdən şərqə doğru Məşriq, qərbə doğru isə Məğrib adlanan iki coğrafi məkana bölünür. Ərəb ölkələrinin tarixi inkişafı bir sıra ortaq nöqtələrə malikdir. İndiki ərəb ölkələrinin əhalisi orta əsrlərdə mənəvi və maddi əsaslara çox güclü təsir göstərən və qarşılıqlı siyasi, iqtisadı, elmi və mədəni əlaqələri əhatə edən Ərəb xilafətinin tərkibində olmuşdur. Ərəb dövlətlərinin coğrafi yaxınlığı, ümumi sərhədlərin mövcudluğu və tarixən yaranmış iqtisadi əlaqələr regionda beynəlxalq iqtisadi inteqrasiyanın mövcudluğu və inkişafı üçün ən vacib faktorlar hesab edilir. Bu, ərəb ölkələrinin müxtəlif təsərrüfat əlaqələrinin, məsələn, sərhədyanı ticarət, maliyyə mübadiləsi, miqrasiya və s. inkişafını təmin edir və regiondaxili iqtisadi əməkdaşlığın yaranmasına, bərqərar olmasına və möhkəmlənməsinə yardımçı olur [1].

Bu gün Ərəb dünyası vahid ərazi-coğrafi kompleks təsəvvürü yaradır. Bu, mövcud problemlərin həlli üçün regional əməkdaşlığı zəruri edir ki, bu da regional iqtisadi inteqrasiya blokunun yaradılması üçün əhəmiyyətli zəmin yaradır. Ərəb ölkələrini ümumi dil - ərəb dili birləşdirir. Bu ölkələrarası iqtisadi əməkdaşlığın həyata keçirilməsini asanlaşdırır. Yaxın Şərq ölkələri üçün ümumi olan həm də onların xalqlarının ənənəvi yaşayış tərzinə, ailə dəyərlərinə malik olmaları, əcdadlarının mədəniyyətini qoruyub saxlamalarıdır. Tarix boyu bu xalqlar özünəməxsus mədəni xüsusiyyətlər və vahid etnopsixologiyaya malik olublar. İslam ərəb ölkələrini birləşdirən ən güclü faktordur. İndinin özündə də burada din ictimai şüurun dominant forması kimi özünü göstərməkdədir. Ərəblər üçün islam fəlsəfə, iqtisadiyyat və hüquqi baxışların universal sistemidir. İslami dəyərlər istər siyasi, istər iqtisadi həyatda nə varsa, hamısını üstələyir. İslam burada dövlət dini kimi, qanunvericiliyin əsası kimi çıxış edir, sosial-mədəni requlyator funksiyasını yerinə yetirir. İslam demək olar ki, həyat tərzidir. Ərəb və qeyri-

ərəblərdən ibarət əhalinin 90%-i islam dininə sitayiş edir. 10% əhali isə digər dini məktəblərə, əsasən xristianlığa mənsubdur.

Regionda sosial inkişafa nail olmaq, iqtisadiyyatın tənzimlənməsi, maliyyələsisteminin mükəmməlliyini təmin etmək, mədəni-siyasi əməkdaşlığı gücləndirmək istiqamətində ölkələrin qarçısında ümumi iqtisadi və digər problemləri həll etmək məsələsi durur. Regionun ölkələr qrupunun real iqtisadi inkişaf durumu müəyyən dərəcədə onlardan qarşılıqlı təsərrüfat əlaqələrinin və regional iqtisadi inteqrasiya prosesinin intensivləşməsini tələb edir. Bu inteqrasiya özlüyündə region ölkələrinin əsas sosial-iqtisadi məsələlərinin həlli üçün həyati əhəmiyyət kəsb erdir. Ərəb ölkələrini qlobal və subregional xarakterli yaxınlaşdırıcı faktorlarla yanaşı yaxınlaşmaya mane olan, onu ləngidən qüvvələr də mövcuddur. Onların arasında müxtəlif istiqamətli siyasi maraqları görməmək mümkün deyil. Bir sıra ölkələrin iqtisadiyyatının bircinsliliyi, primitivliyi, komplementarlığının aşağı səviyyədə olması inteqrasiya potensialının zəifliyini üzə çıxardır. Ərəb dünyasında inteqrasiya proseslərinin inkişafına neft faktorunun, siyasi-iqtisadi ittifaqın (KƏDƏŞ) və neftin çıxarılması və satışında iqtisadi-təsərrüfat birliyininin (OAPEK) mövculuğu regionun malik olduğu maddi sərvətlərdən geoiqtisadi üstünlük potensialından ümumərəb mənafeyini üstün tutmaq baxımından rasional istifadənin təmin olunmasını böyük bir öhdəlik kimi qarşıya qoyur.

Ərəb ölkələri inkişaf yolunda eyni problemlərlə üzləşirlər. Bu problemlər üç qrupa bölünür: qanunverici-hüquqi, təşkilati-struktur və ümumiqtisadi. Bunların mövcudluğu onların inteqrasiyasını ləngidir. Qanunverici-hüquqi xarakterli problemlər ərəb ölkələrinin inteqrasiya konsepsiyasının hazırlanmaması, inteqrasiya sahəsində qəbul olunmuş qərarların həyata keçirilməsində ardıcıllığın olmaması, onların hərəkətlərinin koordinasiya olunmaması ilə əlaqədardır. Təşkilati-struktur problemlər mövcud inteqrasiya bloklarının institutsional sistemlərin yararsızlığından, sybregional qrupların müvafiq fövqəlmilli və millətlərarası təşkilatlar yaratmaq yolu ilə fövqəlmilli elementlərin daxil ediləsinə meylin olmamasından ortaya çıxır.Ümumiqtisadi problemlər ərəb dövlətlərinin iqtisadi inkişaf səviyyəsinin müxtəlifliyi ilə əlaqədardır [2]. XX əsrin, demək olar ki, birinci yarısından Ərəb ölkələri müxtəlif inteqrasiya təşkilatları və qrupları yaratmağa başladılar. Ərəb dünyasında ilk inteqrasiya tipli qurum 1945-ci ildə yaradılmış Ərəb Dövlətləri Liqası oldu. Etnik əsaslar üzərində qurulan bu təşkilatın yaranması ərəb dövlətlərinin öz müstəqilliklərini yenicə qazandıqları dövrə təsadüf edir. Regionu kənardan idarə etmək üçün yaradılmış İsrail dövlətinin törətdiyi fəsadları (məsələn, İsrail-Fələstin münaqişəsi) dəf etmək və aradan qaldırmaq məqsədilə 1958-ci ildə Sovet İttifaqı Qəhrəmanı Kamal Abdul Naserin təşəbbüsü ilə Misir və Suriya dövlətlərini birləşərək Birləşmiş Ərəb Respublikası yarandı. Bütün səylərə baxmayaraq bu inteqrativ qurum sırf deklorativ xarakterə malik oldu.

Regionda daimi xarakter almış geosiyasi sabitsizlik faktoru dünya iqtisadiyyatı üçün çox böyük əhəmiyyət kəsb edir. Bu faktor Beynəlxalq İqtisadi Əlaqələrdə müsbət dəyişikliklərə əngəl yaradır. Fələstin və İraq ətrafindakı hadisələr regionun çox iri neft və qaz ehtiyatlarından səmərəli surıtdə istifadə etməyı çətinləşdirir. İndiyə kimi Ərəb dünyasında aşağıdakı beynəlxalq və regional inteqrasiya olunmuş təşkilatlar yaranıb:

- Ərəb Dövlətləri Liqası;
- OAPEK;
- İslam Konfransı Təşkilatı (2011-ci ildən İslam Əməkdaşlıq Təşkilatı);
- Ərəb Məğribi İttifaqı;

- Ərəb Əməkdaşlıq Birliyi;
- Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurası(KƏDƏŞ);
- Böyük Ərəb Sərbəst Ticarət Zonası.

Liqa Ərəb dövlətlərinin Qahirədə keçirilmiş konfransında təsis olundu. Yaradldıqda planlaşdırıldığının əksinə olaraq qurum inteqrasiya aləti ola bilmədi. "Ərəb baharı"na kimi təşkilatın 18 ərəb, 3 islam dininə sitatiş edən qeyri-ərəb dövlətlərindən və 1 Muxtariyyətdən ibarət Səudiyyə Ərəbistanı Krallığı, Bəhreyn, Qətər, BƏƏ, Oman, Küveyt, Misir, Sudan, Somali, Cibuti, Komor adaları, İraq, İordaniya, Suriya, Livan, Əlcəzair, Liviya, Tunis, Mərakeş, Mavritaniya, Yəmən, Fələstin Milli Muxtariyyəti kimi 22 üzvü olub. Qərb yönümlü Liqa "Ərəb baharı"nın həlli yolunu öz sıralarından Liviya və Suriyanı uzaqlaşdırmaqda gördü. Daimi yerləşdiyi yer Qahirə şəhəridir. Təşkilat 13,1 mln kv km ərazini və əhatə 370,7 mln nəfər əhalini (dünya əhalisinin 5,28%-i) əhatə edir. Yeddi meridian arasında yerləşən ərazinin qərbdən şərqə doğru ən ucqar coğrafi məntəqələri arasında məsafə 6045 km-dir. Quruma daxil olan dövlətlərin siyasi quruluşunda rəngarənglik diqqəti cəlb edir. Onlardan 8-ı, yəni biri teokratik, üçü konstitusiyalı, biri konstitusiyalı parlamentli, ikisi mütləq, biri federal olmaqla monarxiya, 1-i unitar və 1-i federativ, 5-i prezident və 6-ı isə parlament tipli respublika, bir muxtariyyətdən ibarətdir.

ƏDL-in bəyan etdiyi başlıca məqsəd iştirakçı dövlətlərin arasında hərtərəfli əməkdaşlıq və əlaqələri gücləndirmək, onların siyasi, iqtisadi, mədəni və sosial əməkdaşlıq sahəsində əlbir fəaliyyətlərini uzlaşdırmaq, İsrailin zəbt etdiyi ərəb ərazilərinin (Qəza sektoru, İordan çayının qərb qolu, Colan təpələri) işğalına son qoymaq və Fələstin ərazisində ərəb dövlətinin yaradılması istiqamətində ərəb ölkələrinin birliyinə nail olmaqdan ibarətdir. Yəni Liqanin əsas diqqəti siyasi məsələlərə yönəlib.

Liqa həmçinin mədəniyyət, səhiyyə, sosial təminat, nəqliyyat və kommunikasiya, pasportlaşdırma və vizaların rəsmiləşdirilməsi, milli mənsubiyyət qanunları, ticarət, gömrük, valyuta, kənd təsərrüfatı və sənaye də daxil olmaqla iqtisadi və maliyyə məsələlərinin həlli sahəsində əməkdaşlığı daha da sıxlaşdırmağa səy göstərir. Liqaya üzv-dövlətin təcavüz yaxud təhdid hallarında Liqa Şurasını çağırmaq hüququ vardır. Hazırda ƏDL özünün iqtisadi fəaliyyətində bəzi üstün sahələri təyin edir. Dünya təsərrüfat sisteminin təşkilindəki qlobal dəyişmələr, yeni dünya iqtisadi qaydaları, istehsalın beynəlmiləlləşməsi, mili iqtisadiyyatda iqtisadi islahatlara tələbat və bir sıra digər amillər ƏDL-in üstün sahələri təyin etməsinə əsas yaradır. Liqa Fransa, İngiltərə, AFR, İspaniya, Avstriya, İtaliya, Belçika, İsveçrə, Yunanstan, Kanada, ABŞ, Braziliya, Argentina, Meksika, Yaponiya, Çin, Hindistan, Keniya, Seneqal, Efiopiya və Rusiyada nümayəndəlik və ya informasiya bürosuna malikdir. ƏDL-də Amerika ilə işlər üzrə xüsusi departament fəaliyyət göstərir. Onun fəaliyyətinə ABŞ ilə ərəb ölkələri arasındakı əlaqə və əməkdaşlıq haqqında məlumatları toplayıb təhlil etmək, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri üzrə səlahiyyətli məsləhətlər vermək daxildir. ƏDL-in qiymətləndirmələrinə əsasən bu nəticəyə gəlmək olur ki, təşkilat ərəblərin birləşməsi üzrə missiyanı hələ də yerinə yetirmək iqtidarında deyil. Liqa çərçivəsində ərəb ölkələri arasında mövcud olan münaqişələrin qarşısını almaq üçün əsaslı yanaşma mexanizmini işləyib hazırlaya bilmir. Yaxın Şərqdəki ərəb-israil münaqişəsindən irəli gələn Fələstin problemini aradan qaldırmaq üçün qəti addımlar atmır.

Cədvəl 1-dən də göründüyü kimi, nə iqdisadi baxşmdan nə də siyasi cəhətdən arzu edilən əməkdaşlıq həyata keçirilməyib və təhlükəsizlik sahəsində əməkdaşlıq baxımından

müvəffəq olmasalar da, iqtisadi, sosial və mədəni sahələrdə müəyyən uğurlara nail olunmuşdur. İqtisadi baxımdan müvəffəqiyyət regional inteqrasiya üçün kifayət deyil. Siyasi və iqtisadi sahələrdə əməkdaşlığa nail olunmadan tam regional inteqrasiyaya nail olmaq olmaz.

Ərəb Dövlətlərin Liqası regionda iqtisadi inteqrasiya prosesinin inkişaf etdirilməsi yolunu Avropa İttifaqı ilə əməkdaşlığı gücləndirməkdə görür. Onun Aİ ilə iqtisadi inteqrasiya sahəsində uzaqgörən planları vardır. Azad ticarət zonasının vahid nəqliyyat və energetika sisteminin yaradılması bu planlardandır.

**Cədvəl 1**

**Brus Rasset qaydası ilə BMT və İKT-nin effektivliyinin qiymətləndirilməsi [4]**

| Təşkilatlar | A | B | C | D | E | Cəmi |
|---|---|---|---|---|---|---|
| Ərəb Dövlətləri Liqası | 2 | 2 | 1 | 1 | 2 | 8 |
| İKT | 1 | 1 | 0 | 1 | 2 | 5 |

Təşkilata ancaq ərəd dövlətləri qəbul olunur. Lakin üzv dövlətlərdən 3-də ərəblər əhalinin 3%-i təkil edir (Cədvəl 1). Bu baxımdan sosiai-mədəni cəhətdən, dil, din, ortaq adət-ənənələr baxımından yaxınlıq güclü deyildir. Bunu nəzərə alaraq sosial-mədəni homogenliyə “2” bal vermək olar. Davranış normaları da “2” ilə qiymətləndirilə bilər. Çünki islam dəyərləri yüksək tutan və dini əxlaq normalarından tərbiyələnmiş region əhalisi öz tarixi-mədəni davranış normalarına hörmətlə yanaşırlar.

Afrika qitəsindəki üzv dövlətlərin 9-da unitar, parlamentli və prezident tipli respublika, 1-də isə konstitusiyalı monarxiya, Asiya qitəsindəki üzv dövlətlərdən 4-də parlamentli və prezident tipli respublika, 7-də mütləq və konstitusiyalı monarxiyaprezident tipli respublika və 1 muxtariyyətin mövcudluğu dövlət quruluşu baxımından siyasi rəngarənglikdən və demokratiyanın səviyyəsindən məlumat verir. Siyasi cəhətdən region dövlətləri arasında münaqişə mövcuddur. Demokratiyanın səviyyəsi eyni deyil. Mövcud şərtlər nəzərə alınaraq siyasi asılılıq kateqoriyası da “1” bal vermək olar. Təşkilata üzv olan dövlətlər arasında ikitərəfli iqtisadi münasibətlər lazımi səviyyə çata bilməməsi qarşılıqlı iqtisadi asılılıq kateqoriyanı “1” ilə qiymətləndirir. Somali region ölkələrindən heç biri ilə həmsərhəd olmadığındah qurucoğrafi cəhətdən homogenliyi zəiflədir. Bu baxımdan coğrafi yaxınlıq kateqoriyasını “2” ilə qiymətləndirilir. Ümumi nəticə “8” bal təşkil edir ki, bu da inteqrasiyanın effektivliyin yüksək olmamasını göstərir.

İstər ikitərəfli, istərsə də çoxtərəfli münasibətlərin zirvəsi siyasi və təhlükəsizlik sahəsində əməkdaşlığın inkişaf etdirilməsi və ortaq layihələrin həyata keçirilməsidir. _İlk növbədə qeyd etmək lazımdır ki, regional inteqrasiya yalnız etnik əsaslarda qurula bilməz. Hətta, beynəlxalq təşkilatlar nəzəriyyəsi mövqeyindən baxsaq görərik ki, funksionalistlər regional inteqrasiyanın yalnız sosial-iqtisadi əsasları olduğu zaman müvəffəq ola biləcəyini iddia edirlər. Etnik və tarixi-mədəni amillər stimullaşdırıcı vasitə kimi əhəmiyyətli olsalar da, həlledici faktorlar deyil [3]. Əvvəlki hissələrdə qeyd edildiyi kimi, 1969-cu ildə 14-ü ƏDL-n üzvü olan 25 təsisedici dövlətin təşəbbüsü ilə yaranan İslam Konfransı Təşkilatının effektivliyi 5 balla qiymətləndirilib.

Üzvlərinin yarıdan çoxunu Ərəb ölkələrində ibarət olan OPEK-in çıxardığı neftin 60%-dən yuxarı hissəsi bu ölkələrin payına düşür. Bu baxımdan üstünlüyə malik olan ərəblər 1968-cı ildə özlərinin Neft İxrac edən Ərəb Ölkələrinin Təşkilatı (OAPEK) təsis etdilər. Ərazi 7,8 mln kv km və əhalisi 211,2 mln nəfərdir (dünya əhalisinin 3,01%-i) təşkilatin 11 üzvdən 8-i Məşriq ölkəsidir. Nizəmnaməyə əsasən, təşkilata ancaq ərəb ölkəsi

üzv ola bilər.

Milli gəlirin əsasını neft təşkil edən istənilən ərəb ölkəsi 4/3 səs çoxluğu ilə təşkilatın üzvlüyünə qəbul olunur. OAPEK-in əsas məqsədi neft sənayesi sahəsində müxtəlif iqtisadi fəaliyyət növündə əməkdaşlıq, həm kollektiv bə həm də fərdi qaydada üzv dövlətin bu sənaye sahəsindəki qanuni maraqlarını qorunması vasitələrini və yollarını müəyyənləşdirmək, bərabərhüquqlu bə ədalətli əsasda neftin tədarükünü təmin etməkdə səyləri birləşdirmək, üzv dövlətlərin neft sənayesini inkişaf etdirmək məqsədilə texniki təcrübənin ötürülməsinə kapital qoyuluşu üçün əlverişli şərait yaratmaq. OAPEK aşağıdakı təşkilatlara sponsorluq edir: a) Küveytdəki dəniz neft nəqliyyatı şirkəti; b) Bəhreyndəki gəmiqayırma və gəmi təmiri şirkəti; c) Səudiyyə Ərəbistanındakı neft sənayesinə investisiya üzrə şirkət; ç) Liviyadakı neft sənayesi sahəsində xidmət üzrə şirkət; d) İraqdakı ixtisaslı neftçi hazırlamaq institutu. Mövcud maraqlar və qəsdən yaradılan maneələr OAPEK dünya neft siyasətində real qüvvəyə çevrilməsinə imkan vermir. ƏDL ilə müqayisədə təşkilatın coğrafi baximdan ərazinin bütövlüyü effektivliyinin 1 balla yüksək qiymətləndirilməsinə imkan verir. Beləliklə, yekun bal 9 olur.

Fars (Ərəb ölkələrində qəbul edilmiş terminologiyaya əsasən, bu körfəz Ərəb körfəzi adlandırılır; biz daha düzgün hesab olunan Körfəz ölkələri anlayışından istifadə edəcəyik) Körfəzinin qərb sahillərindəki ərazilərdə Britaniyanın idarəçiliyinə son qoyulduqdan sonra mövcud protektoratlar əvəzinə müstəqil dövlətlər - Bəhreyn, Qətər, BƏƏ, Oman monarxiyaları yarandı. 1970-ci illərdə bu regionda inteqrasiyaya meyl yaranmağa başladı. Bunun nəticəsi olaraq, beşliyə Səudiyyə Ərəbistanı Krallığı da qoşulmaqla, 1981-ci ildə monarxiyaların başçıları tərəfindən Körfəz Ərəb Dövlətlərinin Əməkdaşlıq Şurasının (KƏDƏŞ) yaradılması haqqında qərar qəbul olundu. İndi 2,6 mln kv km ərazini əhatə edən və əhalisi 53,1 mln nəfərdən (dünya əhalisinin 0,76%-i) ibarət olan Şura təxirə salınmadan iqtisadiyyat və maliyyə, ticarət, gömrük xidməti və kommunikasiya, təhsil və mədəniyyət, sosial sahə və səhiyyə, informasiya və turizm, qanunvericilik və idarə etmə, ətraf mühitin mühafizəsi, mütəşəkkil cinatətkarlıq və narkotika ilə mübarizə kimi sahələrin vahid fəaliyyət normalarının işlənib hazırlansını qarşıya əsas məqsəd qoydu. Sənaye, ərzaqla təminat, ətraf mühitin mühafizəsi kimi sahələrin elmi-texniki tərəqqisinə yardım etmək, müştərək elmi-tədqiqat mərkəzlərini yaratmaq və birgə layihələrin yerinə yetirilməsinə təkan vermək məsələləri diqqət mərkəzinə gətirdi. Əsas diqqət vətəndaşlar arasında münasibətlərin dərinləşməsi və möhkəmlənməsi, əməkdaşlıq və əlaqələrin genişlənməsinə yetirdi. Ali idarəetmə orqanı olan Ali Şura strategiyanın işlənib hazırlanması və KƏDƏŞ-ın başlıca fəaliyyət istiqamətlərini müəyyənləşdirir.

Ali Şura ölkələrin vətəndaşlarının vizasız mübadələsi və sərbəst pərakəndə ticarəti və s. haqqında bir sıra vacib qərarlar qəbul edildi. 1990-cı ilin əvvəlində vahid energi sisteminin layihəsi hazırlandı. Layihənin həyata keçirilməsinin birinci mərhələsində Səudiyyə Ərəbistanı, Bəhreyn, Küveyt və Qətərin, ikinci mərhələsində Oman və Birləşmiş Ərəb Əmirliklərinin, sonra isə hamısının enerji şəbəkələrinin birləşdirilməsi nəzərdə tutulur. Layihənin qiymətləndirilmiş dəyəri 6 mld ABŞ dollarıdır. Enerji sisteminin 2007-2010-cu illərdə istifadəyə verilməsi nəzərdə tutulur. KƏDƏŞ ölkələrinin bu və digər istiqamətlərdə birgə fəaliyyətinin inkişaf etdirilməsi əsasında Ali Şura 1999-cu ildə Ər-Riyad şəhərində 2005-ci ilin mart ayının 1-də fəaliyyətə başlayacaq Gömrük İttifaqı haqqında saziş imzaladı. Eyni zamanda, KƏDƏŞ ölkələrinin Gömrük İttifaqının fəaliyyəti

üçün şəraitin yaranması istiqamətində Fars Kərfəzi Ərəb Ölkələrinin Ümumi bazarının yaranması istiqamətində cəhdlər edildi. Belə bir məqsədin olması ticarət nazirlərinin 1992-ci ilin mayında keçrilmiş iclasında prioritet məsələ kimi elan olundu. Sonra Körfəz ölkələri öz ölkələrinin iqtisadi inkişafının, əlalxüsus regional səviyyədə inkişaf planlarının qarşılıqlı əlaqələndirilməsi bu inkişafa fərdi sektorların payının artırılması imkanlarını daxil etməklə, ineqrasiya proseslərinin güclənməsinə təkan verməklə milli planlaşdırılmasının həmahəngliyi və koordinasiyasının zəruriliyi haqqında razılığa gəldilər. 1997-ci ildə daxili işlər nazirləri körfəzyani ərəb ölkələirinin sərhədlərində gediş-gəliş üçün pasportların verilməsinin sadələışmiş qaydalarını təsdiq etdilər. Bu ölkəllərin vətəndaşlarına altı asiya ölkəsində sərbəst tisarət etmələrinə imkan verilməsi haqqında qərar qəbul olundu. Ərəb Dövlətləri Liqası ilə sıx əlaqə saxlayan KƏDƏŞ Avropa İttifaqı ilə sərbəst ticarət zonasının yaradılması barədə 20 ildir davam edən danışıqlara son qoymaq niyyətindədir. Buna Avropa İttifaqının ticarətlə siyasəti bir birinə qataraq daim vəziyyəti gərgin saxlamaq meyli [4] əsas yaradıb (Cədvəl 2) .

**Cədvəl 2**

**Brus Rasset qaydası ilə KƏDƏŞ effektvliyinin qiymətləndirilməsi [4]**

| Təşkilatlar | A | B | C | D | E | Cəmi |
|---|---|---|---|---|---|---|
| Benilüks | 3 | 3 | 3 | 3 | 3 | 15 |
| KƏDƏŞ | 3 | 3 | 3 | 3 | 3 | 15 |

Dünya siyasət aləmində “iki qütblüyün” mövcud olduğu dövrdə baş verən tarixi proseslər nəticəsində ərəb dövlətləri arasında siyasi baxış və iqtisadi idarəetmə üsulu baxımından bir-birindən uzaqlaşma və bəzi məsələlərdə izolə olunma hadisəsi baş verdi. Fars körfəzinin qərdində yerləşən ədəb dövlətlətindən İraq və YXDP parlamentli respublika idarə üsuluna üstünlük verdilər. Bu baxımdan da onlar Şuradan kənarda qaldılar. Şuranın üzvü olan altı monarxiyanın idarə üsulunda bircinslik olduğundan onlarda sosiai-mədəni cəhətdən, dil, din, ortaq adət-ənənələr baxımından yaxınxınlıq güclüdür. Bunu nəzərə alaraq sosial-mədəni homogenliyə “3” bal vermək olar. Bu baxış müstəvisində davranış normaları da “3” ilə qiymətləndirilə bilər. Çünki, şəriət qanunlarından kənara çıxmayan və islam dəyərləri yüksək tutan və dini əxlaq normalarından tərbiyələnmiş əregion əhalisi öz tarixi-mədəni davranış normalarına ciddi riayət edirlər. Bu ölkələrdə demokratiyanın səviyyəsi demək olar ki, eynidir. Regionda həmişə mütləqiyyət formalı idarə üsuluna malik teokratik monarxiya olan Səudiyyə Ərəbistanı Krallığı lider dövlət olub və region dövətlərində güclü bir nüfuza malikdir. Siyasi cəhətdən region dövlətləri arasında münaqişə yoxdur və hamısı demək olar ki, şəriət qanunları ilə idarə olunur. Mövcud şərtlər nəzərə alınaraq siyasi asılılıq kateqoriyası da “3” bal vermək olar.

İqtisadi asılılığın analizi göstərir ki, ayrı-ayrı dövlətlər arasında ikitərəfli iqtisadi münasibətlər lazımi səviyyədədir və bu münasibətlər bütün region dövlətlərini əhatə edir. Belə bir requlyar münasıbət kateqoriyanı “3” ilə qiymətləndirməyə imkan verir. Səudiyyə Ərəbisyanın Bəhreyndə quruduğu bənddən sonra yaranmış quru yol coğrafi cəhətdən regionu regionu ideal şəkildə tamlaşdırır. Bu amil coğrafi yaxınlıq kateqoriyasını “3” ilə qiymətləndirməyə imkan verir. Ümumi nəticənin “15” olması bu inteqrasiya qrupunun tam effekli olmasını təsdiq edir. Demokratiyanın səviyyəsində keyfiyyət fərqini nəzərə almasaq KƏDƏŞ-i “Məşriqin Beniluks”ü adlandırmaq olar. Uzun müddət Məğrib dedikdə

Misirdən qərbdə yerləşən torpaqlar başa düşülüb. Ərəbcədən tərcümədə Əl-Məğrib “günəşin qürub etdiyi ölkə” və ya “qərb” deməkdir. Bəzən Mərakeş Məğrib kimi qəbul olunub. Şimali Afrikanın antik dövrdən Kiçik Məğrib adlanan coğrafi ərazisinə Əlcəzair, Mərakeş, Tunis kimi ərəb ölkələri daxil olub. Sonradan Liviya, Mavritaniya və Qərbi Saxaranin qoşulması ilə yaranmış sahəsi 4,0 mln kv km əraziyə Böyük Məğrib deyilir. İndinin özündə regionun əhalisi 85,0 mln nəfər olmaqla, dünya əhalisinin 1,21%-i təşkil edir. Mərakeşdə 1989-cu ilin fefral ayında baş tutmuş Şimali Afrikanın dövlət başçılarının İkinci yığıncağında Ərəb Məğrib Şurasının yaranması elan edildi. Üzv dövlətlər - Əlcəzair, Liviya, Mavritaniya, Mərakeş və Tunis İttifaqin yaranmasi haqqında Müqavilə, Əsasnamə və Məğrib komissiyasının işinin nəticəsi üzrə Qətnaməi təsdiq etdilər. Həm də “Böyük Məğribin yaranmasının ümumi işinə” sədaqətlilik haqqında qərar qəbul etdilər.

Məğrib ölkələri 90-cı illər boyu inteqrasiyanı gücləndirmək istiqamətində müxtəlif layihələr həyata keçirtdilər və tam iqtisadi ittifaqa 2000-ci ildə nail olmanı qarşıya məqsəd qoydular. Lakin zaman keçdikcə onların planları dəyişməyə başladı. İndiyə kimi bu ölkələr arasında istər ticarət-iqtisadi və istərsə də mədəni əlaqələrin gücləndirilməsi istiqamətində edilmış cəhdlərin hamısı üzv dövlətlər tərəfindən inteqrasiyaya doğru atılmış addım kimi qiymətləndirilir. Bu yolla onlar Avrapa Şurasına daxil olmaq üçün lazim olan kriteriyalara cavab verən iqtisadi modeli əldə etmək niyyətindədirlər. Buna Avropa ilə coğrafi yaxınlıq, hələ ki, avropa ölkələri, ələlxüsus Fransa ilə mövcud olan iki tərəfli yaxınliq, xarici ticarət əlaqələri baxımından ixracin 2/3 hissəsi, o cümlədən ixrac olunan neft və neft məhsullarının 60-70%-i, fosforit və onun emal olunmuş məhsullarının 80%-nin, regonun sənaye avadanlıqları, kompleksləşdirici və yarımfabrikatlar, hazır və qida məhsulları ilə təminatın 65-79%-nin Avropanın payına böyük ümid verir. Böyük inersiya ilə Şimali Afrika ölkələrinin Qərbi Avropa dövlətlərindən texnoloji asılılıqları durmadan artır. Regionun daxili ticarəd dövriyyəsi get-gedə azalır. Bütün bunlar Ərəb Məğrib İttifaqının formal xarakter daşımasına gətirib çıxardır. Təşkilatın effektivliyinin Brus Rasset qaydası ilə qiymətləndirməsi, demək olar ki, ƏDL ilə anologi yaxınlıq yaradır. Regionun goğrafi tamlıq homogenliyi yüksək olduğundan, yekun bal ƏDL-i üstələyərək 9 olur.

Misir, İraq, İordaniya və Yəmən Demokratik Respublikasının dövlət başçılarının 1989-cu ildə Bağdad şəhərində keçirilmiş konfransında Ərəb Əməkdaşlıq Birliyi yarandı. Birliyin birgə qəbul olunmuş bəyannaməsində yeni birliyin Ərəb Dövlətləri Liqasini əvəz etməməsi, yalnız onun çərçivəsində fəaliyyət göstərməsi qeyd olunur. Təşkilatın məqsədi Birliyə daxil olan ölkələrin sosial-iqtisadi səviyyələrini yüksəltməkdən, bir-birinin daxili işlərinə qarışmamaq prinsipi əsasında aralarindakı əməkdaşlığı daha da gücləndirməkdən ibarətdir. Fəaliyyəti ancaq iqtisadi sahəni əhatə edən Birlik iqtisadi planları əlaqələndirməklə, daxili bazarların birləşməsin həyata keçirməklə, sənaye sahəsi də daxil olmaqla, iqtisadi inteqrasiya prosesini sürətləndirir. Bundan əlavə diqqətini regionda təhlükəsizliyin təmin olunması üçün hərbi müdaxilələrin qarşısının alinmasına və siyasi balansın saxlanmasına yönəldir.

İştirakçı dövlətlərin iqtisadi və sosial şəraitlərinin oxşarlığı Birliyin müvəffəqiyyətli olmasına müəyyən zəmanət verirdi. Lakin 1990-cı ildə baş vermiş Küveyt böhranı Birliyin fəaliyyətinə son qoydu. Biliyin iki üzvünün İraqı dəstəkləməsinə baxmayaraq, Misir beynəlmiləl qüvvələrin tərəfindən İraqa qarşı hərbi əməliyyatlara qatıldı. Effetivliy 8 balla qiymətləndirilən bu inteqrasiya qruplaşması ərəb iqtisadi inteqrasiya qruplarından ən qısa ömürlüsü oldu.

Avropa İttifaqının xarici işlər üzrə komissarının 2004-cü ildə İordaniya, Misir, Tunis və Mərakeşlə sərbəst ticarət sazişi imzaladı. Aqadir sazışı kimi məşhur olan bu saziş sərbəst ticarət zonasının yaranmasında çox vacib mərhələdir. Aqadir sazişi Böyük Ərəb Sərbəst Ticarət Zonası (BƏSTZ) yaradılmasına doğru atılmış addım hesab etmək olar. 2005-ci ildə yaranan və 18 Ərəb ölkəsinin üzv olduğu Zona 11,4 mln kv km sahəni və 355,5 mln nəfər əhalini (dünya əhalisinin 5,06%-i) əhatə edən Məğrib və Məşriqdən ibarətdir.

BƏSTZ-in yaradılmasında əsas diqqət xarici kapital, texnologiya, sənayenin modernləşməsi, işçi qüvvəsinin ixtisasının artırılmasına yönəldilib. Bu məqsəd və səbəblərdən əlavə BƏSTZ-in yaranmasıni üç əsas məsələ ilə əlaqələndirmək olar: a) sənaye ixracatını stimullaşdırmaq yolu ilə valyuta vəsaitləri əldə etmək; b) məşğulluğu artırmaq; c) zonanı yeni təsərrüfatçılıq üsullarının, milli təsərrüfatın artın qütbləirinin sınanması poliqonuna çevirmək.BƏSTZ-in ümumu xarakterik xüsusiyyəti özündə gömrük, maliyyə, əlverişli investisiya mühiti və ümumi rejimlə müqayisədə sahibkarlara vergi güzəştləri və üstünlüklər verilməsindədir.Bu inteqrasiya subyekti ərazisinin coğrafi bürövlüyü baxımından ƏDL-i üstələdiyindən effektivliyi 9 balla qiymətləndirilir. Yuxarıda effektivlik baxımından analiz olunan Ərəb dünyasının inteqrasiya qruplaşmalarından başqa əlaqələrin möhkəmlənməsini, intensiv şəkildə idarə olunmasını, təhlükəsizliyin bərqərar olmasini və s. təmin edən ixtisaslaşmış ərəb təşkilatları fəaliyyət göstərir [4] .

**Cədvəl 3**

**Ərəb ölkələrinin ixtisaslaşmış təşkilatları [4]**

| Təşkilatların adı | Yerləşdiyi ölkə | Yaranma ili |
|---|---|---|
| Ərəb ölkələrinin teleradio ittifaqı | Tunis | 1955 |
| ƏDL-in təhsil, mədəniyyət və elm təşkilatı | Tunis | 1964 |
| Səhra torpaqlarının öyrənilməsinin ərəb mərkəzi | Suriya | 1968 |
| Kənd təsərrüfatının inkişafının Ərəb təşkilatı | Sudan | 1970 |
| Ərəb industrial inkişaf və dağ mədən sənayesi təşkilatı | Mərakeş | 1978 |
| Ərab inzibati təşkilatı | Misir | 1961 |
| Ərəb əmək təşkilatı | Misir | 1965 |
| Atom energisi üzrə Ərəb şurası | Tunis | 1988 |
| Daxili işlər nazirlərinin Ərəb şurası | Tunis | 1964 |
| Peyk rabitəsi Ərəb təşkilatı | Səudiyyə Ərəbistanı | 1976 |
| Ərəb elm və texnologiya akademiyası | Misir | 1975 |
| Sərmayə və kənd təsərrüfatı inkişafı üzrə Ərəb kollegiyası | Sudan | 1971 |
| Mülki avasiyanın Ərəb assosiasiyası | Mərakeş | 1968 |
| Afrikanın iqtisadi inkişafının Ərəb bankı | Sudan | 1973 |
| Ərəblərin iqtisadi birliyi şurası | Misir | 1964 |
| İqtisadi və sosial inkişafın Ərəb fondu | Küveyt | 1968 |
| Sərmayəyə zəmanətin ərəblərarası korporasiya | Küveyt | 1970 |
| Ərəb valyuta fondu | BƏƏ | 1975 |

Azərbaycanın Ərəb dünyasına inreqrasiya olunma istiqamətində fəaliyyətə başlamazdan əvvəl cədvəldə sadalanmış ixtisaslaşmış təşkilatlarla qarşılıqlı əlaqələri gücləndirmək istiqamətində əməli addımlar atmaq lazımdır.

Regionun inreqrasiya qruplarının effektivliyik göstəriciləri onlar haqqında cəsarətlə danışmağa imkan verir.

**Şəkil 1**

**Regional inteqrasiya qruplarının effektivlik göstəriciləri**




Ərəb dünyası ölkələrinin əksəriyyəti Məşriq ölkələridir. İnteqrasiya qruplarindan Ərəd Məğrib Şurası istisna olmaqla yerdə qalan inteqrasiya qruplşmalarında Misir, BƏƏ, Bəhreyn, İordaniya, İraq, Küveyt, Qətər, Livan, Oman, Səudiyyə Ərəbistanı, Suriya, Yəmən və Fələstindən ibarət Məşriq ölkələri əksəriyyət təşkil edir. Effektivlik baxımından ən güclüsü olan KƏDƏŞ-in üzvlərinin hamısı, OAPEK-in isə 72,7%-i Məşriq dövlətləridir (Şəkil 1).

Dünyanın qədim ticarət mədəniyyəti Məşriqdə yerləşmiş «Bərəkətli Aypara» adlanan ərazidə meydana gəlmişdir. Finikiyalıların yaratdıqları ticarət, vasitəçilik və sələmçilik sistemini Fələstində məskunlaşmış yəhudilər, levantlılar mənimsəmiş, təkmilləşdirərək Anadolu yaylası və Fərat çayının orta axınından Sinayadək uzanan ərazilərin « istifadəsinə» vermişlər.

Azərbaycanla məsafəcə regional yaxınlıq baxımından Məşriq ölkələrindən İraq, Suriya və Livan ikinci zolaqda, Səudiyyə Ərəbistanı, Küveyt, Qətər və Misir 3-cü zolaqda yerləşir. Xarici ticarətdə qravitasiya nəzəriyyəsi baxımından, intuitiv olaraq, Məşriq ölkələri ilə əlaqələrin gücləndirilməsinin səmərəli olmasını söyləmək olar. Ümumiyyətlə, Azərbaycan Respublikasının ərəb dünyasının qabaqcıl ölkələri ilə xarici ticarət əlaqələrinin gücləndirilməsi zəruridir və bu istiqamətdə davamlı olaraq məqsədəuyğun tədbirlər həyata keçirilməlidir.

## Ədəbiyyat

1. R.T.Həsənov. Azərbaycan Respublikasının sosial iqtisadi inkişafının bazar modelinin konseptual əsasları. Bakı, Elm, 343 səh.
2. Ə.M.Həsənov. Müasir Beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Dərslik, Bakı, Elm, 2005
3. Ə.M.Həsənov. Azərbaycan Respublikasının milli inkişaf və təhlükəsizlik siyasəti. Bakı, Avanqard, 2011, 437 səh.
4. А.Р.Бяшарова. Арабские страны в мировой торговле // Материалы научного проблемного семинара молодых ученых. М., МИРБИС (Институт), 2015

## THE MAIN FEATURES OF THE FORMATION OF ECONOMIC RELATIONSHIP BETWEEN CONTEMPORARY ARAB COUNTRIES

**E.Y.Gasimzadeh**

### SUMMARY

This paper studies the main features of forming economic relationship between contemporary Arab countries. Gaps and deficiencies are diagnosed in this field, the ways to correct them soon are suggested.

## ОСОБЕННОСТИ ФОРМИРОВАНИЯ ВЗАИМНЫХ ЭКОНОМИЧЕСКИХ ОТНОШЕНИЙ СОВРЕМЕННЫХ АРАБСКИХ СТРАН

**Э.Я.Касимзаде**

### РЕЗЮМЕ

В статье рассматриваются основные особенности формирования взаимных экономических отношений современных арабских стран. Выявлены упущения и недостатки, существующие в данной сфере, определены направления по их устранению в ближайшее время.

2017 - № 47

# KƏND TƏSƏRRÜFATINA DÖVLƏT DƏSTƏYİNİN FORMA VƏ METODLARI

**Ə.B.Quliyev**
Kənd Təsərrüfatının İqtisadiyyatı Elmi Tədqiqat İnstitutu
Bakı AZ1130, Dərnəgül qəsəbəsi, 3097-ci məhəllə
e-mail: afqan.quliyev.68@mail.ru

***Açar sözlər:*** kənd təsərrüfatı, ərzaq təhlükəsizliyi, investisiya cəlbediciliyi, bazar konyukturası
***Keywords:*** agriculture, food security, investment attractiveness, market conjuncture
***Ключевые слова:*** сельское хозяйство, продовольственная безопасность, инвестиционная привлекательность, рыночная конъюнктура

Ölkədə ərzaq təhlükəsizliyinin təmin edilməsi və kənd təsərrüfatının səmərəli inkişafı baxımından istənilən dövlət kənd təsərrüfatına dəstək olmalıdır. Bu dəstəyin forma və metodlarının müəyyənləşdirilməsi isə bəzən dövlətin istisadi siyasətinin necə müəyyənləşdirilməsindən aslı olur.

Müşahidələr təsdiq edir ki, kənd təsərrüfatına dövlət dəstəyinin göstərilməsi üçün hüquqi, təşkilatı, inzibati, sosial və digər məsələlərin birgə və sistemli şəkildə həyata keçirilməsi zəruridir. Bu baxımdan, bir çox iqtisadçılar kənd təsərrüfatına dövlət dəstəyinin həyata keçirilməsinin mürəkkəb olduğunu və ya kənd təsərrüfatının mürəkkəb iqtisadi, təbii-bioloji bir sistem olduğunu qeyd edirlər.

Kənd təsərrüfatına dövlət dəstəyinin forma və metodlarını göstərməzdən öncə bu dəstəyi zəruri edən amilləri sadalamaq lazımdır. Bu amilləri aşağıdakı kimi təsnifləşdirmək olar:

- əvvəla, müxtəlif iqlim və təbiət hadisələri kənd təsərrüfatında risk amilini gücləndirir ki, bu da dövlət dəstəyinin zəruriliyini, dəyən zərərin kompensasiya olunması baxımından onun hüquqi əsaslandırılmasını şərtləndirir;
- ikincisi, kənd təsərrüfatı məhsullarının qiymətlərinin bazar konyukturasından və iştisadi şəraitdən asılılığının yüksək olması;
- investisiya cəlbediciliyinin zəif olması;
- kənd təsərrüfatında istehsal resurslarından səmərəli istifadə edilməsi;
- aqrar sahədə stabil iqtisadi şəraitin dəstəklənməsi;
- arzuolunmaz miqrasiyanın qarşısının alınması;
- daxili istehsalın və bazarın qorunması;
- ölkənin ərzaq təhlükəsizliyinin dəstəklənməsi;
- material və maliyyə resurslarının çatışmazlığı, aşağı texniki səviyyə, əməyin həvəsləndirilməsi sisteminin olmaması, sahələrarası əlaqələrin pozulması, kənd yerlərində sosial gerilik və s. dövlət dəstəyini zəruri edir.

Ümumiyyətlə, qeyd etmək lazımdır ki, istənilən ölkədə kənd təsərrüfatına dövlət dəstəyinin forma və metodlarının seçilməsi iqtisadi inkişaf strategiyasından, eləcə də iqtisadi sistemin tipindən asılı olaraq müəyyənləşdirilməlidir. Bazar iqtisadiyyatı inkişaf etmiş və ya təkmil bazar iqtisadiyyatlı ölkələrdə dövlətin kənd təsərrüfatına dəstəyinin forma və

taniyanın 2014-cü ildən başlayaraq, elmi-tədqiqat və innovasiya fəaliyyəti sahəsində Avropa İttifaqına yönələn maliyyələşmə ilə bağlı strategiyasıdır. Böyük Britaniyada intellektual mülkiyyət məsələləri ilə bağlı patentlər, sənaye nümunələri (modelləri), ticarət nişanları və müəllif hüququ mövcuddur. Böyük Britaniyada intellektual mülkiyyət ilə bağlı fəaliyyətdə səlahiyyətlər, dövlət orqanı olan İntellektual Mülkiyyət Agentliyinə (*The Intellectual Property Office* - IPO) məxsusdur. BİS İPO-nun fəaliyyətinə nəzarəti həyata keçirən yuxarı təşkilatdır. BİS-in nümayəndələri İPO-nun fəaliyyət strategiyasını müəyyən edən İdarəetmə şurasının müstəqil üzvüdürlər. İdarəetmə şurasının nəzdində İPO-nun Audit komitəsi fəaliyyət göstərir və o, təşkilatın fəaliyyətinə hərtərəfli nəzarət etmək üçün tələb olunan zəruri məlumatlara malikdir. BİS 2010-cu ilin mayında "Innovativ infrastrukturun xülasəsi - innovativ sistemin formalaşması üzrə iş" (*BIS Innovation Infrastructure Report - Working towards an Innovation System*) adlı sənəd hazırladı. İPO bu sənəddə göstərilən müddəaları yerinə yetirmək məqsədilə BİS ilə qarşılıqlı fəaliyyət göstərir. Böyük Britaniyanın ərazisində on üç sayda patent məlumat mərkəzi (*Patent Libraries* və ya PATLIBs) yerləşir. Bu mərkəzlərin ixtisaslaşmış və təcrübəli personalı intellektual mülkiyyətlə bağlı müxtəlif məsələlərin həllində köməklik göstərir. Böyük Britaniya Avropa Birliyinin üzvü olduğuna görə, IPO Avropa Məhkəməsinin (*European Court of Justice* - ECJ) intellektual mülkiyyətlə bağlı məsələlər üzrə məhkəmə işlərinin monitorinqini aparır və Nazirlər Kabinetinə məlumat verir. Nazirlər Kabineti isə, əldə olunan məlumatlar əsasında bu və ya digər məhkəmə proseslərində onların da iştirak etmələrinin zəruriliyi haqqında qərarlar qəbul edir. IPO-nun İnternet saytında olan ayrıca bölməsində saytın istifadəçiləri, o cümlədən qeyri-dövlət ekspertləri və müxtəlif sahələr üzrə mütəxəssislər patent ərizəsini öyrənə və fikirlərini ifadə edə bilərlər. Patent ərizələrinin ictimai müzakirəsi onların qiymətləndirilməsinin keyfiyyətini artırmağa kömək edir.

Böyük Britaniyada innovasiyalar sahəsində dövlət tədbirlərinin həyata keçirilməsində məsuliyyəti Texnoloji Strategiyalar Şurası (TSB) daşıyır. Texnoloji Strategiyalar Şurası Britaniya iqtisadiyyatında məhsuldarlığın daha sürətli artım potensialına malik sahələrində texnoloji innovasiyların irəliləməsi ilə məşğul olur. O, həmçinin texnoloji tədqiqatlara dəstək verir, alınan nəticələrin istehsalatda tətbiq edilməsini və onların kommersiyalaşmasını investisiya edir. Texnoloji Strategiyalar Şurası Böyük Britaniyanın Ticarət və Sənaye Nazirliyində 2004-cü ildə yaradılıb. 2007-ci ildə Ticarət və Sənaye Nazirliyinin yenidən təşkilindən sonra, TSB Britaniya Hökumətində müstəqil quruma çevrildi və Londondan Svindona köçdü. Onun tərkibində çoxlu sayda elmi və tədqiqat şuraları, habelə Britaniya Kosmik Agentliyi yerləşir və o:

- dövlət innovasiya proqramlarının idarə edilməsini həyata keçirir;
- innovativ texnoloji həlləri nümayiş etdirmək üçün "istehsalat nümunələrini" hazırlamaqda və işə salmaqda iştirak edir;
- bütün innovativ şirkətlər üçün maliyyələşmənin mümkünlüyünü təmin edir;
- tədqiqatların bütün mərhələlərində şirkətlərə metodoloji dəstək verir;
- innovativ siyasət məsələləridə hökumətə məsləhətlər verir.

TSB-nin maliyyə və fəaliyyət mənbələri BİS, digər nazirliklər və regional strukturlardır.

TSB 2007-ci ildən etibarən Britaniya innovasiyalarının inkişafına, tərəfdaşları ilə birlikdə 2 mlrd. funt sterlinqdən çox vəsait xərcləyib, habelə 3 mindən çox müəsisənin ideya və praktik işlərini maliyyələşdirib.

Böyük Britaniyada innovasiyaların inkişafına xidmət edən infrastrukturun vacib tərkib hissələrindən biri inkişaf etmiş elmi-tədqiqat innovasiya parkları və biznes-inkubatorlar şəbəkəsidir. Onların hamısı, praktik olaraq, Böyük Britaniyanın elmi parklar Assosiasiyası (UK Science Park Association və ya UK SPA) çərçivəsində birləşib. Assosiasiyanın 2013-cü il hesabatına görə, sentyabr ayına qədər onun üzvlərinin sayı 82 fəaliyyətdə olan texnoparkdan ibarətdir. Bu texnoparklarda işçilərin ümum sayı 74045 olmaqla, 4083 şirkət birləşir. Bu şirkətlərin daha çox populyar olan fəaliyyət sahələri kompüter texnologiyaları və telekommunikasiyalar, biznes-xidmətləri və biotexnologiyalardır. Belə şirkətlərin demək olar ki, yarısında (44%) ştat üzrə 5 nəfərdən çox olmayaraq əməkdaş çalışır.

**Ədəbiyyat**

1. www.ved.gov.ru
2. Səmədzadə Z.Ə. Çin qlobal dünya iqtisadiyyatında. Bakı: Elm və təhsil, 2009, 608 s.
3. Агеев А. и др. Стратегическое конкурирование мировых товарных рынков // Экономические стратегии. 2015, № 2, с.18-27.
4. Алексеенко В.В. Инновационные стратегические компании как фактор национальной конкурентоспособности. М.: Научная книга, 2006, 136 с.

## QLOBAL İNVESTMENT AND İNNOVATİVE TENDENCİES AS A STİMULUS FOR THE DEVELOPMENT OF TRADE AND ECONOMİC RELATİONS BETWEEN COUNTRİES

**A.R.Aslanov**

**SUMMARY**

In spite of deep theoretical and methodological research on trade and economic relations between individual countries, many problems existing between them stay unsolved. These problems include theoretical approaches to the study of bilateral relations in the system of integration processes, designing a business strategy in the system of trade and economic relations, shaping competitive innovation policy in the system of bilateral relations between countries.

## ГЛОБАЛЬНЫЕ ИНВЕСТИЦИОННО-ИННОВАЦИОННЫЕ ТЕНДЕНЦИИ КАК СТИМУЛ РАЗВИТИЯ ТОРГОВО-ЭКОНОМИЧЕСКИХ СВЯЗЕЙ МЕЖДУ СТРАНАМИ

**А.Р.Асланов**

**РЕЗЮМЕ**

Несмотря на глубокие теоретико-методологические исследования торгово-экономических связей между отдельными странами, многие вопросы до сих пор не нашли свое решение. К их числу можно отнести теоретические подходы в исследовании двусторонних отношений в системе интеграционных процессов, выработка стратегии ведения бизнеса в системе торгово-экономических связей, определение конкурентной инновационной политики в системе двусторонних отношений между странами.

# H Ü Q U Q

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# L A W

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# İRANIN VERGİ HÜQUQUNUN PRİNCİPLƏRİ VƏ BEYNƏLXALQ VERGİ HÜQUQU

**Ş.H.Xösrəvi**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: shahryar1963@gmail.com

***Açar sözlər:*** beynəlxalq vergi hüququ, ədalət məhkəməsi, İranın daxili vergi hüququ, beynəlxalq vergi münasibətləri, vergi qanunvericiliyi, vergidən yayınma

***Keywords:*** international tax law, justice, Iran's domestic tax law, international tax relations, tax legislation, tax evasion

***Ключевые слова:*** международное налоговое право, правосудие, внутреннее налоговое законодательство Ирана, международные налоговые отношения, налоговое законодательство, уклонение от налогов

Vergitutma nəzəriyyəsi vergi islahatları prinsiplərinin 2 qrupunu nəzərdə tutur. Birinci qrupa vergitutmanın klassik prinsipləri daxildir. İkinci qrupa isə ayrıca götürülmüş bir ölkədə vergi islahatları aparılan zaman həmin ölkənin spesefik xüsusiyyətlərini nəzərə alan prinsiplər daxildir. Bu hal beynəlxalq vergi hüququnun həyata keçirildiyi İranın daxili vergi qanunvericiliyi üçün də qəbul edilməlidir. İran qanunvericiliyinin beynəlxalq vergi hüququna uyğunluğunun, İranın tərəfdar olduğu beynəlxalq vergi müqavilələrinin İran qanunvericiliyində implementasiya olunma (təmin edilmə) səviyyəsini bilmək üçün oxşar prinsiplər beynəlxalq vergi hüququnun prinsiplərilə müqayisə edilməlidir (4, s.211).

Beynəlxalq vergi hüququnun prinsipləri bu münasibətlərin iştirakçıları üçün əlverişli vergiqoyma üçün zəruri şəraitin yaradılmasına istiqamətlənən dövlətlərarası əməkdaşlığı formalaşdırır. Vergi suverenliyi prinsipi beynəlxalq vergi münasibətlərinin subyektləri tərəfindən dövlətlərin öz ərazisindəki fiziki şəxslərdən və təşkilatlardan vergi və rüsumları müəyyən etmək və toplamaq hüququnun qeydsiz-şərtsiz tanınmasından ibarətdir. Müəllif mükafatlandırılmasından ödənilən ikiqat vergiqoymadan yayınmaq haqqında (Madrid, 1979-cu il) konvensiyanın 5-ci maddəsində qeyd edilmişdir ki, müəllif mükafatlarının ödənilməsinin ikiqat vergiqoymasına qarşı yönəlmiş fəaliyyət «mənbə dövlətinin və yaşayış dövlətinin vergi suverenliyinə və onların hər ikisinin bu mükafatlara bərabər vergiqoyma hüququna malik olmasına hörmət edilməsilə» həyata keçirilməlidir.

Dövlətin vergi suverenliyindən doğan vergi yurisdiksiyası dövlətlərin, o cümlədən İranın bu sahədə həyata keçirdiyi qanunvericilik və digər tədbirlərdə ifadə edilir. Bu səlahiyyət həm İran Konstitusiyasında, həm də ayrı-ayrı vergi qanunlarında əks olunub. Vergi ölkənin dövlət suverenliyinin əsas təzahür formalarından biridir. Vergilər dövlət tərəfindən birtərəfli qaydada, yəni ayrı-ayrılıqda götürülmüş hər bir vergi ödəyicisi ilə razılaşdırılmadan müəyyən edilir. Vergi ödəyicisindən hər hansı bir verginin tutulması üçün həmin vergi növü müəyyən edilməlidir (15, s.95).

İranın vergi suverenliyi beynəlxalq vergi münasibətlərinin hüquqi tənzimlənməsi üzrə beynəlxalq hüquqi əməkdaşlığın qurulmasında və ərazisindəki vergi obyektlərinin vergiyə cəlb edilməsi, rezidentlərlə bağlı məsələlərin tənzimlənməsində vergi yurisdiksiyasının həyata keçirilməsində təzahür edir.

İranın daxili vergi hüququnda: vergilərin qanuni olması; vergilərin ümumi olması; vergi güzəştləri; vergilər iqtisadi cəhətdən əsaslandırılmalıdır; vergilərlə bağlı qanunvericilik ümumi, bərabər və ədalətli olmalıdır; heç kəs əldə etdiyi gəlirdən (mənfəətdən) eyni növ vergini bir dəfədən artıq ödəməyə məcbur edilə bilməz; vergilər siyasi, etnik və s. xüsusiyyətlərə görə tətbiq edilə bilməz və diskriminasiya xarakteri daşıya bilməz; vergi sistemi sahibkarlığı və investisiya qoyuluşunu təşviq edir; vergilər haqqında qanuvericilikdə mövcud olan ziddiyyətli və qeyri-müəyyən məqamlar vergi ödəyicisinin xeyrinə şərh edilməlidir və s. bu kimi prinsiplər əks etdirilib.

Vergilərin qanuni olma prinsipi vergilərin qoyulması haqqı olaraq dövlətin funksiyalarından biri kimi, ümumi hüququn əsas prinsipidir. Beden demişdir: "Vergilərin nəzərə alınması qanun qəbulundan ibarətdir. O, digər tərəfdən dövləti qanunun qəbul edən və komandan kimi izah etdiyinə görə, beləliklə vergi və qanunu dövlətin ortaq özülü hesab edir. Verginin nəzərə alınması gücü sadə bir fikir deyil, bəlkə də birinci dərəcədə bir siyasi reallıqdır.

Montöskyö "Qanunların ruhu" əsərinin bir çox fəsillərində azadlıqla vergi arasında əlaqənin olmasını göstərməyə maraq göstərmiş, hətta onun adı ilə bağlı hesab edilən formula da mövcuddur. Həmin formula belədir: "Əhalinin bütün azadlığı vergidə xülasə edilir". Vergilərin tətbiqi gücü bir hüquqi reallığı da arxasınca gətirir.

1789-cu ildə qəbul edilən Fransanın insan və vətəndaş hüquqlarında belə deyilir: "Əhalinin hamısının öz nümayəndələri vasitəsilə vergilərin hamı tərəfindən ödənilməsi və yığılmasına, eləcə də onun istifadəsinə nəzarət edib, eyni zamanda onun alınma üsulu və müddətini müəyyən etməyə haqları vardır. Vergilərin qanunilik prinsipinin möhkəm olduğu nəzərə çarpır, konstitusiya və adi qanunlar da onun tətbiqinə xüsusi əhəmiyyət verirlər. Ona görə də bütün ölkələrin konstitusiyalarında, o cümlədən İranın konstitusiyasında da bildirilir ki, heç bir vergi növünü qanuni qərardan kənar almaq olmaz. Bu mövzu İran konstitusiyanın 51-ci maddəsində aşağıdakı kimi verilmişdir: "heç bir vergi növü qanunsuz tətbiq edilə bilməz". Bu konstitusiya norması İranın ayrı-ayrı vergi qaqnunlarında və bağladığı, həm insan hüquqları üzrə, həm də beynəlxalq vergi müqavilələrində də ifadə edilib (10, s.125-126).

Vergilərin ümumi olma prinsipi, onun ümumi olmasına və ya şəxsi olmamasına səbəb olmuşdur. 1789-cü il Fransa insan və vətəndaş hüquqları bəyannaməsində, ondan sonra isə üçüncü il bəyanatında, eləcə də 1848-ci il Fransa konstitusiyasında bu prinsip öz əksini tapmışdır. Bundan sonra bütün konstitusiyalarda da bu məsələyə təkid edilmiş və bərabərlik məsələsi də nəzərə alınmışdır.

Vergi məsələsində bərabərlik nəzəriyyəsini düzgün hesab ediriksə, onun təhlilinin dəqiq məsələ olmasını qəbul etməliyik. 1789-cü il Fransa insan və vətəndaş hüquqları bəyannaməsinin 13-cü maddəsində deyilir: "vergi ümumi olmaqla, bərabər şəkildə fərdlərin imkanına uyğun onlar arasında bölünüb nəzərə alınmalıdır". Vergilərdə bərabərlik məsələsi daima mürəkkəblik məsələsinə gətirib çıxarmış və bəzən siyasi cəhətdən, bəzən isə iqtisadi cəhətdən, bəzən də hüquqi cəhətdən diqqət özünə çəkmişdir. Bütün bu cəhətlərin nəzərə alınması ilə bərabərlik məsələsinin izahı çətin məsələdir.

Hər halda vergilərin nəzərə alınmasında əsas prinsiplərdən biri bərabərlik prinsipidir və bu məsələ bütün ölkələrin qanunlarında nəzərə alınmışdır. İngiltərə kimi yazılmış konstitusiyası olmayan ölkədə isə bu məsələ əsas prinsip kimi qəbul edilmişdir. Bu məsələ "vergidə ədalət" adı altında qeyd edilir. Əlbəttə nəzərə almaq lazımdır ki, fərdlərin bərabərliyi deyiləndə ədədi bərabərlik deyil, fərdlərin ödəmə qabiliyyəti ilə ver-

ginin mütənasib olması nəzərdə tutulur. İranın Azərbaycan Respublikası ilə bağladığı müqavilədə (m.24(4)) şərtlərinin bərabərləşdirilməsi tələb edilir. Müqavilələrdə bərabərlik bir tərəfdən milli rejim prinsipinin əsası kimi digər tərəfdən də ayrı-seçkilik etməmək kimi təsbit edilir.

Sazişin 24-cü maddəsində deyilir ki, Razılığa gələn Dövlətin milli şəxsləri Razılığa gələn digər Dövlətdə həmin digər Dövlətin milli şəxslərinin eyni şəraitdə cəlb edildiyi və ya cəlb edilə biləcəyi vergitutma və ya bununla bağlı olan öhdəliklərdən fərqli və ya daha ağır olan vergitutma və ya bununla bağlı olan öhdəliklərə cəlb edilməməlidir. Bu müddəa, 1-ci maddənin müddəalarından asılı olmayaraq, həmçinin Razılığa gələn Dövlətlərdən birinin və ya hər ikisinin rezidenti olmayan şəxslərə də tətbiq edilir (14, s.169).

Lakin burada milli rejim prinsipi məhdudiyyətlə verilir. Belə ki, həmin maddənin 24.5 maddəsində deyilir ki, bu müddəalar, Razılığa gələn Dövlətin üzərinə onun, mülki status və ya ailə öhdəlikləri nəzərə alınmaqla öz rezidentlərinə verdiyi verigitutma məqsədləri üçün hər hansı şəxsi imtiyazların, güzəştlərin və çıxılmaların Razılığa gələn digər Dövlətin rezidentlərinə də verilməsi öhdəliyinin qoyulması kimi təfsir edilməməlidir. İranın vergi hüququnda da bu istisna mövcuddur. İran vergi qanunvericiliyində qeyd edilir ki, İrana gətirilən mallar üçün həmin malların hansı ölkədən gətirilməsindən asılı olaraq qanunvericiliyə uyğun olaraq müxtəlif gömrük rüsumu dərəcələrinin müəyyən edilməsi mümkündür. Mənsubiyyətdən asılı olmayaraq, xarici vergi ödəyicilərinə şamil edilən daha geniş məzmunlu rejim ayri-seçkiliyi istisna edən «ümumi rejimi» qeyd etmək olar. Ayri-seçkiliyi istisna edən ümumi rejim rezidentlər üçün nəzərdə tutulur. Vergi ödəyicisinin rezidentliyi vergi ödəyicilərinin bərabər şəraitdə olmasını müəyyən edən faktorlardan biridir.

İranın bağladığı beynəlxalq sazişlərlər də rezidentlər və qeyri-rezidentlər üçün fərqli rejimin müəyyən edilməsi imkanının verilməsi normal haldır. Məlum olduğu kimi qeyri-rezidentlər rezidentlərlə bərabər şərtlərə malik deyil. Rezidentlərinin gəlirləri bütün vergilərə cəlb edildiyi halda, qeyri-rezidentlər, bir qayda olaraq yalnız əlaqəli gəlirlərin mənbəsi qaydaları üzrə vergilərə cəlb edilir. Qeyd edilən halı nəzərə alaraq qeyri-rezidentləri vergilərədən azad etmək, vergi bəyannaməsini dolduran şəxsin mülki statusunu müəyyən etmək və s. üçün müxtəlif qaydalar tətbiq edilir.

İran qanunvericiliyində rezidentliyin müəyyən edilməməsi prinsipləri onun bağladığı sazişlərdəki prinsiplərlə uyğunluq təşkil edir. Məsələn, Azərbaycan Respublikası ilə bağlanan Sazişdə beynəlxalq praktikada mövcud olan bütün meyarlar sadalanır, baxmayaraq ki, daxili qanunvericilikdə əsasən inkorparasiya prinsipi təsbit edilib. Sazişin 4-cü maddəsində bu məsələ ətraflı tənzimlənir.

Məlum olduğu kimi, vergi hüquq münasibətlərində xarici hüququn subyektlərinə münasibətdə əsas vergi rejimləri kimi: ayrı-seçkiliyə yol verməmək rejimi; milli rejim; daha əlverişli rejim fərqləndirilir.

Ayrı-seçkilik etməmək rejiminin standartı kimi həm milli rejim, həm də daha əlverişli rejim çıxış edə bilər. Ayrı-seçkilik etməmək adət hüquq norma kimi onun standartları müqavilə və qanunvericilik qaydasında təqdim edilən digər rejimlərə əsaslanır.

Yeni sivilizasiyanın nəticələrindən biri insanlar arasında ayrı-seçkiliyi ortadan qaldırmaqdır. Ümumdünya insan hüquqları bəyannaməsinin birinci maddəsinə görə "bütün insanlar azad dünyaya gəlir, hüquq və şəxsiyyət baxımından bərabərdirlər" (1, s.257). Həmin bəyannamənin ikinci maddəsi isə insanlar arasında ayrı-seçkilikdən çəkin-

mə məsələsində təkid edir. Yeddinci maddə isə qanun qarşısında insanların bərabər olmasına işarə edir. Maddə 26-da isə bildirilir: bütün şəxslər qanun qarşısında bərabərdirlər və heç bir ayrı-seçkilik olmadan bərabər hüquqa malik olmağa haqlıdırlar. Bu prinsip maliyyə hüququnda da hüququn qəti prinsiplərindəndir. Lakin bir o qədər böyük keçmişə malik deyildir. Çünki, keçmişdə vətəndaşlar bərabər hüquqa malik deyildilər, bəlkə xüsusilə vergilərin ödənilməsi məsələsində aristokratlar, vergi tələbini onlara qarşı bir növ özlərinə hörmətsizlik kimi başa düşürdülər. Belə düşüncə Romada hakim idi və vergini xaricilər və məğlub olan xalqlardan, eləcə də adi və dövlətin qəzəbinə tuş gələn əhalidən alırdılar (7, s.140). Vergilərin ödənilməsində ayrı-seçkiliyin olmaması prinsipi azadlıq fədailərinin mübarizəsinin nəticəsidir və bu gün dünya ölkələrinin konstitusiyalarının mühüm prinsiplərindən biridir.

İran İslam Respublikasının konstitusiyası fərdlər arasında ayrı-seçkiliyin olmaması və onların qanun qarşısında bərabərliyinə inamın mövcudluğu haqqında mövqeyini bildirmək üçün 107-ci maddənin sonunda təkid edilir: “Rəhbər qanun qarşısında ölkənin digər fərdləri ilə bərabərdir”.

Vergilərin müəyyən edilməsində müxtəlif üsullar vardır: vergilərin ədalət prinsipi; vergilərin müəyyənliyi; vergilərin rahat toplanması; qənaətçilik prinsipi; vergilərin illik olması.

Ədalət məsələsində məqsəd ondan ibarətdir ki, dövlət əhalinin ödəmə gücünə uyğun vergini tələb etməli və xalqın hamısı vergi ödəmə məsələsində iştirak etməlidir. Əlbəttə bu o demək deyildir ki, ölkənin bütün fərdlərinə, vergi ödəmək istisnasız olaraq şamil olmalıdır. Bəlkə, bəzi fərdlərə və müxtəlif təbəqələrə güzəştə gedilməlidir və ədalət prinsipi də bu deməkdir. Əslində ədalət prinsipində məqsəd odur ki, hər təbəqəyə aid olan şəxslər arasında alınan vergidə fərq qoyulmamalıdır. Bu prinsip “nisbi vergi” prinsipi adı ilə tanınır. Həmin prinsipə əsasən vergilərin nəzərə alınması o zaman ədalətli olar ki, vergi ödənilməsində hər fərd öz gəlirinin bərabər nisbətini vergi kimi ödəsin.

Deməli, ədalətlilik verginin əsas xarakteri olmalıdır. Əsasən bir növ verginin lehinə və ya əleyhinə qeyd edilən rəylər həmin vergi növünün ədalətli olub olmaması haqqında olur. Lakin verginin ədalətli olmasını müəyyənləşdirən bütün insanların qəbul edəcəyi sənəd və mənbə axtarmaq istəsək, problemlə üzləşərik. Səbəb ondan ibarətdir ki, vergi sahəsində ədalət məsələsinin məqsədinin və anlamının nə olduğu müəyyən olmalıdır. Ədalət mövzusu qədimdən filosoflar və ictimai elmlər alimlərinin tədqiqatında diqqət mərkəzində olmuş, hələ də müzakirə edilir. Bütün filosofları razı salan məsələnin ədalətli olmasının müəyyənləşdirilməsinə dair sənəd və mənbə haqqında hələ də anlaşma mövcud deyildir. Hələ də ədalət mövzusu subyektiv və fərdi meyl xarakteri daşıyır. Bununla belə verginin alınmasında ədalətlilik məsələsi ilə əlaqədar müəyyən üsulu həyata keçirmək mümkündür. Onlardan biri maddi vəziyyəti fərqli olan fərdlərlə vergi toplanmasının eyni səviyyədə alınmamasıdır. Deməli, ədalətin icrası üçün fərdlərin maddi vəziyyəti və imkanı ilə əlaqədar bir növ sinifləşdirmənin aparılması lazımdır.

Hüquqda “müəyyənlik” prinsipi vergi qanunvericiliyində verginin müəyyən olması prinsipi kimi meydana çıxır. Verginin müəyyən olması prinsipi, verginin toplanmasında nəzərə alınmalıdır. Həmin prinsip əsasında vergi ödəyən hər şəxs üçün məbləğdən əlavə ödəmə vaxtı və ödəmə üsulu da müəyyən olmalıdır (9, s.127). Əslində nəzərdə tutulan vergi haqqında vergi ödəyənin məsuliyyəti özü və hətta digərləri üçün tam müəyyən və aydın olmalıdır. Bu prinsipə riayət edilməməsi məmur özbaşınalığı və rüşvətxorluğuna gətirib çıxarar. Ona görə də bu prinsipin riayət edilməsi ədalətlilik prinsipindən də önəmli-

dir. Deməli, vergi tam aydın olmalı, məbləği, ödəmə zamanı və ödəmə üsulu vergi ödəyiciləri üçün tam məlum olmalıdır. Vergi haqqında hər hansı məsələ vergini toplayan məmurun rəyinə buraxılmamalıdır. Verginin müəyyən edilməsi dedikdə, konkret vergi ödənişini müəyyən edən və dövlətin fəaliyyətdə olan vergi sistemində ona yer ayıran normativ aktın qəbul edilməsi başa düşülür. Bu bir növ verginin hüuqi cəhətdən yaranması, qanunvericiliklə bəyan edilməsi deməkdir. Bu zaman qarışıq, qeyri-müəyyən məqamlar da vergi ödəyicisinin nəfinə həll edilməlidir. Bu məsələ İranın vergi qanunvericiliyində ayrıca maddə ilə ifadə edilməlidir.

Həmin prinsipdən məqsəd verginin münasib vəziyyət və şəraitdə toplanmalı və vergi ödəyicilərinə narahatçılıq yaradılmamalıdır. Həmin prinsipə görə verginin ödəmə zamanı və ödəmə üsulu haqqında toplanması şəraiti elə hazırlanmalıdır ki, vergi ödəyicisi üçün mümkün minimum təzyiq olmasın, dövlət üçün isə vergi alınanda narahatçılıq əmələ gəlməsin. Misal üçün gəlir vergisi fərdin gəliri ona çatmadan və ya xərclənib qurtarandan sonra yox, bəlkə gəliri əlinə çatan kimi alınmalıdır. Həmin prinsipə uyğun alınan vergi növlərindən biri istehlaka alınan vergidir. Belə ki, onun ödəyici üçün ödənilməsi və dövlət üçün ödəmə zamanı və ödəmə üsulu baxımından çox sadədir. Eyni zamanda əmək haqqına tutulan vergi də ticarət və dövlət müəssisələri tərəfindən əmək haqqının ödənilməsi zamanı dövlət hesabına çıxılaraq ödənilir. Şübhəsiz vergilərin bölünmə imkanı (gəlirə vergi, əmlaka vergi və mirasa vergi) həmin prinsipin həyata keçməsində effektiv olacaqdır.

İranın ikiqatvergiqoymanın və vergidən yayınmanın aradan qaldırılması haqqında Almaniya ilə bağladığı Sazişdə (m.2) əhatə edilən vergilər qeyd edilir. Eyni zamanda (m.1) əhatə olunan şəxslər ifadə edilib. Azərbaycan Respublikası ilə bağlanan Sazişin 1-ci maddəsində vergi ödəyiciləri, rezidentlər, 2-ci maddəsində əhatə olunan vergilər hər bir dövlətə münasibətdə ayrı-ayrılıqda fərqləndirilərək sadalanır. Sazişin 2-ci maddəsinin 2-ci bəndində qeyd edilir ki, gəlirlərə və əmlaka görə vergilərə - gəlirin ümumi məbləğindən, əmlakın ümumi dəyərindən və ya gəlirin və ya əmlakın elementlərindən tutulan bütün vergilər, o cümlədən, daşınan və ya daşınmaz əmlakın özgəninkiləşdirilməsindən gəlirlərdən vergilər, müəssisələr tərəfindən ödənilən əmək haqqı və ya maaşların ümumi məbləğlərindən vergilər, həmçinin əmlakın dəyərinin artımından vergilər aiddir (6, s.117).

Beynəlxalq müqavilələrin mühüm əhəmiyyəti odur ki, vergi obyektlərini həmin əmlaka tətbiq edilən hüquqla qiymətləndirir. Azərbaycan Respublikası hökuməti ilə bağlanan Sazişin 6-cı maddəsinin 2-ci bəndində deyilir ki, bu Sazişdə "daşınmaz əmlak" termini həmin əmlakın yerləşdiyi Razılığa gələn Dövlətin qanunvericiliyinə əsasən malik olduğu mənanı daşıyır. Bu termin istənilən halda, daşınmaz əmlaka münasibətdə yardımçı əmlakı, kənd və meşə təsərrüfatında istifadə edilən mal-qara və avadanlığı, torpaq mülkiyyəti barədə ümumi qanunvericiliyin müddəalarının tətbiq edildiyi hüquqları, daşınmaz əmlakın, neft və ya qaz yataqlarının və təbii resursların hasilatı üzrə digər yerlərin, o cümlədən oduncaq və digər meşə təsərrüfatı məhsullarının işlənməsi və ya işlənmə hüququ əvəzində ödənilən dəyişkən və ya təsbit olunmuş ödənişlərə olan hüquqları əhatə edir. Gəmilər, qayıqlar, hava gəmiləri və ya yol nəqliyyatı vasitələri daşınmaz əmlak hesab edilmir.

Beynəlxalq vergi hüququnun "vergi suverenliyindən doğan vergi yurisdiksiyasına" uyğun olaraq dövlətlər vergilərin müəyyənləşdirilməsi üsulunu müəyyən edirlər.

Əlbəttə yalnız bu prinsiplə vergilər müəyyənləşdirilmə xərclərin ümumi olması ilə əlaqədar fərdlərin istifadə miqdarını tez müəyyən etmək çətindir. Çünki, fərdlərin düzgün

istifadəsini müəyyənləşdirmək üçün meyar mövcud deyildir. Misal üçün kiminsə nə qədər milli polisin müdafiə xidmətindən, ümumi sanitariya xidmətindən, xeyriyyə müəssisələrindən, mədəniyyətdən və s. istifadə etdiyi məlum deyildir. Eyni zamanda kimin ümumi yollardan nə dərəcədə istifadə etməsi də məlum deyildir. Bu məsələ təkcə fərdlərlə bağlı deyil, həm də siniflərlə də belə çətinlik qarşıya çıxır. Çünki, həqiqətən də varlı təbəqənin yoxsa yoxsul təbəqənin ümumi xidmətlərdən çox istifadə etməsi bilinmir. Bəzən müəyyən təbəqənin sosial xidmətlərdən (xeyriyyə müəssisələri, xəstəxana, mədəniyyət müəssisələri) istifadəsi məlum olanda da onlar həmin xidmətlərin qiymətini ödəmə qabiliyyətinə malik deyillər. Ona görə də müəyyənləşdirildiyi təqdirdə dövlət öz xidmətlərini məhdudlaşdırmağa çalışmalıdır ki, bu da bəzi çətinliklərə gətirib çıxarır. Bu vəziyyət beynəlxalq vergi münasibətlərində inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında beynəlxalq vergi modelinin seçilməsi ilə həll edilir. İran inkişafda olan dövlət olaraq BMT-nin ikiqatvergiqoymanı aradan qaldırmaq haqqında konvensiya modelindən istifadə etmək hüququna malikdir. Bir qayda olaraq İran xarici rezidentlərin mənbədən vergi tutulmasını və d. birbaşa vergi formalarını təmin edir.

Vergi güzəştləri prinsipi həm daxili, həm də xarici ödəyicilərə tətbiq edilir. Vergilər qanun əsasında alınmalı olduğu kimi, vergi güzəştləri də qanun əsasında olmalıdır. İran İslam Respublikasının konstitusiyasının 51-ci maddəsinin son bəndində bildirilir: “Vergi güzəşti və endirimi və vergidən azad edilmə halları qanunla təyin edilir”.

İran özünün ikiqatvergiqoymanın aradan qaldırmaq haqqında sazişlərində vergi güzəştlərini və vergidən azadetmə müddəalarına malikdir. Azərbaycan hökuməti ilə bağlanan 2009-cu il Sazişinin 11-ci maddəsində, 4-cü bənddə deyilir ki, 2-ci bəndin müddəalarından asılı olmayaraq (… faizlər həmçinin onların yarandığı Razılığa gələn dövlətdə və onun qanunvericiliyinə müvafiq qaydada da vergiyə cəlb edilə bilər, lakin faizləri alan şəxs onların faktiki sahibidirsə Razılığa gələn digər dövlətin rezidentidirsə, tutulan vergi faizlərin ümumi məbləğinin 10 faizindən artıq olmamalıdır). Razılığa gələn Dövlətdə yaranan və Razılığa gələn digər Dövlətin Hökuməti, digər Hökumət qurumu, Mərkəzi Bankı və tamamilə (yüz faiz) həmin digər Dövlətin Hökumətinə məxsus olan digər bankları tərəfindən əldə edilən faizlər adı birinci çəkilən Dövlətdə vergidən azad edilir. Sazişin 23-cü maddəsi ikiqat vergitutmanın aradan qaldırılması metodunun ümumi anlayışını ehtiva edir. Vergi çıxılmasının və vergidən azadetmənin şərtləri ifadə edilir (2, s.76).

Vergi qanunlarının sərhəd daxili olması prinsipi və ya vergi qanununun sərhəd daxili olması məsələləri həll etməmiş, bəlkə böyük problemlər əmələ gətirmişdir. Sərhəd daxili prinsipi ilə qarışan bəzi vergiləri xüsusi olma xarakteri, bir şəxs və ya gəlir haqqında iki verginin tutulmasına gətirib çıxara bilər. Bir-birinin rəqibi olan iki milli qanunun icrası nəticəsində baş verən çətinliklər vergi qanununa aid deyil və gərək xüsusi beynəlxalq hüquq qaydalarının tətbiqi vasitəsi ilə həll edilsin. Əslində rəqib qanunların qarşısında duranda problem əmələ gəlmir. Çünki, xüsusi beynəlxalq hüquqa təqdim edilən hər problem qarşısında dayandığımız qanunların birinin xeyrinə həll edilir. Məsələnin beynəlxalq cəhəti – beynəlxalq hüquqla toqquşma nəticəsində vergi qanunun icrası üçün çətinlik yaranarsa, daxili hüququn həll yolları kifayət etməz. Ona görə də beynəlxalq qaydalar çərçivəsində problem həll edilməlidir. Bu prinsipə görə vergi qanunları ölkənin sərhədi daxilində işləyir və ondan xaricə çıxmır (3, s.280). Misal üçün Fransada yaşayan və Fransa ərazisində daşınan və daşınmaz əmlakı idarə edən şəxslərə şamil edilir. Bununla belə bu prinsipin icrası hər zaman asanlıqla mümkün olmur. Çünki, vergiyə şamil edilən əmlak və

fəaliyyətin haradan olmasını müəyyənləşdirmək asan iş deyildir.

İran qanunlarında da bu məsələyə diqqət yetirilmişdir. Belə ki, İranın 1967, 1988, 1992, 2002 və 2015-ci il tarixli birbaşa vergilər haqqında qanunun birinci maddəsinə əsasən, aşağıdakı şəxslərə vergi şamil edilir: hüquqi və fiziki bütün mülk sahiblərinin İranda yerləşən əmlakına; İranda yaşayan hər iranlı fiziki şəxs İranda ya xaricdə əldə etdiyi bütün gəlirlərinə; xaricdə yaşayan iranlı fiziki şəxs İranda əldə etdiyi gəlirlərinə; hər İranlı hüquqi şəxsin İranda ya xaricdə əldə etdiyi gəlirinə; hər xarici fiziki və hüququ şəxs İranda əldə etdiyi gəlirinə və digər xidmətlərlə bağlı İranda əldə etdiyi gəlirinə. Əslində İranın vergi hüququnda da vergi qanunlarının sərhəd daxili olması prinsipi qəbul edilir və həmin məsələ yuxarıdakı maddədə də gözə çarpır.

İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında bağlanan Sazişin 2-ci maddəsinin 3-cü bəndində əhatə olunan vergilər (a) İran İslam Respublikasına münasibətdə (i) gəlir vergisi və (ii) əmlak vergisi ki, İran İslam Respublikasının birbaşa vergisi və (b) Azərbaycan Respublikasına münasibətdə (i) hüquqi şəxslərin mənfəət vergisi; (ii) fiziki şəxslərin gəlir vergisi; (iii) əmlak vergisi; torpaq vergisi; ki, Azərbaycan vergiləri formasında uyğunlaşdırılmışdır.

Daxili və xarici vergi ödəyicilərin yeknəsəkləşdirilməsi prinsipi. Vergilərin sərhəd daxili olma prinsipi vergilər baxımından daxildə və xaricdə olan şəxslərin vəziyyətini eyniləşdirir. İranın vergi hüququnda da, İranın birbaşa vergilər haqqında qanunun birinci maddəsində də daxili və xarici ödəyicilərin eyniləşdirilməsinin qəbulu nəzərə çarpır. Bu qanunda milli rejim prinsipi təsbit edilib.

Beynəlxalq vergi hüququnda qarşılıqlı alver prinsipi qəbul edilmiş prinsipdir. Vergilər qanunun 91-ci maddəsinə uyğun olaraq, xaricdəki siyasi nümayəndəliyin üzvləri, rəislərin və xaricdə işləyən digər işçi, nümayəndə və konsulluqların gəlirləri İranda öz tabe olduğu dövlətindən aldığı əmək haqqı qarşısında qarşılıqlı alver şərti ilə vergi ödəməkdən azad olur. Bu şəxslər üçün vergi imtiyazları beynəlxalq hüququn adət norması olsa da İran İslam Respublikası bir çox müqavilələrə qoşulmaqla və ya onların iştirakçısı olaraq bu məsələni tənzimləyib. İran Diplomatik əlaqələr haqqında 1961-ci il, Konsulluq əlaqələri haqqında 1963-cü il Vyana Konvensiyalarının iştirakçısı kimi müvafiq şəxslər üçün imtiyazlarını tanımışdır.

İkiqat vergitutmanın aradan qaldırmaq haqqında ikitərəfli müqavilələrdə bu məsələyə yenidən müraciət edilib. Azərbaycan Respublikası ilə bağlanan Sazişin 27-ci maddəsi diplomatik nümayəndəliklərin və konsulluq idarələrinin üzvlərinin vergi imtiyazlarını tənzimləyir.

Vergilərin xüsusiləşdirilməsi prinsipində məqsəd ondan ibarətdir ki, vergilərin müəyyənləşdirilməsində vergi ödəyicisinin xüsusiyyəti, həyat vəziyyəti və gəlir səviyyəsi və hətta gəlirinin keyfiyyəti də nəzərə alınmalıdır. Məsələn, ailəli ödəyiciyə subay ödəyicidən daha çox güzəşt şamil edilir və ya az zəhmətlə sərmayə qoyma üsulu ilə qazanana çox çətinlik və zəhmətlə qazanandan daha az güzəşt edilir. Bu prinsip beynəlxalq vergi münasibətlərində inkişafda olan ölkələrin şirkətlərinə münasibətdə beynəlxalq hüquqda təsbit olunmuş "inkişaf hüququ"na uyğun təmin edilir. Konkret fiziki şəxslərin vergiyə cəlb edilməsində isə əsasən inkişaf etmiş regionaı birliklərdə (məsələn, Avropa Sosial Xartiyasında) ətraflı tənzimlənir.

Müdaxilə prinsipi vergilərin tərəfsizliyini təmin etməlidir. Vergilər dövlətlərin siyasi və ya iqtisadi məqsədlərinin irəli aparılmasına vasitəçilik etməlidir. Lakin hal-hazırda vergi dövlətlər üçün yalnız gəlir mənbəyi deyil, həm də iqtisadiyyatı yönəltmək

üçün vasitədir (5, s.168-169). Belə ki, hər hansı sahəni məhdudlaşdırmaq üçün də istifadə edilir. Məsələn, dövlət siqaret və lüks mallar üçün ağır vergilər tətbiq edib onların qarşısını almağa, mətbuat, çap və kitab nəşri üçün vergi güzəştləri nəzərə almaqla onları stimullaşdırmağa çalışır. Həmçinin yönəldilmiş iqtisadiyyatla vergi vasitəsilə inflyasiyanın qarşısını alır. Beynəlxalq ikiqat vergitutmanın qarşısının alınması haqqında müqavilələrdə də bu növ vergilərin tənzimlənməsi xüsusi müddəalarla, hər iki iştirakçı dövlətdə vergiyə cəlb edilmə ilə müşaiyət edilir.

Vergi informasiyalarının məxfilik prinsipi vergi qanunvericiliyinin xüsusi əhəmiyyətli normasıdır. Ödəyicinin vergi ödəmə həddi onun gəliri və xərcləri haqqında lazımı araşdırma aparılmadan mümkün deyildir. Birbaşa vergilər qanununun 229 maddəsinə əsasən Qanun qəbil edənlər məcburdurlar ödəyicinin iqtisadi fəaliyyətləri və alverinə, eləcə də gəliri və xərclərinə aid məlumatları bilmək üçün vergi məmurlarına dəftər, sənəd və s. axtarma icazəsi verir. Halbuki bu informasiyalar onun iqtisadi rəqibləri üçün mühüm ola bilər və əksinə onun ifşa edilməsi ödəyiciyə kompensasiya edilməyən xəsarət vura bilər. Məhkəmənin qərarı olmadan kommersiya sirri qorunmalıdır.

Yuxarıda qeyd edilən məsələyə görə vergi məmurlarının dəftər və sənədləri axtarma nəticəsində əldə etdiyi məlumatları məxfi saxlamalıdır. Azərbaycan Respublikası ilə bağlanan Sazişin 26.1 maddəsində deyilir ki, Razılığa gələn Dövlətlərin səlahiyyətli orqanları bu Sazişin və ya bu Sazişin tətbiq edildiyi vergilərlə bağlı daxili qanunvericiliklərinin müddəalarının yerinə yetirilməsi üçün, zəruri olan informasiya mübadiləsi aparırlar, bir şərtlə ki, həmin qanunvericiliklərdə nəzərdə tutulan vergitutma bu Sazişə zidd olmasın. İnformasiya mübadiləsi 1-ci və 2-ci maddələrlə məhdudlaşmır. Razılığa gələn Dövlət tərəfindən əldə edilən istənilən informasiya həmin Dövlətin daxili qanunvericiliyi əsasında əldə edilmiş informasiyaya tətbiq edilən eyni qayda əsasında məxfi hesab edilir və yalnız Sazişin tətbiq edildiyi vergilərin hesablanması və ya toplanması, məcburi alınması və ya prosessual qaydada təqib edilməsi, yaxud həmin vergilərlə bağlı şikayətlərə baxılması ilə məşğul olan şəxslərə və ya orqanlara, o cümlədən, məhkəmələrə və inzibati orqanlara açıqlanır. Bu cür şəxslər və ya orqanlar həmin informasiyadan yalnız bu cür məqsədlər üçün istifadə edirlər. Onlar bu informasiyanı açıq məhkəmə istintaqı və ya məhkəmə qərarlarında açıqlaya bilərlər.

İranda kommersiya məlumatlarının ifşa edilməməsi ilə bağlı bəzi qaydalar qəbul edilmişdir:

- İnzibati xətalar qanununda (2013-cü ildə tesdiq olunub) inzibati sirlərin ifşası inzibati xəta hesab edilir və inzibati cəza nəzərdə tutulur.
- 10 mart 1959-cu il tarixdə qəbul edilən dövlət məmurları və nazirlərin sərvətlərinə aid qanunun 8-ci maddəsinə əsasən, sərvət siyahısı məxfidir və qərar qəbul ediləndən əvvəl onu nəşr edənlər cinayət qanununa uyğun olaraq cəzalandırılırlar.
- Birbaşa vergilər qanununun 232-ci maddəsində belə ifadə edilir ki, "yoxlayıcı vergi məmurları ödəyicinin vergi işlərini yoxlayarkən əldə etdikləri informasiyaları məxfi hesab edilir və onun ifşasından çəkinməlidirlər (12, s.28-29). İfşa etdikləri təqdirdə isə islamı cinayət qanunu ilə cəzalandırılacaqlar".

Yalnız dövlət məmurları və nazirlərin sərvətlərinə aid deyilən sərvət siyahısının sirr hesab edilməsi mübahisəli sayıla bilər. Bu işçilər dövlət qulluğunda olduqları zaman sərvətlərinin gizli saxlanması qəbul edilə bilməz. Həmin vəzifəyə gələnə kimi sərvətlərinin siyahısının gizli saxlanması mümkündür. Hakimiyyətdə olduqları zaman sərvətlərinin siyahısının gizli saxlanması onlar tərəfindən korrupsiya hallarını istisna etmir.

Kommersiya sirri hakimiyyətə malik olmayan şəxslərlə bağlı meydana cıxdığından dövlət bürokratlarına, onların hakimiyyət fəaliyyəti tam şəffaflığa məruz qalmalıdır. Onların əmək haqları, hədiyyələri, imtiyazları hər kəs üçün açıq olmalıdır. İnkişaf etmiş ölkələrin antikorrupsiya təcrübəsi də bunu sübut edir. Avropa İnsan Hüquqları Məhkəməsi də dəfələrlə bu məsələdə dövlət başçısının və d. vəzifəli şəxslərin həyatının sirr olmasını qəbul etməmişdir (8, s.214).

Hesab edirik ki, qeyd etdiyimiz Qanunun 8-ci maddəsində dövlət məmurları ilə bağlı məsələ ləğv edilməlidir.

Daxili və xarici vergi ödəyicilərinin eyniləşdirilməsi və onun üsulları daxili və xarici vergilərdə bərabərli və balans nəzəriyyəsi ilə birləşir. Belə ki, həmin ərazidə heç kimsə vergilərdən qaça bilməz, lakin hər zaman daxili ödəyici ilə xaricinin bərabər və eyni olması mümkün olmur. Bəzən isə bu məsələ hüquqi cəhətdən mümkün olmur.

Lakin İranın da məşvərətçi üzv olduğu Dünya Ticarət Təşkilatının sazişlərində ticarətdə rəqabəti dəstəkləyən sazişlər qeyd edilməlidir. GATT dolayı vergilərə münasibətdə belə bir ümumi, balanslaşdırıcı mövqedən çıxış edir ki, əgər idxal edən dövlətlər bir daha idxal edilmiş əmtəələri istehlak vergisinə cəlb edirsə (m.III, b.2, III maddəyə qeyd-şərt), digər halda isə dövlətlər idxal ediləcək əmtəəyə münasibətdə dolayı vergini tətbiq etməməlidir. Vergidən bu qaydada azadetmə ixracın subsidiyası kimi qiymətləndirilməyəcək. Belə ki, idxal edən dövlət həmin əmtəəni istehlak vergisinə cəlb etmiş olur (m. XVI-ya qeyd-şərt). Bu iki qaydanın uzadılması "sərhəddə yenidən fiskal qiymətləndirmə" nəticəsində mümkün olur. "Sərhəddə yenidən fiskal qiymətləndirmə" nəticəsində ixrac zamanı (əlavə dəyər vergisindən başlayaraq) dolayı vergilərdən azad edilmiş əmtəə idxalçı dövlətdə, eyni ilə milli əmtəələr üçün nəzərdə tutulan müvafiq əsasda və müvafiq bazada vergiyə cəlb edilir.

Şərqdə əcnəbiləri kapitulyasiya ilə toxunulmaz edirlər, eləcə də bəzi hallarda ticarət qanunları əcnəbi vətəndaşların xeyrinə güzəşti nəzərdə tutur. Faktiki olaraq belə hallarda imkan yaradılmadığı üçün əcnəbiyə vergi şamil edilmir. Əcnəbilər haqqında verginin müəyyənləşdirilməsi, qətiləşməsi və alınması üsulunun tətbiqi baş tuta bilər, lakin bu məsələnin baş tutması ona bağlıdır ki, əcnəbi vergiyə şamil edilənlərin müəyyənləşdirilməsini və verginin alınmasına xələl gətirməsin.

Vergi hüququ bir tərəfdən beynəlxalq məsələlərin təsiri altındadır və ona görə də onu "beynəlxalq vergi hüququ" kimi adlandırırıq. Bu ikinci izah daha əsaslı görünür. Çünki, beynəlxalq vəziyyətin təsiri altında olan maliyyə məsələsinə dayanır. Vergi hüququnun bu cəhəti şəxsi vergi ilə paralel inkişaf etmişdir. Əvvəllər verginin sərhəd daxili olması xarakteri, vergi problemlərinin böyük hissəsinin həll edilməsinə səbəb olurdu və ya yeni problemlərin yaranmasından çəkinirdilər. Lakin vergi qanunları ümumiləşdikdən sonra, ölkədə yaşayan bütün fərdlərə (həm o ölkənin əhalisi, həm də əcnəbilər) yeknəsəq şəkildə gəlir məcmusu (onların mənbəyi nə olarsa) üzrə vergi tətbiq edildi. Vəziyyət dəyişmişdir və indi vergilərdə hazırkı inkişaf hazırkı vergi hüququnun inkişafına gətirib çıxarmışdır. Ona görə də, gəlirə vergi sistemlərindən müstəqil hüquq mövcuddur. Ona görə də vergi hüququnun beynəlxalq cəhətləri haqqında ətraflı danışmaq lazımdır. Bu sahədə araşdırmalar bir o qədər də inkişaf etməmişdir. Lakin bu sahədə mühüm nəzəriyyələrlə üzləşirik. O cümlədən cənab Kretienin "ümumi vergilərin beynəlxalq hüququnun araşdırılması" adı altında verdiyi nəzəriyyə ilə (13, s.112).

Ümumi beynəlxalq vergi hüququ məsələləri əslində vergi qanunu hakimiyyəti məsələsinə qayıdır. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, istər müsbət, istərsə mənfi şə-

kildə bir beynəlxalq vergi qanununu yəni vergi qanunlarının hakim olmasını tanıyan və ya rədd edən amil izah edilməz və faktiki olaraq ümumi beynəlxalq vergi qanunu mövcud deyildir. Ona görə də beynəlxalq müqavilələrə əsaslanmaqla beynəlxalq vergi hüququnu yaratmaq lazımdır. Həmin müqavilələr isə çox saylı və çeşidlidirlər və onların üzərindən beynəlxalq vergi müqaviləsinin tərtibi problemləri üzündən onları nizama salmaq çətindir. Hər halda ikitərəfli və ya çoxtərəfli olan bu müqavilələrdə vergi hüququna məxsus məsələlər öz əksini tapır. Onlar iki hissəyə bölünür: xüsusi vergi məsələlərinin həlli: bu ad altında müxtəlif beynəlxalq müqavilələr siniflәşdirilir. Onlar vergi sisteminin ümumi məsələlərini müzakirə etmədən xüsusi vergilərin icra şəraitinə diqqəti yönəldirlər. Ona aid vergi müqavilələrin icrası və tətbiqi beynəlxalq əlaqələrdə və ya beynəlxalq vəziyyətdə effektiv ola bilər. Bu qərarlar vergi müqaviləsi də və ya ticarət müqaviləsində xüsusi qərar ola bilərlər. Ümumi məsələlərin həlli: İki tərəfli növündən olan müxtəlif beynəlxalq müqavilələr şəxslərə verginin ümumiləşməsi zamanından onların çoxu yaranmış və həmin başlıqda altında yerləşir. Şəxsi vergilərin, xüsusilə gəlirlə verginin ümumiləşməsi daxili hüquq baxımından həll edilməyən problemləri meydana çıxardı. Həmin problemlər ümumi beynəlxalq hüquqla da həll edilə bilmədi. Onlar ikiqat vergi mövzusu və vergidən yayınma məsələsindən ibarətdir. Əgər XIX əsrdə bağlanan bəzi vergi qaydalarının, xüsusilə mirasa vergi məsələsinin icrasında ikiqat vergidən çəkinmək məsələsini nəzərə almasaq, bu gün imzalanan ikiqat vergidən çəkinmək, vergi ödəməkdən yayınmaq sahəsində müxtəlif müqavilələrin mənbəyi Millətlər Cəmiyyətinin 1925-ci ildən sonra başladığı işlər hesab edilir. Ümid edilir ki, ümumi müqavilə imzalanacaqdır. Ona görə də 27 ölkənin iştirakı ilə 1928-ci ilin oktyabr ayında konfrans keçirildi və bu sahədə layihələr (ikitərəfli müqavilələr) tərtib edildi. Ümumi qanunun olmamasına görə ikiqat vergidən çəkinməyə dair xüsusi müqavilələri birlikdə imzaladılar. Həmin ikitərəfli müqavilələrin mövzusu isə məhduddur (11, s.41).

*İkiqat verginin ləğvi üçün mübarizə.* vergi o zaman ikiqat hesab edilir ki, bir ödəmə mənbəyindən iki və ya daha çox vergi alınır. Bu məsələ vergi ödəyicilərinin etirazına səbəb olsa da, vergi hüququ qaydalarında nə daxildə nə də beynəlxalq cəhətdən rədd edilmir və ona maneə törədilmir. Daxili cəhətdən vergi qanununu qəbul edən qanunverici orqan, verginin ədalətlilik prinsipinə uyğun olan bəzi istisnalar və ayrı-seçkiliklərin əmələ gəlməsində sərbəstdir və bir xidmət və ya sərvətə bir neçə vergini tətbiq edə bilər.Beynəlxalq cəhətdə də heç bir maneə ikiqat vergiyə mane olmur. Hər ölkənin qanunları öz sərhədi daxilində işləyir və bir ödəyici iki ölkədən vergiyə şamil edilərsə heç bir daxili hüquq qaydası və ya beynəlxalq hüquq həmin ikiqat vergiyə maneə törədə bilməz. Adətən 50 faizi keçən artan vergilər miqdarının artması ilə ikiqat vergilər ödəyicilər üçün dözülməz olur. Bu məsələ ölkələr üçün də istər verginin texniki, istərsə siyasi məsələlərinə görə problem törədir. Ona görə də ikiqat verginin qarşısını almaq üçün bu ikitərəfli müqavilələrlə vergiyə dözüm gücünü birlikdə bölüşürlər.

*Vergidən yayınma halları ilə mübarizə.* Vergidən yayınma halları ilə mübarizə ikiqat vergi məsələsindən də çətindir. Çünki ikiqat vergi məsələsi dövlətlərin işidir və məsələ onların əlindədir. Ona görə də daxili və ya beynəlxalq qərar çıxan kimi həll edilir. Lakin vergidən yayınma məsələsi vergi ödəyicilərinin işi və onların hoqqabazlıqlarının nəticəsidir. Ona görə də əvvəl həmin hoqqabazlığı aşkarlamaq lazımdır, daha sonra isə onunla mübarizə etmək. Vergidən yayınma iki vaxt baş verə bilər. Biri vergi müəyyənləşdiriləndə, digəri isə vergi alınanda. Müəyyənləşdirmə zamanı vergidən yayınma o zaman baş verir ki, vergi ödəyicisi vergi səviyyəsi yüngül olan və ya heç olma-

yan digər ölkədə qanunsuz şəkildə vergi müəyyənləşdirməsində əsaslar təqdim etməklə öz vəzifəsini yerinə yetirməkdən yayınır. Belə vəziyyətdə vergi orqanı çalışır vergiyə şamil edilən malı izləmək və yerində müəyyənləşdirməklə və ya vergi ödəyicisini sərvətlərinə dair izahlı siyahı istəməklə onun yayınmasının qarşısını alır. Vergidə saxtakarlıqla belə mübarizə, vergidən yayınma hallarının qarşısını alır. Lakin bu daxili qaydalar o zaman faydalı olur ki, inzibati əməkdaşlığın üsulu haqqında beynəlxalq qaydalardan da istifadə edilsin. Vergidən yayına belə olur ki, vergi orqanı tərəfindən vergiləri mütəmadi olaraq, müəyyənləşdirilən vergi ödəyicisi aidiyyəti vergini ödəməkdən imtina edir. Belə olanda həmin fərdin digər aidiyyəti ölkənin qanunvericiliyinə müraciəti edir və burada isə beynəlxalq səviyyədə əməkdaşlıq sistemi vergi tələblərinin xüsusi vəziyyətinə görə problemə malikdir. Yəni siyasi və inzibatı güc olmadan vergi tələbləri alına bilməz.

İranın iştirakçısı olduğu ikitərəfli müqavilələrdə bir hal olaraq ikiqat vergiqoymadan yayınma haqqında sazişlər milli vergi qanunvericiliyini unifikasiya etmir, sadəcə olaraq, ikiqat vergiqoymadan yayınmanın meyarını hədlərini müəyyən edirlər.

Vergi müqavilələrinin icrası: Digər məsələ ondan ibarətdir ki, vergi müqavilələrinin icrası necə həyata keçirilir. Sualın cavabı elə də çətin deyil. Yəni ümumi beynəlxalq hüquqa müraciət etmək olar. Problem meydana çıxan zaman qaydalara riayət edilməklə qəbul edilən beynəlxalq müqavilələr daxili qanunların əsası hesab edilir.

Hesab edirik ki, İranın vergi qanunvericiliyi sistemi daha ciddi formada təkmilləşdirilməsi lazımdır. Məsələn, fərqli aktlarda ifadə edilən vergi qanunvericilik aktlarının bir qanunvericilik sənədində və ya Məcəlləsində ifadə edilməsi həm rezidentlər üçün daha sadə yolla hüquqi müəyyənlik təmin edilə bilər.

Fərqli qanunvericilik aktları xarici sərmayədarlara da, onların İranın daxili qanunvericiliyini bilməməsi səbəbindən sərmayə qoyuluşuna mənfi təsir etməyə bilməz. Xarici rezidentlər üçün İranın tərəf olduğu beynəlxalq vergi müqavilələri mühüm əhəmiyyət kəsb etdiyi üçün bu müqavilələr İranın vergi qanunvericiliyinin mənbəsi kimi qəbul edilməlidir.

## Ədəbiyyat

**1.** Süleymanova E.T. İnsan hüquqları. Dərs vəsaiti, Bakı, 2014, 359s.
**2.** Əzqəndi, Əliriza. İ.İ.R-sının xarici siyasəti. Qomis nəşriyyatı, İran, Tehran, 2005, 248 s.
**3.** Mənsor, Cahangir. Əsas qanun və sivil qanun. dövran nəşriyyatı, İran, Tehran, 2006, 414 s.
**4.** Müqtədir, Hüşəng. Ümumi beynəlxalq hüquq. Xarici işlər nazirliyinin nəşriyyatı, İran, Tehran, 2006, 350 s.
**5.** Mösazadə, Riza. Ümumi maliyyə. Mizan nəşriyyatı, İran, Tehran, 2009, 336 s.
**6.** Nəsiri, Məhəmməd. Xüsusi beynəlxalq hüquq. Agah nəşriyyatı, İran, Tehran, 2001, 208 s.
**7.** Nori, Məhəmməd Əli. Hüquqi axtarişlar. Qüqnos nəşriyyatı, İran, Tehran, 2001, 175 s.
**8.** Pakdamən, Riza. Ticarət şirkətləri. Dərya nəşriyyatı, İran, Tehran, 2007, 143 s.
**9.** Protaba, Loi, Jan-Mari Kotrə. Vergi hüququ. Tərcumə: Mohəmməd Əli Yəzdanbəxş. Xatön nəşriyyatı, İran, Tehran, 2008, 232 s.
**10.** Rəncbəri, Əbülfəzl və Əli Badamçi. Ümumi maliyyə hüququ. Məcd nəşriyyatı, İran, Tehran, 2008, 336 s.
**11.** Səfdəri, Məhəmməd. Beynəlxalq ümumi hüquq. 1-ci cild, Tehran, Əboreyhan biyroni nəşriyyatı, 1963, 145 s.

**12.** Səriülqələm, Mahmüd. İran və qloballaşma. İstiratejik təhqiqatlar mərkəzi nəşriyyatı, İran, Tehran, 2005, 140 s.
**13.** Şirəvi, Əbdülhüseyn. Tətbiqi hüquq. Səmt nəşriyyatı, İran, Tehran, 2006, 285 s.
**14.** Təğəvi, Mehdi. Maliyyə müdiriyyətı. Pəyamı nor Universitetinin nəşriyyatı, İran, Tehran, 2001, 385 s.
**15.** Təvəkküli, Əhməd. Ümumi maliyyə. Səmt nəşriyyatı, İran, Tehran, 2009, 260 s.
**16.** Vəlimüqəddəm Zəncani, Əli Dehqani. Ümumi maliyyə və dövlətin maliyyə siyasəti. Termə nəşriyyatı, İran, Tehran, 2007, 228 s.

## PRINCIPLES OF TAX LAW OF IRAN AND INTERNATIONAL TAX LAW

**Sh.H.Khosravi**

### SUMMARY

Tax law of Iran and international tax law are considered in this article. The conclusion is made that the tax legislation of the Islamic Republic of Iran needs to be significantly improved to comply with the international tax law principles.

## ПРИНЦИПЫ НАЛОГОВОГО ПРАВА ИРАНА И МЕЖДУНАРОДНОЕ НАЛОГОВОЕ ЗАКОНОДАТЕЛЬСТВО

**Ш.Х.Хосрави**

### РЕЗЮМЕ

В статье рассматриваются налоговое законодательство Ирана и международное налоговое право. Автор приходит к выводу, что для соответствия принципам международного налогового права налоговое законодательство Исламской Республики Иран нуждается в серьезном улучшении.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# İNZİBATİ MƏHKƏMƏ İCRAATI KOMPLEKS HÜQUQ İNSTİTUTU KİMİ

**N.Ə.Baxşıyeva**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: nbaxshieva@bk.ru

***Açar sözlər:*** hüquq, inzibati proses, məhkəmə icraatı, müdafiə, inzibati şikayət
***Keywords***: law, administrative proceedings, judicial proceedings, defense, administrative complaint
***Ключевые слова:*** право, административный процесс, судопроизводство, защита, административная жалоба

Mütəxəssislərin əksəriyyəti haqlı olaraq inzibati məhkəmə icraatını inzibati prosesin bir hissəsi hesab edir (1, s.25-26; 2, s.307). A.İ.Quliyev prosesə mühakimə icraatı kimi yanaşır (3, s.867). Türk hüquq lüğətində göstərilir ki, proses bir məhkəmənin və ya qurumun mübahisəli məsələləri araşdıraraq həll etmək üçün bir dəfə fasiləsiz olaraq keçirdiyi toplantıdır (4, s.467). Ə.T.Yılmazın fikrincə, proses əvvəlcədən müəyyən olunmuş yerdə və vaxtda həyata keçirilir, prosesdə həyata keçirilən araşdırma işləmləri isə məhkəmə baxışı hesab olunur (5, s.126). İnzibati hüquq dərsliyində isə prosesə müəyyən nəticələrə nail olmaq üçün ardıcıllıqla həyata keçirilən hərəkətlərin məcmusu kimi anlayış verirlir (6, s.761).

Hüquq prosesinin hər bir halda ədalət mühakimə icraatı ilə əlaqəli olduğunu qəbul etməyən bir qrup müəllif inzibati məhkəmə icraatının inzibati proses kimi deyil, məhkəmə prosesi kimi göstərilməsini təklif edir (7, s.54-56; 8, s.31). Konkret hüquq sahəsinin tətbiqindən yaranan münasibətlərin (mülki, cinayət, inzibati) mahiyyəti üzrə tənzimlənməsi üçün həyata keçirilən məhkəmə icraatının adının (mülki mühakimə icraatı, cinayət mühakimə icraatı) müvafiq münasibətləri tənzimləyən hüquq sahəsi ilə bağlı olması istənilən halda məntiqə zidd səslənmir. Lakin, inzibati prosesin məhkəmənin fəaliyyətindən, məhkəmə icraatından təcrid olunaraq idarəetmə orqanlarının fəaliyyətinə şamil olunması məqsədəuyğun görünmür. Hesab edirik ki, bu fikri irəli sürən müəlliflər onun əsaslandırılmasına nail ola bilməmişlər. Maraqlıdır ki, D.N.Baxrax 2000-ci ildə nəşr etdirdiyi "İnzibati hüquq" dərsliyində inzibati məhkəmə icraatını inzibati prosesin bir hissəsi kimi qiymətləndirdiyi halda (2, s.307), sonradan onun inzibati proses kimi deyil, məhkəmə prosesi kimi təsbit olunmasına üstünlük vermişdir (9, s.19-20).

İnzibati prosesdə həyata keçirilən inzibati məhkəmə icraatı ümumi-hüquqi mübahisənin xüsusiyyətlərini əks etdirir. Ümumi-hüquqi mübahisə ümumi hüququn tətbiqindən irəli gələn hüquqi nəticələrin mübahisələndirildiyi bütün halları əhatə edir.

İnzibati prosesdə iddiaya baxılması ilə əlaqədar inzibati-prosessual münasibətlər yaranır. Bu münasibətləri bərabər bucaqlı üçbucaq şəklində təsəvvür etsək, yuxarı birləşdirici nöqtədə məhkəmə, aşağıdakı üfüqi xəttlərdə isə tərəflər dayanır. Məhz məhkəmə vasitəsilə tərəflər bir-birilə əlaqəyə girir. Lakin, inzibati proses yalnız bu münasibətlərlə də məhdudlaşmır. İnzibati mübahisəyə baxılarkən, prosesin istənilən mərhələsində yeni prosessual münasibətlər meydana çıxır. Sonradan yaranan bu münasibətlər əsas münasibət-

lərə nisbətən törəmə xarakter daşıyır.

İnzibati məhkəmə icraatı institutundan özünün subyektiv ümumi hüquqlarının müdafiəsi üçün istifadə edən şəxs əvvəl inzibati orqanla qeyri-bərabər inzibati-hüquqi münasibətlərdə olsa da, məhkəmə icraatı zamanı onunla bərabər prosessual status daşıyır. Bu, inzibati mübahisənin ədalətli və obyektiv həllinin mühüm təminatlarından biridir. Alimlərdən F.S.Mehdiyev bu halı haqlı olaraq "silahların bərabərliyi" prinsipi adlandıraraq, inzibati prosesdə həyata keçirilən çəkişmədə onun təmin edilməsini ədalətli muhakimənin zəruri şərti kimi qiymətləndirir (10, s.59).

İnzibati prosesdə məhkəmənin proses iştirakçılarına yardım etmək vəzifəsi özlüyündə inzibati orqanların fəaliyyətində qanunçuluğun və intizamın möhkəmləndirilməsi üçün məhkəmənin ədalətli və real nəzarət mexanizmi olduğunun bariz sübutudur. Bu cür yardım formal, aydın olmayan tələblər üzündən proses iştirakçılarının öz subyektiv hüquqlarını müdafiə etmək kimi potensial imkanlarından istifadə etməmək hallarının qarşısını almağa yönəlmişdir. İnzibati məhkəmə icraatı yalnız formal təşkil olunduğu halda deyil, məhz real icra mexanizminə malik olduğu təqdirdə hüquqi dövlətin zəruri elementlərindən biri kimi çıxış edir. Bunun üçün mükəmməl prosessual təminat və müdafiə tədbirlərindən ibarət olan məhkəmə icraatı formalaşdırılmalıdır.

İnzibati məhkəmə icraatının inzibati prosesdə rolundan bəhs edərkən onun antikorrupsiya potensialını da qeyd etmək lazımdır. Artıq özünün yeni inkişaf mərhələsinə daxil olmuş Azərbaycan Respublikasında həyata keçirilən hazırki siyasi kurs insanların yüksək sosial rifahına nail olmağa, cəmiyyətdə sosial münaqişələrin qarşısını almağa, inzibati orqanların fəaliyyətinə ictimai etimadın formalaşmasına yönəlmişdir. Bu səbəbdən də ölkənin dinamik inkişafını təmin etmək üçün bu proseslərə mane olan faktorlara, xüsusilə də korrupsiyaya qarşı keyfiyyətcə yeni müstəvidə mübarizə aparılması da dövrün zəruri tələblərindən birinə çevrilmişdir.

Korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq konvensiyalara qoşulan Azərbaycan Respublikası bu sahədə bütün beynəlxalq təşəbbüslərdə fəal iştirak edir, Avropa Şurası, ATƏT, İqtisadi Əməkdaşlıq və İnkişaf təşkilatının (OECD) Şərqi Avropa və Mərkəzi Asiya üzrə Antikorrupsiya Şəbəkəsi çərçivəsində İstanbul Fəaliyyət Planı, Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü və digər beynəlxalq təşkilatlarla da sıx əməkdaşlıq edir. Korrupsiyaya qarşı səmərəli mübarizə zərurətilə əlaqədar olaraq ölkədə korrupsiyaya qarşı səmərəli mübarizənin yeni metodlarının tətbiq olunması, şəffaflığın təmin edilməsi, inzibati orqanların məsuliyyət və nəzarət mexanizmlərinin gücləndirilməsi üçün həyata keçirilən mühüm tədbirlərdən biri də inzibati orqanlar tərəfindən insan hüquq və azadlıqlarına əməl olunmasına və qanunun aliliyinin təmin olunmasına nail olmaq üçün inzibati icraat qaydalarının və inzibati məhkəmə icraatının formalaşdırılması olmuşdur.

Bildirmək istərdik ki, qanunvericilikdə inzibati aktların qəbul edilməsi, icra olunması və ya ləğv edilməsi ilə bağlı inzibati orqanların fəaliyyətinin hüquqi əsaslarının, prinsiplərinin müəyyən edilməsi, həmçinin inzibati şikayətlər üzrə icraatın, inzibati orqanların və vəzifəli şəxslərin məsuliyyətinə dair məsələlərin nizama salınması bu sahədə atılan mühüm addımlardandır.

İnzibati orqanların vətəndaşlarla münasibətdə vicdanlı davranışa əməl etməsi, vətəndaş məmnunluğunun təmin olunmasına çalışması onların fəaliyyətində səmərənin və şəffaflığın artması və cəmiyyətin inzibati orqanlara və dövlət qulluqçularına etimadının yüksəldilməsi üçün mühüm meyardır. Akademik R.Ə.Mehdiyev haqlı olaraq göstərir ki, vicdan anlayışı etikanın ilk anlayışı, yaxşılıq anlayışı isə onun əsas anlayışıdır (11, s.301).

Hüquq ədəbiyyatında haqlı olaraq göstərilir ki, hər hansı bir hüquqpozma öz ilk məcrasını əxlaqi dəyərlərə etinasız yanaşmadan və insanların hüquq və azadlıqlarına biganə münasibətdən başlayır (12, s.265). İnzibati orqanların fəaliyyətində biganəlik, özbaşınalıq, süründürməçilik kimi neqativ hallara yol verilməməsi üçün inzibati məhkəmə icraatı qanunçuluğun və intizamın möhkəmləndirilməsinə, inzibati orqanların fəaliyyətində şəffaflığın və vətəndaş məmnunluğunun təmin olunmasına və bununla da cəmiyyətdə sosial münaqişələrin qarşısının alınmasına yönələn bir sıra vəzifələr daşıyır.

İnzibati prosesdə həyata keçirilən ədalət mühakiməsi inzibati orqanların qərar və hərəkətlərindən verilən iddiaların inzibati məhkəmələrdə inzibati prosessual qanunvericiliyin tələblərinə uyğun qaydada obyektiv araşdırılması və ədalətli qərarın çıxarılması ilə inzibati mübahisənin həllinə yönəlir, vətəndaşların pozulmuş hüquq və maraqlarının bərpasında təcəssüm edir. Elmi ədəbiyyatda düzgün olaraq göstərilir ki, məhkəmə haqq və ədalətin sadiq keşikçisi olub, ədalət mühakiməsini həyata keçirməklə müəyyən edilmiş hüquq qaydalarını pozanlar barəsində dövlət məcburiyyət tədbirlərini tətbiq etmək səlahiyyətinə malik hakimiyyət orqanıdır (13, s.11). Mühakimə funksiyası dedikdə, məhkəmənin işin mahiyyəti üzrə qərar çıxarmaqla hüquqi mübahisələri həll etməsi başa düşülür.

İnzibati məhkəmə icraatında həyata keçirilən ədalət mühakiməsi nəticəsində qərar çıxaran məhkəmənin fəaliyyəti vətəndaşla inzibati orqan arasında yaranmış inzibati mübahisənin ədalətlə həll olunması ilə yanaşı inzibati orqanların qanun çərçivəsində fəaliyyət göstərməsini də təmin etməyə yönəlmişdir.

Müasir dövrdə cəmiyyətin və dövlətin inkişafı ilə əlaqədar olaraq inzibati fəaliyyətin subyektlərinin dairəsi əhəmiyyətli dərəcədə genişlənmişdir. Hüquq sisteminin strukturunun yenilənməsi və inzibati akt qəbul etmək səlahiyyəti olan çoxlu sayda inzibati orqanların mövcudluğu müvafiq olaraq bu aktların iyerarxiya problemini də üzə çıxarır. Bununla əlaqədar olaraq vahid, daxilən ziddiyyətsiz hüquq sisteminin formalaşdırılması, qanunvericiliyə zidd aktların qəbuluna və tətbiqinə yol verilməməsi üçün səmərəli norma nəzarətinin zəruriliyi üzə çıxır. Hüquqların və qanunla qorunan maraqların mühafizəsinin və müdafiəsinin təmini məqsədilə normativ xarakterli aktların hazırlanması, qəbulu və realizəsi üzərində xüsusi nəzarət mexanizmi yaradılır. Bu mexanizm normayaradıcılığı və hüququn tətbiqi sferalarında qanunçuluğun pozulması hallarının üzə çıxarılması, qeydə alınması və aradan qaldırılması səlahiyyətlərinə malik olan müxtəlif strukturlardan ibarət olur. Həmin mexanizmlərdən biri olan inzibati məhkəmə icraatı inzibati orqanların fəaliyyətinin qanuniliyinə nəzarətə, həm də qanunçuluğun təmininə yönəlir.

İnzibati orqanların aktları üzərində norma nəzarəti funksiyası məhkəmə hakimiyyətinin həyata keçirilməsi üsullarından olan inzibati məhkəmə icraatı vasitəsilə həyata keçirilir. İnzibati prosesdə həyata keçirilən inzibati məhkəmə icraatı vasitəsilə qanunla müəyyənləşdirilmiş formada və səlahiyyət çərçivəsində normativ xarakterli aktlara nəzarət olunur.

Beləliklə, aparılmış tədqiqatlar aşağıdakı nəticələrə gəlməyə imkan verir.

İnzibati məhkəmə icraatının həyata keçirilməsi ölkədə "vətəndaş - dövlət qulluqçusu" və "vətəndaş - inzibati orqan" münasibətlərinin sistemlərində yeni antikorrupsiya modelinin yaranmasına da zəmin ola bilər. İnzibati prosesdə səmərəli və ədalətli inzibati məhkəmə icraatının həyata keçirilməsi ölkədə məhkəmə hakimiyyətinin nüfuzunun yüksəlməsi ilə yanaşı, dövlət idarəçiliyində qanunçuluğun və intizamın möhkəmləndirilməsinə də zəmin olan hallardandır. Məhkəmənin inzibati işlərə operativ baxması idarəçilik təcrübəsinin təkmilləşməsinə, idarəçilikdə intizamın möhkəmlənməsinə,

inzibati orqanların və onların vəzifəli şəxslərinin fərdi məsuliyyət hissinin yüksəlməsinə və onlarda vətəndaş hüquqlarına və məhkəmə sisteminə hörmət ruhunun formalaşmasına səbəb ola bilər.

## Ədəbiyyat


1. Суворов М.А. Административное производство: понятие, виды и классификация // Сибирский юридический вестник, 2002, № 3, с.25-32
2. Бахрах Д.Н. Административное право России: Учебник. М.: Норма, 2000, 640 с.
3. Quliyev A.İ. Hüquq ensiklopediyası. Bakı: Qanun, 2007, 1108 s.
4. Ayverdi İ. Misalli Büyük Türkçe Sözlük. İstanbul: Kubbealtı Neşriyatı, 2010, 1412 s.
5. Yılmaz E. Hukuk Sözlüğü. Ankara: Yetkin Yayınları, 2011, 1548 s.
6. Abdullayev A., Nağıyev F. İnzibati hüquq: Dərslik. Bakı: Qanun, 2008, 800 s.
7. Сорокин В.Д. Проблемы административного процесса. М.: Юридическая литература, 1968, 144 с.
8. Лория В.А. Некоторые вопросы теории кодификации административного процессуального права. Тбилиси: ТГУ, 1974, 103 с.
9. Бахрах Д.Н. Административное судопроизводство, административная юстиция и административный процесс // Государство и право, 2005, № 2, с.19-25
10. Mehdiyev F.S. İnzibati hüquq. Dərs vəsaiti. Bakı: Qafqaz Universiteti yayınları, 2010, 539 s.
11. Mehdiyev R.Ə. Fəlsəfə: Dərs vəsaiti. Bakı: Şərq-Qərb, 2010, 360 s.
12. İsmayılov İ.İ. Məhkəmə etikasının bəzi məsələləri. Bakı: ADPU-nun nəşriyyatı, 2007, 265 s.
13. Azərbaycan Respublikası məhkəmələrinin yaranması və inkişafı / Elmi red. M.F.Məlikova. Bakı: Çaşıoğlu, 2008, 360 s.


## ADMINISTRATIVE PROCEEDINGS AS A COMPLEX LEGAL INSTITUTION

**N.A.Bakhshiyeva**


## SUMMARY

This paper studies the general characteristics of administrative legal proceedings as a legal institution. Based on the number of scientific approaches, the author explores the role and significance of administrative legal proceedings. Characteristic features of administrative legal proceedings as a complex legal institution of administrative process are defined and analyzed.

# АДМИНИСТРАТИВНОЕ СУДОПРОИЗВОДСТВО КАК КОМПЛЕКСНЫЙ ПРАВОВОЙ ИНСТИТУТ

**Н.А.Бахшиева**

**РЕЗЮМЕ**

В статье исследуется общая характеристика административного судопроизводства как правового института. На основе ряда научных подходов, автор разъясняет роль и значение административного судопроизводства. Определены и проанализированы характерные особенности административного судопроизводства как комплексного правового института административного процесса.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# XALQLARIN ÖZ MÜQƏDDƏRATINI TƏYİNETMƏ HÜQUQU VƏ MİLLİ (ETNİK) AZLIQLARIN ÖZ MÜQƏDDƏRATINI TƏYİNETMƏ MUXTARİYYƏTİ

**Q.R.Xəlilov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: gadirkhalilov@yahoo.com

***Açar sözlər:*** millətlərin öz müqəddəratını təyinetməsi, beynəlxalq münasibətlər, beynəlxalq aktlar, beynəlxalq məhkəmə, insan hüquqları, sosial-iqtisadi özünütəyinetmə

***Keywords:*** self-determination of nations, international relations, international acts, international court, human rights, socio-economic self-determination

***Ключевые слова:*** самоопределение наций, международные отношения, международные акты, международный суд, права человека, социально-экономическое самоопределение

Müasir beynəlxalq hüquq öz müqəddəratını təyinetmə hüququnun subyekti kimi bütün hallarda xalqı görməkdədir və öz müqəddəratını təyinetmə yalnız dövlət formasında insan hüquqlarına hörmət kontekstinə malikdir. Müasir dövrün beynəlxalq hüquq normalarına, o cümlədən insan hüquqları sahəsində beynəlxalq aktlara (1948-ci il İnsan hüquqlarının ümumi Bəyannaməsinə, 1966-cı il İqtisadi, sosial, mədəni hüquqlar haqqında beynəlxalq Pakta, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakta) və mövcud təcrübəyə müvafiq olaraq, öz müqəddəratını təyinetmə yalnız daxili istiqamətdə və xarici asılılıq şəraitində yaşayan xalqlar üçün nəzərdə tutulur. ATƏM-in 1975-ci il Helsinki Yekun Aktı və digər beynəlxalq aktlar da öz müqəddəratını təyinetməyə münasibətdə ərazi bütövlüyü prinsipinə xüsusi diqqət yetirmişdir. Öz müqəddəratını təyinetmənin xarici aspektinə görə, beynəlxalq münasibətlərdə yalnız xalqlar siyasi statuslarını müstəqil şəkildə müəyyən etmək hüququna malikdirlər. Öz müqəddəratını təyinetmənin daxili aspekti isə bir dövlət hüdudlarında həyata keçirilir və əsasən mədəni, inzibati-ərazi muxtariyyəti ehtiva edir. Öz müqəddəratını təyinetmə müxtəlif istiqamətlər-də təzahür edə bilər. Bunlardan siyasi, iqtisadi, sosial, mədəni (humanitar) istiqamətli öz müqəddəratını təyinetmə qeyd edilə bilər. Siyasi və iqtisadi öz müqəddəratını təyinetmə istisna olmaqla digər hallarda öz müqəddəratını təyinetmə daxili aspektdə təzahür edir.

Siyasi öz müqəddəratını təyinetmə son mərhələdə, digər hüquqi təminat vasitələri yetərli olmadıqda həyata keçirilməlidir və bu hüquq yalnız ərazidə tarixən məskunlaşan *xalq* üçün nəzərdə tutulmalıdır. Müasir dövrdə beynəlxalq münasibətlərdə siyasi baxımdan öz müqəddəratını təyinetmədə onun daxili və ya mədəni müqəddəratı təyin etməyə, yəni cəmiyyətin bütün üzvlərinə və bütün qruplara ehtiyatların idarə olunması və paylanmasında səmərəli iştirak etmək imkanı verən demokratik institutların və qrup nümayəndəliyi mexanizmlərinin yaradılmasına yönəldilməsi ilə bağlı fikir getdikcə daha geniş yayılmaqdadır.

Öz müqəddəratını təyinetmə hüququ yalnız digərlərindən fərqli və etnik əsası olan qrupun mövcud olduğu halda “qanunidir”. Qrup yalnız ümumi iqtisadi üstünlüklərlə birləşmiş, lakin digər məqamlarda cəmiyyətin digər üzvləri olan insanlar ilə fərqli xüsusiy-

yətləri nəzərdə tutur. Bu zaman dövlətin insan hüquqları üzrə konstitusiya təminatları nəzərə alınmalıdır.

Öz müqəddəratını təyinetmənin xalqın hüququ kimi (BMT Nizamnaməsi, 1948-ci il İnsan hüquqlarının Ümumi Bəyannaməsi, 1966-cı il İqtisadi, sosial, mədəni hüquqlar haqqında beynəlxalq Pakt, 1966-cı il Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Paktlar və s. ilə) tanınması, ifadə edilməsi yalnız "xalq" anlayışının müəyyənləşdirilməsi ilə deyil, həm də bu anlayışın "azlıqlar" kimi digər anlayışlardan fərqləndirilməsi ilə bağlı problemləri də ortaya çıxarır. Öz müqəddəratını təyinetmənin ən problemli aspektlərindən biri "xalq" termininin nəyi ifadə etməsi ilə bağlı ümumqəbuledilmiş tərifin olmamasıdır. Bu hal beynəlxalq məhkəmə təcrübəsində də qeyri-müəyyən olaraq qalıb. Beynəlxalq Ədalət Məhkəməsinin "Yunan-bolqar icmaları ilə bağlı işi" üzrə qərarında da qrupa qeyri-müəyyən tərif verilib. Qərarda qrup mövcud ölkədə və ya ərazidə yaşayan, mənşə, din, dil və ənənələrinin və dini etiqadının qorunub saxlanmasına, yardımlaşmaya və öz övladlarının xalqın ənənə və ruhunda təlim və tərbiyəsinin təmin edilməsinə yönəlmiş həmrəylik hissinin ifadəçisi olan insan toplusu kimi müəyyənləşdirmişdir. Qeyri-müəyyən anlayışın verilməsinə baxmayaraq, öz müqəddəratını təyinetmənin müxtəlif üsul və formalarına münasibətdə hər bir halda söhbət xalqdan gedir. Burada etnik azlıq nəzərdə tutulmur. Həmin hüququn subyekti kimi öncə ifadə etdiyimiz beynəlxalq sənədlərə (1948-ci il Bəyannaməsinə, 1966-cı il Paktlarına və s.), həmçinin BMT Nizamnaməsinə uyğun olaraq, etnos (etnik qrup) deyil, yalnız demos (xalq) tanınmışdır.

İnsan və xalqların hüquqları üzrə Afrika Xartiyasında da bu hüququn subyekti kimi xalq göstərilir (m.20). Qeyd edilir ki, bütün xalqlar yaşamaq hüququna malikdirlər. Xalq öz müqəddəratını təyinetmənin mübahisəsiz və ayrılmaz hüquqlarına malikdir. Onlar öz siyasi statuslarını sərbəst formada müəyyən etmək hüququna malikdirlər" [5, s.740].

Müasir beynəlxalq hüququn əsas mənbələrindən birinin hüquqi tənzimetməsini formalaşdıran Müqavilələr hüququ haqqında 1969-cu il Vyana Konvensiyasının preambulasında da "öz müqəddəratını təyinetmə" *xalq* termini ilə şərtləndirilir. Konvensiyasının BMT-nin əksər rəsmi dillərində "öz müqəddəratını təyinetmə"ni (self determination *of peoples*; l'egalite de droit *des peuples*; determinacion de *los pueblos*) *xalq* üçün ifadə edilməsi qeyd edilməlidir.

Özünün azlıq təhlükəsi ilə yaşayan etnik qrupdan fərqli olaraq, xalq çoxluğu formalaşdırmaqla müxtəlif etnik və digər qrupları, icmaları ehtiva edir. Müxtəlif etnik qrupların, icmaların özünürealizəsi mexanizmi, hakim mövqe, dözümlülük (tolerantlıq) xalq üçün xarakterik xüsusiyyətdir [2, s.112]. Ədəbiyyatda xalq anlayışı millət anlayışına yaxın anlamda ifadə edilir. Lakin xalq öncə ifadə edilən daha geniş tərkibi nəzərdə tutur. Bu zaman müxtəlif etnoslar, yerli xalqlar, tayfalar ehtiva edilir [9, s.144-145]. Millət müəyyən anlamda xalqa yaxın tərzdə təsbit edilir. Məsələn, marksist fəlsəfə millətə anlayış verərkən onu insanların tarixən bərqərar olmuş dayanıqlı birliyi kimi qəbul edir [3, s.28; 4, s.19].

Xalqın maraqlarını onun siyasi təşkilatı, dövləti qoruyur. Xalqın və ya millətin dövlətçiliyi olmadıqda onun hüquqları beynəlxalq hüquq vasitəsilə beynəlxalq təşkilatlar tərəfindən insan hüquqları kontekstində qorunur, müdafiə edilir. Dövlət olmadıqca hətta milli-azadlıq mübarizəsində belə xalq özünün beynəlxalq hüquq subyektliyini realizə edə bilmir. Yalnız onun siyasi təşkilatı bu funksiyanı yerinə yetirir [10, s.100]. Buna görə də dövlət "suveren millət" [7, s.73], "obyekti və subyekti millət olan qeyri-fərdi institusional-laşmanın hakimiyyəti" [8, s.96] kimi də ifadə edilir.

Təsadüfi deyil ki, xalqdan millətə keçid dövlət quruculuğu prosesi ilə bağlıdır. Beynəlxalq hüquqda millət ingiliscə “Nation” xalqın siyasi strukturunu – dövləti ehtiva edir. Birləşmiş Millətlər (BM, “United Nations”) dövlətlərin ittifaqı mənasını kəsb edir. Dövlətin xalqda təzahür tapması ilə bağlı belə bir fikir də mövcuddur ki, dövlət oturuşmuş xalqın öncədən təşkilatlanan hakimiyyəti və ya belə bir hakimiyyətə malik ərazi qurumudur [6, s.52]. Dövlət özündə xalqı ehtiva etməklə öz müqəddəratını təyinetməni həyata keçirməyə başlayır. Bu zaman dövlət beynəlxalq hüquq subyekti kimi müxtəlif xalqların iradə ifadəsi kimi beynəlxalq hüquq normalarını yaradır. Bu normalar öz növbəsində ifadə etdiyimiz beynəlxalq hüquq normalarına uyğun olaraq öz müqəddəratını təyinetmənin daxili aspektindən kənar bir halı nəzərdə tutmur.

Xalqın müəyyən dövlətin vətəndaşlarının birliyi olduğunu nəzərə alsaq bu baxımdan xalqın öz müqəddəratını təyinetmə hüququ bildirir ki, heç kəs xaricdən, güc tətbiq etməklə, vətəndaşların iradəsinin əksinə olaraq dövlətin statusunu dəyişdirə bilməz. Bu hal daxili işlərə qarışmamaq, suverenlik, Avropada sərhədlərin toxunulmazlığı prinsipinə ziddiyyət təşkil edir. Xalq hesab edilmək üçün ümumi mədəniyyətə malik insanlar özlərini davamlı və ayrıca bir mənsubiyyətə kollektiv şəkildə malik şəxslər kimi qəbul edirlər. Bəzən xalq etnik və ərazi birliyi kimi də qəbul edilir. Xalq anlayışının etnik və ya ərazi birliyi kimi qəbul edilməsində də müxtəlif fikirlər mövcuddur. Bəzi mütəxəssislərin fikrincə, siyasi baxımdan öz müqəddəratını təyinetmə hüququna müəyyən ərazilərdə və ya inzibati subyektlərdə yaşayan “əsl” və ya “yerli” etnomillətlər malik olmalıdırlar. Bu halda yerli tayfalar daha çox diqqət mərkəzinə gətirilir.

Əhalinin, qrupun xalq hesab edilməsi üçün o, ümumi mənşəyə malik olmalı və ümumi mədəniyyət, din, dil və ənənələrlə birləşməlidir. Xalq öz müqəddəratını təyinetməyə, yəni ayrıca mövcud olmağa və bunun üçün obyektiv siyasi, iqtisadi əsasları olmalı və müvafiq əhalinin ümumi istəyi olmalıdır. Xalq digərlərindən fərqlənməklə, həmçinin müstəqil birlik qismində yaşamağın əlamətlərini əks etdirir. Xalqın “müstəqilliyinə” əsas yaradan digər amillər kimi onun məxsusi tarixi ərazidə məskunlaşması tələb olunur.

Beynəlxalq hüquq qrup üçün mədəniyyət fərqliliyini ifadə etməkdədir. Mülki və siyasi hüquqlar haqqında beynəlxalq Pakt (m.27) azlıqlara məxsus şəxslərin digər üzvlər kimi öz mədəniyyətlərinə malik olmaq, dini etiqadlarını tanımaq, onun adətlərinə riayət etmək, öz dilindən istifadə etmək hüququndan məhrum olmamaq hüququnu bəyan edir. Burada öz müqəddəratını təyinetmə öz mədəniyyətlərinə malik olmaq, dini etiqadlarını tanımaq, onun adətlərinə riayət etmək, öz dilindən istifadə etmək hüququndan məhrum olmamaqla məhdudlaşdırılır. Başqa sözlə, azlıqlar üçün beynəlxalq hüquqda mədəni muxtariyyət formasında öz müqəddəratını təyin etmə ifadə edilib.

Azlıq dövlətin digər əhalisindən sayca fərqlidir, üstünlük mövqeyində deyil və öz mədəniyyətinin, ənənələrinin, dininin və dilinin qorunub saxlanılmasına yönəlmiş həmrəylik nümayiş etdirir. Etnik qrupların öz mənsubiyyətlərinə və təbiətlərinə malik olmaları onların dil, din, mənşə və ənənələr kimi obyektiv meyarlarını görmək olar. Burada vahid etnik mənşə kifayət etmir.

Milli azlıq – konsolidasiya olunmuş və dövlətin hər hansı bir regionunda yaşayan, daxili birlik hissi ilə xarakterizə olunan və bununla belə öz spesifik xüsusiyyətlərini – dil, mədəniyyət və s. saxlamağa çalışan milli qrup kimi, başqa bir halda “əhalinin digər hissəsi ilə müqayisədə sayına görə daha az, dominant vəziyyət tutmayan, üzvləri bu dövlətin vətəndaşları olan, etnik, dini, dil xüsusiyyətlərinə malik, bu xüsusiyyətlərlə digər əhalidən

fərqlənən və öz mədəniyyət, ənənə, din və dillərinin qorunub saxlanması məqsədilə həmrəylik nümayiş etdirən qrup kimi ifadə edilir [1, s.198-199].

Dil, din, irqi mənsubiyyət, geniş planda isə ümumqəbulolunmuş baxışlar, adət və ənənələr mədəniyyətin fərqli əlamətləri kimi azlığı qiymətləndirir. Qrup özünün digərlərindən fərqli dil, din, mədəniyyət və əhalisinə malikdirsə, bu halda onu tanımaq və ona mədəni muxtariyyət formasında öz müqəddəratını təyin etmə hüququnun verilməsi təmin edilə bilər.

Bütün atributlara malik olmaqla yalnız xalq öz müqəddəratını təyinetmə hüququnu tələb edə bilər. Azlıqların hüquqları isə, daha məhdud məzmuna malikdir. Azlıqların məqsədi mövcud dövlət daxilində ayrıca qrup kimi öz mövqelərini qoruyub saxlamaqdan ibarətdir. Azlıqlar, etnik qruplar öz müqəddəratını təyinetmədə yerli xarakterli, mədəni, iqtisadi və sosial sahələrdə hüquqlarını realizə edə bilər. Etnik qrup xüsusi şəxslər kimi əsas insan hüquqlarına malik olan sosial orqanizmdir. Belə bir fikir də ifadə edilir ki, etnik qrupların hüquqları yoxdur, belə ki, onlarda hakimiyyət strukturu mövcud deyildir. Lakin onlarda icma, daxili qruplaşma elementləri mövcuddur. Onlar üçün özünün etnik qrupuna bağlılıq nikah, kilsə və d. ilkin sosial strukturlar səviyyəsində təzahür edir. Özünün fərdiliyini saxlamaq üçün etnik qrupla siyasi orqan kimi dövlət arasında sıx əlaqə mövcuddur. Etnik qrup ümumi daxili, mədəni bağlılığı, sosial birlik və hüquq mədəniyyətini də əhatə edir. Etnik qrup insan birliyi olaraq müxtəlif hakimiyyət formasında – dini, sosial, yerli özünüidarə hakimiyyəti formasında təşkilatlandırıla bilər. Yerli özünüidarə hakimiyyəti formasında təşkilatlandırılma azlıq hüquqlarının realizə edilməsi, siyasi sistemə inteqrasiya və eyni zamanda birbaşa xalq hakimiyyəti olması baxımından özünütəyinetmənin əhəmiyyətli vasitəsidir.

Yerli məsələlərin həllində azlıqların hüquqları bir çox beynəlxalq müqavilələrlə ifadə edilib. Bunlardan:

- Milli azlıqlara mənsub şəxslərin hüquqlarının təmin edilməsi haqqında 1994-cü il Minsk Konvensiyası;
- 1995-ci il Strasburqda Avropa Şurası tərəfindən qəbul edilmiş Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası;
- Regional dillər və azlıqların dilləri haqqında 1992-ci Avropa Xartiyası və s. sənədləri göstərmək olar. Milli azlıqlara mənsub şəxslərin hüquqlarının təmin edilməsi haqqında 1994-cü il Minsk Konvensiyasında dövlət siyasətinin həyata keçirilməsi zamanı milli azlıqların qanuni maraqlarının nəzərə alınması, onların etnik, dil, mədəni və dini mövcudluğunun qorunması və inkişafı üçün rifah halının yaxşılaşdırılması məqsədilə zəruri tədbirlərin görülməsi (m.4.2), milli azlıqlara mənsub şəxslərin ictimai və dövlət həyatında xüsusilə *yerli (kurs-müəll.)* səviyyədə onların maraqlarının müdafiəsi ilə bağlı məsələlərdə iştirak etmək hüququnun təmin edilməsi (m.5.1) nəzərdə tutulur.

1995-ci il Strasburqda Avropa Şurası tərəfindən qəbul edilmiş Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının preambulasında 1993-cü ilin oktyabrın 9-da Vyanada qəbul edilmiş Avropa Şurası üzv-dövlətlərin dövlət və hökumət başçılarının Bəyannaməsinə, 1950-ci il İnsan hüquqları və əsas azadlıqların müdafiəsi haqqında Avropa Konvensiyası və ona Əlavə Protokollara, BMT sənədlərinə istinad edilərək, milli azlıqların bir çox hüquqlarının tanınması və təmin edilməsi barədə müddəalar əks olunmuşdur.

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyasının məqsədləri kimi milli azlıqların *mədəniyyətinin (kurs-müəll.)* qorunub saxlanması və inkişafı üçün lazımi şəraitin

yaradılması; onlara birləşmək azadlığı; transsərhəd əlaqələrin genişləndirilməsi; *ictimai həyatda (kurs-müəll.)*iştirakın inkişafı və s. təsbit edilib. Konvensiyanın bir sıra maddələri (məsələn, m.7) müəyyən qurumlarda, *assosiasiyalarda (kurs-müəll.)* birləşmək hüququnu ehtiva edir. Qeyd edilənlərdən belə bir nəticə yaranır ki, beynəlxalq hüquq milli azlıqlar üçün özünüidarəetmə imkanlarını nəzərdə tutsa da bu əsasən müəyyən bir siyasi sistemin çərçivəsində insan hüquqlarının qeyri-inqilabi, təkamül formasında inkişaf etdirilməsi ilə sosial-mədəni hüquqların həyata keçirilməsi məzmunu kəsb edir.

## Ədəbiyyat

1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, "Hüquq ədəbiyyatı" nəşriyyatı, 2013, 506 s.
2. Sadıqov Ə.İ., Məlikova M.H. Uluslararası Hukuk Karşısında Ermenistan'ın «Kendi Kaderini Tayin Hakkı» Siyaseti / YOM Türk Dünyası Kültür Dergisi, №19-20/2010, s.109-118
3. Богатуров А.Д. Самоопределение наций и потенциал международной конфликтности // Международные отношения. 1992. № 3, с.28
4. Ленин В. И. О праве наций на самоопределение // Полн. собр. соч. Т. 25. М.: Издательство политической литературы, 1977, с.19
5. Международные акты о правах человека. Сборник документов. Сост. В.А.Карташкин, Е.А.Лукашева. М., Изд. НОРМА, 2000, 784 с.
6. Heraclides A. The Self-determination of Minorities in International Politics. Routledge; 1 edition (October 1, 1999), 291 p.
7. Clapham C. Africa and the International System: The Politics of State Survival (Cambridge Studies in International Relations). Cambridge University Press (January 12, 2008), 356 p.
8. David R., Beck M. The Struggle for Self-Determination: History of the Menominee Indians since 1854. University of Nebraska Press (December 1, 2005), 296 p.
9. Shaw M. Title to Territory in Africa: International Legal Issues. L.: Oxford university press, 2002, p.144-145
10. Hisada T. Indigenous Development and Self-Determination in West Papua: Socio-Political and Economic Impacts of Mining upon the Amungme and Kamoro Communities. VDM Verlag (May 27, 2008), 200 p.

## THE RIGHT OF PEOPLES TO SELF-DETERMINATION AND AUTONOMY FOR SELF-DETERMINATION OF NATIONAL (ETHNIC) MINORITIES

**G.R.Khalilov**

## SUMMARY

Criteria for the right to self-determination and the signs which shape the concept of national (ethnic) minorities are considered in this work. National (ethnic) minority is defined as follows: national (ethnic) minority is a group of citizens, united in accordance with the internationally recognized principles of autonomy, consisting of those who differ in number from the rest of the country's population, live in some region of the country which shares the same feeling of inner unity, have linguistic, ethnic, religious characteristics and don't hold dominant positions in the country. The author arrives at the conclusion

that although the international law considers the possibility of self-government for national minorities, its main focus is on the individual human rights.

## ПРАВО НАРОДОВ НА САМООПРЕДЕЛЕНИЕ И АВТОНОМИЯ ДЛЯ САМООПРЕДЕЛЕНИЯ НАЦИОНАЛЬНЫХ (ЭТНИЧЕСКИХ) МЕНЬШИНСТВ

**Г.Р.Халилов**

### РЕЗЮМЕ

В статье рассматриваются критерии права на самоопределение и признаки, формирующие понятие национальных (этнических) меньшинств. Национальное (этническое) меньшинство определяется следующим образом: национальное (этническое) меньшинство – это группа граждан, объединенных в соответствии с международными принципами автономии, отличающихся по количеству от остального населения страны, проживающих в каком-либо регионе страны, характеризуемым чувством внутреннего единства, имеющих языковые, этнические, религиозные особенности и не занимающих доминирующие положения в государстве. Автор приходит к выводу, что хотя международное право и принимает во внимание возможность самоуправления для национальных меньшинств, в основном оно концентрируется на индивидуальных правах человека.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# VƏTƏNDAŞ CƏMİYYƏTİNİN İNKİŞAFINDA BİRLƏŞMƏK HÜQUQUNUN ROLU

**D.M.Qənbərov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: bsu_istuc@rambler.ru

***Açar sözlər:*** vətəndaş cəmiyyəti, hüquqi dövlət, insan hüquqları, demokratiya, birləşmək hüququ, ictimai birliklər

***Keywords:*** civil society, state of law, human rights, democracy, right of association, public associations

***Ключевые слова:*** гражданское общество, правовое государство, права человека, демократия, право на объединения, общественные объединения

## Giriş

Müasir mərhələdə vətəndaş cəmiyyəti ictimai islahatların istiqamətlərini müəyyənləşdirən paradiqmaya çevrilmişdir. "Vətəndaş cəmiyyəti" anlayışı ilə sosial reallıq hadisələrini izah etmək nəzəri kateqoriya kimi əksəriyyət tərəfindən qəbul edilmişdir. "Vətəndaş cəmiyyəti" anlayışı elmi ədəbiyyatda xüsusi məzmuna malikdir və müasir mənada cəmiyyətin müəyyən tipini, onun sosial-iqtisadi və hüquqi təbiətini, inkişaf səviyyəsini, tamlığını ifadə edir. Vətəndaş cəmiyyəti dedikdə, tarixi təcrübə ilə formalaşmış bir sıra kriteriyalara cavab verən cəmiyyət başa düşülür. Bu, sosial birliyin daha yüksək inkişaf pilləsidir, onun yetkinliyinin ölçüsüdür. Birləşmək hüququnun təmin olunmadığı halda təbii ki, vətəndaş cəmiyyətindən danışmaq mümkün deyil. Vətəndaş cəmiyyətinin əsas elementlərini məhz birləşmək hüququ əsasında yaradılan və birgə məqsədlərə çatılmasına, birgə maraqların qorunmasına xidmət edən birliklər təşkil edirlər.

## Vətəndaş cəmiyyəti ideyasının inkişafı

Hər şeydən öncə qeyd edək ki, vətəndaş cəmiyyəti mövzusu artıq bir neçə onillikdir ki, sosial elmlərin mərkəzi problemi kimi nəzərdən keçirilməkdədir. Belə ki, politologiya, hüquqşünaslıq, siyasi sosiologiya, siyasi fəlsəfə, tarix kimi elmlər vətəndaş cəmiyyəti problemini fəal şəkildə araşdırmaqdadırlar. Müasir mərhələdə demokratik cəmiyyətdən danışarkən ilk öncə vətəndaş cəmiyyətinin vəziyyəti haqqında müzakirə aparılır. Təsadüfi deyil ki, vətəndaş cəmiyyəti probleminə ayrıca olaraq jurnallar, monoqrafiyalar həsr olunmuşdur [11, s.109]. Məlum olduğu kimi, vətəndaş cəmiyyəti hər şeydən öncə Qərb sivilizasiyasının tarixi inkişaf fenomenidir. Ötən əsrin ortalarından etibarən demokratik təcrübənin nəzərəçarpacaq dərəcədə genişlənməsi ilə bərabər, vətəndaş cəmiyyətinin formalaşması prosesi digər regionlarda da müşahidə olunmağa başlamışdır. Təbii ki, hər bir regionun, daha lokal götürmüş olsaq, hər bir dövlətin tarixi, sosio-mədəni xüsusiyyətləri yaranmış vətəndaş cəmiyyətində özünü aydın biruzə verir. Şübhəsiz ki, insan hüquq və azadlıqlarının qorunması və təmin edilməsi səviyyəsi müxtəlif dövlətlərdə ciddi şəkildə fərqlənə bilər. Məhz bu məqam özünü aydın şəkildə vətəndaş cəmiyyətinin inkişaf səviyyəsində özünü göstərir. Çünki vətəndaş cəmiyyətinin il-

kin elementləri olan müxtəlif qeyri-hökumət birlikləri və ya təşkilatları məhz birləşmək hüququ əsasında yaranırlar. Yəni, ayrı-ayrı regionlar və dövlətlər üzrə birləşmək hüququnun qorunması və ya təmin olunması səviyyəsindəki fərqlər müvafiq olaraq vətəndaş cəmiyyətinin inkişafı səviyyələrində də özünü biruzə verirlər.

Vətəndaş cəmiyyəti haqqında klassik fikirlər F.Hegelə, T.Hobbsa, J.Russoya, İ.Kanta məxsusdur. Vətəndaş cəmiyyətinin müasir anlamına gəldikdə isə, qeyd etmək lazımdır ki, bu kateqoriya üçün vahid anlayış hələ də mövcud deyil [4, s.31]. Bunun obyektiv səbəbini bu kateqoriyanın müxtəlif elmlərin nümayəndələri tərəfindən öyrənilməsi faktında axtarmaq lazımdır. Təbii ki, fərqli istiqamətlərin nümayəndələri bu və ya digər problemlərə öz mövqelərindən yanaşırlar. Müvafiq olaraq vətəndaş cəmiyyəti kateqoriyasına da ayrı-ayrı elmi istiqamətlərin nümayəndələri öz mövqelərindən yanaşaraq onun mahiyyətini izah etməyə çalışmışlar [9, s.76].

Vətəndaş cəmiyyəti dövlətin-hakimiyyət təsirlərindən sərbəst qalan sahələri bir növ doldurur. Tədqiqatçılar vətəndaş cəmiyyətinin əsasında dayanan ümumi ideya və prinsipləri müəyyənləşdirməyə cəhd etmişlər. Müxtəlif yanaşmalardan çıxış edərək istənilən vətəndaş vəmiyyəti üçün daha ümumi olan ideya və prinsipləri aşağıdakı kimi nəzərdən keçirmək mümkündür:

- iqtisadi azadlıq, mülkiyyət müxtəlifliyi, bazar münasibətləri;
- təbii insan və vətəndaş hüquqlarının qəbul olunması və qorunması;
- hakimiyyətin legitimliyi və demokratik xarakteri;
- hamının qanun və məhkəmə qarşısında bərabərliyi, şəxsiyyətin etibarlı hüquqi müdafiəsi;
- hakimiyyət bölgüsünə əsaslanan hüquqi dövlət;
- siyasi və ideoloji plüralizm, leqal müxalifətin mövcudluğu;
- söz və mətbuat azadlığı, kütləvi informasiya vasitələrinin müstəqilliyi;
- dövlət tərəfindən vətəndaşların şəxsi həyatına müdaxilənin olmaması, onların qarşılıqlı öhtəlikləri və məsuliyyəti;
- sinfi anlaşma, əməkdaşlıq və milli barış;
- insanların layiqli həyat səviyyəsini təmin edəcək səmərəli sosial siyasət.

Bir daha qeyd edək ki, sadaladığımız əlamətlər istənilən vətəndaş cəmiyyəti üçün xasdır. Vətəndaş cəmiyyətinin əsasında duran əsas ideya və prinsipləri müəyyənləşdirməklə, onun bütün əlamətlərini və ya tərəflərini nəzərdən keçirmək mümkündür. Bu zaman həmçinin, cəmiyyətlə dövlət arasında və şəxsiyyətlə dövlət arasında münasibətlərin xarakteri haqqında dolğun təsəvvürlər formalaşır.

Tədqiqatçı O.Leyts hesab edir ki, vətəndaş cəmiyyətinin təbiəti üçün dövlətin və onun orqanlarının qanunauyğunluğu xarakterikdir. Daha sadə tərzdə ifadə etmiş olsaq, vətəndaş cəmiyyət qanunilik prinsipinə söykənir [6, s.13]. Çünki, vətəndaş cəmiyyətinin əsas əlamətlərindən birinin cəmiyyətdə ayrı-ayrı könüllü birliklərin mövcudluğundan ibarət olması özü-özlüyündə insan hüquq və azadlıqlarının tanınmasını və etibarlı qorunmasını tələb edir. Belə ki, birləşmək hüququnun tanınmadığı və qorunmadığı cəmiyyətlərdə vətəndaş cəmiyyətindən danışmaq üçün heç bir əsas olmaz. Ümumiyyətlə, elmi ədəbiyyatlarda vətəndaş cəmiyyətinin səmərəli fəaliyyəti üçün müvafiq şərtlərin mövcudluğunun vacibliyi nəzərə çatdırılır. Bu şərtləri qısaca təhlil etməklə həm də vətəndaş cəmiyyəti haqqında təsəvvürlərimizi daha da möhkəmləndirmiş olarıq. Beləliklə, bu şərtləri aşağıdakı kimi təsnifləşdirmək olar.

Birincisi, vətəndaş cəmiyyətinin yaranmasının ilkin şərti ictimai təlabatı və maraqları adekvat ifadə edən hüququn mövcudluğu və inkişafıdır. Təbii ki, əsas insan hüquqları və azadlıqları müasir hüququn məzmununu və sistemyaradıcı elementini təşkil edir. Özünün inkişafının daha yüksək səviyyəsində vətəndaş cəmiyyəti hüquqa elə potensial verir ki, onun reallaşdırılması azadlığın və həqiqi humanizmin təmin edilməsi kimi qəbul olunur.

İkinci şərt mülkiyyətin, iqtisadi azadlığın və əmək azadlığının olmasıdır. Bu şərt, vətəndaş cəmiyyətinin hər bir üzvünün mülkiyyətə sahib olmasının vacibliyini nəzərdə tutur. Mülkiyyətə sahib olmaq vətəndaşı müstəqil edir. Müxtəlif fəaliyyət formalarında ifadəsini tapmaqla, mülkiyyət münasibətləri istehsal birliklərinin və təşkilatlarının müxtəlifliyini müəyyənləşdirir. Bu təsisatların zənginliyi və müxtəlifliyi birbaşa olaraq mülkiyyətin müxtəlif formalarından asılıdır. Vətəndaş cəmiyyətinin mövcudluğuna dəlalət edən məqamlardan biri də ondan ibarətdir ki, insan burada özünün intellektual və fiziki bacarıqlarını nümayiş etdirmək imkanına malik olur. Təbii ki, bu, maddi və mənəvi dəyərlərin yaradılması üçün edilir. Yəni, vətəndaşın əmək azadlığı və ya əmək hüququ təmin olunur. Bununla bağlı olan mühüm məqamlardan biri də iqtisadi azadlıqdır. İqtisadi azadlıq iqtisadi hakimiyyəti siyasi hakimiyətdən ayıraraq onların biri-birinə münasibətdə balans yaratmasını təmin edir [10, s.8]. Yalnız bu halda sahibkarlığın mövcudluğundan, demokratik strukturlaşmış vətəndaş cəmiyyəti çərçivəsində insanların özünü idarəetməsindən danışmaq üçün əsas olar. Göründüyü kimi, bu zaman hüququn özü cəmiyyətin iqtisadi inkişafının, onun iqtisadi özünütəşkilinin vasitəsinə çevrilir.

Vətəndaş cəmiyyətinin yaranmasının üçüncü şərti çoxüzlü sosial-siyasi ictimai strukturun kifayət qədər inkişafını nəzərdə tutur. Belə olan halda maraqlar müxtəlifliyinin ifadəsi mümkündür. Vətəndaş cəmiyyətinin mahiyyəti həm də müxtəlif, fərqli maraqların könüllü birliklərin yaradılması və onlarında işində iştirak vasitəsilə ifadə olunmasından və qorunmasından ibarətdir. Deməli, hər şeydən öncə, siyasi qrupların, ittifaqların, partiyaların, təsir qruplarının müxtəlifliyi olmalıdır. Belə strukturlaşma cəmiyyətdə üfuqi əlaqələri təmin edir və onu daha təşkilatlanmış, möhkəm və stabil edir. Bu da dövlətlə cəmiyyəöt arasında daha konstruktiv münasibətlərin mövcudluğunu şərtləndirir. İnsanların öz birləşmək hüququndan istifadə edərək yaratdıqları qrupların köməyilə öz ümumi problemlərini birgə həll etmək, ictimai həyatın bütün sahələrində təlabatlarını, maraqlarını təmin etmək imkanına malik olurlar. Dövlətdən asılı olmayan birliklər və ya təşkilatlar dövlət institutlarına təsir edirlər, həmçinin, dövlətin ictimai həyata müdaxiləsini məhdudlaşdırırlar. İnsanların könüllü birlikləri və təşkilatları olmadığı halda onlar birbaşa dövlətdən asılı olurlar və dövlətlə vətəndaş arasında kəskin ziddiyyətlər meydana gəlir. Belə ziddiyyətlərin aradan qalxmasında əvəzsiz rol məhz vətəndaş cəmiyyətinə məxsusdur. Vətəndaş cəmiyyətinin əsas atributu ictimai birliklərdən və ya qeyri-hökumət təşkilatlarından ibarətdir. Deməli, birləşmək hüququ vətəndaş cəmiyyətinin formalaşmasının əsas hərəkətverici gücü və ya elementi rolunda çıxış edir. Birləşmək hüququ vətəndaş cəmiyyətinin sosial təşkilatlanmasını təmin edir. Bu zaman qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyətinin sosial təşkili cəmiyyətin iqtisadi, sosial-mədəni, milli-mədəni, milli-etnik, dini, ictimai-siyasi həyatı ilə müəyyənləşir. Müxtəlif siyasi partiyalarda, hərakatlarda, vətəndaş təşəbbüslərində, assosiyasiyalarda təmsil olunmaqla, siyasi maraqların və azadlıqların təmin olunması ilə bağlı olan münasibətlər xüsusi əhəmiyyət kəsb edir. Siyasi azadlıq özünü iqtisadi azadlıqdan və konkret tarixi şəraitdən asılı olaraq biruzə verir. Tədqiqatlarımıza əsasən qeyd edə bilərik ki, siyasi azadlığın əsas xüsusiyyəti

təkcə müxtəlif partiyalarda iştirak və ya seçki azadlığı ilə bağlı deyil. Bu, daha çox vətəndaş cəmiyyətinin hər bir üzvünün cəmiyyətin siyasi həyatına real təsir imkanlarının olması ilə əlaqəlidir. Təşkilatın siyasi simasını, onun dövlətə münasibətini müəyyənləşdirən əsas aspekt rolunda məhz bu məqam çıxış edir.

Vətəndaş cəmiyyətinin formalaşmasının, mövcudluğunun dördüncü şərti şəxsiyyətin inkişafı, ictimai özünü idarəetmədə fəal şüurlu iştirakı ilə bağlıdır. Vətəndaş cəmiyyətinin fərdin şəxsiyyət səviyyəsinə qədər inkişaf etdiyi təqdirdə mövcudluğundan və inkişafından danışmaq mümkündür. Burada həm sosial, həm psixoloji məqam nəzərdə tutulur. Yalnız bu halda vətəndaş vətəndaş cəmiyyəti institutlarında müstəqil, sərbəst iştirak edə bilər [8, s.1]. Vətəndaş cəmiyyəti insanların biri-birilərindən və dövlətdən asılı olmayaraq, müstəqil qarşılıqlı fəaliyyət göstərdikləri sosial məkandır. Şəxsiyyətin iqtisadi, mədəni, mənəvi və siyasi potensialını reallaşdırmaq üçün müvafiq hüquqlara malik olması vətəndaş cəmiyyətinin mövcudluğuan dəlalət edən ən mühüm məqamdır. Şəxsiyyət öz məqsədlərinə çatmaq üçün sərbəst, müstəqil fəaliyyət göstərməlidir, vətəndaş cəmiyyəti isə, müvafiq hüquqi mexanizmlərin vasitəsilə, onun maraqlarını qorumalıdır, ona qayğı göstərməlidir və bütün neqativ hallardan gözləməlidir. Təbii ki, öhtəliklər birtərəfli deyildir. Belə ki, şəxsiyyət də öz növbəsində vətəndaş cəmiyyətinin bütün hüquqlarını və ya qaydalarını gözləməlidir, özünün bütün fəaliyyətini ümumilikdə vətəndaş cəmiyyətinin və bu cəmiyyətin digər üzvlərinin maraqları ilə uzlaşdırmalıdır. Bu, o deməkdir ki, fərd şəxsiyyət səviyyəsinə inkişaf etməklə, həm də öz öhtəliklərini dərk edir. Vətəndaş cəmiyyətində və ya ümumiyyətlə cəmiyyətdə münasibətlər sisteminə daxil olan şəxs öz hüquq və azadlıqlarını inkar etmədiyi kimi, başqalarının da hüquq və azadlıqlarını inkar edə bilməz. Yəni, vətəndaş cəmiyyətində öhətliklər qarşılıqlı xarakter daşıyır. Vətəndaş cəmiyyətinin mövcudluğunu və inkişafını da təmin edən bu məqamdır. Vətəndaş cəmiyyətində özünün birləşmək hüququndan istifadə edən şəxs bu hüququn cəmiyyətin digər üzvlərinin hüquqlarının məhdudlaşdırılmasına yönəlik fəaliyyət göstərməməlidir. Birləşmək hüququnun tənzimlənməsi məhz onun digərilərinin maraqlarına qarşı yönəlməməsini təmin etmək məqsədi daşıyır. Qeyd etdiklərimiz həm də bir daha sübut edir ki, vətəndaş cəmiyyəti istənilən halda vətəndaşların birləşmək hüququ ilə əlaqəlidir. Bu hüquqların məhdudlaşdırılması kimi, nəzarətsiz buraxılması da vətəndaş cəmiyyəti mövcudluğunu əngəlləyən amil rolunda çıxış edir.

Vətəndaş cəmiyyətinin yaranmasını və mövcudluğunu şərtləndirən beşinci mühüm şərt ondan ibarətdir ki, vətəndaşlar ciddi məsuliyyət hissinə və hüquqi mədəniyyətə malik olurlar. Hakimiyyət nümayəndələrində qeyd edilən keyfiyyətlərin daha üstün olması vacib şərtdir. Ümumiyyətlə, vətəndaş cəmiyyətinin hər bir iştirakçısının öz fəaliyyətinin nəticəsinə görə, bu fəaliyyətin başqalarına necə təsir edəcəyinə görə ciddi məsuliyyəti əhəmiyyətlidir. Təbii ki, bu keyfiyyəti şərtləndirən və tələb edən başlıca məqam vətəndaş cəmiyyətinin mövcudluğu ilə bağlıdır. Vətəndaş cəmiyyətində hər kəs vahid, hamının hamı qarşısında məsuliyyət daşıdığı bir cəmiyyətə məxsus olduğunu dərk edir. Vətəndaş cəmiyyətin mahiyyəti elə yüksək məsuliyyət hissinin olması ilə izah oluna bilər. Vətəndaş cəmiyyətində bütün şəxslərin maraqlarının qorunmasını təmin etmək üçün qarşılıqlı məsuliyyətin olması ilkin şərt kimi nəzərdən keçirilir. Təbii ki, vətəndaş cəmiyyəti hər şeydən öncə insanların azadlığını nəzərdə tutur və ona istinad edir. Məsuliyyət olmadığı yerdə isə azadlıqdan danışmaq əsassızdır. Vətəndaş cəmiyyətində azadlığı məhz cəmiyyət üzvlərinin qarşılıqlı məsuliyyəti təmin edir. Yəni, vətəndaş cəmiyyətinin əsas ideyalarından biri ondan ibarətdir ki, öz məsuliyyətini dərk etməyən insan azadlığa layiq deyil. Və-

təndaş cəmiyyətində azad olmaq, öz hərəkətlərinə görə məsuliyyət daşımamaq demək deyil. Ümumiyyətlə, tədqiqatlarımız nəticəsində vətəndaş cəmiyyəti çərçivəsində üç növ məsuliyyətin olduğunu müəyyənləşdirə bildik. Bunları aşağıdakı kimi sıralamaq olar:

- mənəvi məsuliyyət;
- hüquqi məsuliyyət;
- siyasi məsuliyyət.

Bunların hər birini qısaca nəzərdən keçirməklə, vətəndaş cəmiyyətinin təbiətini daha dərindən dərk etmiş olaraq. Beləliklə, mənəvi məsuliyyət hər hansı bir formada cəzanı nəzərdə tutmur. Cəmiyyət üzvünün öz ailə, cəmiyyət və dövlət qarşısında öz məsuliyyətini dərk edir. Bu zaman cəmiyyət üzvünün məsuliyyət səviyyəsi onun şəxsi keyfiyyətlərindən, mədəniyyətindən asılı olur. Hüquqi məsuliyyət hüquqi normaların və prinsiplərin pozulmasına görə cəzaları nəzərdə tutur. Yuxarıda qeyd etdiyimiz məsuliyyət növləri sırasında siyasi məsuliyyət daha həssas yanaşmanı tələb edir. Siyasi məsuliyyət cəmiyyətin müasirlik və inkişaf səviyyəsindən birbaşa asılıdır. Hər şeydən öncə, xalq cəmiyyətin siyasi həyatındakı fəaliyyətinə və ya fəaliyyətsizliyinə görə siyasi məsuliyyət daşımalıdır. Cəmiyyət üzləri bunu həmçinin, dövlət nümayyəndələrindən də tələb etməlidirlər.

## Birləşmək hüququ və vətəndaş cəmiyyəti

Birləşmək hüququ vətəndaş cəmiyyətinin əsas elementinin-vətəndaş institutlarının formalaşmasını təmin edir. Bu institutlar vasitəsilə dövlət idarəçiliyinə təsir edilir. Vətəndaş cəmiyyəti institutları iqtisadi, sosial, hüquqi, siyasi, mənəvi-mədəni maraqların təmsilçiliyində xüsusi fəallıqları ilə seçilirlər. Bu məqamda qeyd edək ki, vətəndaş institutudövlətdən asılı olmayan könüllü birliklərin məcmusudur. Bu birliklər də öz növbəsində insan fəaliyyətinin müxtəlif sahələrini tənzimləyirlər. Siyasi institut insanların fəaliyyətinin dayanıqlı kompleksidir. Bu fəaliyyət siyasi hakimiyyətin funksionallığı və siyasi sistemin dəstəklənməsi ilə bağlı olur [7, s.54].

Ümumiyyətlə, qeyd edək ki, insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi vətəndaş cəmiyyəti quruculuğunda başlıca vəzifələrdəndir. Ümumiyyətlə, insan hüquqları ideyası öz kökü etibarilə qədimlərə getsə və orta əsrlərdən pöhrələnsə də, yalnız maarifçilik dövründə monarxların istibdadına qarşı mükəmməl fəlsəfi nəzəriyyə kimi təşəkkül tapmışdır. II Dünya müharibəsindən sonra isə siyasi konsepsiya, hüquqi nizamasalma və müasir bilik sahəsi kimi formalaşıb inkişaf etmişdir. Bu olduqca mühüm prinsip ilk dəfə olaraq BMT Nizamnaməsində (1-ci, 55-ci və 56-cı maddələr) ümumi formada təsbit olunmuş, sonralar bir sıra mühüm sənədlərdə, o cümlədən 1948-ci il dekabrın 10-da, "Ümumdünya insan hüquqları bəyannaməsi" qəbul ediləndən sonra insanın mülki, siyasi, iqtisadi, sosial və mədəni hüquqlarının kataloqu genişlənməyə başlamış (1966-cı ilin 16 dekabrında bu barədə 2 beynəlxalq pakt qəbul edilmişdir), 1975-ci ildə Avropada Təhlükəsizlik və Əməkdaşlıq üzrə Helsinski Müşavirəsinin Yekun Aktının qəbulundan sonra isə insan hüquqları beynəlxalq davranışın hamılıqla etiraf olunan normasına, standartına çevrilmişdir [1, s.44]. Bu aktı imzalamış dövlətlər digər dövlətlərdə insan hüquqlarının gözlənilməsinə nəzarət edə və bu hüquqların pozulmasının aradan qaldırılmasını tələb edə bilərlər. İnsan hüquq və azadlıqlarının qorunması BMT-nin əsas vəzifəsidir. 1990-cı il noyabrın 21-də qəbul olunmuş "Yeni Avropa üçün Paris Xartiyasında" və 1993-cü ilin iyunun 25-də Ümumdünya Konfransında qəbul olunmuş tədbirlər Proqramında və Vyana bəyannaməsində insan hüquqlarına dair öhdəliklər bir da-

ha təsdiq olundu və insan hüquqlarına hörmət dövlətlərin ən birinci vəzifəsi kimi müəyyənləşdi, onların gözlənilməsi azadlığın, ədalətin və sülhün əsası kimi götürüldü.

Birləşmək hüququnun təmin edilməsi müasir dövlətlərinin demokratikləşməsi səviyyəsini ifadə edən əsas amillərdən biridir. Dünya dövlətlərinin konstitusiyalarında digər insan hüquq və azadlıqları ilə yanaşı, birləşmək hüququ da dəqiqliklə təsbit olunmuşdur. Bildiyimiz kimi, konstitusiya hüquq və azadlıqları dedikdə, konstitusiyada təsbit olunmuş və dövlət tərəfindən təminat verilən imkanlardırlar. Bu imkanlar hər bir vətəndaşa və insana özünün davranış növünü və ölçülərini müəyyənləşdirməyə, ona verilən sosial rifahlardan həm özü, həm də ictimai maraqlar üçün faydalanmağa şərait yaradır. Tədqiqatçı D.Voyevodin yazır ki, hüquq və azadlıq qanunla müəyyənləşdirilmiş hüquqi imkanların ifadəsinin iki formasıdır. Yəni, burada insanın davranış formalarının seçilməsi imkanları nəzərdə tutulur. Belə seçim konkret sosial rifahlardan istifadə ilə bağlıdırsa, qanun əksər hallarda "hüquq" anlayışını istifadə edir. Nə zamankı söhbət davranışın seçilməsi səviyyəsindən gedir, onda "azadlıq" anlayışının tətbiq olunması daha məqsədəuyğundur. Bu baxımdan, qeyd edə bilərik ki, birləşmək hüququ həm davranış formasının, həm də səviyyəsinin seçilməsi kimi imkanları kimi səciyyələndirilə bilər.

Vətəndaş cəmiyyətinin başlıca göstəricisi fəaliyyət göstərən müxtəlif xarakterli ictimai birliklərin mövcudluğudur ki, bu da yalnız birləşmək hüququnun reallaşdırılması nəticəsində mümkündür. Təbii ki, birləşmək hüququ yalnızca təkcə siyasi partiyaların və siyasi məqsədlər üçün digər ictimai birliklərin yaradılmasını nəzərdə tutmur. Birləşmək hüququ həm sosial və iqtisadi maraqların müdafiə olunması naminə digər ictimai təşkilatların yaradılmasını nəzərdə tutur. İnsan hüquqları probleminin tanınmış tədqiqatçılarından olan O.Kutafin hesab edir ki, birləşmək hüququ könüllülük əsasında insanların ictimai birliklər yaratmaq imkanlarını ifadə edir. Bu zaman ümumi maraqların müdafiəsi üçün insanların öz inancları olur. Ümumi məqsədlərə çatılması belə birliklərin yaradılması üçün əsas motiv rolunda çıxış edir. Birləşmək hüququ təbii ki, təkcə ictimai məqsədlərə çatılması və ümumi maraqların qorunması istiqamətində ictimai birliklərin yaradılması imkanlarını ifadə etmir. Birləşmək hüququ həm də bu və ya digər ictimai birliyə qoşulmaq, ictimai birliklərə qoşulmaqdan imtina etmək, üzvü olduğu ictimai birliyin sıralarını tərk etmək kimi imkanları ifadə edir [3, s.114]. Bu məqamın özü ondan xəbər verir ki, birləşmək hüququnun təmin olunması çoxistiqamətli problemdir. Yəni, sadəcə insanların və vətəndaşların ictimai birliklər yaratmaq imkanları deyil, həm də qeyd etdiyimiz imkanların yaradılmasının təmin olunmasından söhbət gedir. Birləşmək hüququnun mahiyyətini V.Lazaryev daha lokanik şəkildə ifadə etmişdir. Belə ki, V. Lazaryevin fikrincə, birləşmək hüququ hər bir insana başqaları ilə siyasi, peşəkar və digər maraqlar üzrə birləşmək imkanlarını verir [5, s.79].

Nəzərdən keçirdiyimiz məqamlardan da aydın olduğu kimi, vətəndaş cəmiyyətinin formalaşmasını hər şeydən öncə birləşmək hüququ şərtləndirir. Yəni, qeyd etdiyimiz kimi, birləşmək hüququnun təmin olunması sayəsində yaranan ictimai birliklər vətəndaş cəmiyyətinin ayrılmaz atributu rolunda çıxış edirlər. Hələ XVII əsrdə Hegel ailə ilə yanaşı korporasiyaların da vətəndaş cəmiyyətinin ayrılmaz hissəsi olduğunu əsaslandırmağa çalışmışdır. Hegel yazırdı: "bizim müasir dövlətlərdə vətəndaşlar məhdud şəkildə bütün dövlət işlərində iştirak edirlər. Ancaq insana şəxsi məqsədlərindən başqa, ümumi fəaliyyət imkanı da yaratmaq lazımdır. Dövlətin heç də həmişə insanlara vermədiyi bu ümumi fəaliyyəti onlar korporasiyalarda tapırlar" [2, s.233]. Hər şeydən öncə, belə korporasiyaların yaradılması üçün müvafiq hüquqi təminatın olması vacibdir. Yəni, birləşmək hüququ

vətəndaş cəmiyyətinin əsasında dayanan ilkin elementdir. Əksər hallarda vətəndaş cəmiyyəti fenomeninin izahı zamanı onu qeyri-hökumət ictimai münasibətlərin və institutların sistemi kimi təqdim edirlər. Bu qeyri-hökumət ictimai münasibətləri və institutları insana öz vətəndaş hüquqlarını reallaşdırmaq imkanı verir. Bu hüquqlar son nəticədə insanların müxtəlif xarakterli maraqlarının həyata keçirilməsini təmin edir. Cəmiyyət üzvlərinin maraqları və dəyərləri ictimai birliklərin vətəndaş cəmiyyətində yerinin və rolunun müəyyənləşdirilməsini təmin edir. Vətəndaş cəmiyyəti vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsi yolu ilə vətəndaşların sosial-siyasi fəallığını şərtləndirir. Təbii ki, bu da konkret maraqların təmin olunmasına xidmət edir. Artıq yuxarıda nəzərdən keçirdiyimiz məqamlardan da aydın olduğu kimi, struktur baxımından vətəndaş cəmiyyəti vətəndaşların könüllü, özü idarə olunan assosiyasiyalarından, birliklərindən ibarətdir. Bunlar arasındakı qarşılıqlı münasibətlər üfüqi xarakter daşıyır ki, bu da vətəndaş cəmiyyətinin əlamətlərindən biri kimi qiymətləndirilə bilər. Bu məqamda həm də qeyd etmək lazımdır ki, vətəndaş cəmiyyəti ilə hüquqi dövlət biri-birilərini qarşılıqlı şəkildə tamamlayırlar. Məlumdur ki, hüquqi dövlətdə insan və vətəndaş hüquq və azadlıqlarının gözlənilməsi ilə yanaşı, həm də yaxşı inkişaf etmiş vətəndaş cəmiyyəti institutlarının olması şərtdir. Ənənəvi olaraq, belə vətəndaş cəmiyyəti institutlarına aşağıdakılar aid olunurlar [12]:

- siyasi partiyalar;
- həmkarlar ittifaqları;
- ictimai birliklər;
- kütləvi informasiya vasitələri;
- ailə;
- kilsə;
- biznes və s.

## Nəticə

Beləliklə, apardığımız təhlilə əsasən qeyd edə bilərik ki, vətəndaş cəmiyyətinin real olaraq formalaşması və inkişaf etməsi birləşmək hüququnun vəziyyətindən birbaşa asılıdır. Belə ki, vətəndaş cəmiyyəti ümumi azadlığı qoruyan hamı üçün bərabər qanuna, mülkiyyət hüququna əsaslanır. Birləşmək hüququ vətəndaş cəmiyyətinin bazisini təşkil edir. Vətəndaş cəmiyyətini səciyyələndirən əsas məqamlardan biri ondan ibarətdir ki, bu cəmiyyətdə şəxsiyyətin öz maraqlarının təmin olunması istiqamətində sərbəst, azad fəaliyyət göstərmək imkanları mövcuddur. Bu mqəsədlə vətəndaş ictimai birliklər yaratmaq və ya mövcud olan birliklərin işində iştirak etmək hüququna malik olur. Birləşmək hüququnun təsbit olunduğu beynəlxalq qanunvericilik aktlarında əlavə icazə almadan ictimai birliklərin yaradılması və onların işişində iştirak etmək imkanlarına təminat verilir. Cəmiyyətdə ictimai birliklərin sərbəst mövcud olmaları və fəaliyyət göstərmələri demokratik prinsiplərin oturuşmasından xəbər verir. Belə ictimai birliklər sayəsində vətəndaş cəmiyyəti cəmiyyət üzvləri ilə dövlət arasında bir körpü rolunu oynayır. Göründüyü kimi, vətəndaş cəmiyyətinin əsas sütunlarını təşkil edən müxtəlif xarakterli ictimai birliklərin yaradılması yalnız birləşmək hüququnun reallaşdırılması sayəsində mümkündür. Beləliklə, birləşmək hüququ vətəndaş cəmiyyətinin formalaşmasının və inkişafının ən həlledici şərti rolunda çıxış edir.

## Ədəbiyyat


1. Hüseynov L.H. Beynəlxalq hüquq. Bakı, "Qanun", 2012, 368 s.
2. Гегель Г.В.Ф. Философия права. М., 1990, 524 с.
3. Козлова Е.И., Кутафин О.Е. Конституционное право России. М., 2004, 589 с.
4. Лавров Ю.Б. Содержание и значение категории «гражданское общество» в юридической науке и практике // Вестник Омского университета. Серия «Право», № 3 (44), 2015, с.29-32
5. Лазарева В.В. Конституционное право. Изд. 2-е, перераб., доп., М.: ЮРИСТЪ, 2004, 604 с.
6. Марченко М.Н. Общая теория государства и права. М., 2001, 528 с.
7. Михеев В.А. Институты гражданского общества в политике и государственном управлении // Власть, № 4, 2015, с.53-57
8. Парасюк Е.А. Гражданское общество: основные принципы и условия функционирования // Вестник Адыгейского государственного университета. Серия 1: Регионоведение: философия, история, социология, юриспруденция, политология, культурология, № 8, 2008, с.1-5
9. Остапенко А.С. Общественные объединения в качестве конструктов гражданского общества: функциональная роль и эволюция // Вестник Таганрогского института управления и экономики, № 1 (21), 2015, с.75-81
10. Фридман М., Хайек Ф. Капитализм и свобода // О свободе. Минск, 1990, с.8-10
11. Шуберт К., Кочев И.А. Гражданское общество и его границы // Вестник Томского государственного университета. № 3 (19), 2012, с.108-127
12. http://www.zakon.kz/205103-obshhestvennye-obedinenija-kak-institut.html (müraciət tarixi: 10.11.2016)


## THE ROLE OF THE RIGHT OF ASSOCIATION IN DEVELOPMENT OF CIVIL SOCIETY

**D.M.Ganberov**

### SUMMARY

The essence of civil society and the role of the right of association in its development are considered in this work. It is shown that the civil society has turned today into the driving force for public reforms. The author claims that the concept of "civil society" has a special place in legal literature. It is also shown that the right of association is a basic element for any kind of civil society.

# РОЛЬ ПРАВА НА ОБЪЕДИНЕНИЯ В РАЗВИТИИ ГРАЖДАНСКОГО ОБЩЕСТВА

**Д.М.Ганберов**

## РЕЗЮМЕ

В статье рассматривается сущность гражданского общества и роль права на объединения в его развитии. Отмечается, что гражданское общество на современном этапе превратилось в движущую силу общественных реформ. Обосновано, что понятие «гражданское общество» имеет в юридической литературе особый смысл. Также показано, что базовым элементом любого гражданского общества является право на объединения.

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2017 - № 47**

# MİLLİ AZLIQLARIN AVROPA ŞURASI ÇƏRÇİVƏSİNDƏ MÜDAFİƏSİ

**X.R.Məmmədov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: h.qemberov@oyu.edu.az

***Açar sözlər:*** milli azlıqlar, insan hüquqları, milli, etnik, dini və dil azlıqları, ayrı-seçkilik aktı, beynəlxalq monitorinq, beynəlxalq hüquqi analiz

***Keywords:*** national minorities, human rights, national, ethnic, religious and linguistic minorities, discriminatory act, international monitoring, international legal analysis

***Ключевые слова:*** национальные меньшинства, права человека, национальные, этнические, религиозные и языковые меньшинства, дискриминационный акт, международный мониторинг, международно-правовой анализ

Milli azlıqların müdafiəsi haqqında Avropa Çərçivə Konvensiyası azlıqların hüquqlarına həsr olunmuş ilk dolğun, çoxtərəfli müqavilədir. Ə.İ.Əliyevin haqlı olaraq qeyd etdiyi kimi, Avropa Şurasının egidası altında qəbul olunmuş bu sənəd dövlətlərin azlıqların hüquqlarının müdafiəsinə dair konkret strategiyalar işləyib hazırlaması üçün bir sıra prinsiplər müəyyən etmişdir [3, s.36-39].

Milli azlıqların müdafiəsi haqqında Çərçivə Konvensiyası Avropa Şurasının Nazirlər Komitəsi tərəfindən 1994-cü ildə qəbul olunmuş və 1998-ci ildə qüvvəyə minmişdir. O, azlıqların müdafiəsinə həsr olunmuş ilk hüquqi cəhətdən məcburi çoxtərəfli sənəddir və indiyə qədər azlıqların hüquqları sahəsində ən geniş tanınmış beynəlxalq standart hesab olunur. Bu, ATƏT-in 1990-cı il Kopenhagen sənədində təsbitini tapmış siyasi öhdəlikləri xeyli dərəcədə hüquqi öhdəliklərə çevirir. Çərçivə Konvensiyası Avropa Şurasına üzv-dövlətlər tərəfindən ratifikasiya oluna və Nazirlər Komitəsinin dəvəti ilə üzv olmayan dövlətlər sənədə qoşula bilər [4, s.7-9].

Avropa Şurasına üzv olmaq haqqında müraciət etmiş dövlətlər üçün Konvensiyaya qoşulmaq azı siyasi baxımdan məcburidir. 2001-ci ilin mayına qədər Konvensiya 33 ölkə tərəfindən ratifikasiya olunmuşdu. Onların arasında Azərbaycan Respublikası da vardır [1, s.45-46].

Azlıqların vəziyyəti ölkədən-ölkəyə dəyişir və tədqiqatçılar fərqli yanaşmalar tələb edirlər. Konvensiyanın tərtibçiləri dövlətlərin azlıqların müdafiəsi zamanı rəhbər tutmalı olduqları prinsip və məqsədləri müəyyən edən “proqram” müddəalarını müəyyən etmişlər. Bu səbəbdən, Konvensiya daha çox milli azlıqlara mənsub şəxslərin hüquqlarının ətraflı siyahısı kimi deyil, dövlətlərin öhdəlikləri siyahısı kimi tərtib olunmuşdur. Bu prinsip və məqsədlərin realizəsi milli səviyyədə, o cümlədən qanunvericilik və siyasət vasitəsilə həyata keçirilməlidir. Dövlətlər özlərinə uyğun qanunvericilıiyin və siyasətin qurulmasında onlardan müəyyən dərəcədə öz mülahizələrinə görə istifadə edə bilərlər. Məhz buna görə sənəd “Çərçivə” Konvensiyası adlanır [6, s.33-34].

Proqram müddəaları ümumi şəkildə ifadə olunmuşdur və tez-tez “xeyli dərəcədə”, “real tələbat”, “zərurət yarandıqda”, “mümkün qədər” və s. kimi ifadələri ehtiva edir. Belə ümumiləşdirmə Konvensiya ilə təmin olunan hüquqları zəiflədə biləcək kimi görünsə

də, iştirakçı-dövlətlərə Konvensiyanın milli qanunlarda və siyasətdə məqsədəuyğun ifadəsində çeviklik imkanı yaradır. Lakin bu çeviklik dövlətləri Konvensiyanın müddəalarını vicdanla yerinə yetirmək öhdəliyindən azad etmir, bu da milli azlıqların səmərəli müdafiəsini təmin edir.

Konvensiyada təsbitini tapmış iki əsas prinsipə nəzər yetirək. 1-ci maddədə deyilir ki, milli azlıqların müdafiəsi insan hüquqlarının müdafiəsinin ayrılmaz tərkib hissəsidir. 22-ci maddədə müəyyən olunur ki, Konvensiyanın heç bir müddəası insan hüquqları və əsas azadlıqların hər hansı birinin məhdudlaşdırılması və azaldılması kimi şərh oluna bilməz. Konvensiya insan hüquqlarının və azlıqların hüquqlarının müdafiəsinin mövcud mexanizmlərinə əlavə kimi nəzərdə tutulduğundan, T.İ.Hüseynovun qeyd etdiyi kimi, Avropa İnsan Hüquqları Konvensiyası kimi insan hüquqlarına dair digər sənədlərə münasibətdə nəzərdən keçirilməlidir [9, s.15-16].

Konvensiyada "milli azlıq" anlayışı müəyyən olunmadığından, əvvəlcə Konvensiyanın kimin barəsində tətbiq olunması müəyyənləşdirilməlidir. Avstriya, Danimarka, Estoniya, Almaniya, Polşa, Sloveniya, İsveç, İsveçrə və Makedoniya Konvensiyanı ratifikasiya edərkən "milli azlıq" barəsində özünəməxsus anlayışı ifadə etmişlər. Bu anlayışların bir çoxunda, Yelena Pejiçin göstərdiyi kimi, vətəndaşlığı olmayan şəxslər və miqrantlar barəsində Konvensiyaya müvafiq surətdə müdafiə istisna olunur [24, s.666-667]. Bəzi ölkələr Konvensiyanın barəsində tətbiq olunacağı konkret qrupları müəyyən etmişlər. Lixtenşteyn, Lüksemburq, Malta Konvensiyanın iştirakçısı olsa da, onların ərazisində heç bir milli azlığın olmadığını bildirmişlər. Dövlətlər Konvensiyanın kimlərin barəsində tətbiq olunması haqqında qərar qəbulunda müstəqil olsa da, bu məsələnin Konvensiya üçün yaradılmış beynəlxalq monitorinq prosesi vasitəsilə qiymətləndiriləcəyi gözlənilir. Lakin monitorinq prosesində iştirak etmək istəyən hər bir QHT ilk addım kimi Konvensiyanı tətbiq edəcəyi qrup barəsində bəyanat vermiş müvafiq dövləti müəyyən etməlidir [23, s.103-105]. Belə bəyanatların mövcud siyahısı Konvensiyaya həsr olunmuş internet saytında verilir.

Lakin məlumdur ki, Konvensiya yalnız milli azlıqlar barəsində tətbiq olunur. Məsələn, BMT-nin azlıqlara mənsub şəxslərin hüquqları haqqında 1992-ci il Bəyannaməsi həm "milli", həm də "etnik, dini və dil" azlıqları barəsində tətbiq olunurdu. Bu fərqin necə təsir göstərəcəyi hələ aydın olmasa da, Konvensiyanın fəaliyyət sahəsi BMT Bəyannaməsinin fəaliyyət sahəsindən daha məhduddur [18, s.167-169].

Konvensiyanın 4.1. maddəsi ayrı-seçkiliyin qadağan olunmasını və bərabərliyi əsas prinsiplər elan edir. 4.2. maddəsində göstərilir ki, dövlətlərin öhdəlikləri sadəcə ayrı-seçkilikdən çəkinməni deyil, hökumət tərəfindən pozitiv hərəkətlər tələb edə bilər. Dövlətlər "lazım gəldiyi hallarda" "milli azlıqlara mənsub şəxslərlə əhalinin əsas qrupuna mənsub şəxslər arasında bərabərliyi təşviq etmək məqsədilə lazımi tədbirlər görməyi öhdələrinə götürürlər", "milli azlıqlara mənsub şəxslərin xüsusi vəziyyətini lazımi qaydada nəzərə alırlar". Konvensiyanın 4.2. maddəsində əsas müddəaların həyata keçirilməsi üçün dövlətlərin konkret sahələrdə görməli olduğu tədbirlər ətraflı surətdə açıqlanır. 4.3. maddəsində isə göstərilir ki, səmərəli bərabərliyin təşviqi məqsədilə həyata keçirilən tədbirlərə ayrı-seçkilik aktı kimi baxılmır [16, s.22-28].

Konvensiyanın digər əsas müddəalarının bir çoxunun dövlətlərdən xüsusi tədbirlərin həyata keçirilməsini tələb edə biləcək məsələlərin geniş dairəsini əhatə edir. Konvensiyanı ratifikasiya etmiş dövlətlər milli azlıqlara mənsub şəxslərə öz mədəniyyətlərini saxlamaq və inkişaf etdirmək, habelə öz xüsusiyyətlərinin əsas elementlərini qoruyub sax-

lamaq imkanını təmin etmək üçün zəruri şərait yaratmağa yardım etməyi öz öhdələrinə götürürlər (5-ci maddə) [16, s.24-25].

Konvensiya mədəniyyətlər arasında dözümlülüyü təşviq edir, öz ərazilərində yaşayan bütün şəxslər arasında qarşılıqlı hörmət, anlaşma və əməkdaşlığa yardım etmək üçün təsirli tədbirlər görürlər (6-cı maddə).

Bundan başqa burada dinc yığlncaqlar keçirmək azadlığı və assosiasiyalar azadlığı, öz fikirlərini ifadə etmək azadlığı və düşüncə, vicdan və din azadlığı ilə bağlı hüquqlara hörmət olunmasını təmin edirlər (7, 8, 9-cu maddələr).

Konvensiya milli azlığa mənsub şəxslərin informasiya vasitələrindən istifadəyə yol tapmasında ayrı-seçkiliyə məruz qalmamalarını təmin edir (9-cu maddə).

Burada milli azlıqlara mənsub olan hər bir şəxsin öz şəxsi həyatında və ictimai yerlərdə öz milli dilindən sərbəst və maneəsiz istifadə etmək hüququna malik olduğunu qəbul edirlər (10-cu və 11-ci maddələr); milli azlıqlara mənsub hər bir şəxsin öz adı, soyadı və atasının adından bu azlığın dilində istifadə etmək hüququnu, habelə onların rəsmən qəbul edilməsi hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər (11-ci maddə); milli azlıqlara mənsub hər bir şəxsin ictimai yerlərdə, öz azlığının dilində özəl xarakterli lövhələr, yazılar və digər informasiyalar yerləşdirmək hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər (10-cu və 11-ci maddələr) [19, s.51-63].

Konvensiya həm öz milli azlıqlarının, həm də əhalinin əsas hissəsinin mədəniyyəti, tarixi, dili və dini ilə bağlı bilikləri yaxşılaşdırmaq məqsədilə tədbirlər görürlər (12-ci maddə).

Burada daha bir neçə tədbir nəzərdə tutulur:

- milli azlıqlara mənsub olan şəxslərin təhsil sahəsində özəl tədris müəssisələri yaratmaq və onları idarə etmək hüququnu qəbul edirlər, milli azlıqlara mənsub olan hər bir şəxsin öz azlığının dilini öyrənməsi hüququnu qəbul etməyi öz öhdələrinə götürürlər (13-cü və 14-cü maddələr);
- milli azlıqların xeyli sayda və ənənəvi olaraq yaşadıqları bölgələrdə milli azlıqlara mənsub olan şəxslərin öz azlıqlarının dillərini öyrənmək və həmin dildə təhsil almaq imkanına malik olmalarını təmin etməyə çalışırlar (14-cü maddə);
- milli azlıqlara mənsub olan şəxslərin mədəni, ictimai və iqtisadi həyatda, habelə dövlət işlərinin idarə olunmasında səmərəli iştirak etmələri üçün lazımi şərait yaratmağı öz öhdələrinə götürürlər (15-ci maddə);
- milli azlıqlara mənsub olan şəxslərin yaşadığı hər hansı bir regionda əhalinin struktur tərkibini dəyişəcək tədbirləri görməkdən imtina edirlər (16-cı maddə);
- milli azlıqlara mənsub olan şəxslərin sərhədboyu azad və dinc əlaqələr yaratmaq və saxlamaq hüququnun həyata keçirilməsinə maneçilik törətməməyi öz öhdələrinə götürürlər (17-ci maddə) [24, s.667-682].

Konvensiyanın 24-26-cı maddələrində Konvensiyanın monitorinq mexanizmi açıqlanmışdır. Dövlətlər baxılmaq üçün dövri məruzələr təqdim etməyə borcludur. Hesabatlara baxılmasına görə məsuliyyət Avropa Şurasının Nazirlər Komitəsinin üzərinə qoyulsa da, ekspertlərdən ibarət Məşvərətçi Komitə Nazirlər Komitəsinə kömək göstərir. Avropa İnsan Hüquqları Konvensiyasından fərqli olaraq, fərdi şikayətlər üçün heç bir prosedur nəzərdə tutulmamışdır.

Konkret monitorinq mexanizmləri Nazirlər Komitəsinin 97 (10) saylı İcazəsində ətraflı açıqlanmışdır (onun mətni Avropa azlıqlar şurasında yerləşdirilmişdir: www.humanrights.coe.int / azlıqlar İnternet saytı) [29, s.191-193].

Dövlətlərin məruzələrinə əvvəlcə Məşvərətçi Komitə baxaraq, dövlətlərin gördüklərin tədbirlərin adekvatlığını qiymətləndirir və məruzələrə dair rəy verir. Öz növbəsində, Nazirlər Komitəsi Konvensiyanın realizəsinə dair öz nəticələrini müəyyənləşdirənə qədər dövlətlərin məruzələrini və Məşvərətçi Komitənin rəylərini nəzərə alır. Zərurət yarandıqda Komitə habelə tövsiyyələr qəbul edə bilər. Nazirlər Komitəsi öz nəticələrini bildirənə qədər Məşvərətçi Komitənin rəyləri məxfi saxlanır, Komitənin müşahidələri isə dərc olunur.

Konvensiya Məşvərətçi Komitəyə dair müddəaları da müəyyənləşdirmişdir. Məşvərətçi Komitə Nazirlər Komitəsi tərəfindən istirakçı-dövlətlərin təklif etdikləri namizədlər sırasından seçilən 18 üzvdən ibarətdir. Bütün ölkələrin Komitədə təmsilçiliyi mümkün olmadığından, seçilməmiş namizədlər əlavə üzvlərin ehtiyat siyahısına daxil edilir. Tədricən Məşvərətçi Komitənin tərkibi rotasiya sistemi əsasında dəyişir [23, s.18-22].

Məşvərətçi Komitənin üzvləri azlıqların müdafiəsi sahəsində tanınmış ekspertlər-dir. Onlar müstəqil və tərəfsiz şəxslər kimi çıxış edirlər. Onların öz hökumətlərini təmsil etməməsi faktı vacibdir, çünki Nazirlər Komitəsi hökumətlərin nümayəndələrinin siyasi orqanıdır. Azlıqların problemlərinin həllində tərəfsiz ekspertlərdən ibarət qurumun iştirakı Nazirlər Komitəsinin vəzifəsini asanlaşdıra bilər. Avropa Şurasında qərar qəbulu sahəsində ali orqan olan Nazirlər Komitəsi bir çox başqa vəzifələri yerinə yetirdiyindən, xeyli dərəcədə Məşvərətçi Komitənin rəyinə əsaslanır [23, s.24].

Konvensiyanın maraqlı məqamlarından biri də dövlətlərin məruzələrinə baxılması prosedurudur. Konvensiyanı ratifikasiya etmiş dövlətlər bir il ərzində ilk və hər beş ildən bir, yaxud Nazirlər Komitəsi tələb etdikdə sonrakı məruzələri təqdim etməlidirlər. Məşvərətçi Komitə Nazirlər Komitəsinə dövlətlərin dövri məruzələri arasındakı dövrdə yarana biləcək hallarla əlaqədar vəziyyətə dair xüsusi məruzə tələb etməyi təklif edə bilər [6, s.35-36].

İlkin məruzələrdə dövlətin Konvensiyanın müddəalarının realizəsi istiqamətində həyata keçirdiyi qanunvericilik və digər tədbirlər haqqında tam məlumat təqdim olunmalıdır. Nazirlər Komitəsi 1998-ci ildə dövlətlərin məruzələrinə dair ətraflı tövsiyyə qəbul edərək, dövlətlərin Konvensiyanın hər bir maddəsi üzrə təqdim etməli olduqları məlumatları göstərmişdir [21, s.11-15].

Maraqlı QHT-lər və ayrı-ayrı şəxslər dövlətin məruzəsində rəhbər prinsiplərlə nəzərdə tutulmuş bütün məlumatların verilib-verilmədiyini qiymətləndirməlidir.

Məşvərətçi Komitə dövlətlərin məruzələrindən fərqli mənbələrdən məlumat almaq səlahiyyətinə malikdir, məsələn, o hökumət nümayəndələri və müstəqil mənbələrlə görüşlər təşkil edə bilər. Məşvərətçi Komitə dövlətlərin məruzələrinə baxılarkən həmin dövlətlərə səfərlər təşkil edərək, hökumət, QHT, azlıqların icmaları, alimlər və digər maraqlı tərəflərin nümayəndələri ilə görüşlər keçirə bilər. Bu səfərlər müvafiq dövlətdən dəvət tələb edir, lakin tezliklə Komitə üçün standart prosedura çevrilir. Bu təcrübə Komi-təyə iştirakçı-dövlətlərdə azlıqların vəziyyətini daha yaxşı qiymətləndirmək imkanı verir və Komitənin dövlətlə bağlı müşahidələrini dərc etdirməyə şərait yaradır. Beyker Yuditin təbirincə, Komitə dövlətdən əlavə yazılı məlumat tələb edə bilər, QHT-lər və azlıqların icmaları öz təşəbbüsü ilə məlumat təqdim etməkdə azaddır [11, s.5].

QHT-lər həm realizə, həm də monitorinq prosesində iştirak etməklə Kon-vensiyanın prinsiplərinin tam həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edirlər.

Milli səviyyədə QHT-lər daxili qanunvericiliyin və təcrübənin Konvensiyada təsbitini tapmış prinsiplərə müvafiq surətdə dəyişdirilməsini təşviq edə bilərlər.Onlar Konvensiyanın təfsiri və hökumətin Konvensiya üzrə öhdəlikləri haqqında ictimaiyyətin məlumatlılığının yüksəldilməsi barəsində fikirlərini təqdim edə bilərlər. Məlumatlılıq, məsələn, Konvensiyanın və onunla bağlı sənədlərin mətninin tərcümə olunub yayılması yolu ilə yüksəldilə bilər [5, s.59].

Buraya habelə dövlətin rəsmi məruzəsi, QHT-lərin şərhləri, açıqlandıqdan dərhal sonra Məşvərətçi Komitənin rəyi və Nazirlər Komitəsinin nəticələri və tövsiyyələri daxil olmalıdır. QHT ictimaiyyətin məlumatlılığının yüksəldilməsi yolu ilə dövlətin öz öhdəliklərinin yerinə yetirilməsi üçün tədbirlər görməsinə təkan verə bilər.

QHT və azlıq icmalarının dövlətin məruzəsinin hazırlanmasına birbaşa cəlb olunması da mümkündür. Hesabatın hazırlanmasına görə hansı dövlət orqanının məsuliyyət daşıması aydınlaşdırılmalı və məlumat, yaxud şərh, habelə məruzə layihəsi təqdim olunması üçün onunla əlaqə yaradılmalıdır. Dövlətlər də QHT-ləri məruzənin hazırlanmasına cəlb edə bilər [6, s.38].

QHT-lər şərhlər, yaxud Məşvərətçi Komitəyə alternativ məruzələr təqdim etmək imkanından fərqli olaraq, hesabat prosesində məmurlarla nə dərəcədə əməkdaşlıq etmək istədiklərini dəqiqləşdirməlidir. Dövlətlərin məruzəsinin hazırlanmasında iştirak edən QHT-lər Konvensiyanın müddəalarının ölkənin kontekstində təfsirinə (yozumuna) kömək göstərə bilərlər. Lakin QHT-lər onların iştirakından hətta QHT-nin qeydlərini kifayət qədər əks etdirməyən dövlətin məruzəsinə əsassız etimad üçün istifadə olunmasından çəkinə bilərlər. Buna baxmayaraq, məruzənin və onun şərhlərinin hazırlanmasında iştirak bir-birini istisna etmir, onların hər ikisinin seçilməsi mümkündür.

Dövlət hələ Konvensiyanın işçtirakçısı olmadıqda aşkarlıq və lobbiçilik Konvensiyanın ratifikasıyası zərurəti üzərində cəmləşə bilər. İndiyə qədər ratifikasiyanın yüksək sürətə malik olduğunu nəzərə aldıqda dövlətlərə Avropa Şurasının digər üzvlərinə qoşulmağı tövsiyyə etmək nisbətən asandır [13, s.360].

Beləliklə, bütün Şura üzvlərinin Konvensiyanı bu yolla ratifikasiya etməsini gözləmək olar.

Beynəlxalq monitorinq prosesinin səmərəli olması üçün Məşvərətçi Komitənin müxtəlif mənbələrdən, o cümlədən QHT-lərdən və azlıqlar icmasından məlumat və təhlil almasına əminlik olmalıdır. Bu, Məşvərətçi Komitəyə ölkədə vəziyyətin dolğun dərkinə nail olmağa və öz fikrini ifadə etməyə imkan verərdi [8, s.31].

QHT-lər istənilən vaxt Çərçivə Konvensiyasının Avropa Şurasındakı Katibliyinə məlumat göndərə bilər. Katiblik bu məlumatı Məşvərətçi Komitənin üzvlərinə göndərir. Belə məlumatların Məşvərətçi Komitə dövlətin məruzəsinə baxarkən təqdim olunması daha səmərəlidir.

Beləliklə, QHT açıqlanmış məruzəni Komitə aldıqda onu öyrənməli, hökumət tərəfindən təqdim olunmuş məlumatın mübahisələndirilməli, yaxud tamamlanmalı olduğunu qərara aldıqda Komitənin iştirakçı-dövlətin məruzəsinə baxdığı müddətdə öz qeydlərini Məşvərətçi Komitəyə təqdim etməlidir. Dövlətin verdiyi məlumatları Şuranın İnternet saytından əldə etmək mümkündür. Katiblik Məşvərətçi Komitə tərəfindən baxılmaq üçün QHT-lərin şərhlərinin alınması müddətini bildirir. Bu mümkün olduqda QHT öz məlumatını Komitənin işçi dilləri olan fransız, yaxud ingilis dilində təqdim etməlidir [6, s.40].

Yetərli vaxt və ehtiyat mövcud olduqda dövlətin məruzəsində göstərilən bütün məsələlərə dair tam alternativ məlumat təqdim oluna bilər.

Qeydlər, yaxud tam alternativ məruzə təqdim olunduqda dövlət məruzəsində yanlış göstərilmiş hər hansı ayrıca məlumata müraciət olunması mümkündür. Təqdim olunan məlumat dürüst, tam və ətraflı olmalı, mümkün qədər Konvensiyanın konkret maddələrinə ünvanlanmalıdır. Siz habelə digər milli, yaxud beynəlxalq QHT-lərin, elmi-tədqiqat institutlarının, habelə ATƏT-in Milli azlıqların işləri üzrə Ali Komissarı və BMT-nin müqaviləli orqanları, yaxud xüsusi məruzəçiləri kimi beynəlxalq təsisatların sənədlərini daxil edə bilərsiniz. Məlumat habelə Avropa Şurasının Avropa İrqçilik və Dözümsüzlük Əleyhinə Komissiyası, Avropa Regional Dillər, yaxud Azlıqların Dilləri Xartiyası üzrə Ekspertlər Komitəsi və Parlament Assambleyasının Monitorinq Komitəsi kimi digər orqanlarından alına bilər. Demoqrafik və statistik informasiya dövlətin məlumatında olmadıqda xüsusilə qiymətlidir və komitələrə müxtəlif dövrlərdə azlıqların vəziyyətini müqayisə etməkdə kömək göstərə bilər. QHT-lər habelə Konvensiyanın həyata keçirilməsi məqsədilə hökumətin görməli olduğu tədbirlərə dair öz tövsiyyələrini təqdim edə bilər [4, s.7-8].

Tam alternativ, yaxud "kölgə" məruzə təqdim etmək istədikdə digər milli, yaxud beynəlxalq QHT-lərlə əməkdaşlıq nəzərdən keçirilməlidir. Bu, işin təkrarlanmasını minimuma endirir və Sizə daha böyük etimad doğuran daha sanballı və qəti informasiyanı təmin edə bilər. Ən azı ziddiyyətli informasiyanın təqdimindən yayınmaq üçün digər QHT-lərin nə etdiyini bilmək vacibdir.

Nazirlər Komitəsinin nəticələri və tövsiyyələri açıqlandıqdan sonra QHT-lər onları dərc etdirə və bütün ölkədə azlıqların hüquqlarına dair müzakirəyə başlaya bilər. QHT-lər habelə hökumətin nəticə və tövsiyyələrə reaksiyasını, o cümlədən dövlətin Nazirlər Komitəsinin xahişi ilə təqdim edəcəyi bütün sonrakı məlumatları izləməlidir [9, s.20].

Məşvərətçi Komitənin rəyi, yaxud Nazirlər Komitəsinin nəticələri dərc olunmadan Konvensiyaya müvafiq surətdə müəyyən olunmuş hesabatlılıq sisteminin dolğunluğunu, yaxud faydalılığını qiymətləndirmək tezdir. Buna baxmayaraq, ən azı Məşvərətçi Komitə hökumətlər, QHT-lər və azlıqların icmaları arasında ünsiyyəti təşviq edən mühit formalaşdırmağa nail olur [27, s.101].

## Ədəbiyyat

1. Əliyev Ə.İ. Müasir beynəlxalq hüquqda insan hüquqları, əhali və miqrasiya problemləri. Dərslik. Bakı, 2007, 484 s.
2. Əliyev Ə.İ. İnsan hüquqlarının beynəlxalq-hüquqi müdafiəsi. Dərslik. Bakı, 2009, 490 s.
3. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, 2013, 506 s.
4. Əliyev Z. Avropa insan hüquqlari məhkəməsi. Dərs vəsaiti. Bakı, 2012, 232 s.
5. Məmmədov R.F. Avropa Məhkəməsinin qərarlarının icra edilməsi ilə bağlı Azərbaycanda effektiv milli mexanizmlərin yaradılmasının xüsusiyyətləri. Beynəlxalq standartların tətbiqi və insan hüquqları üzrə strateji məhkəmə işləri mövzusunda beynəlxalq konfransın materialları. Bakı, 11-12 dekabr 2008, Bakı, Abşeron-Nəşr MMC, 2009, s.54-75 (132 s.)
6. Hüseynov T.İ. İnsan hüquq və azadlıqlarının regional müdafiə mexanizmləri // "Beynəlxalq hüquq" jurnalı, №4-5, 2000, s.33-41
7. Hüseynov T.İ. İnsan hüquqlarına dair beynəlxalq normaların inkişafı // Beynəlxalq hüquq və beynəlxalq münasibətlər fakültəsinin 10 illiyinə həsr olunmuş elmi konfransın materialları (18 dekabr 2001-ci il). Bakı, 2002, s.44-51

8. Hüseynov T.İ. İnsan hüquqlarının pozulmasına görə dövlətlərin məsuliyyətinin bəzi məsələləri // Beynəlxalq hüquq və inteqrasiya problemləri, №1, 2005, s.27-34
9. Hüseynov T.İ. Azərbaycan Respublikasında beynəlxalq müqavilələrin realizasiya mexanizmləri // Azərbaycan Hüquq Jurnalı, 2006, №2, s.14-23
10. Мамедов Р.Ф. Южнокавказские конфликты и национальные меньшинства: современные подходы в международном праве. Международное право и интеграционные проблемы. Научно-аналитический и практический журнал. 2009, №2 (18), с.85-93
11. Baker J. Justifications of Minority Protection in International Law. London, Kluwer Law International, 1994
12. Claydon J., Brolmann J., Lefebrer R., Ziek M. People and Minorities in International Law. Dordrecht, Martinus Nijhoff, 2000, 312 p.
13. Claydon, J. State Duty Towards Ethnic Minorities: Positive or Negative? Human Rights Quarterly vol. 10(3), 1975, p.344-373
14. Ferrer E. Minorities and Minority Rights. L., Pluto Press, 1999, 298 p.
15. Jones P. Minorities and Their Right of Political Participation. Rova-niemi, Finland: Northern Institute for Environmental and Minority Law, University of Lapland, 1999, 320 p.
16. Horn F. Indigenous Populations, Ethnic Minorities, and Human Rights. Berlin, Quorum Verlag, 1996, 410 p.
17. Gilbert G. Minority Peoples in the Age of Nation-States. Trans. Michael Barrett. London, Pluto Press, 1996, 400 p.
18. Grillo R. The Council of Europe and Minority Rights. Human Rights Quarterly, vol. 18, 1998, p.160-189
19. Kymlicka W. National Minorities in International Law. Denver Journal of International Law and Policy, vol. 3, 1995, p.55-72
20. Kymilcka W. and Wayne N. Multicultural Citizenship. A Liberal Theory of Minority Rights. Oxford, Clarendon Press, 2000, 377 p.
21. Maybury-Lewis D. Group Rights and Discrimination in International Law. International Studies in Human Rights. Boston-London, Martinus Nijhoff, 1997, 322 p.
22. Minorities: A Question of Human Rights? Oxford: Pergamon Press. Williams, Melissa, 1998, 412 p.
23. Neitschmann B. Self-Determination and National Minorities. Oxford: Clarendon Press., 2004, 290 p.
24. Pejic J. The Protection of Ethnic and Linguistic Minorities in Europe. Minority Rights in International Law. Human Rights Quarterly, vol. 19(3), 1997, p.666-685
25. Phillips A. and Allan R. The UN Minority Rights Declaration. Finland: Abo Akademi University Institute for Human Rights. London, 1993, 288 p.
26. Rehman J. Human Rights. The Weaknesses in the International Protection of Minority Rights. Quarterly, vol.15(3), 2000, p.575-588
27. Spinner J. Minority Rights: A Comparative Analysis. Westport, Connecticut, Greenwood Press., 2000
28. Strange Multiplicity: Constitutionalism in an Age of Diversity. Cambridge: Cambridge University Press., 1996, 244 p.
29. The OSCE and the Protection of Minority Rights. Human Rights Quarterly, 18, 2015, p.190- 205
30. Thornberry P. Minorities and Human Rights Law. London, International Law and the Rights of Minorities. Oxford: Clarendon Press. Tully, 2005, 486 p.

# THE PROTECTİON OF NATİONAL MİNORİTİES İN THE FRAMEWORK OF THE COUNCİL OF EUROPE

**Kh.R.Mammadov**

## SUMMARY

This paper studies the European Framework Convention for the protection of national minorities, which is the most comprehensive, multilateral treaty on the rights of national minorities. Adopted under the auspices of the Council of Europe, it establishes a series of principles according to which the states should develop their specific strategies to protect the rights of minorities.

# ЗАЩИТА НАЦИОНАЛЬНЫХ МЕНЬШИНСТВ В РАМКАХ СОВЕТА ЕВРОПЫ

**Х.Р.Мамедов**

## РЕЗЮМЕ

Статья посвящена исследованию Европейской рамочной конвенции о защите национальных меньшинств, которая является наиболее полным, многосторонним договором, посвященным правам нацменьшинств. Будучи принятым под эгидой Совета Европы, она устанавливает ряд принципов, согласно которым государства должны разрабатывать свои конкретные стратегии по защите прав меньшинств.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# HÜQUQİ ŞƏXSLƏRİN CİNAYƏT MƏSULİYYƏTİ AZƏRBAYCAN RESPUBLİKASININ CİNAYƏT HÜQUQUNUN YENİ İNSTİTUTU KİMİ

**G.Z.Məmmədli**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: gunduz.mammadli@gmail.com

***Açar sözlər:*** hüquqi şəxsin cinayət məsuliyyəti, cinayətin subyekti, cinayət tərkibi, hüquqi şəxsin cinayət məsuliyyəti institutu

***Keywords:*** criminal liability of a legal person, perpetrator, elements of crime, institution of criminal liability of legal persons

***Ключевые слова:*** уголовная ответственность юридического лица, субъект преступления, состав преступления, институт уголовной ответственности юридического лица

Azərbaycan Respublikasının dövlətdaxili hüququ dünyada mövcud olan milli hüquq sistemlərindən biri olub, özündə bir sıra müstəqil hüquq sahəsini (konstitusiya, maliyyə, inzibati, mülki, əmək, ekologiya, cinayət və s.) birləşdirir ki, bu sahələrdən hər birinin özünəməxsus nizamasalma predmeti – tənzimlədiyi ictimai münasibətlər vardır. Məlum olduğu kimi, konstitusiya, mülki hüquq, əmlak, maliyyə hüququ dövlətin maliyyə fəaliyyəti prosesində əmələ gələn münasibətləri tənzimləyir ki, bu münasibətlər həmin hüquq sahələrinin nizamasalma predmetini təşkil edir.

Azərbaycan Respublikasının dövlətdaxili (milli) hüquq sisteminin müstəqil sahələrindən biri olan cinayət hüququna gəldikdə qeyd etməliyik ki, bu hüquq sahəsinin əsas funksiyası və işi cəmiyyətdə yaranan cinayət münasibətlərini tənzimləməkdən ibarətdir. Xatırladaq ki, dövlət (daha doğrusu, dövləti təmsil edən səlahiyyətli dövlət orqanları, məsələn, prokurorluq, istintaq, məhkəmə və digər hüquq-mühafizə orqanları) və cinayəti törədən şəxs arasında əmələ gələn cinayət münasibətləri Azərbaycan Respublikasının dövlətdaxili (milli) hüquq sistemində müstəqil yerlərdən birini tutan və ayrıca hüquq sahəsi kimi tanınan cinayət hüququnun nizamasalma predmetini təşkil edir. Cinayət qanununda (Cinayət Məcəlləsində) müəyyən edilən cinayət hüquq normaları (cinayət qanununun nəzərdə tutduğu hüquq normaları) ilə tənzimlənməsi nəticəsində həmin münasibətlər cinayət hüquq münasibətləri kimi hüquqi forma alır. Belə ki, cinayət hüquq münasibətləri ictimai münasibətlərin növlərindən biri olan cinayət münasibətlərinin hüquqi formasıdır.

Cinayət hüquq münasibətləri dedikdə cinayət qanunu (Cinayət Məcəlləsi) ilə tənzimlənən elə ictimai münasibətlər başa düşülür ki, bu münasibətlər ictimai təhlükəli əməl olan cinayəti törədən şəxs və dövlət arasında əmələ gəlir. İstənilən hüquq münasibətləri kimi, cinayət hüquq münasibəti də daxili quruluşa malik olub, üç elementdən ibarətdir: 1) cinayət hüquq münasibətinin subyektləri; 2) cinayət hüquq münasibətinin məzmunu; 3) cinayət hüquq münasibətinin obyekti. Cinayət hüquq münasibətinin subyektləri dedikdə dövlət (dövləti təmsil edən səlahiyyətli orqanlar) və cinayət törədən şəxs başa düşülür. Onların, yəni cinayət hüquq münasibəti subyektlərinin

hüquq və vəzifələrinin məcmusu cinayət hüquq münasibətlərinin məzmunu adlanır. Cinayət hüquq münasibəti nəyin barəsində yaranırsa, o da cinayət hüquq münasibətinin obyekti sayılır. Heç də sirr deyil ki, cinayət hüquq münasibətləri cinayət qanunu (Cinayət Məcəlləsi) ilə cəza təhdidi altında qadağan olunmuş ictimai təhlükəli əməlin (hərəkət və ya hərəkətsizliyin) təqsirli olaraq törədilməsinə görə bu və ya digər şəxsin cinayət məsuliyyətinə cəlb olunması və ona cinayət-hüquqi xarakterli tədbirlər tətbiq edilməsi ilə bağlı əmələ gəlir. Odur ki, cinayət məsuliyyəti və cinayət-hüquqi xarakterli tədbirlər cinayət hüquq münasibətinin obyektidir.

Cinayət hüquq elmində (doktrinasında) mütəxəssis alimlər (cinayət hüququ üzrə mütəxəssis alimlər) tərəfindən söylənilmiş və hamılıqıa qəbul edilmiş elmi-nəzəri fikrə görə cinayət hüquq münasibəti cinayət məsuliyyətinin mövcud olma formasıdır. Belə ki, cinayət məsuliyyəti yalnız cinayət hüquq münasibəti çərçivəsində mövcud ola bilər. Bu səbəbdən cinayət hüquq münasibəti çərçivəsi və hüdudlarından kənarda cinayət məsuliyyətinin əmələ gəlməsi qeyri-mümkündür. Cinayət məsuliyyəti və cinayət hüquq münasibəti arasında qırılmaz əlaqənin (bağlılığın) mövcud olması özünü həm də bunda göstərir ki, cinayət məsuliyyəti yalnız cinayət hüquq münasibəti çərçivəsində realizə edilə bilər. Unutmaq olmaz ki, cinayət hüquq münasibəti cinayət məsuliyyətinin həm də realizə olunma formasıdır. Məhz bu səbəbdən cinayət hüquq münasibəti çərçivəsi və hüdudlarından kənarda cinayət məsuliyyətinin realizə olunması qeyri-mümkündür. Odur ki, cinayət hüquq ədəbiyyatı səhifələrində haqlı və düzgün olaraq göstərilir ki, cinayət hüquq münasibəti cinayət məsuliyyətinin həm mövcud olma, həm də realizə edilmə formasıdır. Söylənilmiş bu fikir cinayət hüququ üzrə mütəxəssis alimlərin hamısı tərəfindən praktiki olaraq qəbul edilir və tanınır. Lakin nəzərdən qaçırmaq olmaz ki, cinayət hüquq münasibətləri və cinayət hüquq məsuliyyəti kimi iki cinayət-hüquqi anlayış arasında mövcud olan qırılmaz əlaqə (bağlılıq) təkcə bununla bitmir və məhdudlaşmır. Cinayət hüquq münasibəti və cinayət məsuliyyəti arasında mövcud olan qırılmaz əlaqə (bağlılıq) həm də bunda təzahür edir və ifadə olunur ki, cinayət məsuliyyəti cinayət hüquq münasibətinin məzmununun gerçəkləşdirilməsinin, yəni cinayət hüquq münasibəti subyektlərinin (dövlət və cinayət törədən şəxsin) öz hüquq və vəzifələrini realizə etmələrinin nəticəsidir. Təsadüfi deyildir ki, bunu nəzərə alan və əldə əsas tutan bəzi müəlliflər cinayət məsuliyyətinə cinayət hüquq münasibəti subyektlərinin (dövlətin və cinayət törətmiş şəxsin) öz hüquq və vəzifələrinin realizə olunması kimi doktrinal (elmi) anlayış verirlər.Əgər cinayət hüquq münasibətinin subyektləri olan dövlət və cinayət törətmiş şəxs öz hüquq və vəzifələrini həyata keçirərlərsə (gerçəkləşdirərlərsə), bu, o deməkdir ki, cinayət məsuliyyəti realizə olunmuşdur. O ki qaldı cinayət hüquq münasibəti subyektlərinin hüquq və vəzifələrinə, qeyd etmək lazımdır ki, cinayət hüquq münasibəti subyektlərindən biri olan dövlətin malik olduğu əsas hüquq cinayət törətmiş şəxsi cəzalandırmaqdan və ona cinayət qanununda (Cinayət Məcəlləsində) nəzərdə tutulmuş həddə cəza təyin etməkdən ibarətdir. Cinayət hüquq münasibətinin digər subyekti olan cinayət törətmiş şəxs isə cinayət qanununda müəyyən edilmiş cəza növünü (məsələn, azadlıqdan məhrum edilmə və digər cəza növlərini) çəkməlidir ki, bu, onun üzərinə düşən vəzifə hesab olunur. Xatırlatmaq istərdik ki, cinayət hüquq münasibəti subyektlərinin (dövlət və cinayət törətmiş şəxsin) hüquq və vəzifələri cinayət hüquq münasibətlərinin məzmununu təşkil edir. Cinayət hüquq münasibətinin məzmunu isə qeyd etdiyimiz kimi, onun, yəni cinayət hüquq münasibətlərinin struktur elementlərindən biridir ki, bu barədə dissertasiya tədqiqatının əvvəllərində danışmışıq. Buna görə də cinayət hüquq münasibəti-

nin subyektləri məsələsinə təkrarən yenidən toxunmağa və həmin məsələyə aydınlıq gətirməyə lüzum görmürük.

Cinayət hüquq ədəbiyyatı səhifələrində cinayət hüquq münasibəti və cinayət hüquq məsuliyyəti kimi iki cinayət-hüquqi anlayış arasında mövcud olan əlaqə məsələsinə ayrı-ayrı müəlliflər tərəfindən əsaslandırılan digər yanaşma və nöqteyi-nəzərlərə də rast gəlmək mümkündür. Bəzi alimlərə görə cinayət hüquq münasibəti və cinayət hüquq məsuliyyəti eynimənalı anlayışlar olub, bir bərabərdə tanınır. Bir qrup müəllif belə hesab edir ki, cinayət məsuliyyəti nəinki cinayət hüquq, həmçinin cinayət-prosessual və cinayət-islah hüquq münasibətlərinin realizə olunmasını ifadə edir. Cinayət hüququ üzrə mütəxəssis alimlər arasında elələrinə də təsadüf olunur ki, onların fikrincə, cinayət məsuliyyəti cinayət hüquq münasibətinin məzmununun yalnız bir hissəsidir və s.

Əlbəttə, cinayət hüququ üzrə mütəxəssis alimlər tərəfindən cinayət məsuliyyəti və cinayət hüquq münasibəti kimi iki anlayış arasında mövcud olan əlaqə barədə söylənilmiş hər bir doktrinal (elmi) fikir mühüm əhəmiyyətə malik olub, elmi maraq doğurur. Tam yəqinliklə deyə bilərik ki, həmin fikirlərin hamısı müəyyən mənada ağlabatan və inandırıcı olub, barəsində danışdığımız anlayışlar arasındakı əlaqənin hərtərəfli başa düşülməsində onların vacib rol oynamaları şəksizdir. Lakin biz heç də o niyyətdə deyilik ki, alimlərin söylədikləri fikirlərdən hansının üstün və həqiqətəuyğun olmasını müəyyənləşdirək. Biz öz qarşımıza nə belə məqsəd qoymuşuq, nə də bu, dissertasiya işinin tədqiqat predmetinə aid olan məsələdir. Necə deyərlər, hədəfimiz hüquqi şəxslərin üzərinə düşən və onların daşıdıqları hüquqi məsuliyyətin cinayət-hüquqi aspektlərini tədqiq etməkdən (öyrənməkdən) ibarətdir.

Cinayət məsuliyyəti mülki, inzibati və intizam məsuliyyəti ilə yanaşı, hüquqi məsuliyyətin növlərindən biri olub, Azərbaycan Respublikasının cinayət hüququnun (nəinki Azərbaycan Respublikasının, həmçinin bütün dövlətlərin cinayət hüququnun) fundamental anlayışları sırasına daxildir. Unutmaq olmaz ki, cinayət qanununun (Cinayət Məcəlləsinin) konkret maddəsində formulə və ifadə edilməsə də Azərbaycan Respublikasının cinayət hüququ məsuliyyətin labüdlüyü kimi vacib prinsipdən çıxış edir. Cinayət hüququnun sahəvi (xüsusi) prinsiplərindən biri olan məsuliyyətin labüdlüyü prinsipi öz hüquqi ifadəsini bunda tapır ki, törədilən hər bir cinayətin üstü hökmən vaxtında və tam açılmalı, təqsirkar şəxs isə mütləq cinayət məsuliyyətinə cəlb edilməlidir. Mürəkkəb fenomen kimi tanınan və cinayət hüququnun fundamental (əsas) anlayışlarından biri olan cinayət məsuliyyəti "cinayət – cinayət məsuliyyəti – cəza" üçlüyündə birləşdirici (əlaqələndirici) həlqə rolunu oynayır ki, bu üçlük mahiyyətcə, bütövlükdə cinayət qanunvericiliyinin mənasını ifadə edir.

Biz əgər Azərbaycan Respublikasının yeganə cinayət qanunu sayılan və cinayət hüququ sahəsinin əsas mənbəyi olan Cinayət Məcəlləsinin (2000) nəzərdən keçirsək, görərik ki, burada dəfələrlə bu və ya digər maddədə (cinayər hüququ normasında) qanunvericilik səviyyəsində "cinayət məsuliyyəti" termini işlədilir və belə termindən istifadə olunur: cinayət məsuliyyətinin əsasları (CM-in 3-cü maddəsi), Cinayət Məcəlləsinin və cinayət məsuliyyətinin prinsipləri (CM-in 4-cü maddəsi), cinayət törətmiş şəxslər qanun qarşısında bərabər olub, irqindən, milliyyətindən, dilindən və digər hallardan asılı olmayaraq cinayət məsuliyyətinə cəlb olunurlar (CM-in 6-cı maddəsi), CM-in 6.1-ci maddəsində nəzərdə tutulmuş əsaslara görə heç kəs cinayət məsuliyyətindən azad edilə bilməz (CM-in 6.2-ci maddəsi), yalnız təqsiri müəyyən edilmiş şəxs cinayət məsuliyyətinə cəlb edilə bilər (CM-in 7.1-ci maddəsi), heç kim eyni cinayətə görə iki dəfə

cinayət məsuliyyətinə cəlb oluna bilməz (CM-in 8.2-ci maddəsi) və s. Lakin hüquqyaratma subyekti olan və qanunvericilik hakimiyyətini həyata keçirən qanunverici Cinayət Məcəlləsinin ayrı-ayrı maddələrində dəfələrlə "cinayət məsuliyyəti" termini işlətsə də cinayət məsuliyyətinə nə normativ (leqal) definisiya (tərif) verir, nə də cinayət hüquq kontekstində onun məzmununa aydınlıq gətirir. Bir sözlə, ölkənin həm əsas, həm də yeganə cinayət qanunu olan Cinayət Məcəlləsində cinayət məsuliyyətinə cinayət hüquq prizmasından xarakteristika verilməsinə rast gəlinmir. Xarici ölkələrin cinayət qanunvericiliyində (cinayət qanununda) də eyni mənzərə ilə qarşılaşırıq ki, bu ölkələrin cinayət qanununun cinayət məsuliyyətinə normativ (leqal) definisiya verməsinə rast gəlinmir. Belə ki, bu və ya digər xarici dövlətin, məsələn, Rusiya Federasiyasının, Almaniyanın, Türkiyənin, İsveçrənin, Litvanın və digər ölkələrin cinayət məcəllələrində cinayət məsuliyyətinə leqal anlayış verilməsinə təsadüf olunmur. Ayrı-ayrı ölkələrin (o cümlədən Azərbaycan Respublikasının) cinayət məcəllələrinin cinayət məsuliyyətinə leqal anlayış verilməsi də öz növbəsində cinayət hüquq elmində (doktrinasında) necə deyərlər, qızğın elmi polemika və doktrinal müzakirələrə səbəb olmuşdur ki, bu, cinayət hüquq nəzəriyyəsinin ən mübahisəli və diskussiya doğuran məsələlərindən biridir. Cinayət Məcəlləsi cinayət məsuliyyətinə qanunvericilik səviyyəsində leqal (normativ) anlayış vermədiyinə görə bu işi cinayət hüquq elmi (doktrinası) görür. Zənnimizcə, cinayət məsuliyyətinə elmi doktrinal anlayış verməmişdən öncə, biz, hər şeydən əvvəl, cinayət məsuliyyətini xarakterizə edən spesifik (özünəməxsus) cəhətləri müəyyənləşdirməyə çalışmalıyıq ki, bu cəhətlər cinayət məsuliyyətinin elmi (doktrinal) müstəvidə tərifinin formulə olunmasından ötrü kifayət edər. Birinci, cinayət məsuliyyəti cinayət törətmiş şəxsin etdiyi ictimai təhlükəli əmələ (hərəkət və ya hərəkətsizliyə) görə cinayət qanununun (Cinayət Məcəlləsinin) nəzərdə tutduğu normalar əsasında cavab verməsidir (cavabdehliyidir). İkinci, cinayət məsuliyyəti konkret şəxsin cinayət əməli törətməsinin sosial-hüquqi nəticəsidir. Üçüncü, cinayət məsuliyyəti cinayət törətmiş şəxs üçün həm şəxsi, həm də əmlak xarakterli məhrumiyyətlər (azadlıqdan məhrum etmə, cərimə, müsadirə və s.) yaradır. Dördüncü, cinayət məsuliyyəti təqsirkar şəxs cəza və cinayət-hüquqi xarakterli digər tədbirlər tətbiq edilməsinə səbəb olur. Beşinci, cinayət məsuliyyəti cinayət törətmiş şəxsin əməlinin dövlət tərəfindən mənfi qiymətləndirilməsi və həmin şəxsin töhmətləndirilməsidir. Altıncı, cinayət məsuliyyəti cinayət hüquq münasibəti subyektlərinin (özünün səlahiyyətli orqanlarının şəxsində dövlətin və cinayət törətmiş şəxsin) hüquq və vəzifələrinin realizə olunmasıdır. Yeddinci, cinayət məsuliyyəti məhkumluq kimi spesifik hüquqi nəticəyə gətirib çıxarır.

Sadaladığımız bu kimi cəhətlər cinayət hüququnun cinayət məsuliyyəti kimi əsas fenomenlərindən birini xarakterizə etməyə imkan verərək, onun tərkib hissələri qismində çıxış edən elementlər hesab edilir ki, bu elementlər cinayət məsuliyyətinin mürəkkəb xarakterli struktur qurum olmasından xəbər verir. Məhz həmin elementləri nəzərə almaqla və onları əldə əsas tutmaqla mürəkkəb struktur qurum olan cinayət məsuliyyətinə anlayış verə bilərik.

Cinayət məsuliyyəti konkret şəxsin cinayət əməli törətməsinin sosial-hüquqi nəticəsi olub, törədilmiş əmələ (hərəkət və ya hərəkətsizliyə) görə bu şəxsin cinayət qanununun (Cinayət Məcəlləsinin) normaları əsasında cavabdehliyidir ki, həmin cavabdehlik cinayət törətmiş şəxs üçün şəxsi və əmlak xarakterli məhrumiyyətlərə gətirib çıxarır, ona cəza və cinayət-hüquqi xarakterli digər tədbirlər tətbiq edilməsinə, ictimai təhlükəli əmələ dövlət tərəfindən mənfi qiymət verilməsinə və şəxsin töhmətləndirilməsinə, eləcə də məhkumlu-

ğa səbəb olur. Bu, bizim tərəfimizdən cinayət məsuliyyətinə cinayət-hüquqi konteksdə verilən elmi (doktrinal) anlayışdır ki, həmin anlayışda cinayət məsuliyyəti kimi mürəkkəb fenomeni xarakterizə etməyə imkan verən bütün əlamətlər (elementlər) ehtiva edilmişdir. Bu və ya digər şəxs cinayət məsuliyyətinə o halda cəlb edilir ki, həmin şəxs cinayət qanunu (Cinayət Məcəlləsi) ilə cəza təhdidi altında qadağan olunmuş hər hansı ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) təqsirli olaraq törətsin. Şəxsin törətdiyi ictimai təhlükəli əməllə  cinayət əməli ilə bağlı olduğuna görə cinayət məsuliyyəti hüquq məsuliyyətinin ən ağır, kəskin və sərt növüdür ki, bu növ hüquq məsuliyyətinin nəzərdə tutulması şəxsin özünün malik olduğu hüquqlardan məhrum edilməsinə və ya hüquqların məhdudlaşdırılmasına səbəb olur.

Bu və ya digər şəxsin ictimai təhlükəli əməl olan cinayət törətməsinə görə onun cinayət məsuliyyətinə cəlb edilməsi ilə bağlı olaraq cəmiyyətdə və yaşadığımız həyatda müəyyən növ ictimai münasibətlər əmələ gəlir ki, həmin münasibətləri tənzimləyən cinayət hüquq normalarının sistemi cinayət hüquq ədəbiyyatı səhifələrində cinayət məsuliyyəti institutu adlanır ki, bu, cinayət subyektliyi, başa çatmayan cinayət, cinayətdə iştirakçılıq, əməlin cinayət olmasını aradan qaldıran hallar və cəza institutları ilə yanaşı, cinayət hüququ sahəsinin ümumi hissəsinin institutudur. Belə ki, cinayət hüququnun ümumi hissəsi bir az əvvəldə və yuxarıda sadaladığımız institutlardan ibarətdir ki, cinayət məsuliyyəti institutu onlardan biridir. Özü də ikisi cinayət hüququnun ümumi hissəsinin ən böyük və iri institutu kimi tanınır ki, cəza institutu onlardan biri, cinayət məsuliyyəti institutu isə digəridir. Bundan başqa, cinayət hüquq elmində (doktrinasında) cinayət məsuliyyəti cinayət hüququnun ən vacib institutlarından biri kimi xarakterizə olunur ki, belə yanaşma heç də təsadüfi xarakter daşımır. Yaddan çıxarmamalıyıq ki, cinayət hüquq nəzəriyyəsinə məlum olan "cinayət – cinayət məsuliyyəti – cəza" kimi hüquqi üçlük üç elementdən (cinayət, cinayət məsuliyyəti və cəza kimi üç elementdən) ibarətdir. Bu üçlükdə əlaqələndirici rolunda çıxış edən cinayət məsuliyyəti onun iki elementini – cinayət və cəza kimi elementləri bir-biri ilə bağlayır. Daha aydın söyləsək, şəxsin cinayət əməli törətməsi həmişə cinayət-hüquqi nəticəyə səbəb olur ki, bu nəticə ictimai təhlükəli əməl törədən şəxsin cinayət məsuliyyətinə cəlb edilməsində və onun cəzalandırılmasında (şəxsə cəza təyin olunmasında) ifadə edilir.

Cinayət məsuliyyəti institutu dedikdə, cinayət hüquq normalarının elə məcmusu başa düşülür ki, bu normalar şəxsiyyət, cəmiyyət və dövlət üçün təhlükəli olan əməllərə görə cinayət qanununda (Cinayət Məcəlləsində) cinayət məsuliyyəti müəyyənləşdirilməsi (nəzərdə tutulması), cinayət məsuliyyətinin yaranması və onun realizə olunması, yəni cinayət hüquq münasibəti subyektlərinin (dövlətin və cinayət törətmiş şəxsin) öz hüquq və vəzifələrini həyata keçirməsi ilə bağlı məsələləri tənzimləyir. Bu institut həmişə belə bir prinsipdən çıxış etmişdir ki, cinayət qanunu (Cinayət Məcəlləsi) ilə müəyyən edilmiş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı şəxs cinayət məsuliyyətinə cəlb edilir. Azərbaycan Respublikasının hazırda qüvvədə olan CM-in (bu məcəllə 1999-cu il 30 dekabr tarixli qanunla təsdiq edilmiş, 2000-ci il sentyabrın 1-dən qüvvəyə minmişdir) cinayət məsuliyyətinin ümumi şərtlərini müəyyənləşdirən 19-cu maddəsində ifadə olunan bu hüquqi göstərişdən belə məlum olur ki, yalnız insan kateqoriyasına aid olan fiziki şəxslər cinayət məsuliyyətinə cəlb edilə bilərlər. Heç kəsə sirr deyil ki, yaş və anlaqlı olmaq kimi xüsusiyyətlərə (əlamətlərə) yalnız insan kateqoriyasına aid edilən fiziki şəxs (insan fərdi) malik ola bilər. Odur ki, CM-in 19-cu maddəsində qanunvericinin işlətdiyi "şəxs" anlayışını fiziki şəxs kimi başa düşmək lazımdır. Azərbaycan Respublikasının so-

vet dövründə qəbul olunmuş cinayət məcəllələrində məsələyə bu cür yanaşılaraq yalnız fiziki şəxsin (insan fərdinin) cinayət məsuliyyətinə cəlb olunması barədə hüquq norması nəzərdə tutulmuşdu. Başqa sözlə, sovet dövrünün cinayət məcəllələri yalnız qanunla müəyyən edilmiş yaş həddinə çatmış və cinayət törətmiş anlaqlı fiziki şəxsi cinayət məsuliyyətinin subyekti kimi tanıyırdı. Məsələn, Azərbaycan Respublikasının 1960-cı il 8 dekabr tarixli qanunu ilə təsdiq edilmiş Cinayət Məcəlləsinin (bu, sovet dövründə qəbul olunmuş cinayət məcəllələrindən biridir) cinayət məsuliyyətinin əsaslarını müəyyənləşdirən 3-cü maddəsində göstərilirdi ki, yalnız cinayət etməkdə təqsirləndirilən şəxs, yəni cinayət qanununda nəzərdə tutulmuş ictimai-təhlükəli əməli qəsdən və ya ehtiyatsızlıq üzündən etmiş olan şəxs cinayət məsuliyyətinə cəlb edilir və cəzalandırılır. Buna oxşar analoji cinayət hüquq normasını həm də keçmiş SSRİ-nin tərkibinə daxil olan müttəfiq respublikaların (məsələn, RSFSR, Ukrayna, Belorusiya, Qazaxıstan, Özbəkistan və digər müttəfiq respublikaların) cinayət məcəllələri, habelə SSRİ Cinayət Qanunvericiliyinin Əsasları da nəzərdə tuturdu. Sovet cinayət məcəllələrinin bu kimi normasına əsasən müəyyən etmək mümkün olurdu ki, yalnız insan fərdi kimi tanınan, yəni insan kateqoriyasına aid olunan şəxs cinayətin subyekti ola bilərdi. Cinayətin subyekti kimi tanınması üçün şəxsin nəinki cinayət qanunu (Cinayət Məcəlləsi) ilə qadağan edilmiş ictimai təhlükəli əməli bilavasitə törətməsi, həmçinin onun müəyyən edilmiş yaş həddinə çatması və ictimai təhlükəli əməl etdiyi zaman anlaqsız vəziyyətində, yəni öz hərəkətlərini ölçüb-biçmək və ya idarə etmək iqtidarında olmaması tələb edilirdi. Əgər göstərdiyimiz üç əlamətə (cinayət törədən şəxsin yalnız insan fərdi olması, şəxsin cinayət qanunu ilə müəyyənləşdirilmiş yaş həddinə çatması və şəxsin anlaqlı olması əlamətlərinə) cavab verər və uyğun gələrdisə, fiziki şəxs cinayətin subyekti hesab edilirdi.

Cinayət qanununda cinayətin subyektinin nə demək olduğuna gəldikdə, qeyd etmək istərdik ki, ayrı-ayrı ölkələrin cinayət hüququnda və cinayət hüquq doktrinasında (elmində) cinayətin subyektinə leqal (normativ) və ya elmi (doktrinal) definisiyalar verilməsinə rast gəlinir. Yaponiya cinayət hüququna və cinayət hüquq doktrinasına görə cinayətin subyekti dedikdə cinayət törədən və ona görə cinayət məsuliyyəti daşımaq qabiliyyətinə malik olan şəxs başa düşülür. Yaponiya cinayət hüququna görə cinayət məsuliyyətinə cəlb etməyə imkan verən yaş həddinə çatmış anlaqlı fiziki şəxs cinayətin subyekti ola bilər.

Rusiya Federasiyasının cinayət hüquq doktrinasına (elminə) görə cinayət hüququnda cinayətin subyekti dedikdə elə bir şəxs başa düşülür ki, həmin şəxs cinayət qanunu ilə qadağan edilmiş ictimai təhlükəli əməl törədir və ona görə cinayət məsuliyyəti daşımaq qabiliyyətinə malik olur. Bu ölkənin cinayət hüquq doktrinasında (elmində) və cinayət hüququnda cinayətin subyekti cinayət tərkibinin dörd məcburi (zəruri) elementlərindən biri sayılır ki, bu elementsiz cinayət məsuliyyətinin mövcud olması qeyri-mümkündür. Cinayət törədən və cinayət məsuliyyəti daşımaq qabiliyyətinə malik olan fiziki şəxs əgər anlaqlı olarsa və cinayət qanunu ilə müəyyənləşdirilmiş yaş həddinə çatarsa, cinayətin subyekti kimi tanınır. Rusiya Federasiyasının cinayət hüququ fiziki şəxsi cinayətin yeganə subyekti kimi tanıdığına görə nə müəssisələr, nə idarələr, nə təşkilatlar, nə də hüquqi şəxs statusuna malik olan digər qurumlar cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

Cinayətin subyektinin yalnız fiziki şəxs olmasına dair hüquqi göstərişə Almaniyanın cinayət hüququnda da rast gəlmək mümkündür. Almaniya cinayət hüququna görə cinayət əməlinin subyekti yalnız on dörd yaş həddinə çatan və anlaqlı olan fiziki şəxs ola bilər. Odur ki, hüquqi şəxs kimi tanınan müəssisələr cinayət subyekti ola bilməzlər.

Cinayətin mümkün subyektinin fiziki şəxslə (insan kateqoriyasına aid olan şəxslə) məhdudlaşdırılması barədə normativ-hüquqi göstəriş həm də digər xarici ölkələrin cinayət hüququnda nəzərdə tutulmuş və müəyyən edilmişdir. Özlərinin cinayət hüquq sistemi şəxsi təqsirli məsuliyyət kimi klassik prinsipə əsaslanan kontinental Avropa ölkələrinin demək olar ki, hamısı fiziki şəxsi cinayət məsuliyyətinin yeganə subyekti kimi tanıyırlar və hüquqi şəxslərin cinayət məsuliyyəti ideyasına çox ehtiyatla yanaşırlar. Məsələn, kontinental Avropa ölkələrindən biri olan İtaliyanın CM-in normalarına görə on dörd yaş həddinə çatmış anlaqlı şəxs cinayətin subyektidir. Cinayətin subyekti anlayışı İtaliya Cinayət Məcəlləsinin "Cinayətkar və cinayətdən zərər çəkən haqqında" IV bölməsində nəzərdə tutulur və müəyyən edilir. İtaliya Respublikasının nə cinayət hüquq sahəsi, nə də cinayət hüquq doktrinası (elmi) hüquqi şəxsləri cinayətin subyekti kimi tanımır.

Məlum olduğu kimi, keçən yüzilliyin 90-cı illərin əvvəllərində SSRİ-nin mövcudluğuna son qoyulmasından sonra Avropada yaranan dövlətlərin, habelə keçmiş sosialist ölkələrinin (Bolqarıstanın, Polşanın) yeni cinayət məcəllələri şəxsi təqsirli məsuliyyət kimi klassik prinsipə əsaslanaraq fiziki şəxsi cinayətin yeganə subyekti hesab etməsi səbəbindən bir qayda olaraq, hüquqi şəxslərin cinayət məsuliyyətini nəzərdə tutmur. Lakin bu kimi dövlətlərin cinayət qanunvericiliyinin cinayət subyektinin yalnız fiziki şəxs olması ideyasını qəbul edərək ona əsaslanmasına baxmayaraq, XX əsrin ikinci yarısında bir sıra ölkələrin öz cinayət məcəllələrinə hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında normalar daxil etməsi tendensiyası müşahidə olunur.

Azərbaycan Respublikasının cinayət hüququna gəldikdə, qeyd etməliyik ki, bu ölkənin cinayət hüququ sahəsi, eləcə də cinayət hüquq doktrinası (cinayət hüquq elmi) cinayətin subyektinə cinayət tərkibinin məcburi (zəruri) elementlərindən biri kimi (cinayətin obyekti, cinayətin obyektiv tərəfi və cinayətin subyektiv tərəfi isə cinayət tərkibinin digər elementləridir) baxaraq ona (yəni cinayətin subyektinə) cinayət qanununda nəzərdə tutulmuş ictimai təhlükəli əməli (hərəkət və ya hərəkətsizliyi) qəsdən və ya ehtiyatsızlıq üzündən etməyə görə cinayət məsuliyyəti daşımaq qabiliyyətli şəxs kimi anlayış verir. Cinayətin subyekti cinayət tərkibinin məcburi (zəruri) elementi hesab edilsə də 17 mart 2012-ci il tarixli qanunla Cinayət Məcəlləsinə əlavə edilənə qədər Azərbaycan Respublikasının nə cinayət hüquq sahəsi, nə də cinayət doktrinası (elmi) hüquqi şəxsləri cinayətin subyekti kimi tanımışdır. Belə ki, 17 mart 2012-ci il tarixli qanunla Cinayət Məcəlləsinə əlavə edilənə kimi Azərbaycan Respublikasının cinayət hüququ bir çox dövlətlərdə olduğu kimi təqsirli şəxsi məsuliyyət kimi klassik prinsipə əsaslanaraq hüquqi şəxslərin cinayət məsuliyyəti konsepsiyasını qəbul etməmişdir. Nəzərdən qaçırmaq olmaz ki, Almaniyanın, İtaliyanın, Rusiya Federasiyasının, Yaponiyanın və digər ölkələrin cinayət qanunları hüquqi şəxslərin cinayət məsuliyyəti ideyasını inkar edərək cinayətin subyektinin yalnız fiziki şəxs olması prinsipindən çıxış edirlər. Azərbaycan Respublikasının cinayət hüququ da məsələyə bu cür yanaşaraq hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyən etməmişdi. Lakin XX əsrin ikinci yarısında bir çox ölkələrin cinayət hüququ təqsirli şəxsi məsuliyyət prinsipindən çıxış etsələr də öz qanunvericiliynə hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında müvafiq normalar daxil etdilər ki, Danimarka, Fransa, Çin və digərləri belə ölkələr sırasına aiddir. Hətta keçmiş SSRİ-in mövcudluğuna son qoyulmasından sonra müstəqil dövlət kimi tanınan Litva (2000), Estoniya (2001) və Moldova (2002) respublikalarının cinayət məcəllələri hüquqi şəxslərin cinayət məsuliyyəti daşıması ideyasına müsbət yanaşaraq müvafiq hüquq normaları nəzərdə tutmağa başladılar. Məsələn, Litva Respublikasının Cinayət Məcəlləsi-

nin 20-ci maddəsi hüquqi şəxsin cinayət məsuliyyəti daşıması ilə bağlı məsələlərin tənzimlənməsinə həsr edilmişdir. Bu maddənin 1-ci hissəsində göstərilir ki, hüquqi şəxs cinayət əməlinin törədilməsinə görə yalnız Cinayət Məcəlləsinin Xüsusi hissəsində nəzərdə tutulduğu hallarda cinayət məsuliyyəti daşıyır.

İngilis-Amerika hüquq ailəsinə aid olan dövlətdaxili (milli) hüquq sistemlərindən biri İngiltərə hüququdur ki, ona görə cinayətin subyekti fiziki şəxslərlə yanaşı həm də hüquqi şəxslər (korporasiyalar) ola bilər. Bu ölkənin qanunvericiliyində göstərilir ki, cinayət törədilməsinə görə məsuliyyətə cəlb edilməli olan şəxs dedikdə, əgər qanunda başqa hal nəzərdə tutulmayıbsa, həm də korporasiya başa düşülür. Nəzərdən qaçırmaq olmaz ki, korporasiyaların cinayət məsuliyyətinə cəlb olunmalarına dair ideya İngiltərə hüququqnda hələ XIX əsrin ortalarında tanınaraq qəbul edilmişdir.

İngilis-Amerika hüquq ailəsinə daxil olan dövlətdaxili (milli) hüquq sistemlərindən biri ABŞ hüququdur ki, bu ölkənin hüququna görə cinayətlərin subyekti həm də hüquqi şəxslər (korporasiyalar) ola bilər. Belə ki, ABŞ cinayət hüququ hüquqi şəxslərin üzərinə cinayət məsuliyyəti qoyulmasına müsbət yanaşaraq onları cinayətin subyektlərindən biri kimi tanıyır. Bu ölkənin cinayət hüququna görə korporasiyalar ictimai təhlükəli əməlin istənilən növünə (hərəkət və ya hərəkətsizliyə) görə cinayət məsuliyyəti daşıya bilər.

Kontinental (Roma – alman) hüquq ailəsinin vətəni sayılan Fransada da həmçinin hüquqi şəxslər cinayət əməlinin subyekti kimi tanınır. Fransa CM-in 121-2-ci maddəsində göstərilir ki, hüquqi şəxsin məsuliyyəti törədilmiş cinayət əməlinə görə heç də həmin əməlin icraçısı və ya iştirakçısı olan fiziki şəxsin cinayət məsuliyyətini istisna etmir, aradan qaldırmır. Yaddan çıxarmamalıyıq ki, hüquqi şəxslər həm fiziki şəxslərlə birgə, həm də müstəqil surətdə cinayət məsuliyyətinə cəlb edilə bilərlər.

Hüquqi şəxslərin cinayət məsuliyyəti daşıması haqqında hüquq normalarına həm də digər xarici dövlətlərin cinayət qanunvericiliyndə rast gəlinir. Xarici dövlətlərin cinayət hüququna nəzər salsaq və diqqət yetirsək görərik ki, təsərrüfat sistemi bazar modelinə əsaslanan ölkələrin çoxunun cinayət qanunvericiliyi hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında müvafiq normalar nəzərdə tutur. Belə ki, bazar iqtisadiyyatı inkişaf etmiş ölkələrin əksəriyyətinin (məsələn, Kanadanın, Niderlandın və digərlərinin) cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti kimi vacib institut formalaşmışdır. Azərbaycan Respublikasının cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun formalaşmasına gəldikdə, qeyd etməliyik ki, dediyimiz kimi, Azərbaycan Respublikasının hazırda qüvvədə olan mövcud Cinayət Məcəlləsinə (2000) 17 mart 2012-ci il tarixli qanuna əlavə edilənə kimi ölkəmizin cinayət hüququ nə hüquqi şəxsləri cinayətin subyekti kimi tanıyır, nə də hüquqi şəxslərin cinayət məsuliyyəti prinsipi müəyyənləşdirilirdi. Odur ki, həmin qanun cinayət qanununa əlavə edilənə qədər Azərbaycan Respublikasının cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun nə mövcudluğundan, nə də onun formalaşmasından söhbət gedə bilərdi.

Məlum olduğu kimi, 17 mart 2012-ci il tarixli qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin VI bölməsinin (xatırlatmaq istərdik ki, həmin bölmə “Cinayət-hüquqi xarakterli digər tədbirlər” adlanır) 15-ci fəslinə “Hüquqi şəxslər barəsində tətbiq olunan cinayət-hüquqi tədbirlər” adlı ayrıca hissə daxil olundu ki, həmin hissə 15-2-ci fəsil adlanır. Məhz Cinayət Məcəlləsinin 15-2-ci fəslində hüquqi şəxslər barəsində bu və ya digər növ cinayət-hüquqi tədbirlər tətbiq olunması nəzərdə tutulur ki, bu, Azərbaycan Respublikasının cinayət hüququnda hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun formalaşmasının başlanılmasından xəbər verir. Tam əminliklə söyləyə bilərik ki, Azərbay-

can Respublikasının vaxtilə hüquqi şəxslərin cinayət məısuliyyəti ideyasını və konsepsiyasını tanımayan cinayət hüququna bu gün hüquqi şəxslərin cinayət məsuliyyəti kimi vacib institut məlumdur ki, bu institutun formalaşması bazar iqtisadiyyatı yolu ilə inkişaf edən xarici dövlətlərin çoxunun (ABŞ, Fransa, Niderland, Kanada, İngiltərə və digərlərinin) cinayət qanunvericiliyi təcrübəsinə uyğundur. Aydın bir həqiqətdir ki, Azərbaycan Respublikasının yaxın vaxtlara kimi fiziki şəxsləri (insanı) cinayətin yeganə subyekti hesab edən cinayət hüququ indi hüquqi şəxslərin də üzərinə cinayət məsuliyyəti qoyur. Odur ki, Azərbaycan Respublikasının cinayət hüququna görə həm fiziki, həm də hüquqi şəxslər cinayət məsuliyyətinə cəlb oluna bilərlər. Xüsusi olaraq vurğulamaq istərdik ki, əgər Azərbaycan Respublikasının hazırda qüvvədə olan cinayət qanunu hüquqi şəxslərə bu və ya digər növdə (məsələn, cərimə, xüsusi müsadirə, müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə, hüquqi şəxsi ləğv etmə və digər növlərdə) cinayət-hüquqi tədbirlər görülməsini nəzərdə tutursa, bu, qanunvericilik səviyyəsində onun hüquqi şəxsləri cinayət məsuliyyətinin subyekti kimi tanıması deməkdir. Unutmaq olmaz ki, hüquqi şəxsləri cinayət məsuliyyətinin subyekti kimi tanınması həm cinayət qanunvericiliyinin, həm də cinayət hüquq doktrinasının (cinayət hüquq nəzəriyyəsinin) inkişafının müasir tendensiyasıdır. Nəzərə almaq lazımdır ki, hər bir dövlətdə cinayət qanunvericiliyinin təkmilləşdirilməsi üzərində müvafiq iş görülməsinə xüsusi diqqət yetirilir və prioritet əhəmiyyət verilir. Cinayət qanunvericiliyinin təkmilləşdirilməsinə yönələn iş ayrı-ayrı ölkələrdə əsasən iki istiqamətdə (söhbət qanunvericilik fəaliyyətinin iki istiqamətindən gedir) həyata keçirilir ki, bir tərəfdən cinayət qanununun mövcud sanksiyaları təkmilləşdirilir (birinci istiqamət), digər tərəfdən beynəlxalq institutların tövsiyyələri nəzərə alınmaqla beynəlxalq hüquqi aktlar əsasında dövlətdaxili (milli) qanunvericilik inkişaf etdirilir (ikinci istiqamət). Ayrı-ayrı ölkələrdə həyata keçirilən qanunvericilik fəaliyyətinin ikinci istiqaməti sahəsində mübahisəyə səbəb olan və diskussiya doğuran problemlərdən biri hüquqi şəxslərin üzərinə cinayət məsuliyyəti qoymağın zəruriliyi (vacibliyi) məsələsidir. Məlum olduğu kimi, hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsi həm cinayət hüquq nəzəriyyəsi baxımından (nəzəri planda), həm də qanunvericilik nöqteyi-nəzərindən ayrı-ayrı ölkələrdə müxtəlif cür həll olunur ki, bunun nəticəsində bir-birinə zidd olan iki fərqli konsepsiya formalaşmışdır. Birinci konsepsiya tərəfdarları hüquqi şəxsin cinayət məsuliyyəti daşıması ideyasının əleyhinə çıxaraq göstərirlər ki, yalnız öz nümayəndələrinin vasitəsilə hərəkət edən hüquqi şəxslərin əməlində mənəvi-psixoloji element olmaması səbəbindən onlar təqsirli olaraq cinayət törədə bilməzlər. Hüquqi şəxsin cinayət məsuliyyəti daşıması ideyasının əleyhidarları öz mövqeyini belə bir arqumentlə əsaslandırırlar ki, cinayət hüququ həm təqsirli şəxsi məsuliyyət, həm də cinayət məsuliyyətinin fərdiləşdirilməsi kimi klassik prinsiplər müəyyənləşdirir. Onlar həm də belə bir dəlil gətirirlər ki, yalnız cinayət qanunu ilə müəyyənləşdirilmiş yaş həddinə çatmış anlaqlı fiziki şəxs, yəni öz əməlinin (hərəkət və ya hərəkətsizliyinin) faktiki xarakterini və ictimai təhlükəliliyini dərk edə və ya onu idarə edən insan cinayətin subyekti ola bilər; bu kimi əlamətlərə (yaş həddinə çatmaq, anlaqlı olmaq və öz əməlinin faktiki xarakterini dərk etmək və ya onu idarə etmək kimi əlamətlərə) malik olmadığına görə hüquqi şəxslər nə cinayətin, nə də cinayət məsuliyyətinin subyekti ola bilər. Odur ki, kontinental Avropa ölkələri – Avropa İttifaqının üzvü olan dövlətlər (Almaniya, Avstriya, Yunanıstan, İtaliya, Lüksemburq, Portuqaliya, İsveç və s.) öz cinayət qanunlarında hüquqi şəxslərin üzərinə cinayət məsuliyyəti qoymur. Bunun əksi olan mövqedə duran ikinci konsepsiya tərəfdarları isə hü-

quqi şəxslərin üzərinə cinayət məsuliyyəti qoymaq ideyasını qəbul edərkən öz fikirlərinin əsaslandırılmasını sübut etmək üçün belə bir arqument gətirirlər ki, dünyanın ABŞ, Böyük Britaniya, Kanada, Norveç, Danimarka, Fransa, Niderland və Belçika kimi dövlətləri öz cinayət qanunlarında hüquqi şəxslərin cinayət məsuliyyəti daşımasını müəyyənləşdirir.

Hüquqi şəxslərin cinayət məsuliyyəti daşıması konsepsiyasının tərəfdarları əsasən də belə arqumentə istinad edirlər ki, beynəlxalq hüquqi aktlarda (beynəlxalq konvensiya və digər sənədlərdə) hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında müvafiq normalar nəzərdə tutulmuşdur. Söhbət hər şeydən əvvəl, BMT-nin iki konvensiyasından gedir ki, bunlardan biri transmilli cinayətkarlığa qarşı, digəri isə korrupsiya ilə münarizə haqqında konvensiyadır. BMT Baş Məclisinin 15 noyabr 2000-ci il tarixli qətnaməsi ilə qəbul edilən və Azərbaycan Respublikasının iştirakçısı olduğu transmilli cinayətkarlığa qarşı mübarizə haqqında konvensiyanın 10-cu maddəsi hüquqi şəxslərin üzərinə mülki və inzibati hüquq məsuliyyəti ilə yanaşı, həm də cinayət məsuliyyəti qoyur ki, bu növ məsuliyyət onlar barəsində cinayət-hüquqi sanksiyalarının tətbiq olunmasını nəzərdə tutur.

BMT Baş Məclisinin 3 oktyabr 2003-cü il tarixli qətnaməsi ilə qəbul olunan və Azərbaycan Respublikasının iştirak etdiyi ikinci konvensiya – korrupsiya ilə mübarizə haqqında konvensiya da həmçinin hüquqi şəxslərin cinayət məsuliyyəti prinsipindən çıxış edir ki, onun 26-cı maddəsi məhz hüquqi şəxslərin məsuliyyətinə həsr edilmişdir. Bu maddədə göstərilir ki, hüquqi şəxslərin cinayət məsuliyyəti daşıması heç də cinayət əməli törədən fiziki şəxslərin cinayət məsuliyyətini aradan qaldırmır və istisna etmir. Xüsusi olaraq vurğulamaq lazımdır ki, hər iki BMT konvensiyası iştirakçı dövlətlərin üzərinə öz milli (daxili) qanunvericiliyində hüquqi şəxslərin cinayət məsuliyyəti haqqında müvafiq normalar müəyyənləşdirmək öhdəliyi qoyur.

Hüquqi şəxsin üzərinə cinayət məsuliyyəti qoyan beynəlxalq müqavilələr sırasına həm də regional xarakterli beynəlxalq hüquqi sənədlər daxildir ki, korrupsiyaya görə cinayət məsuliyyəti haqqında Avropa Şurası Konvensiyası (Strasburq, 27 yanvar 1999-cu il) onlardan biridir. Avropa Şurası çərçivəsində qəbul edilən və Azərbaycan Respublikasının da iştirak etdiyi həmin konvensiyanın "Hüquqi şəxslərin məsuliyyəti" adlanan 18-ci maddəsi üzv dövlətlərin üzərinə belə bir öhdəlik qoyur ki, onlar öz qanunvericiliyində cinayət törədilməsi ilə bağlı hüquqi şəxslərin məsuliyyətə cəlb olunması haqqında norma nəzərdə tutsunlar.

Nəinki dövlətdaxili hüquq sisteminə aid olan cinayət hüququnun, həmçinin beynəlxalq hüququn müstəqil sahələrindən biri kimi tanınan beynəlxalq cinayət hüququnun inkişaf tendensiyası belədir ki, hüquqi şəxslərin cinayət məsuliyyəti məsələsi müsbət həll edilir. Unutmaq olmaz ki, həm ayrı-ayrı ölkələrin cinayət hüququ, həm də beynəlxalq cinayət hüququ hüquqi şəxslər üçün cinayət məsuliyyəti müəyyənləşdirilməsi istiqamətində inkişaf edir. Azərbaycan Respublikasının cinayət hüququnun inkişafının müasir meyli də məhz belədir ki, bunun nəticəsində onun tərkibində hüquqi şəxslərin cinayət məsuliyyəti kimi yeni institut formalaşmışdır. Bu yeni institutun formalaşması üçün heç də necə deyərlər, uzun tarixi vaxt kəsiyinin keçməsi lazım olmamışdır. Belə ki, cinayət hüququ tərkibində hüquqi şəxslərin cinayət məsuliyyəti institutunun formalaşma prosesi Azərbaycan Respublikasının hazırda qüvvədə olan Cinayət Məcəlləsinə 17 mart 2012-ci il tarixli qanunla əlavə edilməsi vaxtına təsadüf edir ki, həmin qanun hüquqi şəxslər barəsində cinayət-hüquqi tədbirlər tətbiq olunmasını nəzərdə tutur və müəyyənləşdirir. Məhz bu qanunla CM-ə əlavə edilən müddətə kimi nə hüquqi şəxslərin cinayət məsuliyyəti institutu formalaşmış, nə də hüquqi şəxslərin cinayət məsuliyyəti kon-

sepsiyası və ideyası tanınmışdı. Bu səbəbdən tam əminliklə deyə bilərik ki, hüquqi şəxslərin cinayət məsuliyyəti yaxın vaxtlarda formalaşmış yeni institutdur.

### Ədəbiyyat

1. Abışov V.G., İsmayılov A.V., Nəcəfquliyev R.İ. İnzibati məsuliyyət. Dərs vəsaiti. Bakı: “Daxili İşlər Nazirliyi – Polis Akademiyası”, 2012, 527 s.
2. Allahverdiyev S.S. Azərbaycan Respublikasının beynəlxalq xüsusi (mülki) hüquq kursu. Dərslik. Bakı: “Diqesta” nəşriyyatı, 2007, 820 s.
3. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi. Bakı: “Hüquq ədəbiyyatı” nəşriyyatı, 2012, 344 s.

## CRIMINAL LIABILITY OF LEGAL PERSONS AS A NEW INSTITUTION OF THE CRIMINAL LAW OF THE REPUBLIC OF AZERBAIJAN

**G.Z.Mammadli**

### SUMMARY

This article is dedicated to the matter of criminal liability of a legal person, one of the most disputable and controversial problems of criminal law. It is noted that the criminal law of the Republic of Azerbaijan did not recognize the institution of the criminal liability of a legal person until 2012. It received the status of new institution of the criminal law only after amendments have been made to the existing criminal legislation.

## УГОЛОВНАЯ ОТВЕТСТВЕННОСТЬ ЮРИДИЧЕСКИХ ЛИЦ КАК НОВЫЙ ИНСТИТУТ УГОЛОВНОГО ПРАВА АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

**Г.З.Маммадли**

### РЕЗЮМЕ

Статья посвящена одному из самых спорных и дискуссионных вопросов уголовной науки - уголовной ответственности юридического лица. Отмечается, что уголовное право Азербайджанской Республики не признавало институт уголовной ответственности юридического лица вплоть до 2012-го года. После внесения дополнений к действующему уголовному закону, уголовная ответственность юридического лица получила статус нового института уголовного права.

# P E D A Q O G İ K A

# B Ö L M Ə S İ

# S E C T I O N   O F

# P E D A G O G Y

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# ЭКОЛОГИЧЕСКОЕ ВОСПИТАНИЕ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ БИОЛОГИИ

**Т.Х.Керимова**
Университет Одлар Юрду
Баку, ул. Кероглу Рахимова 13
e-mail: tamillahafiz1968@gmail.com

***Açar sözlər:*** mədəniyyət, ekoloji mədəniyyət, ekoloji tərbiyə, təbiət
***Key words:*** culture, ecological culture, ecological behaviour, nature
***Ключевые слова:*** культура, экологическая культура, экологическое воспитание, природа

*Берегите Землю!*
*Берегите*
*Жаворонка в голубом зените,*
*Бабочку на листьях повилики,*
*На тропинке солнечные блики…*
*Берегите молодые всходы*
*На зеленом празднике природы,*
*Небо в звездах, океан и сушу*
*И в бессмертье верящую душу, –*
*Всех судеб связующие нити.*
*Берегите Землю! Берегите…*

Методика преподавания биологии исследует и изучает содержание образовательного процесса по этому предмету и закономерности усвоения биологического материала учащимися. Цель и задачи методики обучения биологии строятся на общих для всех школьных предметов основах педагогической науки с учетом специфики изучения биологии. Методика обучения биологии - это наука о системе процесса обучения и воспитания, обусловленного особенностями школьного предмета. Наука - область человеческой деятельности, направленная на выработку и систематизацию объективных знаний о действительности. Основная задача и главная функция науки - познание и исследование. Предметом исследования методики преподавания биологии являются теория и практика обучения, воспитания и развития учащихся. Воспитывающий характер обучения в школе обусловлен целями и содержанием предмета «Биология». Биологическая наука имеет огромную воспитывающую силу. Поэтому следует активно использовать биологические знания для ознакомления с окружающим миром, формирования научной картины мира. В соответствии с этой целью в процессе обучения осуществляется нравственное, трудовое, физическое, эстетическое, социально-правовое, экономическое, гражданское, патриотическое, экологическое воспитание (1, с.187, 201).

Воспитание - это создание условий для развития и саморазвития человека, освоения им социального опыта, культуры, ценностей и норм общества.

Перед курсом биологии, как и перед любым другим учебным предметом общеобразовательной школы, стоят большие и ответственные задачи, связанные с осуществлением всестороннего воспитания подрастающего поколения. Необходимость решения этих задач вытекает из требований общества.

Воспитание в процессе преподавания биологии прежде всего предполагает работу по формированию и развитию у школьников естественнонаучного мировоззрения, осуществлению патриотического и интернационального, нравственного, физического, гигиенического, полового, эстетического воспитания учащихся, которое должно органично включаться в общую систему реализации задач, стоящих перед общеобразовательной школой, и базироваться на теории воспитания с учетом особенностей содержания предмета, уровня подготовки и психического развития учащихся (1, с.203).

Все аспекты воспитания учащихся взаимосвязаны между собой. Нравственное воспитание - формирование понятий, суждений, чувств и убеждений, навыков и привычек поведения, соответствующих нормам общества.

Поэтому в процессе обученя биологии в воспитании учащихся осуществляется комплексный подход.

Биология, как учебный предмет, включает в себя несколько разделов и не один из них самостоятельно не в состоянии решить все сложные и многогранные задачи воспитания школьников в необходимой полноте. Поэтому важно, чтобы при изучении каждого раздела был сделан возможный вклад в их осуществление.- это формирование у школьников заботливого, бережного отношения к природе и всему живому на Земле, развитие понимания непреходящей ценности природы, готовности к рациональному природопользованию, к участию в сохранении природных богатств и жизни вообще. Основной целью экологического воспитания — формирование у человека сознательного восприятия окружающей природной среды, убежденности в необходимости бережного отношения к природе, разумного использования ее богатств, естественных ресурсов (3, с.95).

Экологическая культура — часть общечеловеческой культуры, система социальных отношений, общественных и индивидуальных морально-этических норм, взглядов, установок и ценностей, касающихся взаимоотношения человека и природы; гармоничность сосуществования человеческого общества и окружающей природной среды; целостный коадаптивный механизм человека и природы, реализующийся через отношение человеческого общества к окружающей природной среде и к экологическим проблемам в целом.

Экологическая культура - важнейшая часть общей культуры, проявляющаяся в духовной жизни и поступках, это особое качество личности осознавать непреходящую ценность жизни, природы и проявлять активность в их защите. В философском контексте экологическая культура выступает в качестве осознания культуры как идеала, к которому нужно стремиться, это новый тип культуры с переосмысленными ценностями, ориентированными на развитие гармонизации отношений личности, общества и природы ."Экологическое воспитание строится на новой системе экологических ценностей: изменение морально-этической оценки природы, отказ от антропоцентризма, формирование экологических знаний, умений, экологического мышления, осознание природы как непреходящей ценности, пересмотр собственных потребностей, духовное освоение сущностных свойств природы,

понимание человека как органической части природы. Мировая практика образования показывает, что воспитание тех или иных качеств личности достигается только постоянным вниманием к человеку, специальными усилиями учителя, ученика и общества в целом. По мнению авторов настоящей методики, развитие экологической культуры является одной из главных задач общего образования школьников. Экологический материал школьного предмета многоаспектен и входит во все учебные курсы биологии. Это помогает ученикам осознать гармоническую сущность природы, механизм ее функционирования и понять, как легко можно нарушить существующие естественные взаимосвязи. В этих целях особенно важно усвоение таких экологических понятий, как взаимозависимость организма и среды, смена природных сообществ, смена биогеоценозов, устойчивость экосистем, биосфера и особенно человек как экологический фактор. Однако, развивая понятие об антропогенном факторе, следует помнить, что воспитательное значение имеют не только примеры отрицательного действия человека в природе, что нередко наблюдается в массовой практике обучения и методических рекомендациях для учителя. Безусловно, обращая внимание учащихся лишь на неблаговидную роль человека в природе, можно достигнуть определенных целей экологического воспитания, но это может привести и к неправильным, односторонним выводам о практической деятельности человека в природе. Поэтому надо всесторонне рассматривать вопросы природопользования. Для осуществления экологического воспитания большое значение имеют материалы о сложности взаимодействий между популяциями, видами в больших и малых экосистемах, о продуктивности и устойчивости биосферы, об экологическом равновесии в биосистемах, о живом веществе, о биологическом разнообразии. Изучение этих вопросов развивает у школьников осознание ценности жизни, значения ее разнообразия для природы и человечества, позволяет раскрыть принципы рационального природопользования: поддержание определенной численности населения биогеоценозов, сохранение большого видового разнообразия в них, сохранение среды обитания и пр. Такие сведения помогают школьникам понять возможности экологически грамотного управления процессами, протекающими в живой природе (2, с.27).

Основные цели экологического воспитания и образования – это развитие и становление экологической культуры личости и общества,экологического сознания и мышления, духовного опыта взаимодействия человека к природе, обеспечивающего его выживание и развитие. Все это будет способствовать здоровому образу жизни людей, устойчивому социально-экономическому развитию, экологической безопасности страны и в конечном счете - выживанию всего. Экологическое воспитание – это процесс непрерывного, систематического и целенаправленного формирования эмоционально-нравственного, гуманного и бережного отношения человека к природе и морально-этических норм поведения в окружающей среде (6, с.35).

Основные принципы экологического воспитания:

- всеобщность и непрерывность;
- интеграция;
- гуманизаия, ориентация на развитие социально-активной личности, экологического сознания, мышления и культуры.

Структура системы всеобщего комплексного и непрерывного экологического воспитания и образования представлена следующими основными звеньями:

- дошкольное экологическое воспитание в семье и в специализированных воспитательных учреждениях;
- экологическое образование специалистов среднего звена;
- экологическое образование в высшей школе, а также экологическая подготовка педогогических и научных кадров;
- неформальное экологическое восптиание и образование, самообразование детей и взрослых.

Ключевую роль в достижении этой цели играет развитие экологического сознания личности.

Воспитанием людей в духе любви к природе заняты средства массовой информации, художественная литература, кино, театры, музеи, заповедники, зоопарки.

Человек практически на протяжении всей своей жизни оказывается включенным в процесс непрерывного воспитания и образования. Экологическая информация сопуствует ему на работе и дома, в часы занятий и досуга. Завершающим этапом экообразования является понимание того, что мы зависим от окружающего нас мира.

Каждый житель должен рассматриваться с двух сторон: как работник предприятия, создавшего антропогенный процесс для природной среды, и как человек, попадающий под этот процесс. Отсюда должны строиться взаимоотношения человека и природы (6, с.105).

В заключение необходимо отметить, что существует необходимость в дальнейшей более глубокой разработке проблемы экологического воспитания школьников, т.к. при проведении такой работы решаются следующие задачи:

- развитие экологической этики обучающихся, ответственности в их отношениях я природой;
- эстетическое, нравственное воспитание, воспитание любви к Родине;
- формирование чувства сопричастности к своему времени, личной ответственности за все происходящее вокруг.

Итак, экологическое воспитание школьников необходимо для гармоничного развития школьников и является необходимой формой работы.

**Литература**

1. Бабаев М.Ш., Мечидов М.М. Методика преподавания биологии. Баку, Чашыоглы, 2008
2. Верзилин Н.М., Корсунская В.М. Общая методика преподавания биологии. Москва, 2017
3. Артюхина А.И. Методика обучения биологии. Из-во ВолгГМУ, 2011
4. Демина Т.М. Современные методы преподавания биологии. Информационно-коммуникационные технологии. МПТУ, Москва, 2017
5. Акимов Т.А. Хаскин В.В. Экология. ЮНИТИ-ДАНА, 2001
6. Маринченко А.В. Приоритет экономическому образованию. М: Феникс, 2008

## BİOLOGİYANIN TƏDRİSİNDƏ EKOLOJİ TƏRBİYƏ

**T.H.Kərimova**

**XÜLASƏ**

Məgalədə biologiyanın tədrisində ekoloji tərbiyənin mühüm rolu, təbii ehtiyatların qorunması və onlardan səmərəli istifadənin vacibliyi öz əksini tapmışdır. Ekoloji təhsilin əsas prinsipləri aşağıdakılardır: universallıq, davamlılıq, inteqrasiya, humanistləşdirilmə, şəxsin sosial aktivliyi, ekoloji mədəniyyətin və tərbiyənin inkişaf etdirilməsi. Bu məqsədlərə nail olmaq üçün əsas vəzifə fərdi ekoloji şuurun inkişaf etdirilməsidir.

## ECOLOGICAL EDUCATION IN TEACHING BIOLOGY

**T.H.Karimova**

**SUMMARY**

The importance of ecological education in the process of teaching biology, protection of natural resources and rational use of them are stressed in this article. Basic principles of ecological education are: universality, sustainability, integration, humanization, social activity of the person, development of ecological culture and education. A key element in achieving these missions is to shape individual ecological consciousness.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# PEDAQOJİ PROSESİN MAHİYYƏTİ VƏ MÜƏLLİM NÜFUZU

**S.V.Vəliyeva**
Odlar Yurdu Universiteti
Bakı, Koroğlu Rəhimov küçəsi 13
e-mail: samira.valiyeva217@gmail.com

***Açar sözlər:*** pedaqoji proses, şəxsiyyət, tərbiyə
***Keywords:*** pedagogical process, personality, education
***Ключевые слова:*** педагогический процесс, личность, воспитание

Sosial pedaqoqun fəaliyyətinin səmərəsi sosial-pedaqoji prosesin düzgün təşkilindən asılıdır. Sosial-pedaqoji proses (latınca *processus* - irəliləmə) qarşıya qoyulan məqsədin (sosial idealın) yerinə yetirilməsinə yönəlir; sosial-pedaqoji fəaliyyət də bu məqsədlə şərtlənir.

«Pedaqoji proses» anlayışına mövcud ədəbiyyatda vahid baxış yoxdur: bəziləri onu tərbiyəçinin fəaliyyəti ilə bağlı xarici proses kimi, digərləri insanın özünüdəyişdirməsi ilə bağlı daxili proses kimi, üçüncülər isə daxili və xarici proseslərin vəhdəti kimi izah edirlər. Birinci halda insan sosial inkişafın passiv obyekti kimi, ikinci halda fəal subyekti kimi, üçüncü halda isə prosesin bərabərhüquqlu iştirakçısı kimi nəzərdən keçirilir. Sosial-pedaqoji prosesi insanın ancaq daxili inkişafı və ya ona edilən xarici (tərbiyəvi) təsir kimi qəbul etmək, yəni vahid prosesi bir-birindən ayırmaq düzgün deyil.

«Pedaqoji proses» anlayışını elmə daxil edən rus pedaqoqu P.F.Kapterev «Pedaqoji proses» əsərində (1904) pedaqoji prosesi «şəxsiyyətin özünüinkişafı və daxili qüvvələri əsasında sosial ideala uyğun hərtərəfli təkmilləşməsi» kimi səciyyələndirir, və bu zaman daxili və xarici pedaqoji prosesləri fərqləndirir. O, *daxili pedaqoji prosesi* orqanizmin və mühitin xüsusiyyətləri ilə müəyyən olunan insanın *özünüinkişafı prosesi kimi* qəbul edir və göstərirdi ki, bu proses orqanizmin daxili qanunlarına uyğun olaraq özünəxas yaradıcı xarakter daşıyır və kənardan göstərişlə yox, təbii ehtiyaca uyğun olaraq baş verir.

*Xarici pedaqoji prosesi* isə Kapterev «mədəniyyətin yaşlı nəsillərdən gənc nəslə ötürülməsi» prosesi kimi izah edir və onu insanın tərbiyəsi (yenidəntərbiyəsi, tərbiyədə korreksiya və düzəliş aparılması) kimi, tərbiyə prosesinin texnoloji mexanizmi kimi səciyyələndirir.

Bu mövqedən çıxış edən tədqiqatçılar sosial-pedaqoji prosesi daxili və xarici proseslərin vəhdəti kimi izah edirlər: *sosial-pedaqoji proses* müvafiq sosial-pedaqoji hadisənin (insanın sosiallaşması, şəxsiyyətin sosial keyfiyyətlərinin və s. ardıcıl, qanunauyğun inkişafı) *(daxili proses*) və onunla şərtlənən, müəyyən sosial-pedaqoji məqsədin təmin olunmasına yönəlmiş sosial məqsədyönlü ardıcıl fəaliyyəti, müştəri ilə qarşılıqlı təsirindən ibarətdir *(xarici proses*) (Mardaxayev L.V. "Sosial pedaqogika", M., 2005, s.32-33).

*Sosial-pedaqoji proses* şəxsiyyətin sosial tərbiyəsi və inkişafı ilə bağlı məqsədyönlü, planlı və mütəşəkkil prosesdir. O, *ümumi məqsədə - sosial ideala yönələn sosial pedaqoq və şəxsiyyətin (sosial qrupun) birgə qarşılıqlı fəaliyyəti prosesidir.* Bu proses psixologiyada *interiorizasiya hadisəsi* ilə bağlıdır. Psixoloqlar tərbiyə prosesində şəx-

siyyətin formalaşması mexanizmini aşağıdakı kimi izah edirlər: şəxsiyyət sosial-mədəni mühitdə — insanların davranış, ünsiyyət və münasibətlərində müşahidə etdiyi hadisə və prosesləri mənimsəyir və bu əsasda onda psixoloji planda yeni dəyişikliklər baş verir. Eyni zamandaəks proses - *eksteriorizasiya prosesi* baş verir: mənimsənilən biliklər, davranış normaları və dəyərlər xaricə - insanlarla münasibət,rəftar davranışa keçir. Bu prosesi sxematik olaraq aşağıdakı kimi göstərmək olar:

| | | |
|---|---|---|
| Xarici təsirlər | İnsanın daxili prosesləri | Xarici təzahürlər |

Beləliklə, ətraf mühit və tərbiyəvi təsirlərlə qarşılıqlı əlaqələr əsasında şəxsiyyətin mürəkkəb psixoloji strukturları - keyfiyyət və xüsusiyyətləri formalaşır (daxili proses) və sonradan onlar xarici fəaliyyətdə təzahür edir. Göründüyü kimi, pedaqoji prosesin daxili və xarici proseslər kimi ayrılıqda nəzərdən keçirilməsi şərtidir. Çünki real pedaqoji prosesdə onlar qarşılıqlı vəhdət təşkil edir: xarici pedaqoji proses daxili proseslərin - şəxsiyyətin sosial keyfiyyətlərinin formalaşmasına yönəlir və ona xidmət edir. Xarici təsirlər, özlüyündə şəxsiyyətin daxili proseslərinin inkişaf səviyyəsi ilə (insanın tələbatları, imkanları və dəyişən dinamikası ilə) sıx bağlı olub onunla şərtlənir, ona uyğun olaraq özü də dəyişərək daxili prosesin məqsədyönlü inkişafını təmin edir: daxili imkanlarını daha optimal və dolğun həyata keçirilməsinə şərait yaradır. Deməli, *pedaqoji proses daxili və xarici tərəfləri sıx bağlı olan, bir-birini şərtləndirən vahid proses kimi cərəyan edir.* Bununla yanaşı, pedaqoji proses özünün məqsədi, iştirakçıları (subyekt və obyektləri), onlar arasında qarşılıqlı münasibətləri ilə də xarakterizə olunur. Bu baxımdan sosial-pedaqoji prosesi belə səciyyələndirmək olar: *Sosial-pedaqoji proses* dedikdə, *ümumi məqsədə - sosial ideala, sosial norma və dəyərlərin mənimsənilməsinə yönəlmiş, xüsusi təşkil olunmuş, sosial pedaqoqun şəxsiyyətlə (sosial qrupla) qarşılıqlı təsirinə əsaslanan məqsədyönlü proses* başa düşülür.

*Pedaqoji prosesin* özünəməxsus səciyyəvi xüsusiyyətləri vardır:

a) *pedaqoji proses tam və bütöv bir sistemdir. O,* bir çox sistemlərdən (tərbiyə, təhsil, təlim, inkişaf və s.) ibarətdir. Bu sistemlər ayrılıqda yox, vəhdətdə həyata keçirilir; onlar eyni məqsədə xidmət edən vahid pedaqoji prosesin ayrılmaz tərkib hissələridir;

b) *pedaqoji prosesin obyekti və subyekti də vəhdət təşkil edir;* onların qarşılıqlı təsiri olmadan pedaqoji proses mümkün deyildir;

c) *pedaqoji proses çoxamilli və mürəkkəb prosesdir; bu prosesə müxtəlif amillər (müəllim və tərbiyəçilər, sosial pedaqoq və sosial işçilər, ictimai təşkilatlar, sosial mühit və s.) təsir edir; bu amilləri düzgün istiqamətləndirmək tələb olunur;*

d) *pedaqoji proses daim inkişaf edən dinamik prosesdir.* Burada həm pedaqoji prosesin obyekti (insan, sosial qruplar) dəyişir - yeni keyfiyyətlər qazanır, həm də prosesin özü qarşıya qoyulan tələblərə (vəzifələrə) uyğun şəkildə dəyişir, təkmilləşir;

f) *pedaqoji proses ümumi səciyyə daşıyır;* pedaqoji prosesin daxilində baş verən münasibətlər ona daxil olan çoxcəhətli proseslərdə də özünü göstərir.

Pedaqoji prosesin ümumiliyi, tamlığı və vahidliyi iki cəhətdə özünü göstərir:

- prosesin tərkib hissələri üçün ümumi məqsədin olması;
- pedaqoji prosesin ayrı-ayrı sahələri üçün ümumi cəhətlərin
- qanunauyğunluq və prinsiplərin, metod və formaların mövcudluğu.

*Pedaqoji prosesin ümumi qanunauyğunluqları* dedikdə, bu prosesə xas olan obyektiv, zəruri, sabit, təkrarlanan əlaqələr - səbəb-nəticə asılılıqları başa düşülür. Pedaqo-

ji ədəbiyyatda pedaqoji prosesin aşağıdakı ümumi qanunauyğunluqları qeyd edilir:

- pedaqoji prosesin inkişafının bu prosesdə baş verən*dəyişikliklərin kəmiyyətindən* asılılığı: əvvəlki uğurlar nə qədər çox olarsa, ümumi nəticə daha yüksək olar:
- pedaqoji prosesdə şəxsiyyətininkişafının ona təsir edən *amillərdən* (irsiyyət, mühit, tərbiyə, inkişaf və s.) asılılığı;
- pedaqoji prosesin səmərəsinin onun *idarə olunmasından* (əks əlaqədən, təsirin xarakteri və gücündən) asılılığı;
- pedaqoji prosesin nəticəsinin *stimullaşdırmadan* (xarici və daxili stimullardan) asılılığı;
- pedaqoji prosesin səmərəsinin *idrakprosesinin* (hissi, məntiqi idrak və praktikanın) vəhdətindən (keyfiyyətindən) asılılığı;
- pedaqojiprosesin cəmiyyətin və şəxsiyyətin *tələbat vəimkanlarından,* habelə yäradılan şəraitdən (mənəvi, psixoloji, estetik və s.) asılılığı.

**Sosial-pedaqoji prosesin quruluşu və mərhələləri.** Pedaqoji prosesin özünəməxsus quruluşu vardır. Onun quruluşu bir neçə komponentdən (ünsürdən) ibarətdir. Bu komponentlər arasında əlaqə və asılılıqlar mövcuddur: onlardan birinin dəyişməsi digərində də dəyişikliyə səbəb olur. Məsələn, məqsəddən asılı olaraq işin məzmunu dəyişir. Yaxud, şagirdin tərbiyə keyfiyyəti və sosial yetkinlik səviyyəsi tərbiyə metodlarında dəyişikliyə gətirib çıxarır. Pedaqoji prosesin komponentləri arasındakı əlaqə və asıldıqları sxem şəklində nəzərdən keçirək.

Pedaqoji prosesin əsas *komponentlərinə* onun məqsədi, məzmunu, vasitə və metodları, subyekt və obyektləri, onların qarşılıqlı təsir formaları, əldə olunmuş nəticələr daxil-




dir. *Pedaqoji prosesin quruluşu* - onu təşkil edən hissələrin məcmusudur. Onların hər biri pedaqoji sistemin müvafiq komponentlərinə uyğun gəlir. *Sosial-pedaqoji prosesin komponentlərinin* mahiyyətini qısaca nəzərdən keçirək.

- *Məqsəd komponenti* - sosial tərbiyənin məqsədini (son nəticəsini) müəyyənləşdirməklə bağlıdır (nəyə nail olmalı?).
- *Məzmun komponenti* - sosial tərbiyənin məzmununu (görüləcək işləri) müəyyənləşdirməklə bağlıdır (hansı bilik və keyfiyyətlər aşılanacaq?).
- *Fəaliyyət komponenti* — fəaliyyətin təşkilini, onun vasitə, metod və formalarını,

iştirakçıların qarşılıqlı əlaqə və əməkdaşlığını təşkil və idarə etməyi nəzərdə tutur. Bəzi mənbələrdə buna təşkilati-idarəetmə və ya əməliyyat-fəaliyyət komponenti də deyilir (işi necə, hansı vasitə, metod və formalarla yerinə yetirməli?).

- *Nəticə komponenti* - məqsədin əldə edilməsinin göstəricisidir (iş necə nəticə verdi, qarşıya qoyulan məqsəd əldə edildimi?).
- *Qiymətləndirmə komponenti* - nəticələrin yoxlanması, qiymətləndirilməsi və təhlilini, habelə prosesin səmərəsini müəyyənləşdirməyi nəzərdə tutur.

Pedaqoji prosesin komponentləri bir-birilə əlaqə və asılılıqda olur: hər sonrakı komponent özündən əvvəlki komponentə əsaslanır və onu özündə əks etdirir. Eləcə də hər əvvəlki komponent özündən sonrakıları müəyyənləşdirir: məqsəd və məzmun komponentləri dəyişdikdə digər komponentlər də müvafiq olaraq dəyişir.

Sosial-pedaqoji prosesin struktur ünsürləri onun mərhələlərinin də əsasını təşkil edir.

Pedaqoji nüfuz pedaqoji proseslə, onun nəticələri ilə sıx bağlı olan və böyük əhəmiyyət kəsb edən ən mühüm pedaqoji-etik kateqoriyadır. Məktəbdə müəllim və şagirdlər, habelə valideynlər arasında yüksək nüfuz qazanan müəllimin pedaqoji fəaliyyəti də səmərəli nəticə verir və əksinə, V.A.Suxomlinskinin sözləri ilə desək, tərbiyənin müdrikliyi ondadır ki, şagird, xüsusən yeniyetmə kimdənsə nümunə götürür, kiməsə inanır və onu özünə ideal seçir. Belə bir ideal isə müəllim olmalıdır; o, öz daxili zənginliyi ilə gənc ağlı özünə aludə etməyi və ruhlandırmağı bacarmalı, yüksək nüfuz qazanmalıdır. Müəllimin şagirdlər yanında hörmət və nüfuzu yoxdursa, uşaqlar ona inanmırlarsa, bu halda tərbiyə də yoxdur.

Pedaqoji-etik ədəbiyyatda pedaqoji nüfuzun mahiyyəti müəllimin kollektivdəki və uşaqlar yanındakı mənəvi statusu, hörməti kimi səciyyələndirilir. "Nüfuz" latın sözündən götürülmüş avtoriter (auctoritas) – hakimiyyət, təsir deməkdir. O şəxsiyyətin (kollektivin) hərəkət və fəaliyyətinin ictimaiyyət tərəfindən qəbul edilmiş təsir gücünü ifadə edir. Bəzi müəllim və tərbiyəçilər belə hesab edirlər ki, guya müəllimlik işi özlüyündə ona nüfuz gətirir. Bu fikir pedaqoji peşə nüfuzuna münasibətdə qəbul edilə bilər; lakin müəllimin fərdi nüfuzu isə peşə nüfuzundan daha çox onun şəxsi məziyyətləri ilə, mənəvi və iş keyfiyyətləri ilə bağlıdır.

Psixoloji baxımdan nüfuzun iki növü fərqləndirilir: həqiqi və saxta. Həqiqi nüfuz – insanın başqa adamlara təsir gücündə ifadə olunur; bu təsir məcburiyyətə, insanın sosial vəziyyətinə, habelə vəzifə və səlahiyyətlərinə deyil, onun xidmətinə, əxlaqi məziyyətlərinə və qazandığı hörmətə əsaslanır. Saxta nüfuz isə subyektiv mülahizə və münasibətlərə, habelə müxtəlif yollarla insanların ələ alınmasına əsaslanan süni, yalançı nüfuzdur. O, insanın özü haqqında yalan rəy yaratması və saxta hörmət qazanması niyyəti güdür. Riyakarlıqla, hiylə və yalanla, hay-küylə, özünü gözə saxlamaqla qazanılan saxta "nüfuz" uzun sürmür; çox keçmədən belələrinin əsl siması üzə çıxır və onlar "qazandıqları hörmət və nüfuzdan" məhrum olurlar.

Bəs həqiqi nüfuz necə əldə edilir? Onun hansı şərtləri vardır?

Nüfuz qazanmağın şərtləri çoxdur. Onun əsaslarını nəzərdən keçirək. Hər şeydən əvvəl qeyd etmək lazımdır ki, nüfuz hazır verilmir, onu qazanmaq lazımdır. Bu isə birdən-birə başa gəlmir; müəllim gündəlik, səbrlə öz zehni, mənəvi, peşə keyfiyyətlərinin formalaşması və inkişafı qeydinə qalmalıdır.

Pedaqoji nüfuzun başlıca şərti müəllimin şəxsiyyət kimi yüksək insani keyfiyyətlərə yiyələnməsi və şagird şəxsiyyətinə səmərəli təsir göstərməsidir. Uşaqların faydalı şəx-

siyyətlər kimi yetişməsi üçün onların ağıllı, bacarıqlı, müdrik tərbiyəçiyə – Şəxsiyyətə ehtiyacı vardır. V.A.Suxomlinski müəllimlik peşəsini "insanşünaslıq" adlandıraraq göstərirdi ki, müəllim müntəzəm olaraq şagirdlərin mürəkkəb daxili aləminə nüfuz etməli, onda nə isə yeni şey tapmalı və bundan qürur duymalıdır. O, insanı inkişafda görməli və onun mənəvi yüksəlişinə kömək göstərməlidir.

Pedaqoji nüfuzun digər vacib şərti öz yetirmələrinin zehni, mənəvi inkişafı və hər birinin taleyi üçün müəllimin böyük mənəvi məsuliyyət hissi ilə çalışmasıdır. Müəllim ən qiyməti kapital olan insanla işləyir. Bu işdə isə səhvə yol vermək olmaz. Böyük yunan filosofu Platon bu münasibətlə demişdir ki, başmaqçı zay başmaq tikərsə, bundan ancaq bir adam zərər çəkər, müəllim öz işinin öhdəsindən pis gələrsə, cəmiyyətdə cahil və yaramaz adamlardan ibarət bütöv bir nəsil yetişəcəkdir. Bu sözlərdə böyük həqiqət vardır. Müəllim daim məsuliyyət hissi ilə yaşamalı və öz işinə də böyük məsuliyyətlə yanaşmalıdır.

Müəllimlik işində insana sevgi fənnə və peşəyə sevgi ilə çulğalaşır. Müəllimin nüfuzu, ilk növbədə, onun biliyi, elmi hazırlığı və peşəkarlığı ilə şərtlənir. Müəllim təhsili, ağıllı məlumatlı, öyrənməyə və axtarışa can yandıra əsl ziyalı olmalıdır. Y.A.Komenski, haqlı olaraq, biliksiz müəllimi işıqsız lampaya, susuz bulağa bənzədirdi. Şagirdlər müəllimə qiymət verərkən onun elmi hazırlığını, fənnini nə dərəcədə bilməsi və sevməsi ön plana çəkirlər.

Yaxşı müəllim fənnini tədris proqramında olduğundan qat-qat çox bilir;tədris fənni onun üçün ancaq elmin əlifbasıdır. Əsli müəllim bununla kifayətlənmir; öz elmi hazırlığı üzərində müntəzəm çalışır, elmi yenilikləri izləyir və onları sinif otağına gətirir. Dərin bilik, geniş dünyagörüşü, elmi problemlərə canlı maraq sayəsində müəllim şagirdlər qarşısında biliklərin, fənnin, elmin cazibə qüvvəsini açır, onlarda fənnə və elmi biliklərə maraq oyadır. Müəllimin pedaqoji nüfuzunun əsas sirri bundadır. V.A.Suxomlinski müəllimin dərin biliyə, geniş elmi görüşə, erudisiyaya malik olmasını və daim mütaliə etməsini pedaqoji mədəniyyətin əsası adlandıraraq göstərirdi ki, kitabsız, mütaliəsiz müəllim yoxdur; mütaliə – pedaqoqun fikir və yaradıcılıq mənbəyidir, həyatın özüdür. Müəllim tək bircə gün öz intellektual inkişafından qalarsa, o yetirmələri üçün bilik məşəli olmaqdan məhrum olacaqdır.

Pedaqoji nüfuza təsir edən başlıca amillərdən biri də müəllim-şagird münasibətləridir. Bu münasibətlər qarşılıqlı inam, etimad və səmimiyyətə əsaslandıqda müəllimin uşaq yanında nüfuzu bir o qədər yüksək olur. İnsana etibar etmək və inanmaq tərbiyədə böyük təsir gücünə malikdir: bundan o, özündə mənəvi qüvvə tapır, çətinlikləri dəf edir. Yaxşı müəllim-tərbiyəçi şagirdə, onun mənəvi və fiziki imkanlarına, xeyirxah başlanğıcına inanmalı, onu öz şübhələri və inamsızlığı ilə təlim-tərbiyə işindən soyutmamalıdır. Müdrik pedaqoqlar uşağa inanmadan onu tərbiyə etməyin mümkün olmadığını qeyd etmişlər: belə inam və etibar olmadan bütün pedaqoji müdriklik, bütün metod və priyomlar kağız evcik kimi dağılıb məhv olacaqdır.

Müəllim-şagird münasibətlərində hörmət və tələbkarlığın vəhdəti mühüm əhəmiyyət kəsb edir. Şəxsiyyətə hörmət-özünəhörmətin ilkin şərtini təşkil edir. Özünə hörmət olmadan əxlaqi saflıq və şəxsiyyətin mənəvi zənginliyi də yoxdur. Pedaqoji prosesdə qarşılıqlı münasibətlər həm insanın özü üçün, həm də başqalarıüçün sevincyaratmaq arzusu və səyinin yaranmasına yönəlməli və bundan doğan şəxsi ləyaqət və iftixar hisslərinin formalaşmasına gətirib çıxarmalıdır. Humanizm, xeyirxahlıq, başqa adamlar və kollektiv üçün fədakarlıq mənəvi tələbata çevrildikdə şəxsiyyətin ən qiymətli

sərvəti olur, insana böyük hörmət və nüfuz gətirir.

Tələbkarlıq təkcə başqa adamlara (şagirdlərə) yox, həm də insanın özünə münasibətlə bağlı olmalıdır. Özünə tələbkarlıq məsuliyyət hissi ilə, daxili mütəşəkkillik və intizamla bağlıdır. Hər kəs əvvəlcə özündən tələb etməli, özündən başlamalıdır. Prof. Z.Göyüşovun yazdığı kimi, tələbkar adamın özü səmimi və mənəvi cəhətdən saf olmalıdır. Özü natəmiz, riyakar, xəbis, həyatda yüz dona girən adamın tələbkarlığı nəinki heç bir mənəvi təsir qüvvəsinə və nüfuza malik olmur, həm də insanda hiddət doğurur. Özünə tələbkar olmayıb başqalarına yüksək tələbkarlıq göstərənlərin tələbkarlığı lazımi nəticə verə bilməz. Sərtliklə, qışqırıq və hay-küylə, adamları qorxutmaq və hədələmək yolu ilə nüfuz qazanmaq olmaz.

Biz yuxarıda pedaqoji nüfuzun ən mühüm şərtlərini nəzərdən keçirdik. Onların hər hansı biri gözlənilmədikdə müəllimin (və ya məktəb rəhbərinin) nüfuzu zəifləyə və ya itə bilər. Buna görə də qazanılan nüfuzun möhkəmləndirilməsi vacibdir. Bunun üçün, ilk növbədə, nüfuzu xələl gətirən səbəbləri öyrənmək və onları aradanqaldırmaq lazımdır. Onlardan başlıcaları aşağıdakılardan ibarətdir.

– pedaqoji kollektivdə lazımi səviyyədə mənəvi-psixoloji iqlimin olmaması, ictimai rəyin və qınağın zəifliyi, habelə müəllimin nüfuzu haqqında kollektiv qayğının olmaması;

– bəzi məktəb rəhbərləri tərəfindən müəllimlərin fəaliyyətinin düzgün qiymətləndirilməməsi, müəllimlər arasında ayrıseçkilik qoyulması; müəllimlərə qarşı sərt tələbkarlığın göstərilməsi; onların hörmət və nüfuzunu aşağı olması

– bir qisim müəllim və tərbiyəçilərin mənəvi mədəniyyətinin aşağı səviyyədə olması onların mənəvi-etik və elmi-metodik hazırlığının zəifliyi;

– müəllimlərin müəyyən hissəsində əxlaqi borc, nüfuz və şəxsi ləyaqətə dair təsəvvürlərin məhdudluğu; pedaqoji fəaliyyətə və uşaqlara baxışlarda mühafizəkarlığın, təfəkkür stereotiplərinin mövcudluğu, yeni pedaqoji təfəkkürün formalaşmaması;

– bəzi müəllimlərin pedaqoji taktı pozmaları; uşaq şəxsiyyətinə hörmətlə yanaşmamaları, onlara qarşı kobud, təhqiredici münasibət göstərmələri; şagirdlərin maraq və ehtiyaclarına qayğısız münasibətləri; yeniyetmə və gənc qız oğlanların dostluğuna hörmətsizlik; uşaq kollektivinin rəyinə laqeydlik göstərmələri; qiymətləndirmədə obyektivliyin gözlənilməməsi; müəllimlərin öz səhvlərini etiraf etməmələri və s.

Müasir həyat müəllimə, onun şəxsiyyətinə mənəviyyatına və peşə keyfiyyətlərinə yüksək tələblər verir. Müəllim və tərbiyəçilər bu tələblərə cavab vermək üçün daim öz şəxsi və peşə keyfiyyətlərini inkişaf etdirməli, şagirdlərin görmək istədikləri ideal müəllim obrazına çatmağa çalışmalıdırlar.

Pedaqoji kollektivlər isə bütövlükdə kollektivin və ayrı-ayrı müəllimlərin nüfuzunu yüksəltmək istiqamətində mübarizə aparmalıdır. Bu mübarizə nə qədər prinsipial və kollektiv nə qədər sağlam olarsa, oradakı mənəvi-psixoloji mühit nə qədər əlverişli olarsa, hər bir müəllimin nüfuzu da bir o qədər yüksək olar. Unutmaq olmaz ki, nüfuzu qazanmaq çətin, onu itirmək isə asandır: yersiz bir hərəkət, ehtiyatsız bir söz, ədalətsiz münasibət müəllimi nüfuzdan sala bilər. Buna görə də hər bir müəllim sözlərinə və hərəkətlərinə diqqət və məsuliyyətlə yanaşmalı, öz nüfuzunun keşiyində durmalıdır.

## Ədəbiyyat

1. İsmixanov M.A., Vəliyeva S.V. Sosial pedaqogika. Bakı, 2013, 303 s.
2. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi. Bakı, Avropa, 2005, 288 s.

3. Ağayev Ə.Ə., Rzayev Y.T., Hüseynova T.M., Vahabova T.Ə. Sosial pedaqogika. Bakı, 2008, 177 s.

**THE ESSENCE OF PEDAGOGICAL PROCESS AND THE PRESTIGE OF A TEACHER**

**S.V.Veliyeva**

**SUMMARY**

This paper studies the essence of pedagogical process, its management mechanism and its structure. Quotes of prominent pedagogues on pedagogical process are included. The role of a teacher in this process is also discussed.

**СУТЬ ПЕДАГОГИЧЕСКОГО ПРОЦЕССА И АВТОРИТЕТ УЧИТЕЛЯ**

**С.В.Велиева**

**РЕЗЮМЕ**

В статье исследуется суть педагогического процесса, механизм управления им и его структура. Приведены высказывания известных педагогов о педагогическом процессе. Отдельно рассмотрен вопрос о роли учителя в ходе этого процесса.

# T A R İ X

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# H I S T O R Y

**ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ**
**THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY**

**2017 - № 47**

# XƏZƏR DƏNİZİNİN HÜQUQİ STATUSU MƏSƏLƏSİNDƏ RUSİYA FEDERASİYASININ MÖVQEYİ

**A.T.Hüseynov**
AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu
Bakı şəhəri, H.Cavid prospekti 115
e-mail: hato1976@mail.ru

***Açar sözlər:*** Xəzər dənizi, hüquqi status, neft yataqları
***Key words:*** Caspian Sea, legal status, oil fields
***Ключевые слова***: Каспийское море, правовой статус, нефтяные месторождения

1991-ci ildə SSRİ-nin süqutundan sonra yeni geosiyasi şəraitlə əlaqədar Xəzər dənizinin hüquqi statusu problemi meydana gəldi və Xəzərətrafı ölkələrin mövqelərinin müxtəlifliyindən bu problem öz həllini tapa bilmədi. 1991-ci ilə qədər yalnız İran və keçmiş SSRİ Xəzərin qonşuları sayılırdılar (1921-ci il fevralın 26-sı və 1940-cı il martın 25-i İran-SSRİ müqavilələrinə görə, Astara-Həsənqulu xətt bölgüsünə əsasən İrana 14%, SSRİ-yə 86% pay düşmüşdür. 1970-ci ildə SSRİ bu payı ittifaqa daxil olan sahilyanı ölkələr arasında milli sektorlara bölmüşdür). Ancaq Sovet İttifaqının dağılmasının ardınca Azərbaycan, Türkmənistan və Qazaxıstan Respublikaları da Xəzəryanı ölkələrin sırasına qoşuldular. Hal-hazırda Xəzər sahillərinin 14%-i İran, 16%-i Rusiya, 20%-i Türkmənistan, 21%-i Azərbaycan və 29%-i Qazaxıstan tərəfindədir. Tərəflər arasında qarşılıqlı müqavilələr imzalansa da problemin həllini ləngidən daha çox Türkmənistan və Rusiyadır.

Xəzər dənizinin statusu ilə bağlı Rusiya Federasiyasının 1992-ci ildən bəri nümayiş etdirdiyi mövqe 3 əsas mərhələyə bölünür. Birinci mərhələ 1992-1995-ci illəri əhatə edir və bu dövr ərzində Azərbaycanın Xəzərdəki fəaliyyəti ilə bağlı Rusiya Xarici işlər nazirliyinin BMT-yə nota göndərməsini, onu beynəlxaq hüquq normalarını pozmaqda günahlandırmasını, Xəzərdə həyata keçirilən layihələri tanımayacağı haqqında bəyanatlar səsləndirməsini və bu layihələrin heç bir beynəlxalq gücə malik olmadığını iddia etməsini, xarici tərəfdaşları Azərbaycanla birgə fəalaliyyətdən çəkindirmək məqsədi güddüyünü qeyd etmək olar. İkinci mərhələ 1995-1997-ci illəri əhatə edir və "praqmatik yanaşma" dövrü kimi xarakterizə edilir. Bu mərhələdə Rusiya Xəzərin statusu ilə bağlı diplomatik hücum və hərbi güc tətbiq etmə çağırışlarından imtina edir, siyasi və iqtisadi yollarla hadisələrin gedişinə təsir göstərməyə çalışır. Üçüncü mərhələ 1998-ci ildən başlanır və "konstruktiv yanaşma" dövrü kimi dəyərləndirilir. Bu dövrdə faktiki olaraq Rusiya Azərbaycanın Xəzərdə reallaşdırdığı bütün layihələri rəsmi şəkildə tanıyır və həmin layihələrdən özünə pay almaq üçün rəqabət şəraitində fəaliyyət göstərməyə cəhd göstərir (8).

Rusiyanın 90-cı illərin ortalarındakı mövqeyi 10-12 millik sahil xəttindən kənardakı su kütləsindən və dənizin dibindən birgə istifadə edilməsi şəklində olmuşdur. Rusiya Xəzərin "açıq dəniz" statusuna tabe olmasına qarşıdır və bu çərçivədə "ərazi suları" və "xüsusi iqtisadi zona" kimi sahələrin müəyyənləşdirilməsinə də qarşı olmuşdur. Rusiya 1982-ci il tarixli BMDHK-nın (BMT-nin Dəniz Hüququ Haqqında Konvensiyasının) Xəzərin statusu ilə bağlı tətbiqinə qarşıdır. Bunu daxilindəki iki kanalın beynəlxalq hüququn

subyekti olması (adı çəkilən konvensiyaya görə Don-Volqa və Volqa-Baltik kanallarında beynəlxalq su yolu rejimi tətbiq olunmalı və Azərbaycan, Qazaxıstan və Türkmənistana bu kanallardan istifadə hüququ tanınmalıdır) və Xəzərin beynəlxalq müdaxiləyə açıq olması baxımından öz maraqlarına zidd hesab edir. Rusiya bu mövqeyinə əsas kimi 1921, 1935, 1940-cı ildə SSRİ ilə İran arasında imzalanan müqavilələri göstərir. Sahilyanı ölkələrin Xarici İşlər Nazirlərinin 1996-cı ildəki görüşündə “45 mil” təklifini irəli sürən Rusiya 1997-ci ildə əvvəlcə 12 mil (ərazi suları) + 20 mil (xüsusi iqtisadi zona) təklifi ilə çıxış etmiş, daha sonra 1997-ci ilin dekabrında Azərbaycanın nümunəsinə uyğun olaraq, Xəzərin ona məxsus milli sektorundakı neft-qaz yataqlarının öyrənilməsi və birgə işlənməsi haqqında beynəlxalq tender elan etmişdir (10).

Onu da qeyd etmək lazımdır ki Rusiya statusla bağlı məsələni ilk dəfə (1992-ci il Tehran konfransı istisna olmaqla) 1993-cü ilin oktyabr ayında gündəmə gətirmişdir. (Xəzərin kanallarla dünya okeanı ilə əlaqəsini əsas gətirərək onu göl olmasını qəbul etmir) Rusiyanın bu mərhələdəki mövqeyi ondan ibarət idi ki, Xəzərin bir daxili dənizdir və sərhədyanı dövlətlər tərəfindən bölünə bilməz. Rusiya Xəzərin digər dənizlərlə birbaşa əlaqəsi olmadığı üçün Beynəlxalq Dəniz Hüququ Konvensiyasının Xəzərə tətbiq edilməsinin mümkün olmadığını və Xəzərin hüquqi rejimini müəyyənləşdirən 1921 və 1940-cı il müqavilələrinin qüvvədə olduğunu bildirirdi. Rusiyanın mövqeyi əsas etibarilə aşağıdakı kimi səciyələnirdi; “Xəzərin ehtiyatları ilə bağlı təktərəfli hərəkətlər beynəlxalq hüquqa ziddir və bu su hövzəsinin ekoloji vəziyyətinə zərər verməsi təhlükəsini yaradır. Xəzər dənizi və onun ehtiyatları bütün sərhədyanı dövlətlərin ümumi istifadəsində olmalıdır” (1, s.155). Rusiyanın Xəzərin sektoral bölünməsini əngəlləmək üçün irəli sürdüyü digər rəsmi fikir isə tam bir bölünmənin ətraf mühitə zərər verə biləcəyindən ibarətdir. Dünyanın ümumi kürü ehtiyatının 90%-ni özündə cəmləşdirən Xəzər Rusiya üçün çox əhəmiyyətlidir. Bu səbəbdən, bioloji ehtiyatlardan səmərəli istifadə edilməsi Rusiya üçün bir narahatlıq səbəbidirsə, ikincisi Xəzərin ekologiyasıdır. Rusiya bildirir ki, hüquqi status məsələsində razılığa gəlinməyə bilər, lakin bioloji resurslar və ətraf mühit məsələsində ortaq müqavilələrin imzalanması vacibdir. Rusiyanın Xəzərin hüquqi statusu məsələsində nümayiş etdirdiyi ətraf mühitin qorunmasını dəstəkləyən bu mövqeyi real deyil, daha çox ironik görünür. Çünki, Sovet hakimiyyəti dövründə də Xəzər dənizi ətraf mühit baxımından dünyanın ən təhlükəli bölgələrindən olmuşdur (2, s.19). Bu da Rusiyanın müxtəlif bəhanələrlə milli sektorlara bölünmənin həyata keçirilməsinə mane olmağa çalışmağının bariz nümunəsidir. Ümumiyyətlə, Xəzər dənizindən sərhədyanı dövlətlərlə ortaq şəkildə istifadə etmək (*median line*) istəyən Rusiyanın yanaşmasında əvvəllər siyasi qayğılar ön plana çıxırdı. Regionu hələ də öz ərazisi kimi görmək istəyən Rusiyanın digər qayğısı isə zəngin neft yataqlarına malik olan Azərbaycanın Qərblə yaxınlaşmasının getdikcə güclənməsi idi. Bu səbəbdən də Rusiya Federasiyasının status müzakirələrinin mərkəzində daha çox Azərbaycan dayanırdı Azərbaycan isə 1991-ci ildən bəri davam edən neft razılaşması ilə bağlı danışıqları 20 sentyabr 1994-cü il tarixli müqavilə ilə nəticələndirmişdi. Bu müqavilənin imzalanmasından sonra Qərbin böyük neft şirkətləri Xəzər dənizinin Azərbaycan sektoruna böyük həcmdə investisiya qoymağa başladılar. Başlanğıcda Rusiya hökuməti və onun “Lukoil” neft şirkəti Azərbaycanın Qərb şirkətləri ilə apardığı neft danışıqlarından xaric edilmişdisə də, bu şirkətə sonradan 10%-lik pay verildi. Lakin bu pay Rusiyanı heç cür razı salmırdı. Bu müqavilə ilə yaradılmış beynəlxalq konsorsiuma qarşı ilk reaksiya da məhz Rusiya tərəfindən müşahidə edildi. Rusiya Federasiyası 5 oktyabr 1994-cü ildə BMT-yə müraciət edərək bu məsələnin Baş Assamb-

leyanın qış sessiyasına çıxarılmağını istəmişdi. Rusiya Xarici İşlər Nazirliyi 1921 və 1940-cı il Rusiya-İran müqavilələrini əsas gətirərək Xəzər məsələsi ilə bağlı hər hansı bir dövlətin (Azərbaycan nəzərdə tutulur) təktərəfli hərəkətinin qəbuledilməz olduğunu bildirirdi. Energetika Nazirliyi isə bu mövqenin əksinə Rusiya hökumətinin Azərbaycanın Xəzər dənizindəki neft yataqlarının istifadəsi ilə bağlı bütün hüquqlarını tanıdığını bildirirdi. Belə ki, Rusiyanın Xarici İşlər Nazirliyinin tanımadığı bu nəhəng layihədə 10 faizlik payla daxil olmasında rus xarici siyasətində enerji lobbisinin artan təsiri əhəmiyyətli rol oynamışdır (1, s.155-156). Rusiya Federasiyası əvvəllər Xəzərin "kondominium" prinsipi ilə 12-24 millik bir sahil zolağının sərhədyanı ölkələrə verilməsi ilə qalan hissənin ortaq istifadə edilməsinin tərəfdarı idi. Rusiyanın öz mövqeyindən çəkilərək Xəzərin dibinin sektorlara bölünməsini dəstəkləməyə başlamasının səbəbi isə bu ölkənin milli sektorunda çox zəngin neft yataqlarının (Xvalinskaya yatağı) aşkarlanması oldu .

Qeyd etdiyimiz kimi Rusiyanın ilk vaxtlar Xəzər məsələsindəki mövqeyi olduqca sərt idi. Lakin zamanla baş verən dəyişikliklər Rusiya tərəfində yeni fikirlərin meydana gəlməsinə səbəb oldu. Belə ki, Qazaxıstan və Azərbaycan öz sektorlarını müəyyənləşdirərək dünyanın böyük neft şirkətlərini bura investisiya qoymağa cəlb etdiyini və Qərbin dəstəyinə nail olduğunu görən Rusiya yeni bir strategiya müəyyənləşdirərək bu "de fakto" quruluşdan kənarda qalmamaq üçün fəaliyyət göstərməyə başladı. Su səthinin ortaq istifadəsi məsələsində güzəştə gedərək 1998-ci ilin iyulun 6-da Qazaxıstanla Xəzərin şimal hissəsi ilə bağlı dəniz yatağı üçün orta xətt prinsipini, su səthi üçün ortaq istifadəni nəzərdə tutan razılaşma imzaladı (9). Sazişə görə tərəflər Xəzərin dibini bölməyə, üst qatdakı bioloji resurslardan isə ümümi istifadəyə razılaşdılar. Daha sonra isə milli sektorlara əsasən bölünmə və bölgü modifikasiya edilmiş orta xətt üzrə aparılmalı və yalnız dənizin dibi üçün nəzərdə tutulmalıdır.Modifikasiya edilmiş orta xətt razılaşdırılmış bazis xətlərindən bərabər məsafədə hesablanır.Bu bazis xətlərinə ondan bərabər məsafədə olmayan sahələr də daxil edilir.Həmçinin adalar geoloji strukturlar çəkilən geoloji xərclər və bir sıra başqa amillər də bazis xətlərinin müəyyənləşdirilməsində nəzərə alınmalıdır (6, s.671). İlk baxışda Rusiyanın regionda sabitsizlik siyasəti yürütdüyü və buna istiqamətlənmiş maraqlardan çıxış etdiyi düşünülsə də əslində Rusiyanın (gözlənilmədiyi halda) Qazaxıstan və Azərbaycan ilə razılaşmaların-da problemin tezliklə həll edilməsinə tərəfdar olduğu görünür. Xüsusilə, Rusiyada 2000-ci ildə V.Putinin hakimiyyətə gəlməsindən sonra Rusiya Xəzərin hüquqi statusu probleminin həlli istiqamətində daha konstruktiv mövqe nümayiş etdirməyə başladı.

1997-ci ildə istifadəyə verilən "Şimal marşrutu" olan "Bakı-Novorossiysk" neft kəmərinin təhlükəsiz və sərfəli olduğunun artıq inandırıcı olmadığını BTC layihəsinin reallaşdığını görən Rusiya mövqeyini yumşaltmağa məcbur oldu. 2001-ci il yanvarın 8-də Rusiya ilə Azərbaycan Respublikası arasında " Dostluq ,əməkdaşlıq və qarşılıqlı təhlükəsizlik haqqında" 3 iyul 1997-ci il tarixli müqavilənin prinsiplərini rəhbər tutaraq "Xəzər dənizi dibinin sektorlara - zonalara bölünməsi "haqqında razılığa gəldilər (3, s.54-69). Rusiya Federasiyasının Azərbaycan Respublikası ilə də munasibətləri qoruyub saxlamağa və inkişaf etdirməyə calışmasını bir necə faktorla gostərmək olar: 1) Azərbay-can Respublikasının regionda ən böyük güc olması və onun iştirakı olmadan hec bir iri həcmli layihənin həyata kecirilməməsi; 2) Azərbaycan Respublikasının enerji ehtiyatları, xüsusən də, təbii qaz ilə zəngin olması və Avropa dövlətlərinə qaz ixracında dominionluğu bir strateji silah kimi əlində saxlamağa calışan Rusiya Federasiyasının Azərbaycan qazına

olan tələbatı; 3) Azərbaycanın əlverişli geosiyasi və coğrafi mövqeyi, İran ilə Rusiyanı birləşdirən quru yolunun Azərbaycanın ərazisindən keçməsi (4, s.271). Onu da qeyd edək ki, Azərbaycan və Türkmənistanda çıxarılan neft və qazın maya dəyəri Rusiyanın şimalında çıxarılan neft və qazın maya dəyərinə nisbətdə xeyli aşağıdır və onlar dünya neft bazarına daha yaxında yerləşir. Bu ölkələr yaxın vaxtlarda dünya neft və qaz bazarında Rusiyanın başlıca rəqibi ola bilərlər. Rusiya bunu anladığı üçün vəziyyətdən çıxış yolu axtarır. Belə vəziyyətdə, Rusiyanın şimalındakı çətin keçilən ərazilərdə yerləşən yataqlara investisiya yönəltməkdənsə, Azərbaycan, Qazaxıstan və Türkmənistan neft-qaz sənayesinə Rusiya investisiyası ən ağıllı və sərfəli ola bilərdi (5, s.33).

2002-ci ildə Xəzər hövzəsində sahilyanı ölkələrin çoxtərəfli münasibətlərində yeni mərhələ başladı.Bu mərhələ regiona münasibətdə Rusiyanın siyasətinin dəyişməsi ilə bağlı idi. Xəzərin beynəlxalq hüquqi statusuna dair Rusiyanın yeni konsepsiyasının əsas və prinsipcə yeni müddəaları aşağıdakılardan ibarətdir: 1) Rusiya Xəzər problemlərinin mərhələ həlli yolunu təklif edir. 2) Sahilyanı dövlətlərin diqqəti mübahisəli neft yataqları üzərində cəmləşdirməsi zəruridir. Belə yatqların işlənməsi zamanı 50/50 prinsipindən istifadə etmək təklif olunur. 3) Xəzərin dibi milli sektorlara bölünür,suyun səthi isə ümumi istifadədə qalır. 4) Xəzərin gələcək beynəlxalq hüquqi statusu məsələlərinə dair MDB-nin sahilyanı ölkələrinin hansısa vahid platformasının yaradılması. 5) Əgər hansısa dövlət Xəzərin statusuna dair danışıqlara mane olursa,yəni məhz onun ucbatından problemin həlli uzanırsa,bu halda qalan ölkələr özləri razılığa gəlməlidir. 6) Mənzil-qərargahı Bakıda olmaqla Xəzər problemlərinə dair strateji mərkəzin təsis edilməsi (7, s.136-137).

Çoxtərəfli əməkdaşlıq bir sıra çətinliklərə baxmayaraq müəyyən irəliləyişə səbəb oldu. 2003-cü il mayın 15-də Rusiya,Azərbaycan və Qazaxıstan arasında Xəzər dənizi sərhədlərinin orta xətinin müəyyənləşdirilməsi ilə bağlı saziş imzalandı. Həmin il noyabrın 21-22-də Moskvada Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya hazırlanması üzrə Xüsusi İşçi Qrupunun 34-cü iclasında müəyyən razılıqlar əldə olunsa da problemin həlli sahəsində yenə də yekun bir qərara gəlinməmişdir. 2014-cü il sentyabrın 29-da Xəzər dənizinin hüquqi statusu, təhlükəsizlik, bioloji resurslar və ətraf mühit kimi məsələləri müzakirə etmək məqsədilə Xəzəryanı dövlətlərin başçıları Həştərxanda 4-cü Xəzər Zirvə toplantısı keçirildi. Xəzərin hüquqi statusu ilə bağlı 18 illik mübahisələrin həlli baxımından mühüm irəliləyiş hesab olunan bu zirvə toplantısında yekun bəyannamə qəbul olundu. Bunun ardınca Xəzər dənizinin hüquqi statusunun müəyyən edilməsinə dair Konvensiyanın hazırlanması üçün Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin müavinləri səviyyəsində Xüsusi İşçi Qrupu fəaliyyətini bir qədər də intensivləşdirildi. 2014-cü il oktyabırın 10-da 5 Xəzəryanı olkə Moskvada müqavilə imzaladı. Müqavilədə qeyd edilirdiki 15 millik dəniz zonası və daha 10 mil iqtisadi zona sayılsın. Qalan 25 millik zona bütün sahilyanı dövlətlər üçün ümumi istifadə sahəsi hesab edilsin. 2015-ci ilin sentyabrın 29-da Həştərxanda görüşən 5 sahil ölkəsinin prezidenti Xəzərlə bağlı yekun razılaşmanın yenə də bir sonrakı dəfəyə qaldığını elan etdilər.

## Ədəbiyyat

1. Oğan S. Hazarda tehlikeli oyunlar: Statü sorunu, paylaşılamayan kaynaklar ve silahlanma yarışı. Avrasya Dosyası, Türkmenistan Özel, Yaz 2001, Cilt: 7, Sayı: 2

2. Avcı E. Hazar'ın statü sorunu ve sahildar devletlerin konuya yaklaşımları. Uluslararası Stratejik Bakış Enstitüsü, Nisan 2014

3. Həsənov Ə.M. "Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın geoiqtisadiyyatı: Azərbaycanın enerji siyasəti". Bakı, "Zərdabi LTD" MMC, 2016, 296 s.
4. Abbasbəyli A.N. "Dünya siyasəti" (XX-ci əsrin ikinci yarısı-XXI-ci əsrin əvvəlləri). Bakı, 2011
5. Süleymanov Ə.M., Məmmədov K.C. Xəzər regionunda təhlükəsizlik probleminə müxtəlif yanaşmalar. Bakı Universitetinin xəbərləri, 2010, Sosial-siyasi elmlər seriyası, №2
6. Həsənov Ə.M. "Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti." Bakı, 2015, 692 səh.
7. Adıgözəlov K.Ə. "Azərbaycanın neft strategiyası beynəlxalq siyasətin aparıcı istiqamətlərindən biri kimi." Əsrin müqaviləsi - 10 il. Azərbaycan böyük inkişaf yollarında. Bakı, 2004
8. Həsənov Ə.M. "Xəzərin hüquqi statusu məsələsi və Azərbaycanın geoiqtisadi maraqları." "525-ci qəzet", 14 noyabr 2010
9. Темирбулатов А.М. Правовой статус Каспийского моря: позиции прикаспийских государств [Электронный ресурс]. Режим доступа: http://ekollog.ru
10. http://www.kas.de/wf/doc/kas_39805-1522-1-30.pdf?141202142145

## THE POSITION OF THE RUSSIAN FEDERATION ON THE LEGAL STATUS OF THE CASPIAN SEA

**A.T.Huseynov**

### SUMMARY

After the collapse of the former Soviet Union in 1991, the problem of the legal status of the Caspian Sea appeared. The Caspian Sea coasts are shared by 5 countries. The Russian Federation possesses 16 percent of the Caspian Sea. Russia used to hold more conservative position in 1990s, but during 1998-2001 it changed its manner and signed bilateral agreements with Kazakhstan and Azerbaijan based on the middle line principle. However, despite the discussions held between 2013-2015, the problem still remains unsolved.

## ПОЗИЦИЯ РОССИЙСКОЙ ФЕДЕРАЦИИ В ОТНОШЕНИИ ПРАВОВОГО СТАТУСА КАСПИЙСКОГО МОРЯ

**А.Т.Гусейнов**

### РЕЗЮМЕ

После распада Советского Союза в 1991 году появилась проблема правового статуса Каспийского моря. Каспийское море охватывает берега 5-и стран. Российская Федерация владеет 16% Каспийского моря. Занимая упрямую позицию по статус-кво Каспия в 1990-е годы, в 1998-2001 годах Россия изменила свою позицию и подписала двухсторонние соглашения с Республиками Азербайджан и Казахстан о принципе средней линии. Но, несмотря на переговоры в 2013-2015 годах, проблема статуса до сих пор не решена.

2017 - № 47

# ŞİRVANŞAHLAR DÖVLƏTİNİN DEROVDA SİKKƏ ZƏRBİ

**M.S.Şabanov**
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi
Bakı AZ1009, Ş.Qurbanov küçəsi 50
e-mail: mustafa.shabanov@gmail.com

***Açar sözlər:*** Şirvanşahlar, Derov, I Təhmasib, Bürhanəli, sikkələr
***Keywords:*** Shirvanshahs, Derow, Tahmasp I, Burhan Ali, coins
***Ключевые слова:*** Ширваншахи, Деров, Тахмасип I, Бурханали, монеты

Sikkələr ölkənin idarə edilməsi və tarixi haqqında kifayət qədər məlumat verən güclü mənbə hesab oluna bilər. Belə ki, tarixi mənbələrdə və numizmatik ədəbiyyatlarda son Şirvanşah hökmdarlarının Şamaxı xaricində digər şəhərlərdə sikkə zərb etdirmələrindən bəhs olunmur. 2017-ci ildə sonuncu Şirvanşah hökmdarlarından Bürhanəli tərəfindən Bakıda sikkə zərb etdirilməsi faktı ortaya çıxdığı ərəfədə məlum oldu ki, Bürhanəli heç də az müddət hakimiyyətdə olmayıb, və tarixin yenidən araşdırılmasına ehtiyac yarandı. Şəxsi araşdırmamız nəticəsində ilk dəfə Şirvanşahların bilinməyən *Derov* adlı zərbxanasını aşkara çıxardıq ki, bu da fikrimizcə elm aləmi üçün böyük yenilikdir. Belə ki, daha öncə Derovda zərb olunmuş heç bir Şirvanşah hökmdarının sikkəsi qeydə alınmamışdır **[7]**. Müraciət etdiyimiz Şirvanşah sikkələrinə həsr olunmuş kitablarda Bürhanəlidən səthi bəhs edilmiş və müəlliflər onun sadəcə bir sikkə nümunəsini işıqlandırmaqla kifayətlənmişlər **[17/73-74 və 20/353-354]**.

*Derov* درو zərbxanası ilə bağlı bizim əsas qənaətimiz ondan ibarətdir ki, bu zərbxana permanent xarakter daşımamış və Səfəvi hakimiyyətinə qarşı çıxan Şirvan əyanlarından ibarət "üsyançıların" sığındığı eyniadlı məkanda müvəqqəti olaraq fəaliyyət göstərmişdir. Zərbxananın adını tarixi ədəbiyyatlarda eyniadlı ada və ya fərqli adda olan ada üzərində Derov adlı kənddən aldığına dair məlumatlar vardır **[2/344]**. Hətta adanın mənbələrdə Derov və ya Derav şəklində adlandırıldığı da göstərilməkdədir **[9/85]**. Həsən bəy Rumlu tərəfindən qələmə alınan "Əhsənüt-təvarix" əsərinin Tehrandakı İslami Şura Məclisi Kitabxanasında saxlanılan nüsxəsi ilə bağlı qeydində tədqiqatçılar – Oqtay Əfəndiyev və Namiq Musalı bəhs edilən yerin *Derov* deyil, *Vird* şəklində yazıldığını göstərir **[11/548]**. Diqqət yetirdikdə, fars dilində Vird sözünün Derov sözündəki samit səslərdən düzəldiyini və bu hərflərin tərs şəkildə yazılması ilə yarandığını görmək olar. Bu, ehtimal ki, əsərin üzü köçürülərkən yaranmış səhvdən qaynaqlanmışdır. İstər Vird, istərsə də Derov sözü üç hərfdən ibarət olduğuna görə, bəhs edilən sikkələr üzərində verilmiş üç hərflə tam üst-üstə düşür. Bu isə sikkələr üzərindəki Derov sözünü Şirvanşah sikkələrində qarşımıza çıxan və kifayət qədər məlum olan Dərbənddən fərqləndirir.[1]

Aydındır ki, ada Xəzər dənizində yerləşmişdir. Derovla bağlı tədqiqatçıların qeydlərinə əsasən, Xəzər adaları içərisində *Pirallahı, Çilov* və *Zirə* adaları zərbxananın yerləşdiyi mümkün yerlər ola bilərdi. Beləliklə, mümkün ehtimalların hər birini nəzərdən keçirək. Sara Aşurbəyli Zeynaloğluna istinadən, Derovun Zirə (Böyük Zirə, Kiçik Zirə və

[1] Tədqiqatımız zamanı bəzi şəxslər öz kolleksiyasındakı bu tip sikkələri Dərbənd zərbi hesab edirdilər.

Qum Zirə) adalarından biri olması ehtimalını qeyd edir **[2/324]**. Eyni zamanda, Oqtay Əfəndiyev Əli Zeynalabidinə istinadən bildirir ki, ada Xəzər sahillərinə yaxın yerdə olub. “Kür çayı onun hər iki tərəfindən dənizə tökülür”, yəni ada Kürün dənizə töküldüyü ərazidə yerləşirdi **[9/85 və 13/73]**. Kürün Xəzər Dənizinə töküldüyü yer, ümumiyyətlə, Şirvan torpaqları hesab olunurdu. I Təhmasibin Qazi xan Təkəliyə tiyul kimi bağışladığı *Salyan* və *Mahmudabad* da məhz bu coğrafiyadadır. Beləliklə, hicri 947-ci (1540/1-ci) ildə Qazi xan Təkəlinin ona bağışlanmış torpaqlara sahib çıxması ilə həm Bakıda, həm də Derovda sikkə zərbinə son qoyulması məntiqi cəhətdən də uyğun gəlir. İstər Bakı ətrafında, istərsə də Kürün dənizə tökülən yerində olsun, bu torpaqlarda bir daha nə Şirvanşahlar, nə də Səfəvilər tərəfindən sikkə zərb olunmamışdır. Digər tərəfdən, Derov və Çilov sözlərində müəyyən uyğunluq olduğundan, üsyançıların sığındığı yerin elə indiki Çilov adası olması da ehtimal olaraq düşünülə bilər. Həmçinin tarixçi alim Süleyman Əliyarlı qeyd edir ki, Bakı yaxınlığındakı adalar içərisində içməli suyu olan və insan yaşayan yalnız bir ada olmuşdur ki, o da Pirallahıdır. O, Pirallahı adasının adının min il (!) ərzində dəyişmədiyini qeyd edir.[2] Adada yaşayışın olmasını Əbd Ər-Rəşid ibn Saleh ibn Nuri əl-Bakuvi (XIV-XV əsrlər) də təsdiq etmişdir **[10/164-166]**. Həqiqətən də, içməli su olmayan bir adada hansısa kəndin [3] mövcud olması real görünmür. Hətta ada üzərində kənd olmasaydı belə, üsyançılar ən azından iki il (hicri 946-947-ci illər) orada susuz yaşaya bilməzdilər. Bu baxımdan, bizim qənaətimizcə, Derov zərbxanasının olduğu yerdə içməli su da olmalı idi.

Tədqiqatlarımız nəticəsində məlum olmuşdur ki, hazırda Derov və ya Derav adlı heç bir yaşayış yeri qeydiyyatda deyildir.[4] Deməli, sözügedən adanın və ya kəndin adı əsrlər keçdikcə dəyişdirilmiş və bu səbəbdən də, izlər itmişdir. Derovla bağlı Sara Aşurbəyli qeyd edir ki, Bürhanəlidən sonra Şirvan üsyanına rəhbərlik edənlərdən Mehrabın qohumu Qurbanəlinin başçılığı ilə Şirvan zadəganları Xəzər adalarının birindəki Derov kəndinə qaçmışlar. Lakin Şirvan bəylərbəyi Abdulla xan Ustaclı onları təqib etmiş və üsyançıları məhv edərək Şamaxıya qayıtmışdır **[2/344 və 1/190-191]**. Bu fakt bir daha göstərir ki, üsyançıların qaçdığı məkan onlara daha öncədən yad olmayan bir yer olmuşdur. Bürhanəli tərəfindən bu adada zərb olunan sikkələrlə Azərbaycanın numizmatika tarixində yeni bir səhifə açılmışdır. Fikrimizcə, sözügedən adanın yeri ilə bağlı əsaslandırmalarımız nəzərə alınarsa, buraya arxeoloji ekspedisiyaların cəlb edilməsi ilə Şirvanşahların son dövrlərinə dair yeni tarixi məlumatlar əldə edilə bilər. Ümid edirik, tarixçilər bu istiqamətdə zəruri addımları atacaqlar.

*Derov* və ya *Derav* sözünü leksik-semantik və etimoloji cəhətdən təhlil edərək sözügedən toponimin yerləşdiyi məkanla bağlı bəzi nəticələr əldə etmək mümkündür. Fikrimizcə, Derov və ya Derav sözü İran dillərinin əsasında formalaşmışdır. Sözün birinci hissəsi “der” tat dilində “qapı” mənasını ifadə edən “dər” sözünün fonetik dəyişimi ilə ortaya çıxmışdır **[12/128]**. *Dərbənd* və *Dəryal* kimi bənzər toponimlər də mövcuddur. Rast gəldiyimiz toponimlərdə “dər” sözün əvvəlində işlənməkdədir. Sözün ikinci hissəsi *“ov”*

[2] Tədqiqatçı Aydın Məmmədov Pirallahı adasının ilk adının “Allahu Əkbər” olduğunu və XIV əsrdən sonra “Pirallahı” adlandırıldığını qeyd edir. Adada qədim atəşpərəstlərin məbədinin və adanın vaxtilə sahilə bitişik hissəsində ən az iki min il yaşı olan qədim məzarlığın olması da vurğulanır. Həmçinin bəzi tədqiqatçılar tərəfindən *Pomponi Mela*nın (I əsr Roma) göstərdiyi *Talke* adası ilə eyniləşdirildiyi barədə də məlumat verir. Romalı müəllifin yazdığına görə, bu adada hələ o vaxt müqəddəs məbəd mövcud olmuşdur **[15/167-168]**.

[3] S.Aşurbəyli Derovun ada adı deyil, üzərində yerləşən kəndin adı olduğunu qeyd edirdi.

[4] Eyni olmasa da, bənzər yer adı mövcuddur və bu haqda irəlidə geniş bəhs olunacaqdır.

və ya *"av"* isə tat dilində "su" mənasını verməkdədir. Fars dilindəki "ab" (su) sözü də "ov" sözünün fonetik dəyişimidir **[12/26]**. "Ov" hissəciyi ilə bitən toponimlərin yerləşdiyi coğrafiyaya nəzər salsaq, Abşeron yarımadasında bu tipli toponimlərin nisbətən azlıq təşkil etdiyini görə bilərik. Əsasən, Azərbaycan Respublikasının cənub şərq bölgəsini əhatə edən Lənkəran regionu üçün xarakterik olan toponim və hidronimlərdə isə "ov" hissəciyinə çox sayda rast gəlmək mümkündür. Yəni Derovu Lənkəran regionunda və ya ona yaxın coğrafiyada axtarmaq daha məntiqlidir. Qeyd edək ki, talış dilində də "ov" sözü "su" mənasını verir və Lənkəran coğrafiyasının əksər "ov" hissəcikli toponimləri talış dilindədir. Müşahidələrimiz zamanı Lənkəran regionunda Derov sözündə olduğu kimi, sözün sonunda işlənən "ov" hissəciyinin daxil olduğu bir çox toponim və hidronimə rast gəldik. Onlar arasında *Biəov, Dıkov, Diqoov, Qılqılov, Siyov, Vərov, Vov, Dəlov, Dəmbəlov, Kəndov, Siyabırov, Ninəlov* kimi yer və çay adlarını göstərmək mümkündür. "Ov" hissəciyi sözün əvvəlində və ortasında da işlənə bilir. Bu halda da yenə "su" mənasını ifadə edir. *Ovra, Ovala, Vovdədə, Vovlada, Tatova* kimi toponim və hidronimlər bu qəbildəndir **[6]**.

Beləliklə, bu qənaətə gələ bilərik ki, Derov sözünün mənası "qapı" və "su" sözlərindən yaranıb *"su qapısı"* deməkdir.[5] Sözügedən adanın və ya kəndin nə üçün "su qapısı" adlandırıldığına da açıqlama gətirək. Yuxarıda da qeyd olunduğu kimi, Xacə Zeynalabidin Əli Əbdi Bəy Şirazi öz əsərində Derov adası ilə bağlı qeydində bildirirdi ki, Kür çayı onun hər iki tərəfindən dənizə tökülür. Fikrimizcə, məhz bu səbəbdən adanı (və ya kəndi) *"su qapısı, suyun töküldüyü yer"* mənasında Derov adlandırıblar. Kür çayı hazırda Neftçala rayonu ərazisindən dənizə tökülür. Neftçala və Salyan Rayon İcra Hakimiyyətlərinin rəsmi iternet səhifələrində bu rayonların tarixi ilə bağlı məlumatda bildirilir ki, Cənub-Şərqi Şirvan düzündə (Neftçala və Salyan rayonlarının ərazisi) arxeoloji qazıntılar zamanı qədim şəhərlərə aid maddi-mədəni irs nümunələri tapılmışdır. Beləliklə, Bəndovan burnu yaxınlığında *Muğan, Mahmudabad, Quştasfi* kimi qədim şəhərlərin izləri aşkara çıxarılmışdır. Bu şəhərlər hazırda Xəzər Dənizinin su səviyyəsinin artması ilə əsrlərdir su altında qalıb. Eyni zamanda, sahildən quruya doğru 10-17 km məsafədə adı məlum olmayan şəhərin də izlərinə rast gəlindiyi bildirilir **[4 və 3]**. Hesab edirik ki, sonuncu, bəlkə də, Derovun yerləşdiyi ərazi olmuşdur. İddiamızı əsaslandıracaq dəlillərə nəzər salaq.

Məlum olduğu kimi, Kür çayı əsrlər ərzində öz məcrasını dəfələrlə dəyişmişdir. 2000-2500 il öncə Kür və Araz çayları ayrı-ayrılıqda Xəzərə töküldüyü halda, daha sonra bu çayların məcrası dəyişmiş və bir-birinə qovuşmuşlar. Bir zamanlar Kür çayı indikindən daha cənuba, Qızılağac Körfəzinə tökülmüşdür **[18/360-361]**. Odur ki, Kürün deltası da əsrlər ərzində müxtəlif görkəm almışdır. Çayın bugünkü deltası onun sayca 5-ci mərhələsidir.[6] Bu mərhələ XVIII əsrdən etibarən formalaşmağa başlamışdır **[16/495-508]**. Bizim bəhs etdiyimiz hadisələr isə XVI əsrdə cərəyan etdiyi üçün Kürün deltası o zaman özünün 4-cü mərhələsində idi. Bu zaman Kür çayı indiki Cəngən kəndi yaxınlığında daha bir qola ayrılıbmış. Bu gün həmin qolun izləri qalmaqdadır. Belə ki, bu ərazidə mövcud olan duzlu göllər, fikrimizcə, həmin qolun qalıqları olub, çayın məcrasının dəyişməsi ilə

---

[5] *Derov* sözü etimoloji cəhətdən tat dilində *"du+ru+ov=Duruov"* (iki+yol+su=iki su yolu) və ya talış dilində "dı+ru=Dıru (iki+çay=iki çay) sözlərindən də yaranmış ola bilər. Dəyərli fikirlərini bizimlə bölüşdüyünə görə, Şahin Əliyevə təşəkkürümüzü bildiririk.

[6] Bəzi mənbələrdə 4-cü olaraq göstərilir.

ortaya çıxmışdır.[7] Bununla bağlı tədqiq etdiyimiz məlumatda bildirilir ki, *"Kür çayının Cəngən kəndi yaxınlığında ayrılan ikinci qolu Şirvan düzünə əyilib şimala doğru uzanaraq Babazənən dağının cənub ətəyini yarandan sonra Dirov* [8] *dağının ətrafında dövrə vurub Xəzər dənizinə tökülürmüş. Həmin bu adada çox böyük bir şəhər mövcud imiş"* **[3]**. Beləliklə, Kürün mənsəbə yaxın hissəsində bu iki qolla dəniz arasında qalan ərazi adaya çevrilibmiş. Əslində, ada dediyimiz bu yer faktiki olaraq ətraf ərazilərlə quru əlaqəsinə malik olmadığı üçün ada hesab edilmişdir. Adadan baxdıqda Kürün hər iki tərəfdən axıb dənizə tökülməsi haqqında qeyd, beləliklə, həqiqət olmuşdur. Hazırda Kürün bəhs edilən ikinci qolu quruduğu üçün bu ərazilər ada şəklində deyil, qurunun bir parçası olaraq görünməkdədir. Kürün deltasının dəyişkən olması və Xəzərin su səviyyəsinin qalxması əsrlər ərzində ətraf şəhərləri yox etdiyi kimi, Derovu da tarixin qaranlıq səhifələrinə həbs etmişdir. Ona görə də, bir zamanlar ada olan Derov indiki Xəzər adaları içərisində axtarıldığından adanın yerləşdiyi yer bu günədək tarixdə sirr olaraq qalmışdır.

***Xəritə I və II***




**Xəritə I – Kür deltasının tarixi inkişaf yolu; Xəritə II – Derov şəhərinin bugünkü coğrafi yerləşməsi**

Digər tərəfdən, məlumatda ərəb coğrafiyaşünasları Əbu-İshaq İstəxri (X əsr) və Əbu-Abdullah Məhəmməd İdrisi (XII əsr), həmçinin venesiyalı Fra Mauronun 1459-cu ilə aid xəritələrində Kürün mənsəbində şəhərin olması qeyd olunur. Tarixçilər burada içməli suyu olan, rəng almaq üçün boyaq kökü istehsal edilən böyük bir adanın olduğunu xəbər vermişlər **[3]**.

[7] Bax: ***Xəritə I*** . Xəritə üzərində müəyyən əlavələrlə qismən təqdim olunur **[18/360]**.
[8] Başqa mənbədə *Durovdağ* olaraq göstərilir **[5/I-170]**.

İddialarımızı sübut edən digər bir fakt yuxarıda sitatda qeyd olunmuşdur. *Dirov dağı* və ya *Durovdağ* bizim bəhs etdiyimiz toponimlə nəinki bənzərlik təşkil edir, hətta düşünürük ki, bunlar eyni toponimin fonetik cəhətdən müxtəlif səslənməsindən başqa bir şey deyil. Üstəlik, sözdəki “d-r-v” səsləri sabit qalmışdır. Dəyişən təkcə sözə artırılan “dağ” sözüdür. Bu dağın ətrafından keçən çaya əsasən belə adlandırıldığı və *“su qapısının olduğu dağ, suyun tökülən yerindəki dağ”* mənasını ifadə etdiyi aydındır.[9] Beləliklə, eyniadlı dağa əsasən, vaxtilə Derov adasının təxmini olaraq 39º 30` şimal enliyi və 49° 6` şərq uzunluğunda yerləşdiyini söyləmək mümkündür.[10]

Neftçala rayonunun yerli sakinlərindən aldığımız məlumata əsasən qeyd edək ki, hazırda Neftçala rayonunun Yenikənd kəndinə qonşu olan və Xəzərin sahillərində yerləşən, eyni zamanda, xalq arasında Müşfiq qəsəbəsi olaraq bilinən ərazidə, həmçinin buradan sahilboyu şimala – Şirvan Milli Parkına doğru (qeyd edilən ərazi XVI əsrdə Kür çayının iki qolu arasında qalırdı) qədim şəhərin xarabalıqlarına rast gəlinməkdədir. **[Bax: Şəkil 1-3]** Bununla, Derov “adasının” bir hissəsinin hazırda Xəzərin suları altında qaldığını deyə bilərik. Aparılan elmi tədqiqatlar da sübut edir ki, Xəzərin su səviyyəsində müəyyən aralıqlarla transqressiya və reqressiyalar baş vermişdir **[19/75-83]**. Sonuncu dəfə 1560-cı ildə Xəzərin səviyyəsi mənfi 32 metr olmuşdur ki, bu da bəhs etdiyimiz dövrdə Derov adasının müəyyən hissəsinin hazırda Xəzərin suları altında qaldığını sübut edir **[21]**.



***Şəkil 1-3. Derov ərazisindən Vasif Bədəlov tərəfindən tapılmış üzərində naxış və yazılar olan müxtəlif saxsı qab parçaları***

Araşdırma zamanı tərəfimizdən müxtəlif kolleksiyalarda saxlanılan Bürhanəli tərəfindən Derovda zərb olunmuş 20-25 sikkə qeydə alınmışdır **[Bax: Cədvəl I]**.[11] Sikkələrin şərti olaraq adlandıracağımız aversində Şirvanşah Şahruxun sikkələrinə məxsus tərzdə qövslərin kəsişməsindən yaranmış üçbucaq və onun daxilində nöqtələr, qövslərin kənar halqa ilə kəsişməsində yaranan 3 seqmentdə *“zərb-i / Derov / 946 (və ya 947)”*

[9] Etimoloji cəhətdən oronimi üzərindəki palçıq vulkanına görə “dibinə palçıq çökmüş, ətəyinə palçıq axmış dağ” kimi izah edənlər də var. Lakin heç bir linqvistik təhlilə əsaslanmadığı üçün biz bu variantı qəbul etmirik **[5/I-170].**

[10] Bax: ***Xəritə II***

[11] Kolleksiyasında olan sikkə fotolarını işıqlandırmağımıza izin verdiyinə görə professor Semyon Antonoviç Boqatiyə, həmçinin Ə.Rövşənə təşəkkürümüzü bildiririk.

ضرب درو ٩٤٦ (٩٤٧) , reversində isə *“sultan Bürhanəli”* سلطان برهان على sözləri yazılmışdır **[Bax: Sikkə 1-17]**.[12]

Beləliklə, tədqiqat nəticəsində tarix və numizmatika elmi üçün dəyərli hesab oluna biləcək bir sıra yeni faktlar ortaya çıxarılmışdır. Bürhanəlinin tarixi mübarizəsinin bilindiyindən daha dinamik olması numizmatik faktlarla sübut olunmuşdur. Həmçinin mübarizəsinə Bakı və Derovda başladığı da üzə çıxarılmışdır. Derovun yerləşdiyi coğrafiya ilə bağlı linqvistik və coğrafi təhlillərin aparılması nəticəsində həm onun yerləşdiyi bölgə müəyyən edilmiş, həm də bəzi tarixi hadisələrə aydınlıq gətirilmişdir.

Belə məlum olmuşdur ki, I Təhmasibin Qazi xan Təkəliyə Mahmudabad, Salyan və Bakını tiyul kimi bağışlamasının məqsədi bu ərazilərdə hökmran olan və öz adına sikkə kəsdirən Bürhanəlinin səltənətinə son qoymaq idi. Derov Salyan və qədim Mahmudabadla eyni coğrafiyada yerləşdiyindən tiyul kimi verilən torpaqlar arasında Derovun adına rast gəlmirik. Lakin aydındır ki, Derov da sözügedən tiyul torpaqlarına daxil idi.



**Sikkə 1**



**Sikkə 2**



**Sikkə 3**

[12] Aqça nominallı sözügedən sikkələrin çəkisi 0.3 qr, diametri isə 10 mm civarındadır. Sikkələrdə ştempel çeşidliliyinin geniş olması bu sikkələrin iki il ərzində davamlı zərb edildiyini düşünməyə əsas verir.



**Sikkə 4**



**Sikkə 5**



**Sikkə 6**



**Sikkə 7**



**Sikkə 8**



**Sikkə 9**



**Sikkə 10**



**Sikkə 11**



**Sikkə 12**



**Sikkə 13**



**Sikkə 14**



**Sikkə 15**



**Sikkə 16**



**Sikkə 17**

*Cədvəl I*

| Məqaləyə əlavə edilmiş gümüş sikkələrə dair ümumi məlumatlar | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| № | Hökmdar | Zərb yeri | İl (Hicri) | Çəki (q) | Orta çəki (q) | Ölçü (mm) | Mənbə |
| 1 | Sultan Bürhanəli | Derov | 946 | - | 0.31 | - | S.A.Boqatiy |
| 2 | Sultan Bürhanəli | Derov | 947 | - | | - | S.A.Boqatiy |
| 3 | Sultan Bürhanəli | Derov | - | - | | - | Ə.Rövşən |
| 4 | Sultan Bürhanəli | Derov | - | 0.32 | | 11.8x10.8 | T.M.C. |
| 5 | Sultan Bürhanəli | Derov | 94x | - | | - | S.A.Boqatiy |
| 6 | Sultan Bürhanəli | Derov | 946 | - | | - | S.A.Boqatiy |
| 7 | Sultan Bürhanəli | Derov | 946 | - | | - | S.A.Boqatiy |
| 8 | Sultan Bürhanəli | Derov | - | - | | - | S.A.Boqatiy |
| 9 | Sultan Bürhanəli | Derov | 94x | - | | - | S.A.Boqatiy |
| 10 | Sultan Bürhanəli | Derov | - | - | | - | S.A.Boqatiy |
| 11 | Sultan Bürhanəli | Derov | - | - | | - | S.A.Boqatiy |
| 12 | Sultan Bürhanəli | Derov | 94x | - | | - | S.A.Boqatiy |
| 13 | Sultan Bürhanəli | Derov | 94x | - | | - | Ə.Rövşən |
| 14 | Sultan Bürhanəli | Derov | - | 0.23 | | 9.3x86 | T.M.C. |
| 15 | Sultan Bürhanəli | Derov | 9xx | 0.29 | | 10.2x9.3 | T.M.C. |
| 16 | Sultan Bürhanəli | Derov | - | 0.28 | | 10.1x10.0 | T.M.C. |
| 17 | Sultan Bürhanəli | Derov | 94x | 0.37 | | 11.5x10.5 | T.M.C. |

## Ədəbiyyat


1. S.Aşurbəyli. Bakı şəhərinin tarixi (orta əsrlər dövrü). Bakı, 2006
2. S.Aşurbəyli. Şirvanşahlar dövləti, VI-XVI əsrlər. Rus dilindən tərcümə edən: A.Bağırov, Bakı, 2006
3. Azərbaycan Respublikası Neftçala Rayon İcra Hakimiyyəti *www.neftchala-ih.gov.az/page/11.html*
4. Azərbaycan Respublikası Salyan Rayon İcra Hakimiyyəti *www.salyan-ih.gov.az/page/11.html*
5. Azərbaycan toponimlərinin ensiklopedik lüğəti. Red.: R.Əliyeva, AMEA Nəsimi adına Dilçilik İnstitutu, I və II cildlər, Bakı, 2007
6. B.Budaqov, N.Məmmədov. Azərbaycanın Lənkəran regionu toponimlərinin izahlı lüğəti. AMEA, Bakı, 2007 (e-kitab)
7. Ö.Diler. Islamic Mints / İslâm Darp Yerleri, Cilt 1-2-3. İstanbul, 2009
8. Ö.Diler. Şehir Lâkapları / Titles and Epithets of Islamic Towns. İstanbul, 2001
9. O.Əfəndiyev. Azərbaycan Səfəvilər dövləti. Bakı, 2007
10. S.Əliyarlı. Azərbaycan tarixi üzrə qaynaqlar. İkinci nəşr, Bakı, 2007 (e-kitab)
11. Həsən bəy Rumlu. Əhsənüt-Təvarix (Tarixlərin ən yaxşısı). Tərcümə edənlər: O.Ə.Əfəndiyev və N.S.Musalı, Kastamonu, 2017 *http://new.chronologia.org/volume5/tur_rec3.html*
12. G.Hüseynova. Tat dili leksik fondunun genealoji təhlili (Azərbaycan tatlarının dilinin materialları əsasında). Bakı, 2013
13. Xacə Zeynalabidin Əli Əbdi Bəy Şirazi. Təkmilətül-əxbar (Səfəvi dövrü – Şah İsmayıl və Şah Təhmasib dövrlərinin tarixi). Red.: V.Piriyev, tərcümə: Ə.Rəhimli, AMEA Şərqşünaslıq İnstitutu, Bakı, 1996 (e-kitab)

14. İsgəndər bəy Münşi Türkman. Dünyanı bəzəyən Abbasın tarixi (Tarixe-aləmaraye-Abbasi). Tərcümə edən: Ş.Fərzəliyev (Şahin Fazil), AMEA A.A.Bakıxanov adına Tarix İnstitutu, Bakı, 2010
15. A.Məmmədov (Qarabağlı). Qədim və indiki Abşerona səyahət. Bakı, 2006
16. V.N.Mikhailov, V.I.Kravtsova and D.V.Magritskii. "Hydrological and morphological processes in the Kura river delta". Water Resources, Vol. 30, No. 5, 2003
17. Ə.Rəcəbli. Şirvanşahlar dövlətində sikkə zərbi (VIII-XVI yüzillər). AMEA Milli Azərbaycan Tarixi Muzeyi, Bakı, 2015
18. R.Hoogendoorn, J.Boels, D.Huseynov et al. "Development of the Kura delta, Azerbaijan; a record of Holocene Caspian sea-level changes". Marine Geology, Vol. 222-223, 2005
19. Дж.Алиев. «Исследование прибрежных и подводных памятников Каспия». Підводні дослідження: Археологія. Історія. Дайвінг, Випуск 4, Донецк, 2011
20. Г.Злобин. Монеты Ширваншахов династии Дербенди (третья династия) 784-956 г.х. / 1382-1548 гг, Москва, 2010
21. А.М.Тюрин. «Реконструкция колебаний уровня Каспия в исторический период». Сборник статей по новой хронологии, Выпуск 5, 2007

## SHİRVANSHAH COİNAGE İN DEROW MİNT

**M.S.Shabanov**

### SUMMARY

This article analyzes the unknown mint of Shirvanshahs, one of the ancient states which existed on the territory of today's Azerbaijan. For the first time, the author gives an information on the coins minted in Derow during the rule of Sultan Burhan Ali of Shirvanshahs. Available information on geolocation of Derow Island is analyzed and deeply studied from linguistic, etymological, historical and numismatic points of view. Charts, maps, photos, drawings and other details concerning coins are included.

## МОНЕТНАЯ ЧЕКАНКА ГОСУДАРСТВА ШИРВАНШАХОВ В ДЕРОВЕ

**М.С.Шабанов**

### РЕЗЮМЕ

В статье исследуется неизвестный до сих пор монетный двор Деров одного из древнейших государств, существовавших на территории сегодняшнего Азербайджана – государства Ширваншахов. Автор впервые приводит информацию о монетах, отчеканенных в период правления Ширваншаха Бурханали в Дерове. Имеющаяся информация о географическом местоположение острова Деров подробно изучена и проанализирована с лингвистической, этимологической, исторической и нумизматической точек зрения. Прилагаются таблицы, карты, фотографии, прорисовки и другая информация об изучаемых монетах.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# SƏFƏVİYƏQƏDƏRKİ DÖVRÜN GƏNCƏDƏ ZƏRB OLUNMUŞ MİS SİKKƏLƏRİ

**M.S.Şabanov**
Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi
Bakı AZ1009, Ş.Qurbanov küçəsi 50
e-mail: mustafa.shabanov@gmail.com

***Açar sözlər:*** Səfəvilər, Teymurilər, Elxanilər, Eldəgəzlər, Cəlairilər, Gəncə, sikkə
***Keywords:*** Safavids, Timurids, Ilkhans, Ildegizids, Jalayrids, Ganja, coin
***Ключевые слова:*** Сефевиды, Тимуриды, Ильханиды, Ильдегизиды, Джалаириды, Гянджа, монета



**Şəkil 1.** Qədim Gəncənin unudulmuş qala divarı (bürc hissəsi).
Fotonun müəllifi Mustafa Şabanovdur (2017)

İlk dəfə tədqiq olunan Səfəviyəqədərki dövrün Gəncənin mis sikkələri müəyyən istisnalar xaricində (elmi ədəbiyyatda yalnız XII əsrdə yaşamış Azərbaycan Atabəyi Qara Sunqurun Gəncədə zərb olunmuş sikkəsi haqqında məlumat var[1]) bu günədək elmə məlum olmamışdır. Bu baxımdan, tədqiq olunan sikkələr həm Azərbaycan numizmatikası, həm də tarix elmi üçün böyük əhəmiyyətə malikdir.

## Tədqiq olunan sikkələrin tapıldığı yer haqqında

2015-ci ildə Samux rayonunun Bağbanlar kənd sakini tərəfindən elmi cəhətdən tədqiq edilməsi üçün müəllifə bir neçə mis sikkə hədiyyə edilmişdi. Sikkələrin üstü qalın patina qatı ilə örtülü idi. Kimyəvi təmizləmə sonrası bu sikkələrin, əsasən, Eldəgəzlər dövrünə aid olduğu üzə çıxdı. Saxlanma vəziyyəti pis olduğu üçün sikkələr üzərində sadəcə müəyyən hərflər oxunurdu. Bu sikkələr arasında üzərində *"zərb-i gəncə"* ضرب كنجه *("Gəncədə zərb olunmuşdur")* sözləri və digər tərəfində ceyran şəkli görünən bir sikkə də vardı. Bu sikkə həm yazı stili, həm də üzərindəki təsvirə görə Eldəgəz sikkələrindən tama-

[1] Sözügedən sikkə hazırda Milli Azərbaycan Tarixi Muzeyinin Numizmatika Fondunda saxlanılır. İnv. №51217

milə fərqlənirdi. Sikkələri tapan şəxsin (Vidadi Həsənovun) dediyinə görə, sikkələri qədim Gəncə ərazisində, indiki Bağbanlar kəndi yaxınlığında illər öncə bu yerlərdə çobanlıq edərkən tək-tək tapıb.

Doğrudan da, qədim Gəncə ərazisində yaşayan insanların dediyinə görə, hətta heç bir arxeoloji qazıntı aparmadan da həyətyanı ərazidə və əkin sahələrində qədim mis sikkələrə tez-tez rast gəlmək olur. Qeyd edək ki, qədim Gəncə ərazisində yerləşən İmamzadə adlanan yerdə də Eldəgəz sikkələri tez-tez tapılmaqdadır. Şahidin (həmin şəxs hazırda tarixçi alimdir) dediyinə görə, 20-30 il öncə Şəddadi sikkələrindən ibarət çox böyük bir dəfinə kənddə yaşayan uşaqlar tərəfindən hansısa köhnə qəbirdə aşkar edilərək vedrələrə doldurulub dondurma ilə barter edilirmiş. Müşahidələrimizə əsasən, çox təəssüf ki, qədim Gəncə ərazisində hazırda yeni qəsəbənin (İnstitut qəsəbəsi) salınması ilə tarixi izlər burada tikinti aparan şəxslər tərəfindən, demək olar ki, məhv edilmişdir [Bax: Şəkil 1]. Bu əraziyə dəfələrlə arxeoloji ekspedisiyalar cəlb olunmuş **[3; 9]**, lakin bir çox bölgələr, o cümlədən adı çəkilən qəsəbə hələ də tam araşdırılmamışdır. Yaşayış sahəsinin genişləndirilməsi ilə bir sıra tarixi abidələr, o cümlədən, qədim qala divarları sakinlər tərəfindən dağıdılmışdır. Bu ərazinin yerli İcra Hakimiyyəti tərəfindən xüsusi nəzarətə götürülməsi və yaşayış üçün nəzərdə tutulan torpaq sahələrini əhaliyə verməzdən öncə xüsusi arxeoloji ekspertizadan keçirilməsi hesab edirik, Azərbaycanın tarixi-mədəni irsinin qorunub saxlanmasına və öyrənilməsinə böyük töhfə verə bilər.



**Şəkil 2.** Tədqiq olunan sikkələrin rekonstruksiyası

2011-2017-ci illərdə müxtəlif vaxtlarda Azərbaycanın şimal bölgələrində (Qax və Zaqatala ərazilərində) dəfinə halında və tək-tək qədim mis sikkələr tapılmışdır. Yenə təəssüflər olsun ki, bu dəfinələrin böyük bir qismi Rusiya və Gürcüstan vasitəsilə dünya bazarlarına çıxarılmış, hətta erməni kolleksionerləri bu sikkələri canfəşanlıqla ələ keçirməyə çalışmışlar. Beləliklə, bu sikkələrin kiçik bir qismi ilk dəfə erməni tədqiqatçısı tərəfindən Gəncə dəfinəsi adı altında nəşr etdirilmişdi. Fikrimizcə, əsasən, Kaxeti və Zəyəm sikkələrindən ibarət bu dəfinə(lər) Qax və Zaqatala rayonları ərazisindən tapılaraq ölkədən gizli yollarla çıxarılıb. Gürcü və rus tədqiqatçıların əldə etdikləri bu sikkələrin

ümumi sayının (özlərinin verdiyi məlumatı da nəzərə alsaq **[5]**) ən az 5 min ədəd olduğunu ehtimal edə bilərik. Onu da qeyd edək ki, indiyədək Səfəvi sikkələrinin də daxil olduğu heç bir dəfinədə bu qədər mis sikkə bir arada tapılmamışdır **[2/316]**.

Bir neçə il sonra, təxminən 2015-ci ildən etibarən bu sikkələrin bir qismi Azərbaycan bazarında da görünməyə başladı. Sikkələr internet vasitəsilə də satışa çıxarıldı. Məqalənin yazıldığı vaxt tək-tək də olsa bu sikkələrə internet "bazarlarında" rast gəlmək mümkün idi. Bu sikkələrin bir qismini qiyabi də olsa internet vasitəsilə tədqiq etməyə çalışdıq. Eyni zamanda, müxtəlif kolleksiyalarda saxlanılan bu sikkələrin Gəncədə zərb olunanlarının şəkil və ölçülərini də əldə etməyə çalışdıq.

Sonuncu belə sikkə 2017-ci ilin iyul ayında Tbilisi sakini tərəfindən internet üzərindən hərrac vasitəsilə satışa çıxarılmışdı. Sözügedən sikkəni də satın alaraq tədqiq etdik.

Beləliklə, Gəncədə zərb olunan və yuxarıda bəhs etdiyimiz tipdə 13 ədəd sikkəni ilk dəfə elmi tədqiqata cəlb etdik.[2]

## Kaxeti-Zəyəm dəfinəsi və onun tərkibi haqqında

İlk baxışda, dəfinə halında tapıldığını güman etdiyimiz sikkələr XVII əsrin əvvəllərində Kaxeti və Zəyəmdə zərb olunmuş olsa da, sikkələr arasında XII-XVII əsrlərdə zərb olunmuş sikklərin də yer alması dəfinəyə başqa dəfinələrin və ya tək-tək tapılmış digər mis sikkələrin qatıldığını deməyə əsas verir. Müşahidələrimiz zamanı onlar arasında Eldəgəzlər, Osmanlı, Səfəvi, Kaxeti, Şirvanşahlar dövlətinə məxsus mis sikkələrə rast gəldik. Həmçinin, Kaxet, Zəyəm, Gəncə, Ərəş, Şamaxı, Təbriz və Ordubad kimi zərb yerlərini qeydə aldıq.

## Tədqiq olunan sikkələrin ümumi xarakteristikası

Sikkələrin aversində sol tərəfə yönələn, lakin başını arxaya (sikkə üzərində sağ tərəfə) kol və budaqlara doğru çevirmiş hərəkət edən ceyran təsviri verilmişdir. Ceyran təsviri qalın kontur cizgilərlə verilmişdir [Bax: Şəkil 2]. Reversində isə mərkəzdə nəsx xətti ilə *"zərb-i gəncə"* ضرب كنجه *("Gəncədə zərb olunmuşdur")* sözləri, karuşun ətrafında isə həlqə şəklində 4 oval seqment yer almışdır. Sikkənin kənarında dairəvi xətt çəkilmişdir. Xətdən sonra ən kənarda nöqtəli çevrə vardır. Seqmentlərdə sikkənin mərkəzinə doğru sağ və sol tərəflərə ayrılan gül təsvirləri və onların ortasında naxışlar verilmişdir. Tədqiq olunan bütün sikkələr eynitipli olub, ön və

| № | Çəkisi (qr) | Diametr (mm) | | Orta çəki |
|---|---|---|---|---|
| | | ən çox | ən az | |
| 1. | 3.93 | 19.6 | 19.5 | 3.63 qr |
| 2. | 3.17 | 22.0 | 21.2 | |
| 3. | 3.77 | 21.7 | 19.4 | |
| 4. | 4.13 | 23.0 | 20.5 | |
| 5. | 3.04 | 21.6 | 18.4 | |
| 6. | 3.45 | 19.4 | 18.5 | |
| 7. | 4.14 | 19.7 | 19.6 | |
| 8. | 3.94 | 21.0 | 19.0 | |
| 9. | 3.80 | 21.1 | 18.4 | |
| 10. | 2.56 | 23.0 | 19.0 | |
| 11. | 4.32 | 20.0 | 20.0 | |
| 12. | 3.10 | 21.6 | 19.3 | |
| 13. | 3.82 | 23.3 | 19.4 | |

**Cədvəl**
Tədqiq olunan sikkələrin çəki və ölçüləri

[2] Müəllif Gəncənin qədim qala divarının yerini göstərmiş Əjdər Məmmədova, məqalədə adı çəkilən sikkəni hədiyyə etdiyinə görə Vidadi Həsənova və Gürcüstan bazarında satılan sikkəni almağa köməklik göstərmiş David Mikeladzeyə xüsusi təşəkkürünü bildirir.

arxa tərəfləri eyni ştempellərlə zərb olunmuşdur. 13 ədəd nümunəsi qeydə alınmışdır [Bax: *Cədvəl və Sikkələr*].[3]

Sikkələrin nominalı bizə məlum olmasa da, sikkələrin ümumi ad ilə *fels* və ya *fulus* adlandırıldığını ehtimal edirik **[2/317]**. Sikkələrin çəkisi 2.56-4.32 qr aralığında olub, orta çəkisi 3.63 qramdır. Diametrləri isə təqribi olaraq, 18.4-23.3 mm aralığındadır. Sikkələrin üzəri qalın qara patina qatı ilə örtülü olduğundan təqdim etdiyimiz sikkələrə dair cizgilərdə müəyyən fərqliliklər müşahidə oluna bilər. Şəxsi kolleksiyada saxlanılan bu sikkələr sahibi tərəfindən təmizlənmədiyi üçün sikkələrin fotoları da təmizlənmədən, orijinal patinası ilə birgə tədqiqata cəlb olunmuşdur.

## Tədqiq olunan sikkələrin tarixinə dair

Yuxarıda da qeyd olunduğu kimi, dəfinədə tapılan sikkələr XII-XVII əsrləri əhatə edir. Deməli, Gəncədə zərb olunan və bizim təqdim etdiyimiz sikkələr də bu zaman kəsiyində Gəncədə hökmran olan dövlətlərdən biri tərəfindən zərb olunub. Bu dövlət və ya sülalələri qısaca nəzərdən keçirək.

**Eldəgəzlərin** mis sikkələri üzərində heyvan təsvirinə rast gəlinməmişdir.

**Elxanilər** dövründə mis sikkələr üzərində həm yazılar, həm də müxtəlif həndəsi naxışlar və heyvan təsvirləri verilirdi **[4]**. Lakin tədqiq etdiyimiz sikkələr üzərində zərb yeri xaricində, demək olar ki, başqa yazılar yoxdur.

**Cəlairilər** dövründə Gəncədə gümüş sikkələrin zərb edildiyi məlumdur. Lakin Cəlairilərin mis sikkələrində biz heyvan təsvirlərinə rast gəlmədik.

**Teymurilər** dövründə Gəncədə sikkə zərbi bizə məlum deyildir. Lakin Teymurilər tərəfindən Cənubi Qafqazın bir çox şəhərlərində, o cümlədən, Bakı, Dərbənd, Şamaxı, Quştasfi, Şabran və Naxçıvanda gümüş sikkələr zərb etdirildiyi məlumdur **[7/5-6]**. Həmçinin Teymurilər tərəfindən Bakıda mis sikkələr də zərb olunmuşdur **[2/317]**. Tədqiq olunan sikkələr Teymurilərin Orta Asiya zərbləri ilə müəyyən bənzərlik göstərməkdədir. İlk öncə qeyd edək ki, Teymurilərin mis sikkələrində zərb yeri tədqiq olunan sikkələrdə olduğu kimi, mərkəzdə kartuş içərisində yazılırdı. Stiv Albumun qeydlərinə görə, Teymurilərin Mərkəzi Asiyada zərb edilən sikkələrindən fərqli olaraq, İran və Cənubi Qafqazda zərb olunan sikkələri regional deyil, lokal xarakter daşımışdır və bu sikkələr zərb olunduğu yerdən və ya regiondan kənara çıxarılmamışdır. Bu səbəbdəndir ki, tədqiq etdiyimiz sikkələr Gəncə və ona nisbətən yaxın olan qonşu ərazilər istisna olmaqla, digər ərazilərdə indiyədək tapılmamışdır. S.Album bildirir ki, əsasən ehtiyatla, gözəl şəkildə hazırlanan bu sikkələr uzun müddət dövriyyədə olduğu üçün aşınmaya və yazıları pozulmaya məruz qalmışdır. Bu sikkələr saxlanc üçün deyil, yerli bazarda pul dövriyyəsini həyata keçirmək üçün zərb olunurdu. Buna görə də, tapılan sikkələrin saxlanma vəziyyəti o qədər də ürəkaçıcı deyil. Teymurilərin Mərkəzi Asiyada zərb olunan mis sikkələri *dəngi* (ehtimal ki, *təngə* sözündən meydana gəlmişdir [M.Ş.]) olaraq adlandırılsa da, periferiyada (əyalətlərdə) yerli adlandırılmalardan da istifadə olunmuşdur. *Dəngi* adlanan sikkələrin çəkisi, adətən, 4-6 qr aralığında idi. Periferiyada zərb olunan yerli sikkələrin çəkisi isə bu rəqəmdən az da olurdu. Bizim tədqiq etdiyimiz sikkələrin orta çəkisi də (3.61 qr) periferiyada zərb olunan sikkələrə uyğun gəlir. Həmçinin Teymurilərin mis sikkələrində müxtəlif həndəsi naxışlar və kobud cizgilərlə heyvan təsvirlərinə də rast gəlinmişdir **[2/316-321]**. Tədqiq etdiyimiz sikkələrdə, hesab edirik, bunu əyani görmək

[3] Lövhələrdə təqdim olunan sikkələrin ölçüləri orijinalına nisbətdə böyüdülmüşdür.

mümkündür.

**Ağqoyunlular** mis sikkələrdən az istifadə etmiş və bu sikkələr daha çox dövlətin yarandığı ilk vaxtlarda Anadoluda zərb olunmuşdu. Müşahidə etdiyimiz Ağqoyunlu sikkələri üzərində bu dövlətə məxsus damğa da yer almaqdadır. Tədqiq etdiyimiz sikkələrdə isə bu yoxdur.

**Qaraqoyunlular** dövründə Gəncədə sikkə zərbinə dair, ümumiyyətlə, məlumat yoxdur.

**Səfəvilər** dövründə üzərində heyvan təsvirləri olan mis sikkələr, əsasən, orta və son dövr Səfəvi hökmdarları zamanında zərb olunurdu. Bu sikkələr üzərindəki heyvan təsvirləri cizgilərlə deyil, dolğun təsvirlərlə verilirdi **[1; 6; 8]**. Bizim tədqiq etdiyimiz sikkələr üzərində ceyran təsvirləri konturlarla (cizgilərlə) verilmişdir və bu, Səfəvi dövrünün sikkələri üçün xarakterik deyil. Digər tərəfdən, Səfəvilərin ilkin dövrlərində zərb olunan mis sikkələrdə, əsasən, lənət tip yazılar əks olunurdu. İstənilən halda, Səfəvilərin mis sikkələrinə fulus sözü də həkk olunurdu. Tədqiq olunan sikkələrdə isə digər səbəblərlə yanaşı, fulus sözünün olmaması da bəhs edilən sikkələrin Səfəviyəqədərki dövrdə zərb edildiyini söyləməyə əsas verir.

Hesab edirik ki, sikkələrin zərb edilmə tarixi Teymurilər dövrünə daha yaxındır. Bununla belə, zərb edilmə dövrü ilə bağlı konkret fikir bildirmədən bu sikkələrin Səfəviyəqədərki Gəncə zərbxanasının bu günədək bilinməyən nümunələri olduğunu əminliklə söyləyə bilərik. İnanırıq ki, qədim Gəncə ərazisində gələcəkdə aparılacaq arxeoloji tədqiqatlar növbəti artefaktlar və şəhərin tarixinə dair daha geniş məlumatları gün üzünə çıxaracaqdır.

## Sikkələr




№ 1




№ 2




№ 3




№ 4




№ 5




№ 6



№ 7



№ 8



№ 9



№ 10



№ 11



№ 12



№13

## Ədəbiyyat

1. Alaedini, Bahram. Persian Copper Coins from Safavids to Qajars. Yassavoli Publications, Tehran, 2013
2. Album, Steve. Checklist of Islamic Coins. 3rd edition, Santa Rosa/USA, 2013
3. Alizade, Meleyke. Gence tarihinden sayfalar. "İrs", №4 (12), Bakı, 2014, s.24-29
4. Diler, Ömer. İlhanlar. İran Moğollarının Sikkeleri. Mas Matbaacılık A.Ş., İstanbul, 2006
5. Paghava, Irakli. The Georgian city of Bazari / Zagam according to numismatic data. Submitted to the 16th Numismatic Symposium, Moldova, 2016
6. Valentine, W.H. Modern Copper Coins of the Muhammadan States. Spink & Son Ltd., London, Reprint, 1969
7. Байтанаев Б.А., Брагин А.О., Петров П.Н. Сайрамский клад тимуридских монет. Книга 1, Алматы, 2014
8. Кутелия Т.С. Каталог иранских монет (по фондам Государственного музея Грузии). Тбилиси, 1990
9. Щеблыкин И.П. Памятники азербайджанского зодчества эпохи Низами (материалы). Под ред. И. Джафарзаде, Издательство АзФАН, Баку, 1943

## COPPER COINS OF PRE-SAFAVID PERIOD MINTED IN GANJA

**M.S.Shabanov**

### SUMMARY

This article studies the same type copper coins minted in Ganja during the pre-Safavid period. These coins are very important for the numismatics of Azerbaijan. Although there were some notes on the existence of copper coins minted in Ganja during the pre-Safavid period, none of them has been published until now. Photos, drawings, reconstruction, as well as the chart which contains the details of coins are included in the article.

## МЕДНЫЕ МОНЕТЫ ДОСЕФЕВИДСКОЙ ЭПОХИ, ОТЧЕКАНЕННЫЕ В ГЯНДЖЕ

**М.С.Шабанов**

### РЕЗЮМЕ

В статье изучаются однотипные медные монеты досефевидской эпохи, отчеканенные в Гяндже. Эти монеты чрезвычайно важны для азербайджанской нумизматики. Так, хотя и было несколько заметок о чеканке медных монет досефевидской эпохи в Гяндже, их изображения до сих пор нигде не публиковались. В статью включены фото, рисунки, реставрированные изображения, а также таблица с подробной информацией о характеристиках исследуемых монет.

# S İ Y A S Ə T Ş Ü N A S L I Q

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# P O L I T I C A L  S C I E N C E

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# CƏNUBİ QAFQAZDA TÜRKİYƏ-RUSİYA MÜNASİBƏTLƏRİNDƏ ZİDDİYYƏTLƏR

**M.A.Özen**
Bakı Slavyan Universiteti
Bakı, S.Rüstəm küçəsi, 33
e-mail: oraymurat@hotmail.com

***Açar sözlər:*** Türkiyə, Rusiya, Cənubi Qafqaz, Avropa İttifaqı, müqavilə, əməkdaşlıq
***Keywords:*** Turkey, Russia, South Caucasus, European Union, agreement, cooperation
***Ключевые слова:*** Турция, Россия, Южный Кавказ, Европейский союз, договор, сотрудничество

Cənubi Qafqaz əsrlər boyu Rusiya-Türkiyə müharibələrinin döyüş səhnəsi, eləcə də Türkiyə-Mərkəzi Asiya münasibətlərində vasitəçi olmuşdur. Prezident Dəmirəl hakimiyyətdə olduğu illər ərzində Cənubi Qafqazda etnik münaqişələrin həlli üçün qərarlı bir şəkildə Avropa dövlətlərini və ATƏT kimi Qərb institutlarını bu məsələdə fəal mövqe tutmağa çağırmışdı. O, Minsk qrupunun qatı tərəfdarı idi. Dəmirələ görə, əgər Rusiya bu regionda etnik münaqişələrin həllində müsbət rol oynamaq istəyirsə, o öz davranışını dəyişməlidir. Əlbəttə, Rusiya Federasiyasının Qafqazdakı maraqları mühüm məna kəsb edir. Dəmirəl belə hesab edirdi ki, əgər Rusiya orada sülh istəyirsə, onda ona fərqli davranmaq üçün mütərəqqi fikirli türk siyasətçiləri lazımdır. Əgər o, bu regionu özünün kənardan hücumlara qapalı olan bir yeparxiyası kimi qəbul edirsə, onda deməli Rusiya sülhdə maraqlı deyil. Əgər o, Qafqazdakı vəziyyətin nizama salınmasını bu regionun Rusiya Federasiyasının hissəsi olmadan mümkün hesab etmirsə, onda indiki vəziyyət onun üçün arzuolunandır. Qeyd edək ki, Dəmirəlin varisi, Konstitusiya Məhkəməsinin keçmiş rəhbəri Əhməd Necdət Sezər Qafqazda siyasi və iqtisadi proseslərə daha az maraq göstərmişdir. Onun maraqları əsasən Türkiyənin Avropa İttifaqına qoşulması probleminə və ölkənin demokratikləşməsinə yönəlmişdi.

Cənubi Qafqazda Türkiyə-Rusiya münasibətlərindəki ziddiyyətlərdən danışarkən, fikrimizcə, orada fəaliyyət göstərən orduların silahlandırılması ilə bağlı məsələlər kənarda qala bilməz. Şübhəsiz ki, Atatürkçü ənənələrə malik türk ordusu öz ölkəsinin siyasətində mühüm rol oynayır. Hərbçilər Milli Təhlükəsizlik Şurasında (MTŞ) liderliyi ələ almağa çalışırlar. 1982-ci ilin Türkiyə Konstitusiyasının 18-ci maddəsinə görə, dövlət müstəqilliyini qorumaq üçün fəaliyyəti vacib olan Milli Təhlükəsizlik Şurasının qərarlarına hökumət "prioritet" verməlidir [4, s.22].

Dünyəvi, Qərbyönlü ənənələrə ciddi riayət edən Türkiyənin hərbi rəhbərliyi öz üzərində daxili və xarici dəyişikliklərin təsirini yaşamışdır. Türkiyənin Avropa İttifaqı üzvlüyündən imtina edilməsinə xüsusilə həssas olan Türkiyə Baş qərargahı bütün enerjisini ABŞ və İsrail ilə əlaqələrin möhkəmləndirilməsinə yönəltmişdir. O, Qafqaz və Mərkəzi Asiya ilə bağlı Xarici İşlər Nazirliyinin siyasətini dəstəkləyir.

Xarici İşlər Nazirliyi kimi, Türkiyənin hərbi liderləri də Rusiya və İranın bu regiondakı əməllərinə şübhə ilə yanaşırlar. Ermənilərin Rusiyanın hərbi dəstəyilə cəbhədə uğur qazanması Türkiyədə ciddi böhrana səbəb oldu. 1993-cü ilin sentyabrın 4-də Türkiyə

Milli Təhlükəsizlik Şurası, rəsmi xəbərdarlıq etdikdən sonra, Moskva və Yerevana təzyiq göstərmək üçün Türkiyə-Ermənistan sərhəddinə hərbçilər və tanklar göndərmək qərarına gəldi. Bundan əlavə, Türkiyənin baş naziri Tansu Çillər hərbçilərin təsiri altında Ermənistanın hücum edəcəyi təqdirdə, müharibənin mümkünlüyü barədə açıq şəkildə bəyanat vermişdi [1, s.41].

1992-ci ilin sonundan Cənubi Qafqazda Rusiya Baş Qərargahının əsas strategiyası regionda türklərin saxlanılması üçün Ermənistanla sıx hərbi ittifaqı oldu. Buna nail olmaq üçün Moskva keçmiş Sovet-Türkiyə sərhədində bir neçə hərbi bazalarını saxladı. Yaranmış vəziyyət Türkiyənin hərbi dairələrində narahatlığa səbəb oldu. 1993-cü ilin iyununda Türkiyə Hərbi qüvvələrinin Baş qərargah komandiri Doğan Güreş jurnalistlərə bildirmişdi: “Rusiya ciddi təhlükə yaradır ... Rusiya ənənəvi imperiya-çar siyasətini davam etdirir ... Rusiya hissələri bizim sərhəddədir” [1, s.42].

Türkiyə hərbçilərini Rusiya, Ermənistan və İran arasında artan yaxınlaşmanın əlamətləri son dərəcədə narahat edirdi. Məsələn, 1994-cü ilin ortalarında Türkiyə Baş qərargahının o zamankı keçmiş komandiri Doğan Güreş Rusiyanın öz siyasəti ucbatından Qafqazda və Krımda bütün Soyuq Müharibə dövrü ərzindən də daha çox Türkiyə üçün böyük təhlükə olduğunu bəyan etmişdi [2]. “Cənubi Qafqazda Rusiya-Ermənistan-İran oxu”na cavab olaraq Türkiyə Baş qərargahı Azərbaycan və Gürcüstanla strateji münasibətlər qururdu.

Rusiyanın hərbi müdaxiləsi həm də təhlükə və sabitliyi pozan amil kimi görünürdü. Öz növbəsində, iranlılar Türkiyənin Cənubi Azərbaycanda yaşayan azərbaycanlılar arasında narazılığı oyatmaq üçün Bakı hökumətini təşviq edəcəyindən narahat idi. Əslində, Şimali və Cənubi Azərbaycanın yenidən birləşməsini müdafiə edən Elçibəy İrandan razı deyildi. İranlılar həmçinin Türkiyənin Əliyevlə sıx əlaqələrindən razı deyildi. Potensial Türkiyə təhlükəsinə qarşı tarazlıq yaratmaq üçün, onlar Rusiya və Ermənistan ilə sıx əlaqələr yaratmışdılar. Ermənistana gəldikdə, Dağlıq Qarabağda atəşkəsin imzalanmasına qədər Ermənistan və Türkiyə ordusu toqquşma astanasında idi. Rusiyanın müdaxiləsi sayəsində bu toqquşmanın qarşısını almaq mümkün oldu. Türkiyə tərəfinin rəyinə görə, Ermənistan aydın surətdə təcavüzkar idi. Ankara da Azərbaycan ərazisində ermənilərin hücumuna Rusiyanın birbaşa hərbi yardımı ilə bağlı şübhələndiyini dilə gətirmişdi. Türkiyə qarşısında ermənilərin qorxusu onların Rusiya hərbi kontingentini və sərhəd qoşunlarının iştirakını genişləndirmək üçün razılığına səbəb oldu.

1997-ci ildə Rusiya və Ermənistan dostluq, əməkdaşlıq və qarşılıqlı yardım haqqında saziş imzaladılar. Hər iki tərəf üçüncü tərəfdən təcavüz olduqda bir-birinə yardım edəcəklərinə vəd etmişdi. Bu sazişin Türkiyəyə qarşı yönəldildiyi məlum oldu. Türkiyənin ənənəvi rəqibi Yunanıstan da Ermənistan və İranla əlaqələrini inkişaf etdirirdi. 1997-ci ildən başlayaraq üç ölkənin xarici işlər nazirləri hər il birgə görüşlər keçirirdilər. 1996-cı ildə Afinaya səfəri zamanı Ermənistanın müdafiə naziri hərbi müqavilə imzaladı. Türkiyə Xarici İşlər Nazirliyinin nümayəndəsi Yunanıstanın Türkiyəni hər tərəfdən mühasirəyə almaq niyyətində olduğunu bildirmişdi. O, həmçinin bu gücün NATO-nun himayəsi altında olan “Sülh naminə tərəfdaşlıq” proqramı çərçivəsində formalaşdığını təklif etmişdi” [4, s.58].

Azərbaycan və Gürcüstanda professional ordu yaratmaq ideyasını ilk dəfə olaraq Türkiyə Baş qərargahı dəstəkləmişdi. Hələ 1991-ci ilin başlanğıcında Azərbaycan və Türkiyə arasında diplomatik münasibətlər qurulmamışdan əvvəl Baş qərargah komandiri Güreş Bakıya səfər etmişdi. Bu səfər Azərbaycan Ordusunun dəstəyi üçün böyük əhəmiy-

yət kəsb edirdi. Bununla bağlı Ermənistanın müdafiə nazirinin müavini Azərbaycanı raket sistemləri ilə təchiz etməkdə Türkiyəni ittiham etdi. Daha sonra 1992-ci ildə təxminən 100 böyük və təqaüddə olan türk zabitləri məsləhətçi kimi Azərbaycana gəldi. Azərbaycan zabitləri 1992-ci ildən Türkiyə hərbi məktəblərində təhsil alırdı. 1998-ci ilin fevralında Vaşinqtonda nitq söyləyərkən Baş qərargah komandirinin müavini general Çevik Bir qeyd etmişdi ki, Mərkəzi Asiya və Qafqazdan 2300 kursantlar Türkiyə hərbi məktəblərinin məzunu olmuş və daha 1700 nəfər isə təhsillərini davam etdirmişlər [3].

Xarici İşlər Nazirliyi kimi, türk hərbçiləri Bakı-Ceyhan neft kəmərinin ilk növbədə strategiyasını əldə rəhbər tutaraq, onun inşasını dəstəkləyirdilər. Hərbi təlim və texniki yardım haqqında ikitərəfli müqavilələr ilə yanaşı, Türkiyənin hərbçiləri Azərbaycan və Gürcüstanla NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını inkişaf etdirməyə hazır idilər.

Sovet İttifaqının dağılmasından sonra, NATO Cənubi Qafqaz ölkələri ilə əlaqələr yaratdı və genişləndirdi. Xarici İşlər Nazirliyi və Türkiyənin Baş qərargahı NATO-nun Cənubi Qafqaz siyasətinin önündə olmağa çalışırdı. Türkiyə hərbçiləri "Sülh naminə tərəfdaşlıq" proqramı çərçivəsində Azərbaycan və Gürcüstan hərbçilərinə təlim keçməyə razılıq verdilər. Türkiyənin iştirakını həyata keçirərək, NATO 1998-ci ildə Ankarada "Təhsil komandirləri Mərkəzi" açdı[208]. 1999-cu ilin ortalarına bu mərkəzin proqramının 16 kursunda Cənubi Qafqaz ölkələri daxil olmaqla 28 ölkədən 313 iştirakçı iştirak edirdi.

NATO-nun o zamankı baş katibi Xavyer Solana 1997-ci ilin fevralında və 1998-ci ilin sentyabr-oktyabr aylarında Cənubi Qafqaza səfər etdi. İlk səfəri zamanı o qeyd etmişdi ki, Qafqaz ölkələri Avropanın təhlükəsizliyindən nə qədər kənarda qalarsa, Avropa bir o qədər tam təhlükəsiz olmayacaq. Ermənistan, Azərbaycan və Gürcüstan NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramını həyata keçirməyə razıdırlar. NATO Cənubi Qafqaz dövlətlərinin hər biri üçün fərdi yaradılmış zabitlərin hazırlanması, hərbi təlimlər, hərbi və mülki əməliyyatlar, eləcə də silahlı qüvvələrin müasirləşdirilməsi proqramlarını təklif edir. Bu proqramlar Azərbaycan və Gürcüstanın Qafqaz işlərinə NATO-nun daha aktiv cəlb olunmasına sövq etmələrinə baxmayaraq, təhlükəsizlik zəmanəti vermir.

Digər misal 1999-cu ildə Kosovoya Türkiyə sülhməramlıları ilə Azərbaycan taqımının çıxarılmasıdır. 1999-cu ilin ortalarında Türkiyənin Azərbaycana hərbi qüvvələrin modernləşdirilməsi üçün 3,5 milyon dollar ayırdığı bildirilmişdi. 2000-ci ilin may ayında Türkiyə hakimiyyəti Azərbaycan hərbçilərinə 3.1 milyon dollar dəyərində maddi yardım ayrılmasına razılıq vermişdi.

Türkiyənin hərbi ticarətinə gəldikdə, Azərbaycan Türkiyə silahı üçün bazar yaradan 18 ölkədən biridir. Türkiyə hərbi və mülki nəqliyyat vasitələri, aviyonik, raketlər və kiçik silah istehsal edir və hərbi sənayeni genişləndirməyə ümid edir. 1998-ci ilin aprel ayında Ankaraya səfəri zamanı Azərbaycan Silahlı Qüvvələrinin komandanı Türkiyəyə ABŞ-nın lisenziya ilə istehsal olunan F-16 döyüş təyyarəsini Azərbaycana satmaq üçün təklif etmişdir.

Türkiyə və Gürcüstan hərbi əməkdaşlığı məhz 1998-ci ilin mayında Gürcüstanın müdafiə naziri, general-leytenant David Tevzadze təyin olunandan sonra davam edə bildi. Onun varisi, Sovet Ordusunda 35 il xidmət edən keçmiş komandir müavini, Cənubi Qafqazda Rusiya Qüvvələri Qrupunun silahlandırılmasına məsul olan general-leytenant Varden Nadibaidze müdafiə naziri vəzifəsini yerinə yetirdiyi zaman Türkiyə və Gürcüstan silahlı qüvvələri arasında "BMT-nin tələblərinə uyğun olaraq" suverenlik və ərazi bütöv-

lüyü ideyasını dəstəkləməyə heç bir tərəfdən vəd verilməmişdi.

Bu mövqe Rusiyanı da qane etmirdi. Hələ 1998-ci ildə Türkiyə Gürcüstanın müdafiə ehtiyacına 5,5 milyon dollar vermişdi. 1999-cu iyununda və 2000-ci ilin aprelində Türkiyə hakimiyyəti öz gürcü həmkarlarına Gürcüstan ordusunun müasirləşdirilməsinə müvafiq olaraq 1,7 və 4 milyon dollar verdi. Bundan əlavə Türkiyə Gürcüstanın dəniz donanmasının ixtiyarına iki patrul vermişdi. 1997-ci ilin mayında Ankaraya səfəri zamanı Gürcüstan Parlamentinin Müdafiə və Milli Təhlükəsizlik Komitəsinin sədri Revaz Adamia cəsarətlə Abxaziyada Rusiyanın başçılıq etdiyi yeni sülhməramlı qüvvələrinin yerləşdirilməsi missiyası əvəzinə Türkiyənin kömək edə bilcəyini ifadə etmişdi. Lakin Şevardnadze Tokioda 1996-cı ildə çıxışı zamanı Türkiyə və Gürcüstan arasında hərbi əməkdaşlığın Gürcüstan ərazisində Türkiyənin hərbi bazalarının yaradılmasına xidmət etmədiyini bildirmişdi. Rusiya Gürcüstanın kiçik bir hərbi kontingentinin türk sülhməramlıları ilə birlikdə fəaliyyət göstərdiyi Kosovoya öz müşahidəçilərini göndərərək reaksiya verdi.

Türk hərbçiləri, prinsipcə, Gürcüstan və Azərbaycanın müdafiəsi üçün öz öhdəliklərini Xarici İşlər Nazirliyinə təqdim etmək üçün təzyiq göstərmirdilər. Əks halda, Xarici İşlər Nazirliyinə təzyiq yəqin ki, Rusiya Federasiyası ilə uzunmüddətli qarşıdurmaya səbəb olardı. Buna baxmayaraq, Cənubi Qafqazda Gürcüstan ilə hərbi əməkdaşlıq baxımından, Türkiyənin hərbi və Xarici İşlər Nazirliyi NATO-nun siyasi maraqları və öhdəliklərinə uyğun olaraq öz planlarını həyata keçirməyə üstünlük verirdilər.

Türkiyənin “güclü dövlət”in əlində cəmləşdiyi bir ölkə kimi təmsil olunduğuna baxmayaraq, orada hələ də vətəndaş cəmiyyəti uğurla inkişaf edir. Müxtəlif özəl televiziya və radio stansiyaları fikir və mülahizələrin geniş çeşidini təklif edirlər. Özəl firmalar və assosiasiyalar sahibkarlıq fəaliyyətini aktivləşdirirlər. Bütün bunlar, xüsusilə enerji ilə bağlı məsələlərdə Qafqazla əlaqədar Türkiyənin xarici siyasətinə təsir edirdi.

Məsələn, Türkiyənin ətraf mühitlə bağlı təşkilatları Boğaziçidən keçən tankerlərin sayının artmasının ətraf mühitə təhlükə gətirəcəyi ilə əlaqədar bir neçə etiraz yürüşləri təşkil etmişdilər. Bunun qarşısını almağın yeganə yolu Xəzər neftinin əsas ixrac marşrutu ola bilən Bakı-Ceyhan neft kəmərinin tikilməsi idi. Hökumət kənarda qalmağa üstünlük verdiyi kimi, Bakı-Ceyhan layihəsini dəstəkləyən rəsmi şəxslər belə nümayişə mane olmurdular.

Lakin, bu məsələ ilə bağlı Rusiya-Türkiyə münaqişəsi dərhal gərginləşdi. Rusiya onun maraqlarına zidd olan hər hansı bir boru kəməri layihəsini rədd edirdi. O, Aralıq dənizinə İstanbul və Çanaqqala vasitəsilə Xəzər neftinin nəqli üçün əsas terminalın Novorossiyskin xeyrinə razı olurdu. Türkiyə ekoloji təhlükəsizlik səbəbləri ilə bağlı bu variantı qəbul edilməz hesab edirdi. Şübhəsiz ki, Türkiyənin ekoloji riskə söykənməsi əsasən öz alternativ enerji marşrutları müdafiə etmək arzusu ilə izah olunurdu. Amma Türkiyənin tələblərinə qarşı Rusiya dərhal bu halda ətraf mühit probleminin kifayət qədər ciddi olduğuna işarə etdi. Bosforun suları artıq ölüdür və dəniz quşlarının Boğaziçidən keçən tankerlərdən axan neftə bürünməsi heç kimi təəccübləndirmir. 1993-cü ilin iyununda Azərbaycanda hakimiyyətin və siyasət kursunun dəyişikliyi ilə əlaqədar H.Əliyev Elçibəyin Qərbin neft şirkətləri ilə müqavilələrini ləğv edərək, Rusiyanın xeyrinə nəqliyyat layihələrinə düzəlişlər etmişdi. Əliyevin rəhbərliyi altında Amerikanın AMAKO, Pennzoil, UNOCAL və McDermott, Britaniyanın BP, Norveçin Statoil, Türkiyənin TPAO və Azərbaycanın ADNŞ kimi şirkətlərindən ibarət yeni bir konsorsium yara-

dılmışdı.

Münaqişədə “daha balanslaşdırılmış mövqe”ni qəbul etmək üçün Rusiyanı razı salmaq üçün Rusiya neft maraqlarını nəzərə almaq tələb olunurdu. Nəticədə, Lukoil Azərbaycanın üç iri neft yataqlarının istehsalından 10% qazanmışdı. Bosfor boğazından keçən Rusiya gəmilərinə qadağa qoyulması üçün Türkiyə 1936-cı ilin Montrö Konvensiyasının dəyişdirilməsi ilə cavab verdi. Türkiyə Nəqliyyat Nazirliyi və Türkiyənin neft şirkətinə Bosforun dənizçiliyi üçün yeni qaydaların hazırlanması tapşırıldı.

Layihələrin hər hansı birinə – “Mavi axın” və ya Transxəzər qaz kəmərinə – üstünlük verməklə əlaqədar Cənubi Qafqazda Türkiyə-Rusiya münasibətlərində kəskin ziddiyyətlər şiddətləndi. Bir tərəfdən, Rusiya lobbisi, Türkiyə Energetika Nazirliyi və ANAP-ın lideri Yılmaz (o cümlədən Energetika naziri Ersumera) daxil olmaqla onun aparıcı üzvləri ticarət-iqtisadi mülahizələrə əsasən “Mavi axın” layihəsini sürətləndirdilər. Digər tərəfdən, Türkiyə Xarici İşlər Nazirliyi və türk hərbçiləri siyasi və strateji məqsədlər üçün, ABŞ-ın dəstəklədiyi Transxəzər qaz kəmərinə daha çox diqqətin artırılmasında israr etdilər. 1999-ci ilin oktyabrında Türkiyənin baş naziri Rusiya lobbisinin tələblərinə güzəştə gedən kimi FP müavini Abdullah Gül Yılmazdan “Mavi axın” işi üzrə araşdırma aparılmasını tələb etdi. FP-nin başqa bir müavini Veysel Çandan Hazinedaroğlu-Öztaş şirkətinin Türkiyə ərazisindən keçən “Mavi axın”ın quru hissəsinin tikintisi üçün hökumətdən 50 milyon dollar məbləğində kredit alması ilə bağlı şikayət etdi. 1999-cu ilin oktyabrında Türkmənistanın prezidenti Niyazov Yılmaz ilə birlikdə “Mavi axın” layihəsinin həyata keçirilməsini sürətləndirmək üçün Moskvaya gedən Türkiyənin Energetika naziri Ersumerom ilə görüşdən imtina etdi.

2000-ci ilin yazın əvvəlində Transxəzər layihəsi böyük çətinliklərlə qarşı-qarşıya gəldi. Niyazov maliyyə məsələləri üzrə PSG-Shell konsorsiumu ilə əlaqə qura, Shell və Türkmənistan Hökuməti arasında saziş imzalaya bilmədi, layihənin reallaşdırılması üçün əlavə sahələrin inkişaf etdirilməsi ehtiyacı olduğundan müvəqqəti olaraq təxirə salındı. Xəzərin bəzi neft yataqlarının mülkiyyət hüquqları ilə bağlı Türkmənistan və Azərbaycan arasında mübahisə də həll olunmamış qaldı. Etiraz əlaməti olaraq, Niyazov 2000-ci ilin aprelində Bakıda keçirilən Türk sammitini boykot etdi. Xəzərin Azərbaycan sektorunda iri qaz yatağı Şahdənizin kəşfi vəziyyəti daha da ağırlaşdırdı. Azərbaycan rəhbərliyi Azərbaycan ərazisindən keçən və 30 milyard kub.m. tutumu olan Trans-Xəzər qaz kəmərinin Azərbaycan qazının 15 milyard. kub.m. sövq edilməsində israrlı idi. Sonra Niyazov Rusiya və İran rəsmiləri ilə onların ölkələrinə türkmən qazının tədarükü ilə bağlı danışıqlara başladı. Rusiya ilə saziş Trans-Xəzər layihəsinin dağılması demək idi. Nəticədə Türkiyə bunda az itirirdi: çünki Qara dənizin dibindən boru kəməri vasitəsilə Türkmənistandan qaz idxal etmək daha yüksək qiymətə başa gələrdi. Lakin, Türkmənistan və Rusiya qazın tədarük qiyməti barədə razılığa hələ də gəlməmişdi. 2000-ci ilin mayında Aşqabaddakı görüşdə Putin və Niyazov bu məsələ ilə bağlı razılığa gələ bilmədilər, lakin prinsip etibarı ilə şərti olaraq razılaşdırıldı ki, Rusiya əlavə olaraq hər il 10 milyard kub.m. Türkmənistan qazını alacaq, nəticədə bu rəqəmi 50-60 milyard kub.m. qədər çatdıracaq.

Türkiyəyə gedən və ya onun vasitəsilə keçən qaz kəmərinin tikintisi üçün güclü daxili və çoxmillətli koalisiya qruplarının hər biri öz layihəsinə təkan verirdi. Məhz bu səbəbdən, “Mavi axın” və Trans-Xəzər boru kəməri layihələri əsas rəqiblər oldular. Trans-Xəzər boru kəməri tikintisi layihəsinə lobbiçilik edənlərin hamısını, o cümlədən, ABŞ administrasiyası, bəzi ABŞ şirkətləri, türkdilli dövlətlərin əsas liderləri, Türkiyə Xarici İş-lər Nazirliyi, türk hərbçiləri və digər orqanları da daxil olmaqla, əsasən siyasi və təhlükə-

sizlik məsələləri maraqlandırırdı. Bundan əlavə, bu qrupların hamısı prezident Niyazov istisna olmaqla, Şahdəniz qaz kəmərinə qoşulmağa hazır idilər. Digər tərəfdən, Rusiya hökuməti, Qazprom, Türkiyə iş dairələrinin bəzi nümayəndələri, Türkiyə Energetika Nazirliyinin əsas rəsmiləri, BOTAŞ şirkəti, həmçinin ANAP-ın nüfuzlu üzvləri öz səslərini "Mavi axın"a verdilər. Bundan əlavə, Enerji Nazirliyi, BOTAŞ və digər Türkiyənin inşaat şirkətləri İran-Türkiyə qaz kəmərinin tikintisinin tamamlanması üçün lobbiçilik edirdilər.

Hazırda iş həm "Mavi axın", həm də İran-Türkiyə qaz kəmərinin üzərində gedir. Beləliklə, Türkiyənin ayrı-ayrı boru vasitəsilə qaz almağı mümkün olacaq, lakin o, ilk növbədə Azərbaycan tərəfi ilə alqı-satqı şərtləri barədə danışıqlar aparmalıdır. Türkiyə Xarici İşlər Nazirliyi və hərbçiləri ümüd edirlər ki, onlar tezliklə Azərbaycandan qaz almağa başlayacaqlar ki, bu da Türkiyənin Rusiyadan asılılığını xeyli azaldacaq.

Davam edən Dağlıq Qarabağ münaqişəsi neft kəməri layihəsində bəzi dəyişikliklər etdi. Türkiyə Xarici İşlər Nazirliyi və BOTAŞ və TPAO dövlət şirkətləri 1994-cü ilin avqustun 4-də keçirilən konfransda bəyan etmişdi ki, Gürcüstan vasitəsilə Türkiyəyə boru kəməri layihəsi Azərbaycanda fəaliyyət göstərən neft şirkətləri ilə təsdiq edilmişdir, Ermənistan vasitəsilə tranzit ideyası Dağlıq Qarabağda davam edən münaqişə ilə bağlı öz aktuallığını itirib.

Həmin konfransda Türkiyə rəsmiləri İstanbul boğazlarından ağır tankerlərin keçməsinin ekoloji təhlükəsizliyə təhdid olduğunu təkrarladılar. Bosfor vasitəsilə hər il təxminən 5 milyon ton xam neft aparılır, lakin bu rəqəmlər Azərbaycan və Qazaxıstan neftinin nasosla çəkilməsi nəticəsində 45 və ya 50 mln. ton ola bilər. 1993-cü ilin avqustunda Tansu Çillər boğazlardan gəmilərin hərəkəti üçün daha ciddi qaydaların tətbiq edilməsinə ehtiyac olduğunu izah etmək üçün Almaniya, Amerika Birləşmiş Ştatları və Rusiya səfirlərini qəbul etdi. O, Rusiya səfiri Şerşnevə Montrö Konvensiyası dövründən bəri vəziyyətin kəskin şəkildə dəyişdiyini bildirmişdi. 1993-cü ilin avqustunda "Hürriyət" qəzetinə müsahibəsində Şerşnev Türkiyə üçün çox həssas olan Bakı-Ceyhan boru kəmərinə mümkün təhlükə kimi "kürd amil"ini qeyd etmişdi. Bu, Rusiya tərəfindən xəbərdarlıq əlaməti idi. 1993-cü ilin yayında Moskva və Ankara arasında münasibətlərin Azərbaycanın (və Qazaxıstanın) neft sərvətinin hasilatı və nəqli baxımından getdikcə mühüm elementə çevrilməsi aydın oldu. İran ərazisindən Türkiyəyə boru kəmərinin çəkilməsini soyuq qəbul edən Qərb şirkətləri üçün təhlükəsizlik təminatı mühüm əhəmiyyət kəsb edirdi. Türkiyə rəsmilərinə görə, Cənubi Qafqazdakı, xüsusilə Ermənistan və Azərbaycan arasındakı münaqişə sıx neft maraqları ilə bağlı idi. Məhz buna görə də Moskva dünya bazarlarına neftin nəql edilməsində Qərb şirkətləri ilə danışıqlarda Cənubi Qafqazda qeyri-sabitlik amilini əsas dəlil kimi istifadə edə bilərdi.

Rusiya üçün onun limanlarını neft emalı terminalları kimi davamlı istifadəsi Rusiyanın yeni neft hasil edən dövlətlərin asılılığını gücləndirmək üçün bir səbəb oldu. Türkiyə alternativ kəmər layihələrinə lobbiçilik edərək, Rusiyanın iqtisadi gücünə meydan oxuyurdu, Ankaradan fərqli olmayaraq çıxılmaz vəziyyətdə olan Moskvanın isə neft ticarətindən sabit valyutaya ehtiyacı var idi. 1994-cü ilin aprelində Kreml Xəzər regionunda hər hansı bir yeni mədən layihəsi üzərində veto hüququnu tələb etdi, o, bunu Rusiyanın razılığı olmadan bu mövzuda hər hansı bir müqavilənin imzalanmasının qeyri-qanuni ola biləcəyi ilə haqq qazandırırdı.

20 sentyabr 1994-cü ildə BP və Statoilin başçılıq etdiyi 9 nəfərdən ibarət konsorsium Azərbaycanın (Çıraq və Günəşli yaxınlığında) üç yatağının inkişaf etdirilmə-

sinə 30 il müddətində 8 milyard dollar ayrılması barədə razılığa gəldilər, ekspertlərin fikrincə, bu, 4 milyard barel demək idi. Azərbaycanın neft hasilatının üç dəfə artırılmasını nəzərdə tutan AMOKO şirkəti belə yaradılmışdır. Moskva dərhal Bakıda bu sazişin imzalanmasına etiraz etdi. Bu prosesə Rusiya şirkəti Lukoilun cəlb edilməsinə baxmayaraq, Rusiya Xarici İşlər Nazirliyinin nümayəndəsi Xəzər resurslarının ümumi istifadəyə aid olduğundan Rusiyanın həmin müqaviləni qanuni hesab etmədiyini bildirdi. Başqa sözlə, Rusiyanın razılığı olmadan heç bir müqavilə bağlana bilməzdi.

Qeyd etmək lazımdır ki, uzun müddət dünya bazarlarına Xəzər dənizindən neftin çatdırılması sualı açıq qalmışdı. Türkiyə boğazlarından yan keçmək və Türkiyənin yeni dəniz rejiminin tətbiqinin nəticələrini neytrallaşdırmaq üçün, Rusiya öz mənşəyini Bolqarıstanın Qara dənizdəki Burqas limanından götürən və yunan limanı Aleksandrupolisə kimi çatan trans-Balkan boru kəmərinin yaradılması planı ilə çıxış etdi. Bu layihə çərçivəsində tankerlər artıq yeni boru kəməri ilə nefti Novorossiyskdən Burgasa, orada da Aleksandrupolisə daşıyacaqdı.

1994-cü ilin iyulunda Rusiya mətbuatında Qarabağ üçün təklif olunan Rusiyanın sülh planının imzalanmasına razılıq verməyən Əliyevin vəzifəsindən kənarlaşdırılacağı haqqında mümkün şayiələr yayılmağa başladı. Bundan əlavə, o, hələ də neft məsələsi ilə bağlı öz mövqeyini açıqlamamışdı. Rusiya qəzetlərinin ehtimal etdiyinə görə, əvvəlki dövlət başçısı Ayaz Mütəllibovun hakimiyyətə qaytarılması Rusiyanın maraqlarına daha çox uyğun gəlirdi. Buna cavab olaraq, Əliyev, Bakının Qərbdən ticarət və iqtisadi asılılığını zəiflətmək üçün tez bir zamanda Səudiyyə Ərəbistanı, Oman və İran kimi müttəfiqlərin axtarışına başladı.

Başqa bir, bəlkə də ən ciddi problem Xəzər dənizinin hüquqi statusu haqqında dövlətlər arasında fikir ayrılığının olmasıdır. Beş Xəzəryanı dövlət Xəzər dənizinin bölünməsi prinsipi və onun mineral və bioloji resurslardan istifadə ilə bağlı hələ də razılığa gələ bilmir.

Türkiyə qətiyyətlə Azərbaycan tərəfi dəstəkləyir, Rusiya isə təkid edir ki, Xəzər dənizinin hüquqi statusu aydın surətdə müəyyənləşmədən, onun enerji resurslarını hasil etmək üçün hər hansı müqavilələrin imzalanması barədə söhbət gedə bilməz. Məhz bu səbəbdən, Rusiya Xarici İşlər Nazirliyi 1994-cü ildə Azərbaycan neftinin Qərb şirkətləri ilə sazişinin imzalanmasından dərhal sonra legitimliyini qəbul etmədi.

1990-cı illərin sonunda Qazprom Rusiyadan Gürcüstana olan qaz kəmərinin genişləndirilməsi və uzadılması problemi ilə Gürcüstan hökumətinə təzyiq etdi. Beləliklə, Rusiya təbii qazının əlavə milyard kubmetri Türkiyəyə "şərq marşrutu" üzrə daxil olardı. Qeyd edildiyi kimi, BOTAŞ nümayəndələri Cənubi Qafqaz qaz boru kəməri ilə Rusiya qazının deyil, Türkmənistan qazının nəqlini çoxdan müdafiə edirdilər. Əks halda "şərq yolu"nun istismara verilməsi Gürcüstan vasitəsilə Türkiyəyə Türkmənistan və Azərbaycan qazının ötürülməsi planlarını məhv edə bilərdi. Türkiyə, əlbəttə, bu layihədə maraqlı deyildi.

Nəticədə, xüsusilə Türkiyənin öz himayəsi altında türk dövlətlərini sıx əməkdaşlıq ideyası ilə həvəsləndirməsi kimi uğursuz təşəbbüsündən sonra boru kəmərləri məsələsi Türkiyənin xarici siyasətində əsas rol oynamağa başladı və bu məsələ ilə bağlı Rusiya ilə rəqabət Cənubi Qafqazda Türkiyənin fəallaşmasının həlledici amilinə çevrilmişdi. Məsələnin əhəmiyyəti həm də ondan ibarət idi ki, kəmər layihəsinin müvəffəqiyyətlə baş tutması, Türkiyə üçün əslində öz strateji mövqeyini və nüfuzunu bərpa etmək üçün bir şans idi. Bundan başqa, belə kəskin davranış Türkiyənin daxili bazarında enerjiyə artan

ehtiyacları ilə izah olunurdu. Burada həmçinin Qərbin, xüsusilə də ABŞ-ın dəstəyini nəzərə almaq lazımdır. Qərb ölkələrinin Bakı-Ceyhan neft boru kəmərinə marağı bu marşrutun Avropanın enerji ehtiyacını azaltmağa imkan verəcəyi ilə şərtlənirdi.

**Ədəbiyyat**


1. Felgenhauer P. Russian-Turkish Military Relations: much mutual respect, but many misgivings." II Insight. Turkey, Volume 4, Number 2, April-June 2002, p.41
2. Turkish Daily News, 1 June 1994
3. Turkey's Role in the New World Order: New Challenges, speech by General Cevik Bir at the Institute for National Strategic Studies, National Defense University, Washington, DC, Strategic Forum, No. 135, February 1998
4. Winrow G.M. Turkey and the Caucasus: Domestic Interest and Security Concerns. London: The Royal Institute of International Affairs Press, 2000


## CONTRADICTIONS OF TURKISH-RUSSIAN RELATIONS IN THE SOUTH CAUCASUS

**M.A.Ozen**

**SUMMARY**

This article deals with the Russian-Turkish contradictions in the South Caucasus. The main attention is paid to the military confrontation between the two countries in this region. The author also discusses the main factors which could strengthen the political and economical role of Turkey in the countries of South Caucasus.

## ПРОТИВОРЕЧИЯ В ТУРЕЦКО-РОССИЙСКИХ ОТНОШЕНИЯХ НА ЮЖНОМ КАВКАЗЕ

**М.А.Озен**

**РЕЗЮМЕ**

Статья посвящена российско-турецким противоречиям на Южном Кавказе. Главное внимание уделено военному противостоянию двух стран в данном регионе. Автор также рассматривает некоторые наиболее значимые факторы усиления политической и экономической роли Турции в странах Южного Кавказа.

ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ
THE SCIENTIFIC AND PEDAGOGICAL NEWS OF ODLAR YURDU UNIVERSITY

2017 - № 47

# СЕРБСКО-КОСОВСКИЕ ОТНОШЕНИЯ ПОСЛЕ СУВЕРЕНИЗАЦИИ КОСОВО И МЕЖДУНАРОДНЫЕ ОРГАНИЗАЦИИ

**Н.Р.Юсубова**
Бакинский славянский университет
Баку, улица Сулеймана Рустама 33
e-mail: yusubovan@gmail.com

***Açar sözlər:*** suverenlik, beynəlxalq təşkilatlar, Serbiya, Kosovo, Aİ, Haşim Taçi, İvitsa Daçiç
***Keywords:*** sovereignty, international organizations, Serbia, Kosovo, EU, Hashim Thaci, Ivica Dacic
***Ключевые слова:*** суверенизация, международные организации, Сербия, Косово, ЕС, Хашим Тачи, Ивица Дачич

В 2008-2012 гг. никаких официальных взаимоотношений между Косово и Сербией не наблюдалось. Сербия практически лишилась возможности каким-либо образом влиять на внутреннюю обстановку в Косово.

Однако в последующие годы Сербия не встала на путь конфронтации с ЕС, а взяла курс на сближение и сотрудничество с ЕС, и это открыло ей путь к интеграции с ЕС. Самое главное то, что в следующие несколько лет диалог между двумя правительствами становится всё более активным при посредничестве Евросоюза. Так, в феврале 2012 года Сербия договорилась с Республикой Косово о ее статусе. Представители Белграда и Приштины подписали в Брюсселе договор, согласно которому Сербия признаёт за отделившейся от нее республикой право участвовать в региональных организациях на Балканах. Кроме того, стороны договорились совместно охранять спорную границу. В ЕС назвали эти соглашения «большим шагом вперед» (14).

Учитывая конструктивную позицию Сербии, в октябре того же года Еврокомиссия рекомендовала предоставить Белграду статус официального кандидата в ЕС, однако на декабрьском саммите решение по этому вопросу принято не было (16).

19 апреля 2013 г. в Брюсселе премьер-министр Сербии Ивица Дачич и премьер-министр Косово Хашим Тачи парафировали соглашение «О принципах нормализации двусторонних отношений» Белграда и Приштины при поддержке ЕС. Согласно договору, в Косово будет упразднена параллельная система власти (старые сербские структуры, подчиняющиеся Белграду и не признающие юрисдикции Приштины). Сербия обязалась расформировать нелегальные и параллельные силовые структуры на севере Косово (12). Другими словами, соглашение предусматривало формирование нового единого сообщества/ассоциации сербских общин Косово, которое должно было контролировать области экономического развития, образования, здравоохранения, городского и сельского хозяйств. Согласно тексту соглашения, Белград признавал действительность на всей территории Косово и Метохии полномочий и прав полиции Косово и его Министерства внутренних дел, судебной и административной систем Приштины. Однако в сербской части города Косовска-

Митровица должен был быть учрежден особый окружной суд (пункты 1-8, 10) (7).

Косово пунктом 9 договора признало расширенные права косовских сербов: «Будет действовать Полицейский региональный командующий для четырех северных районов с сербским большинством (Северная Митровица, Звечан, Зубин Поток и Лепосавич). Командующий должен будет быть косовским сербом, назначенным Министерством внутренних дел из списка, составленного четырьмя главами администраций от имени Ассоциации/Сообщества районов. Состав Косовской полиции на севере будет отражать этнический состав населения четырех районов (будет назначен другой Региональный командующий для районов Южная Митровица, Скендерай и Вучитрин). Региональный командующий четырех северных районов будет сотрудничать с другими региональными командующими» (7).

В пункте 11 предусмотрено проведение в 2013 году при поддержке ОБСЕ выборов в руководство сербских муниципалитетов. В договоре переформулирован пункт 14, который касался членства Косово в международных организациях: «Достигнуто соглашение, что ни одна из сторон не будет блокировать или просить другие стороны блокировать в их прогрессе на пути в ЕС». Для реализации соглашения должен быть сформирован совместный комитет при поддержке ЕС (7).

Генеральный секретарь НАТО также приветствовал соглашение о нормализации между Белградом и Приштиной: «это соглашение является крупным шагом к региональному миру и безопасности. И оно придаст новый импульс евроатлантической интеграции Западных Балкан, что является нашим общим видением» (1).

Как правильно отмечал Генеральный секретарь в своем докладе, «достигнутые в рамках диалога результаты позволяют заложить основу для долгосрочной нормализации отношений между Белградом и Приштиной» (4). Так, сразу после подписания этого соглашения между властями двух стран начали проходить регулярные совещания с целью содействия его осуществлению. После назначения в июне месяце косовского серба из северного района Косово на пост начальника региональной полиции этого района 20 августа был объявлен состав группы под его руководством, включая косовского албанца из южной части в качестве его заместителя. 11 июля Скупщина Косово одобрила пересмотренный вариант законопроекта об амнистии с целью облегчения перехода квалифицированных сотрудников полиции сербского министерства внутренних дел в северной части Косово в полицию Косово (9).

17 июня Высший судебный совет Сербии принял решение о том, чтобы три сербских суда, действующих в Косово, прекратили получать новые дела в преддверии полного осуществления элементов соглашения от 19 апреля, касающихся судов. Положения о функционировании единой судебной системы Косово, подробно изложенные как в вышеупомянутом соглашении, так и во всеобъ-лющих имплементационных договоренностях от 22 мая, потребуют существенных дополнительных усилий обеих сторон, для того чтобы они могли быть полностью реализованы. Во время пятнадцатого раунда встреч в Брюсселе 27 августа, премьер-министр Дачич и премьер-министр Тачи обсудили комплексные вопросы телеком-муникаций и энергетики – темпы прогресса в отношении которых невелики – и договорились о том, что обсуждения продолжатся на техническом уровне (9).

3 ноября в Косово состоялись выборы мэров и членов общинных скупщин. В соответствии с соглашением от 19 апреля выборы прошли в четырех северных общинах Косово (Лепосавики/Лепосавич, Северная Митровица, Зубин-Поток и Звечани/Звечан) (3).

***Ключевые слова:*** социально-психологические качества, нравственность, гуманизм, психология

Şəxsiyyətin ən mühüm əxlaqi, sosial, mənəvi-psixoloji keyfiyyətlərindən biri də humanizmdir. Dünyaya fərd kimi gələn insan tədricən ictimai təcrübəni mənimsəyərək, daşlı-kəsəkli yollar keçib şəxsiyyətə çevrilir. Və bir şəxsiyyət olaraq, sonradan cəmiyyətə özünün kamilliyi, əqli düşüncəsi, sosial-psixoloji keyfiyyətləri, tutduğu vəzifəsi ilə xeyir verir. Təsadüfi deyil ki, dünyanın dahi mütəfəkkirləri insanı “təbiətin tacı”, “yer üzünün əşrəfi”, “yaranmışların ən əzəmətlisi” və s. adlandırmaqla yanaşı, eyni zamanda onu “mürəkkəblərin mürəkkəbi”, “sirlərin ən dərini”, xüsusi mikroaləm”, “çətin oxunan müqəddəs kitab” hesab etmişlər. Görkəmli yazıçı Mark Tven haqlı olaraq yazır ki, “hər insan aya bənzər, onun görünməyən, işıq düşməyən tərəfi vardır ki, onu heç kəsə göstərmir və ancaq özü görə bilir”. Freytaqa görə, “Hər bir insanın qəlbində onun xalqının miniatür portreti vardır”. Novalinin fikrincə isə, “İnsan günəş, hissləri isə onun planetləridir”. İnsanın şəxsiyyətə çevrilməsi onun əqli xüsusiyyətləri, intellektual bacarığı, öz qürür və ləyaqətini, humanizmi (ədalət, vicdan, səmimiyyət, yaxşılıq, xeyirxahlıq, sadəlik, təvazökarlıq) gözləməsi ilə bağlıdır. “İnsanın mənəvi ehtiyacları, mənəvi qüvvələri, kamalı, fəzilətinin şərafəti, fikir və əqli, şüur və iradə vasitəsilə təmin və idarə olunur” (N.Tusi). Şəxsiyyətə xas bütün mənəvi-sosial, psixoloji keyfiyyətlər bir-biri ilə əlaqədardır. Ona görə də tam, bütöv şəxsiyyət bu sosial-əxlaqi keyfiyyətlərin hamısına malik olmalıdır. Əgər şəxsiyyət bu sifətlərin hamısına malik olmazsa, əgər o əxlaqi vəzifələrinin birini yerinə yetirib digərinə əməl etməzsə, o tam əxlaqlı hesab edilə bilməz və əxlaqca təkmilləşə bilməz. Bu əxlaqi-sosial, psixoloji keyfiyyətlər vəhdət halında insanın “mən”ində cəmləşəndə o, şəxsiyyət kimi özünü cəmiyyətə təqdim edir. Həmin əxlaqi sərvətlər cəmiyyətə onun mənində birləşəndə o mənən güclü, yenilməz, əyilməz olur. Belə şəxsiyyətlər cəmiyyətin simvoluna, idealına çevrilirlər. Təkcə mənsub olduğu xalqın deyil, bütün bəşəriyyətin övladı olurlar. İnsana xas olan bütün bəşəri və milli xüsusiyyətlər bir “mən”dən keçir.

Şəxsiyyət həmişə sadəliyi, səmimiliyi, xeyirxahlığı ilə seçilib. Səmimi, xeyirxah adam təbii, saf, əqidəcə möhkəm olur, nadan olmur. Üzük qaşı ilə tanındığı kimi, insan da səmimiliyi və humanistliyi ilə tanınır. Pərvanə şamın ətrafında fırlandığı kimi, insanlar da humanist, əliaçıq, ədalətli, mənəvi cəhətdən təmiz adamın başına fırlanır, ona inanır, güvənc yeri kimi baxırlar. Cəmiyyət, hər hansı bir dövlət, ailə, qrup, kollektiv humanizm üzərində bərqərar olur. Cəmiyyəti, bəşəriyyəti humanizmsiz təsəvvür etmək çətindir. Sə-

mimiyyət, humanizm olmayan ailə daimi olmur. Təhsil, tərbiyə də humanizmə əsaslanmalıdır. Humanizm təkamülün bütün mərhələlərində mövcüd olmuşdur. İnsan cəmiyyətinin inkişafını humanizmsiz, xeyirxahlıqsız təsəvvür etmək qeyri-mümkündür. Ailədə, təhsildə, istehsalatda, sənayedə və insan fəaliyyətinin bütün sahələrində humanizm amili özünü göstərir. Müasir Azərbaycan gənclərində insaf və ədalətli, xeyirxahlıq kimi dəyərlər hələ kiçik yaşlardan formalaşdırılmalıdır. Uşağın ilk vaxtlardan qəlbinə rəhm, səmimilik, qeyrət, əl tutmaq, kömək etmək kimi toxum səpilməlidir. Təsəvvür edin, kiçik uşağa qayğı göstərmədən o sənə yaxın gəlmir. Fikir verin, ailədə uşaq 3-cü sinifə gedir. Həmişə dərslərini babası ilə yerinə yetirmək istəyir. Soruşanda niyə belə, “baba mənim üstümə qışqırmır, dərslərimi sakit başa salır. Onunla özümü çox rahat hiss edirəm” deyir. Tarixə nəzər salsaq görərik ki, bütün formasiyalarda humanizm müxtəlif çalarlara malik olmuşdur. İbtiadi icma quruluşunda bərabərlik, birgəyaşayış dövründə insanlar təbii yaşamış və bir-birinə qayğı göstərmişlər. İbtaidai icma quruluşunun ikinci minilliyində artıq “mənim”, “sənin”, “bizim”, “sizin” anlayışları yarandığı gündən münasibətlərdə də fərqli yanaşmalar olmuşdur. Təbəqələşmə, qəbilə, tayfa yaranmağa başlamış və ictimai icma quruluşu dağılmış və münasibətlərdə də yeni əlamətlər yaranmışdır. Quldarlıq quruluşunda quldarlarla qullar arasında artıq humanizmdən söhbət gedə bilməzdi. Iş o yerə gəlib çıxmışdır ki, qulların quldarlara salam verməsi əxlaqsızlıq sayılır və bunu quldarlara qarşı hörmətsizlik kimi qəbul edirdilər. Feodalizm, kapitalizm, sosializm və müasir dövrlərdə də humanizm fərqli prizmalardan özünü göstərmişdir.

Azərbaycan dövlətinin özü humanist dövlətdir, öz vətəndaşlarının, döyüşçülərinin, hərbi işçilərinin, alim və elmi kadırlarının həmişə qayğısına qalır. Baxın, döyüş zamanı başından kantuziya almış Şabran rayonundan olan Yusıf Mirzəyev bilərəkdən və ya bilməyərəkdən öz qaynatasını və qaynını güllələdiyi üçün omürlük həbs cəzasına məhkum olur. Lakin, dövlətin humanizmliyinə bax, o həbsdə ola-ola, ona üç otaqlı mənzil və oğlan uşaqlarının dolanmaları üçün yüksək təqaüd verilir (həbs edilən adam vətəndaşlıq hüquququndan məhrum oldu, insanlıq hüququndan yox).

Azərbaycanda məcburi və köçkünlərinə olan dünyanın super gücə malik olan dövlətlərinin humanizmi göz qabağındadır. Öz elinə, obasına, qohumlarının qəbirlərini ziyarətə gedən Dilqəm Əsgərov, Şahbaz Quliyev həbs edilir. Dünyada demokratiyadan dəm vuran Avropa ölkələri susur və heç bir reaksiya göstərmirlər. Budur onların humanizmi... Amma tarixə nəzər salsaq, Azərbaycan ziyalıları, ədibləri, şairləri, görkəmli tarixi şəxsiyyətləri həmişə insanlığı göstərmiş və bütün millətlərə qayğı ilə yanaşmış və bu gün də həmin ənənəni davam etdirirlər. Azərbaycanlılar həmişə ermənilərə yaxşılıq edib, torpaq verib, çörək verib, yaxşlıq ediblər. Nəticədə isə onlar qeyri-insani davranaraq onları öz yurd yuvasından qovub didərgin salıblar. Bir çox insanları öldürüb, qocalara, qadınlara divan tutub,dünyada analoqu olmayan xocalı faciəsini törətmişdilər. Budur ermənilərin xisləti, vəhşiliyi, qeyri-insani hərəkətləri... Burada Azərbaycan xalqının “Arxalı köpək qurd basar” atalar sözünü demək lap yerinə düşür. Çoxdan gündəmdə olan lakin müasir dövrdə daha qlobal problemə çevrilən humanizm nədir? Nə üçün ona bu qədər önəm veririlər? bunun cavabı odur ki, artıq dünya xalqları görür ki, bir çox ölkələrdə humanizm demək olar ki, silinməkdədir. Artıq bıçaq sümüyə dirənib.

Humanizm başqa insanlara, onların əməyinə, fəaliyyətinə, şəxsiyyətinə hörmət üzərində qurulur. Şəxsiyyətin hərtərəfli inkişafının mühüm dəyərlərindən biri də humanistlikdir. Humanizm dedikdə həm də başqa insanların xoşbəxtliyi uğrunda mübarizə, onların istedad, bacarıq və yaradıclıq qabiliyyətlərinin üzə çıxarılması, inkişafı

üçün şərait yaratmaq, insanlar arasında səmimi münasibətlər yaratmaq da başa düşülür. Humanist münasibətlər bütün insanlara ictimai mövqeyindən asılı olmayaraq eyni bərabər hüquqlu şəxslər kimi baxmaq: insanların ehtiyaclarına diqqətli olub onlara kömək etmək: insanların qəlbinə dəyməmək – onlara qarşı diqqətli olmaq; başqalarını anlamaq, başa düşmək bacarığı və hövsələsi; zəifləri müdafiəyə hazır olmaq və s. daxildir. Bu münasibətlər insanların bütün həyat boyunca onlara aşılanmalıdır. Bu günkü gənclərimiz bu ruhda tərbiyə olunmalıdırlar.

Humanizmi etnik milli xüsusiyyətlərlə bilavasitə əlaqədardır. Azərbaycan xalqının şifahi xalq yaradıcılığındakı nümunələrində ilk xalça salan "Ho var adamı dağa qaldırar, ho var adamı dağdan endirər", "Özünü öyən dizinə döyər", "İnsan daşdan bərk, güldən zərifdir", "Dil qəlbin aynasıdır", "Hər bir insanın dilinin altında onun şəxsiyyəti yatır", "Zəhər tuluğu, dili acı, əti acı adamlardan gen gəzər", "Özünə ərva bilmədiyini başqasına da rəva görmə", "Özgəyə quyu qazan özü düşər", "Həyasızdan həya gözləmə", "Davalı yerdə ot bitməz", "Paxılın axırı olmaz", "Paxıl olma, qüssən olmasın", "Zülm yerdə qalmaz", "Zülmün ömrü az olar", "Xeyir dilə qonşuna, xeyir gəlsin başına", "Döymə özgə qapısını, döyərlər sənin qapını", "Yaxşılıq elə at dəryaya, balıq bilməsə də xaliq bilər", "Pisliyi torpağa əkdilər göyərmədi" kimi atalar sözlərində qeyri-humanist münasibətlər tənqid edilir. İnsanlarda başqalarına qarşı "şirin dillər" mərhəmətli olması kimi humanist əxlaqi keyfiyyətlərin formalaşdırılması tövsiyyə olunur. Azərbaycan şifahi xalq yaradıcılığının bir janrı olan bayatılarda deyildiyi kimi "Əzizinəm əzəl gərək, meşədə xəzəl gərək, insanda nə cür sifət olsada, xasiyyəti gözəl gərək." İnsanlar öz təbii humanizmi ilə başqalarının qəlbinə yol tapır,onların hörmətini qazanırlar. Humanist mənəviyyətli adamı işıqlı adam, bütöv şəxsiyyət adlandırırlar. Belə şəxsiyyətlər tarixdə qalıblar, həqiqi insan simvoluna çevriliblər. Bəli, humanzmi Azərbaycan xalqının qanında etnik kökündə mədelləşib, özünə möhkəm yer tutub. Gürcüstanda çayda çimərkən iki bacının boğulduğunu görən gənc bir azərbaycanlı oğlan onları xilas edərkən, özü boğulub dünyasını dəyişır. Azərbaycan xalqına xas olan belə faktların yüzünü və bəlkədə bir neçə yüzünü çəkmək olar. Azərbaycan multi kultural, tolerant bir olkədir. Başqa etnik xalqlara, kiçik etnik qruplara humanist yanaşılır. Hər bir xalqın mədəniyyəti adət-ənənəsinə hörmət edilir. Bu da humanizmin ən bariz nümunəsidir. Azərbaycan ictimai-siyasi fikir qarşısında xüsusi ilə maarifçilərimizin yaradiciliqlarında insanlara xüsusi ilə qadın azadlığına, onların şəxsiyyətinə humanist münasibətlər həmişə xalqın keçmişi və bu ənənə həmişə davam etmiş bu gündə davam etməkdədir. Kobudluq nəzakətsizlik, eqoizm, təkəbbürlük və sair humanizmin əksini təmsil edən xüsusiyyətlərdir. Humanist adam ağıllı, elmi yüksək intellektə malik olmalıdır. Ən başlıcası isə humanist adam ağıllı,kamil,mərifətli düzgün və təmkinli, səbirli olmalıdır. Humanizm insanı kamillik zirvəsinə aparır. Ağıl, var-dövlətdən, cah-cəlaldan, bütün vəzifələrdən üstündür. Var-dövlət sahibləri, qızıl-gümüş hərisləri həmişə ağıllı adamlara möhtacdır. Hər kəs bilik almaqda ağıllılara möhtacdır. Təbii ki, elm, söz, güclü, çevik təfəkkür, ağıl üçün əsas meyarlardandır. Ağıl obyektiv gerçəkliyin inikasının ali forması, insanın ətraf mühitə münasibətini dəqiq və məqsədə uyğun şəkildə tənzimetmə qabiliyyətdir. Ağıl-hadisələri qiymətləndirmək müvafiq nəticə çıxarmaq, biliklərdən yerində istifadə etmək bacarığıdır. Ağıl şəxsiyyətin bəzəyi, əxlaqi dəyərlərinin ən alisidir. Təsadüfi deyil ki, Azərbaycan xalq yaradıcılığında və klassiklərimizin əsərlərində insanın əxlaqi-sosial, mənəvi keyfiyyətlərinə həmişə yüksək qiymət verilib "Elm ağlın çırağıdır", "Bilik xəzinədir", "Ağlın açarı dildir", "Ağlın xəzinəsi ağıllı sözdür", "Ağıl soyda, şənlik toyda", "Ağıllı adam ara, ağılsız adam vara qaçar", "Ağıl başda,

ləl daşda olar", kimi yüzlərlə atalar sözlərindəki hikmətli deyimlər bunu bir daha sübut edir. Azərbaycanın dahi mütəfəkkirləri, filosof və psixoloqlaarı yaradıcılıqlarında həmişə bu sosial-psixoloji məqama yüksək qiymət verirlər ki, övlad üçün əqli tərbiyədən yaxşı miras yoxdur. Var-dövlət sarıdan yoxsul olmaq olar. Lakin, hər kəs ağılı və kamalı ilə dövlətli olmağa çalışmalıdır. Çünki, ağıl ilə dövlət əldə etmək olar, ancaq dövlət ilə ağılı qazanmaq olmaz. Ağılı oğru apara bilməz, su, od məhv edə bilməz, lakin cahil adam tez yoxsullaşar. Şərq deyimlərində ağlın bir neçə xüsusiyyəti göstərilir. Nəzakətli və təmkinli olmaq, öz sirrlərini dosta verib verməməsinin yerini bilmək, özünün və başqalarının sirrini saxlamaq.

Başqalarına hörmətlə yanaşan insanlarda isə özündən razılıq, başqalarına yuxarıdan aşağı baxma münasibətləri olmur, onlar yüksək ünsiyyət mədəniyyətinə malik olurlar.

Başqalarını incitməmək, təhqir etməmək, onlar üçün arzu olunmaz vəziyyət yaratmamağa əsaslanan diqqətlilik, insanlara əmək sevərlilik kimi yanaşma özü insanı yuxarıda qeyd edilən şəkildə hərəkət etməyə məcbur edir. Dözümlülük və genişürəklilik insanlarda başqalarının zəif cəhətlərini, çətinliklərini başa düşərək onları bağışlamaq haqqında pis fikrə düşməmək münasibətləri formalaşdırılır. Bura həmçinin başqalarının çətinliklərini vaxtında görüb hiss edərək ona imkan dairəsndə kömək etmək, heç olmazsa dərdinə şərik olmaq da daxildir. Bu münasibətlər insanlarda kiçik yaşlarından formalaşdırılmalıdır, əks halda onlarda başqalarına, onları əhatə edən insanlara qarşı etinasızlıq və qəddarlıq yarana bilər. Bu keyfiyyət ən çox rəhbər işçilərə, idarə rəhbərlərinə və başqa vəzifəli şəxslərə aiddir.

Humanizmin mühüm tərkib hissələrindən biri də zəifləri müdafiə etməkdir. Azərbaycanın xalq şairi S.Vurğun demişkən, "Varlılara dayaq olmaq yamaqdır, kasıblara kömək etmək dayaqdır".

Bu uşaqlarda kiçik yaşlarından başlanır və əvvəlcə heyvanları, bitkiləri qoruma, qocalara, analara kömək formalarından başlayaraq getdikcə mürəkkəbləşən işlər şəklində aparılır. Humanist münasibətlər tərbiyənin digər tərkib hissələri kimi sistemli təlim-tərbiyə müəssisələrində paralel şəkildə həmçinin təhsil müddəti bitdikdən sonra müxtəlif müəssisə və təşkilatlarda da aparılır. Yaşlı insanlar və gənclərlə tərbiyənin bu sahəsində işlər mədəniyyət müəssisələrində, pedaqoji gerçəkliyin digər sahələrində daha geniş şəkildə aparılır. İdarə və müəssisələrdə ayrı-ayrı tədbirlərin tərkibində verilir. Məsələn, mədəniyyət və ya ayrı-ayrı fəaliyyət sahələrində başqa xalqlara, millətlərə zorakılıq (həmin dövrdə real şəkildə mövcud olan) aktlarına qarşı etiraz tədbirlərində, xəstələrə, qaçqın və köçkünlərə,valideyinsizlərə kimsəsiz qocalara kömək və yardım formalarında və digər şəkildə həyata keçirilir.

Tarixdə elə şəxsiyyətlər vardır ki, təkcə öz zəmanələrinin qəhrəmanı olmaqla kifayətlənməmiş, həm də bir günəş kimi öz xalqlarının gələcək yollarını işıqlandırmışlar. N.Gəncəvi, N.Tusi, M.Füzuli, Mirzə Kazım bəy, A.A.Bakıxanov, M.F.Axundov, H.B.Zərdabi, M.T.Sidqi, F.B.Köçərli, N.B.Vəzirov, H.Cavid, C.Cabbarlı, Ü.Hacıbəyov, Hacı Zeynalabbdin Tağıyev, S.Vurğun, M.C.Paşayev, Y.V.Çəmənzəminli və yüzlərlə başqalarını göstərmək olar.

Tarixə qısa nəzər salaq. Hacı Zeynalabdin Tağıyev humanist bir şəxsiyyət olub, kasıblara, qocalara, uşaqlara, tələbələrə kömək göstərib, xeyriyyə yolu ilə məktəblər tikdirir və yol çəkdirirdi. Üzeyir Hacıbəyov, Cəfər Cabbarlı və yüzlərlə bu cür xeyirxah insanları misal göstərmək olar. Haqqında danışdığımız problem baxımından C.Cabbarlının

həyatında belə bir xatirə diqqəti cəlb edir. Bir gün C.Cabbarlının “1905-ci ildə” pyesi Azərbaycan Dövlət Dram teatrında səhnəyə qoyuldu. Təbii ki, müəllif də oraya dəvət olunmuşdu. Tamaşanın başlanmasına az qalırdı. C.Cabbarlı da gəldi. Lakin qapıda dayanan qadın Cabbarlını tanımadığı üçün onu içəri buraxmadı. Cabbarlı heç bir söz demədən qayıdıb evə getdi.

Tamaşaçılar arasinda müəllifi görməyən teatr rəhbərləri bundan narahat olur. Bir azdan xəbər tuturlar ki, biletyoxlayan qadın C.Cabbarlını tanımadığı üçün onu teatra buraxmayıb. Direktor əmr verib nəzrətçi qadını işdən azad edir. Sonra O, Cəfərin dalınca maşın göndərir. Bir azdan maşın gəlir. Cəfər maşından gülə-gülə düşür. Teatrın direktoru Cəfər Cabbarlını qarşılayıb dil-ağız edir. Cəfər Cabbarlı içəri girən kimi nəzarətçini görməyib soruşur.

- Bəs məni teatra buraxmayan qadın hanı?

Direktor deyir:

- Onu işdən kənar etdim.

Cəfər qapının ağzında dayanıb qətiyyətlə bildirdi:

- O qadın işə qayıtmayınca mən içəri girməyəcəm.

Bilet yoxlayan qadın işə bərpa olunur. Qoca qadın peşmançılıqla Cəfər yaxınlaşır, əlini ona uzadıb deyir:

- Sizi tanımamışam, məni bağışlayın.

Cəfər ağsaçlı qadının ona uzanan əlini öpərək deyir :

- Siz Allah, bunlara bağışlayın ki, belə qəbahətlərə yol veriblər.

Son dərəcə mütəəssir olan qadın Cəfərin bu humanizmindən sevinc hissi keçirərək, uşaq kimi ağlayır.

Azərbaycanda musiqi elminin, mədəniyyətinin inkişafında xüsusi rolu olan Ü.Hacıbəyovun humanizmi haqqında bir xatirə daha maraqlıdır. Bir dəfə Ü.Hacıbəyov musiqi məktəbinə yeni tələbələr qəbul edirdi. Imtahanları uğurla başa vuran bir qızın istedadı xüsusilə onu heyran edirdi. Üzeyir bu qızı ürəkdən təbrik edərək dedi:

- Təbrik edirəm qızım, səni ürəkdən təbrik edirəm. Sənə təhsilində uğurlar arzulayıram.

Bu vaxt qız ağlamağa başladı. Üzeyir bəy qızın sevincdən ağladığını düşündü. Lakin qız hıqqıra-hıqqıra dedi:

- Hörmətli müəllim, məni məktəbə qəbul etdiniz çox sağ olun. Amma mən oxuya bilməyəcəm.

- Niyə? – deyə Üzeyir bəy təəccüblə soruşur.

- Evdə pianinom yoxdur.

- Eybi yoxdur, qizim, ümidini üzmə.

Bunu deyib, Üzeyir bəy köməkçi müəllimin qulağına nə isə pıçıldadı.

Qız imtahan otağından çıxanda Üzeyir bəyin asisenti də onun arxasınca çıxdı. Dəhlizdə qızı səsləyib dedi:

- Sən tərcümeyi halını yazmalısan orada ünvanınıda göstərməyi unutma.

Axşam evə qayıdarkən onun anası onu sevinclə qarşıladı.

- Qızım, evimizə pianino gətirdilər, sənin adını soruşdular, sonra pianinonu qoyub getdilər. Nə qədər xəbər aldımsa, heç nə demədilər. Bircə onu dedilər ki, mübarəkdir.

Bəli, əsl humanist münasibət budur.

Humanizm insanın özünü tərbiyə edir. Onda məmnunluq hissi yaradır. Şəxsiyyət kimi formalaşdırır. Əks halda qeyri-səmimilik insanın özünə, ətrafdakılara, bütövlükdə ya-

şadığı cəmiyyətə bəla gətirir. Özünün və başqalarının fəaliyyətində süstlük yaradar, fəaliyyətdən saxlayar. Azərbaycan xalqı multikultural dəyərlərə qiymət verən, həmişə millətindən, cinsindən, irqindən, mənsubiyyətindən asılı olmayaraq bütün xalqların mədəniyyətinə, adət-ənənələrinə hörmət edən xalqdır. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr verib. Ona görə Prezident İ.Əliyevin 2016-cı ili Azərbaycanda "multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri var. Ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmayıb və bu proses indi də uğurla davam etdirilir.Bunu biz tarixən dahi mütəfəkkirlərin,dövlət xadimlərinin simasında aydın görürük.

Azərbaycanın qabaqcıl maarifçilərindən biri olan M.F.Axundov humanist bir şəxsiyyət, yazıçı, filosof olmuşdur. O, bütün əsərlərində, "Sərgüzəşti vəziri xani-lənkəran", "Hacı qara", "Müsyö Jordan və Dərviş Məstəli şah", "Xırs quldurbasan" və digər əsərlərində insanlara xüsusilə qadınlara humanist münasibəti ilə fərqlənirdi. Onun komediyalarında qadın obrazları Sona xanım, Pərizad, Fatmanisə,Nisəxanım, Gülçöhrə və s. böyük səmimiyyətlə tərənnüm olunmuşdur. M.F.Axundov kamil insan üçün məqbul hesab etdiyi keyfiyyətlər içərisində humanist keyfiyyəti xüsusi qeyd edirdi. O göstərirdi ki, əsl insan xeyirxah və ədalətli olmalıdır. O qeyd edirdi ki, bir insan nə qədər zəngin biliklərə malik olursa olsun, əgər o, biliyini insanların xeyri üçün sərf edə bilmirsə onda belə adam humanist, kamil adam ola bilməz. M.F.Axundov yazırdı ki, humanist adamın ən azı 7 vəzifəsi olmalıdır. Humanist adam pis əməllərdən əl çəkməli,yaxşılıq etməyi bacarmalıdır. Humanist adam rəzil olmamalı, insanlara zülm etməkdən çəkinməlidir. Insan yaşadığı cəmiyyətdə həmnövləri ilə bərabər bigə bərabərhüquqlu yaşamağı bacarmalıdır. Insan elmli olmalıdır. Elm onu ədalətli olmağa yönəldər. İnsan həmişə elmi, humanizmi yaymağa çalışmalıdır. Humanist adam yaşadığı cəmiyyətin əxlaq qaydalarına əməl etməli, davranışlarına fikir verməi, etik normaları gözləməlidir və həmişə etnopsixoloji keyfiyyətləri yaymağı bacarmalıdır. M.F.Axundov bütün bu humanist addımları açırdı və əməli fəaliyyəti ilə sübut edirdi. M.F.Axundov Tiflisdə yaşayarkən evinin eyvanında istirahət edirdi. Gördüki bir kişi ona yaxınlaşır.

- Niyə elə qorxa-qorxa yeriyirsən, ay kişi?! Yaxın gəlsənə!

Kişi ürəkləndi.

- Doğrusu, mən yazıq bir adamam. Sizin kimi böyük insanlarla söhbət etməyə laiq deyiləm. Kasıblığın üzü qara olsun.

Mirzə Fətəli başa düşdü ki, kişi kasıbdır. Ondan pul istəyir. Mərifətli danışığı çox xoşuna gəldi. Eyvana sərilmiş xalçaya baxıb dedi:

- Bu xalçanı aparıb satarsan. Əlində maya olsun. Özün də bir işin qulpundan yapış.

Sonra xalçanı eyvandan aşağı saldı. Kişi xalçanı büküb çiyninə atdı. Mirzə Fətəli dedi:

- Amma ucuz satma ha, bahalı xalçadır.

Kişi bu böyük ürəkli insana necə təşəkkür edəcəyini bilmədi.

Azərbaycanın görkəmli qiraətçi və etnopsixoloqu, yazıçı Y.V.Çəmənzəminlinin yaradıcılığı diqqəti bu baxımdan cəlb etməyə bilməz. Y.V.Çəmənzəminli bütün əsərlərində (o cümlədən "Studentlər", "İki od arasında", "Qızlar bulağı" romanlarında) humanistlikdən bəhs edir. Azərbaycan gənclərini savadlı, ədalətli, insaflı, elmli olmağa çağırırdı. Azərbaycanın xalq şairi S.Vurğun tarixdə humanist bir şəxsiyyət kimi iz qoyub. Onun "arxalığa arxa olmaq yamaqdır, arxasıza arxa olmaq dayaqdır" deməsi bir aforizmə

çevrilib. Həmişə kasıblara, əlsiz-ayaqsızlara, imkansızlara kömək edidi. Xaricdə və respublikada təhsil alan kasıb tələbələrə pul, paltar və digər əşyalar verirdi.

Humanizm əl tutmaq, mehribançılıq, qonaqpərvərlik Azərbaycan xalqının genində, qanında, xislətindədir. Humanizm öz -özünə yaranan əxlaqi, sosial keyfiyyət deyildir. Bu keyfiyyət insanların bir-birini dərk etməsində, bir- birinə antipatiya yox simpatiya bəsləməsində mövcüd olur. Psixologiyada mövcüd olan funksiyalar arası əlaqələr nəzəriyyəsinə görə insan orqanizmi tam, vahid bir sistem olduğu kimi onun psixi xüsusiyyətləri də iradi, əxlaqi, etnopsixoloji keyfiyyətləri də bir-birilə əlaqəlidir. Yadda saxlamaq lazımdır ki, təkəbbürlü, eqoist, özünüsevən, heç kəsə ehtiram göstərməyən, xəsis, qeyri-səmimi insan humanist ola bilməz. İnsan o zaman humanist ola bilər ki, qarşısında olan adama hörmət etsin,ona qayğı ilə yanaşsın, ona hər hansı bir qeyri-səmimilik göstərəndə onun yerində özünü görməlidir. O, bilməlidir ki, etdiyi hərəkətlərin, davranışlarının əksini öz həyatında görəcək. “İnsan zəhərli ağacı əkdiyini yalnız o zaman bilir ki, onun meyvəsini özünə yedizdirirlər” (“Kəlilə və Dimnə”). Bəli, kimi nə əməlin sahibidirsə, gec tez onun öz başına gələcək. “Arpa əkən arpa, buğda əkən buğda biçər” deyirlər. Ən gözəl sifət humanizm, ədalət, səxavət, səmimilikdir. Humanist, ədalətli adamların behiştdən, nurdan sarayları olacaqdır (“Kəlilə və Dimnə). İnsaf, ədalət, nəfs yoxluöu, səxavət, səmimilik, sadəlik, təvazökarlıq, xeyirxahlıq, əxlaqi məsuliyyət humanizmin tərkib hissələridir. Humanist adam həmişə xeyirxahlıq göstərir, şəri lənətləyir, ondan uzaq olur. Yəqin ki, xeyir və şərin hekayəsi sizə aydındır.

Şər xeyirin iki gözünü çıxarır. Zamanın hökmü ilə bir gün Xeyir padşah olur. Bir gün yeni padşah-Xeyir taxtda oturarkən bir cinayətkarı onun yanına gətirirlər. Xeyir onun Şər olduğunu tanıyır və humanistlik göstərərək onu bağışlayır. Lakin bunu eşidən Kürd qızı atasının yeni cinayət törədəcəyindən qorxaraq onu öldürtdürür. Bütün tarixi faktlar göstərir ki, işıq qaranlığa, xeyir şərə, humanistlik bədxahlığa, yaxşılıq pisliyə qalib gəlir. Bu hekayənin sonunda da Xeyirin Şər üzərində qələbəsi bir himn kimi səslənir:

Xeyir dedi:”işin daim zavaldır,
Alçaqsan hamıya qanın halaldlr.
Adın Şər, özün də xalq üçün şərsən,
Xisləti adından pis bir bəşərsən.
Şər Xeyiri tanıdı və birdən birə
Özünü götürüb çırparaq yerə,
Söylədi:”gördüyüm işlər yamandır,
Pis əməllərimə baxma amandır.
Başımız üstündə dönən fələklər,
Sənə xeyir demiş, mənə isə şər.

Bəli, həmişə həqiqət, insanlıq, ədalət gec də olsa qalib gəlir. Humanizm, xeyirxahlıq, yaxşılıq bütün xalqların, dinlərin ən qiymətli əxlaqi keyfiyyətləri olmuşdur. Azərbaycan etnopsixologiyasında da bu keyfiyyət həmişə özünü qabarıq şəkildə göstərib. Azərbaycan şifahi xalq yaradıcılığında dini təsəvvürlərdə, dahi mütəfəkkirlərin, tarixi şəxsiyyətlərin, qabaqcıl elm adamlarının, maarifçilərin əsərlərində öz əksini tapır.

İnsanlar arasında ictimai-iqtisadi münasibətlərdən doğub, ən qədim və ən ümumi əxlaqi qiymət və sərvət olan xeyir anlayışından bütün dinlər istifadə etmişlər. Bir sıra şərq xalqlarının islam dinindən əvvəl mövcud olmuş Zoroastrizm dini buna ən yaxşı misaldır. Zoroastrizm yaxud zərdüştlük dini belə bir müddəa üzərində qurulur ki, dünya iki başlanğıcdan: xeyir və şərdən ibarətdir. Dünyadakı bütün şeylər və hadisələr, bütün hal və

hərəkətlər öz mənbəyini bu iki başlanğıcdan götürür. Qeyd etmək lazımdır ki, humanizmin, xeyirxahlığın da bir həddi olmalıdır. A.Bakıxanova görə, insanın insana yaxşılığı, hörməti və köməyi təmannasız və qərəzsiz olmalıdır. Onun nəzərincə, "Şəxsi-qərəzlə iş görən və ya əvəzini nəzərdə tutub yaxşılıq edənə yaxşı demək olmaz. Çünki bu alverə bənzər və öz malını başqa bir şeylə əvəz etmiş olur. Naməlum şair deyir: "əvəzini umaraq yaxşılıq etmək bir hünər deyildir. Yaxşlığı möhtac olmadığın bir adama et". O, bu fikri naməlum şairin adından söylədiyi sözlərlə yenə təkrar edir:"mərd odur ki, bir anbar qiymətli gövhər bağışladıqda da onun minnət yükü ilə qarışqanın belini belə sındırmasın". Yaxşılıq, humanizm, saxta, maskalı simaya yox təbii olmalıdır. Yəni adamların xarakterinə daxilən xas olmalıdır. Bütün böyük və xırda işlərdə xeyirxahlıq vərdiş halına keçməli, hər dəfə müəyyən məcburiyyət nəicəsində deyil, daxili tələbat nəticəsində realizə edilməlidir. Başqa sözlə desək, yaxşılıq,xeyirxahlıq insanın mühüm, mənəvi keyfiyyətinə çevrilməlidir. Xudpəsənlik ,humanizm bir araya gələ bilməz. "Əgər mən nifrət edirəmsə-nə isə özümdən alıram, əgər mən sevirəmsə özümü sevdiyim obyektlə zənginləşdirirəm. İnsana nifrət - kiçik intihardır. Xudpəsənlik - canlı varlığın ən böyük yoxsulluğudur".

İnsaf humanizmin ən mühüm göstəricisidir. Bakıxanov vicdanla ədalətin əlaqəsindən bəhs edərək və onların hər ikisinin zülmə qarşı yönəldiyini göstərərək yazırdı ki, insaflı adam heç vaxt zülmkar olmaz. Özünə rəva görmədiyi zülmü başqasına da rəva görməz. Çünki insaf ədalətdən ayrılmazdır. ədalət hər yerdə və hər şəraitdə zülmü inkar edir. "insafın lügəti mənası ədalət deməkdir. Çünki burada riayət hər iki tərəfə aid olur. Yalnlz ümumuilik və xüsusilik fərqi vardır. İnsan ədaləti gözləmək səbəbi ilə zülmdən saqınar. Beləliklə, hər bir insaflı adam ədalətlidir.

İnsafsız, ədalətsiz, saxta, eqoist, qeyri-humanist adamlardan səmimilik gözləmək boş xülyadır. M.Nəvvab demişkən, onların üzləri ilan kimi yumşaq, içəriləri isə zəhərlə doludur.

Humanizmin əsas təzahür formalarından biri olan ədalət bəşəriyyət tərəfindən insanların qəlbində "Allahın əks-sədasız və xüsusi bəxşiş" adlandırmışdır. ədalət tarixin müxtəlif mərhələlərində yaranmış və ayrı-ayrı dövrlərdə müxtəlif məzmuna malik olmuşdur. məsələn, ibtiadi insanların qəlbinə hakim olan qısqanc bərabərlik hissi tələb edirdi ki, bu da ədalətsilik sayılmırdı. Quldarlıq, feodalim, kapitalizm və sosializmqurluşlarında buna bənzər hallar olmuşdur. XX əsrin görkəmli filosofu T.Qobbs ədaləti ən mühüm , humanist dəyər hesab edərək onu iki yerə (Kommunikativ bərabərləşdirici; distruktiv bölüşdürücü) ayırır. T.Qobbs yazırdı ki, "ədalət bizim öz xüsusi həyatımız və başqalarının həyatı və məişəti üçün təhlükəli olan hər hansı hərəkəti etməyi bizə qadağan edən zəkanın xüsusi təsir formasıdır. ədalət təbii qanundur. Buradan göründüyü kimi, Qobbs ədalətə son dərəcə böyük məna verərək, onu zəkanın və təbiətin qanunu səviyyəsinə qaldırmışdır.

XVIII əsrdə fransız materialist filosofu P.Holbax da özünün(təbiətin katexizisi və ya əxlaqın əsasları haqqında söhbət) adlı əsərində Qobbsun bu fikirlərini bir daha inkişaf etdirərək ədalətin yalnız hüquq kateqoriyası deyil həm də ən mühüm əxlaqi fəzilət olduğunu xüsusi olaraq qeyd etmişdir. O, "Ədalət nədir?" sualına cavab verərək, ədalətin insanın xoşbəxtliyi və xalqın ümumi səadəti ilə bağlı olduğunu göstərmişdir. Holbax ədalətə belə tərif vermişdir:"ümumiyyətlə desək, ədalət zəkanın, cəmiyyətin səadətinə uyğun hesab etdiyi hər cür imkanın həyata keçirilməsidir. İnsanda ədalət - onda daimi, vərdiş halına keçən hər bir adama öz hüquqlarını həyata keçirməkdə kömək etmək meylidir.

Müasir suveren və demokratik Azərbaycan dövlətinin memarı və qurucusu ulu öndər Heydər Əliyevin də adı belə dahi şəxsiyyətlərdən biri kimi dünya tarixinə qızıl hərflərlə yazılmışdır. Məhz onun müdrikliyi və uzagörənliyi, şəxsi fədakarlığı və idarəçilik istedadı sayəsində milli dövlətçiliyimizin qorunub saxlanması, möhkəmləndirilməsi və inkişaf etdirilməsi mümkün olmuşdur. “Mən həmişə fəxr etmişəm ki, azərbaycanlıyam!” - deyən ulu öndər bütün qəlbi və həyatı ilə öz doğma torpağına və xalqına bağlı idi. Heydər Əliyev humanist, səmimi, diplomatik biliyə malik olan şəxsiyyət idi. Halal zəhmətlə yaşayan sadə və zəhmətkeş bir ailədə dünyaya göz açan, öz fitri istedadı, dərin zəkası və polad iradəsi ilə həyatda qarşılaşdığı ən müxtəlif sınaqları dəf edən, dövlət təhlükəsizliyi orqanlarında sıravi əməkdaşlıqdan general rütbəsinədək yüksələn, sovet hakimiyyətinin ali rəhbər vəzifələrində ləyaqət və uğurla fəaliyyət göstərən, Azərbaycanı geridə qalmış əyalətdən çiçəklənən respublikaya çevirən, onun azadlığının və milli oyanışının, sonraisə istiqlal və qurtuluş savaşının önündə addımlayan, xilaskarlıq missiyasını yerinə yetirən ulu öndərin həyatı və mübarizəsi hər bir soydaşımız üçün qürur mənbəyi, misilsiz örnək və nümunədir. Humanizm H.Əlievin qanında,canında, xislətində idi. Həmin dövrdə Azərbaycanda ulu öndərimizin bərqərar etdiyi ədalətlilik mühitinin əsas göstəricilərindən biri fəhlə-kəndli övladlarının hüquqşünas təhsili almasına şərait yaradılması oldu ki, bu gün müstəqil ölkəmizin hüquq-mühafizə orqanlarında dövlətimizə və xalqımıza sədaqətlə xidmət edən təcrübəli hüquqşünasların əksəriyyəti də məhz o dövrün yetirmələridir. Ümumiyyətlə, ulu öndər müxtəlif sahələr üzrə çoxsaylı gənc milli kadrların, mütəxəssislərin hazırlanmasına misilsiz qayğı göstərmiş, hətta respublikanın ucqarlarında doğulub-böyümüş yüzlərlə istedadlı yeniyetmənin keçmiş SSRİ-nin ən nüfuzlu ali məktəblərində təhsil almasına şərait yaratmış, azərbaycanlıların uşaq yaşlarından hərb sənətinə yiyələnməsi kimi gələcəyə istiqamətlənmiş bir addım atmış, onlar üçün xüsusi hərbi məktəb açmışdır.

Ulu öndərin humanizm prinsiplərinə sadiqliyini möhtərəm Prezident İlham Əliyev də özünün davamlı olaraq qəbul etdiyi əfv və amnistiya qərarları ilə davam etdirir. Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində penitensiar xidmətin işçi heyətinin statusunun qanunla müəyyən edilməsi, sosial müdafiəsinin gücləndirilməsi məqsədilə zəruri tədbirlər görülmüş, 26 may 2006-cı ildə qəbul edilmiş “Ədliyyə orqanlarında qulluq keçmə haqqında” Azərbaycan Respublikası Qanununda ədliyyə işçiləri, o cümlədən Penitensiar xidmətin əməkdaşları üçün ilk dəfə olaraq çoxsaylı güzəştlər və imtiyazlar müəyyən edilmişdir. Keçən dövrdə xidmətin əməkdaşlarının vəzifə maaşları Azərbaycan Respublikasının Prezidenti tərəfindən dəfələrlə artırılmış, onların əşya təminatının keyfiyyəti yüksəldilmişdir.

Penitensiar xidmətin fəaliyyətinin daha da təkmilləşdirilməsinə yönəlmiş müxtəlif fərman və sərəncamlar, Dövlət proqramları bu gün uğurla icra edilir. Azərbaycanda həyata keçirilmiş cəza-icra siyasəti nəticəsində müstəqil, müasir və beynəlxalq normalara cavab verən penitensiar sistem formalaşdırılmışdır və onun fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində zəruri tədbirlər hazırda da davam etdirilir.

Ulu öndərin yaratdığı möhkəm təməl üzərində müstəqil Azərbaycanın güclənməsi, qüdrətlənməsi, siyasi nüfuzunu, iqtisadi, hərbi, mədəni potensialını artırması, ilk növbədə, özünün ərazi bütövlüyünü bərpa etməsi bu gün cənab Prezident İlham Əliyevin həyata keçirdiyi və xalqımız tərəfindən ürəkdən bəyənilən, dəstəklənən siyasətin əsas istiqamətləridir. Bu il aprel ayının əvvəllərində Qarabağda qoşunların təmas xəttində işğalçı Ermənistanın törətdiyi hərbi təxribatlara rəşadətli Silahlı Qüvvələrimizin, qəhrəman əsgər və zabit-

lərimizin uğurlu əks-həmlə ilə cavab verməsi, düşməni tutduğu birsıra strateji yüksəkliklərdən ağır itkilər verərək geri çəkilməyə məcbur etməsi dövlətimizin gücünü bir daha bizi istəyənlərə də, istəməyənlərə də göstərdi.

Humanizmdən danışarkən Milli Məclisin deputatı, Azərbaycan Respublikasının vitse prezidenti Mehriban xanım Əliyevanın adını xüsusilə çəkməliyik. Heydər Əliyev Fondunun ideyaları ilə gerçəkləşən hər bir işin təməlində insanlara olan sevgi dayanır. Xalq bu məhəbbəti görür və qiymətləndirir. Heydər Əliyev Fondunun bu günə qədər həyata keçirdiyi irimiqyaslı layihələrinin hər biri humanizm prinsiplərinə söykənərək, xalqın sosial rifahının yüksəlməsinə yönəlmişdir. Müxtəlif yaşda olan insanlara qayğı fondun əsas fəaliyyət istiqamətini təşkil edir. Heydər Əliyev Fondunun fəaliyyəti dövründə kimsəsiz və valideyn himayəsindən məhrum, əqli və fiziki cəhətdən zəif uşaqlara qayğı, onların təlim-tərbiyə aldıqları internatların və digər xüsusi məktəblərin müasir tələblər səviyyəsində yenidən qurulması aparıcı istiqamətlərdən biridir. Fondun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, millət vəkili Mehriban xanım Əliyeva bu işlərə xüsusi diqqət yetirərək müvafiq tədbirlər görülməsinə daim nəzarət edir. Mehriban xanım Əliyevanın dediyi kimi: "Fondun fəaliyyətinin əsas istiqamətlərindən biri Azərbaycan cəmiyyətinin müdafiəyə ən çox ehtiyacı olan üzvlərinə, uşaq evləri və internatlardakı uşaqlara və yeniyetmələrə, qaçqın və məcburi köçkün uşaqlarına, habelə müxtəlif xəstəliklərə mübtəla olan uşaqlara yardım göstərilməsi ilə bağlıdır". Mehriban xanım qətiyyətli, prinsipial, humanist bir şəxsiyyətdir. Xüsusi qayğıya ehtiyacı olan uşaqlara diqqətin artırılmasında Heydər Əliyev Fondunun həyata keçirdiyi layihə və proqramlar cəmiyyət tərəfindən birmənalı olaraq yüksək səviyyədə qarşılanır. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində fondun prezidenti Mehriban xanım Əliyeva Azərbaycanın bir sıra orta internat məktəblərində və yataqxanalarında məskunlaşmış məcburi köçkünlərin mövcud problemlərinin aradan qaldırılmasına yardım göstərmişdir. Fondun təşəbbüsü ilə bir çox internat məktəbi əsaslı təmir edilmiş, lazımi avadanlıq, mebel və məktəb ləvazimatları ilə təmin edilmişdir.

Bu layihə çərçivəsində Şamaxı və Lənkəran kimi şəhərlərdəki internat məktəblərində "Uşaqlar bizim gələcəyimizdir" devizi altında tədbirlər reallaşmışdır.

Ölkəmizdə uşaqların sağlam, hərtərəfli, Vətənə layiqli övladlar kimi böyümələri üçün hər cür şərait yaradılmışdır. Mehriban xanım Əliyeva uşaq evlərində tərbiyə və təhsil alan, valideyn himayəsindən məhrum olan uşaqlara daimi qayğısı bunun təzahürüdür. Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində millətin gələcəyi olan uşaqların sağlam və savadlı böyüməsi naminə uğurlu addımlar atılmışdır.

Respublikamızda analoqu olmayan Psixonevroloji Uşaq Evinin yenidən istfadəyə verilməsi Ümummilli Liderimiz Heydər Əliyevin adını daşıyan Heydər Əliyev Fondunun bütün millətin gələcəyi olan uşaqların sağlamlığına daim diqqət yetirilməsinin daha bir nümunəsi olaraq qiymətləndirilir. Fondun təşəbbüsü ilə həyata keçirilən "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi cəmiyyətdə geniş əks-səda doğurmuş və valideynlər, diabetə mübtəla olmuş uşaqlar, eləcə də beynəlxalq təşkilatlar tərəfindən razılıqla qarşılanmışdır. Layihə çərçivəsində respublikaya inyektor və çoxlu ucluq gətirilmişdir. Aksiya zamanı yeniyetmələrə, hamilə qadınlara, qlükemik indeksi 9 faizdən yuxarı olanlara üstünlük verməklə, imkansız, xəstəliyin ciddi fəsadları olan vətəndaş inyektor və ucluqla təmin edilmişlər. Səmərəli tibbi xidmətin təşkilini vacib hesab edən Heydər Əliyev Fondu 2004-cü ildən başlayaraq, "Diabetli uşaqlara ən yüksək qayğı" layihəsi çərçivəsində hər il qey-

diyyatda olan 14 yaşınadək xəstələri dərman preparatı və qələm-iynə ilə təmin etmişdir. Davamlı layihə ilə yanaşı, fond beynəlxalq əməkdaşlıq çərçivəsində humanitar aksiyalar keçirərək şəkərli diabet xəstələr üçün əldə etdiyi dərman preparatlarını qaçqın, məcburi köçkün və aztəminatlı ailələrdən olan vətəndaşlara təqdim etmişdir.

**Ədəbiyyat**


1. M.F.Axundov. Seçilmiş əsərləri. I, II, III c. Bakı, 2005
2. "Kəlilə və Dimnə". Bakı, 1986
3. A.A.Bakıxanov. Seçilmiş əsərləri. Bakı, 2005
4. M.M.Nəvvab. Seçilmiş əsərləri. Bakı, 2005
5. S.Vurğun. Seçilmiş əsərləri. Bakı, 2005


## HUMANITARIAN VALUES AND THEIR ABILITY TO INFLUENCE THE FORMATION OF PERSONALITY OF YOUNGER GENERATION IN AZERBAIJAN

**M.I.Jabbarli**

**SUMMARY**

This work presents an analysis of humanism as one of the most important moral and psychological qualities of a person. The importance of educating young people in the spirit of respect and adherence to the fundamental principles of humanism is stressed.

## ГУМАНИТАРНЫЕ ЦЕННОСТИ И ВОЗМОЖНОСТИ ИХ ВЛИЯНИЯ НА ФОРМИРОВАНИЕ ЛИЧНОСТИ МОЛОДОГО ПОКОЛЕНИЯ АЗЕРБАЙДЖАНА

**М.И.Джаббарлы**

**РЕЗЮМЕ**

Статья посвящена анализу гуманизма как одному из важнейших морально-психологических качеств человеческой личности. Отмечается необходимость воспитания в подрастающем поколении уважения и приверженности к основополагающим принципам гуманизма.

# J U R N A L İ S T İ K A

# B Ö L M Ə S İ

# S E C T I O N  O F

# J O U R N A L I S M

2017 - № 47

# HEYDƏR ƏLİYEVİN SİYASİ FƏALİYYƏTİNİN NAXÇIVAN DÖVRÜ MƏTBUAT MÜSTƏVİSİNDƏ

**N.Q.Əhmədov**
Bakı Dövlət Universiteti
Bakı, Akademik Z.Xəlilov küçəsi 23
e-mail: tuqay59@mail.ru

***Açar sözlər:*** Heydər Əliyev, Naxçıvan, siyasi təqib, mətbuat orqanları, mətbuatın mövqeyi, jurnalist borcu

***Keywords:*** Heydar Aliyev, Nakhchivan, political persecution, media outlets, position of the press, journalistic duty

***Ключевые слова:*** Гейдар Алиев, Нахчыван, политическое преследование, органы печати, позиция печати, журналистский долг

Tarixin ortaya qoyduğu bəzi məqamlar var ki, onları bəzən bir tale işi kimi dəyərləndirmək məcburiyyəti yaranır. Tarixi təcrübə onu da sübut edir ki, bütün xalqlar və millətlərin həyatından keçən bəzi taleyüklü məsələlər də olub ki, bu yerdə yalnız ağıl, zəka, iradə və uzaqgörənlik son dərəcədə əhəmiyyətli rol oynamışdır. Bu baxımdan Naxçıvan tarixinin, eləcə də Azərbaycanın ən çətin günlərində Heydər Əliyev faktorunun ortaya çıxması həm də tarixi bir reallıqdır. Əslində o dövrün xronikasına diqqət edəndə Heydər Əliyevin siyasi hakimiyyətdən zorla uzaqlaşdırılması, səhhətində yaranan ciddi problemlər və, nəhayət, 1990-cı ilin 20 yanvar hadisələrindən sonra onun siyasi arenaya yenidən gəlişi adi reallıqlar olmadığı kimi, həm də tarixi bir zərurət idi. Eləcə də onun Naxçıvana dönüşü, ağlı, zəkası, uzaqgörənliyi ilə mübarizə meydanına atılması da tarixin yeni bir mərhələsi idi. ”Azərbaycanın dövlətçilik tarixində misilsiz xidmətlər göstərmiş, ideyaları, zəkası, biliyi, idarəçilik təcrübəsi ilə bu günümüzə, sabahımıza bələdçilik edən ümummilli liderimiz Heydər Əliyevin siyasi fəaliyyətində 1990-1993-cü illər Naxçıvan dövrü mühüm yer tutur. Məhz həmin illər onun böyük siyasətə, hakimiyyətə qayıdış dövrü oldu“ (25).

Naxçıvanda o dönəm baş verənlərə “Azərinform”un Naxçıvan müxbiri kimi şahidlik etməyim əyani şəkildə göstərdi ki, Heydər Əliyevin Naxçıvana qayıdışı onun siyasi arenaya yenidən qayıdışı olduğu kimi, həm də bütün Azərbaycanın xilası oldu. Başqa sözlə desək, böyük siyasətçiyə siyasi iradə və güç verən Naxçıvan, onu siyasi arenaya qaytarmaqla özünü də yox olmaq təhlükəsindən xilas etdi. Bütün səyini, gücünü və siyasi fəaliyyətini Naxçıvanın ərazi bütövlüyünün qorunması istiqamətində gedən gərgin mübarizəyə həsr edən ulu öndər əməli və uzaqgörən fəaliyyəti ilə daim xalqın yanında olduğunu, onun taleyini və gələcəyini düşündüyünü özünün önəmli vəzifəsi kimi təsdiq etdi. “1990-cı il iyulun 22-də Naxçıvan diyarının böyük yetirməsi, görkəmli siyasətçi və dövlət xadimi Heydər Əliyevin Naxçıvana gəlməsi ilə milli-demokratik hərəkat yeni mərhələyə qədəm qoydu. Naxçıvanlılar Heydər Əliyevin simasında öz xilaskarını tapdı. Tezliklə xalqın yekdil səsi ilə Naxçıvan MSSR Ali Sovetinə, Azərbaycan SSR Ali Sovetinə deputat seçilən Heydər Əliyev respublika əhalisinin güvənc yerinə çevrildi. Naxçıvanda milli oyanışın əsası qoyuldu. Bütün bunların sayəsində 1993-cü ildə

Naxçıvan artıq bütün regionda milli-demokratik hərəkatın gücləndiyi bir bölgə idi” (26, s.35).

20 iyul 1990-cı ildə Moskvadan Bakıya, iki gün sonra isə ağır blokada vəziyyətində olan Naxçıvana gələn Heydər Əliyevi xalq böyük coşqunluqla qarşıladı. Heydər Əliyevin özü də bu illərin mahiyyətini ayrıca vurğulayaraq muxtar respublika sakinləri ilə görüşlərinin birində demişdir: “Naxçıvanda doğulmağım, ərsəyə gəlməyim, təhsil almağım mənim üçün əzizdir. Azərbaycana rəhbərlik etdiyim zaman Naxçıvanda quruculuq işlərinin görülməsindəki fəaliyyətim də mənim üçün əzizdir. Ancaq mənim üçün bunların hamısından əziz 1990-cı ildən 1993-cü ilə qədər burada sizinlə bir yerdə yaşamağım, işləməyim olubdur” (22).

O dövrün mətbuat orqanlarını, eləcə də tarixi sənədləri vərəqlədikcə bir daha sübut olunur ki, o, tutduğu yoldan heç vaxt dönməmiş, həmişə sadə xalqla bir olmuş, cəmiyyətin və xalqın problemlərini həll etməyə çalışmış və bunu bir rəhbər kimi özünün ümdə vəzifəsi hesab etmişdir. Əslində bu qayıdışın mahiyyətində də bu amil dayanırdı. Təbii ki, hökumətə bağlı və ciddi nəzarət altında olan mətbuat orqanlarında- “Kommunust”, “Sovet kəndi” və digər hakimiyyət qəzetlərində bu qayıdışın mötivləri böhtançılıqla bir başqa çalarda dəyərləndirisə də, bir sıra mətbuat orqanları, xüsusən də yeni dövrü nəşrlər bu məsələdə real və demokratik mövqedə dayana bilmişdilər. “Aydınlıq”, “Azadlıq”, “İki sahil”, “Ədalət”, “Yurddaş”, “Səs”, “Mədəniyyət”, “Respublika”,“Vətən səsi”,“Naxçıvan” kimi qəzetlərin səhifələrində Naxçıvanla bağlı dərc edilən xəbər və materiallarda xalqın azadlıq səsi eşidilməkdə, böyük siyasətciyə məhəbbət və sevgiləri duyulmaqda idi. Ayrı-ayrılıqda götürülsə belə bu qəzetlərinin o dövrdəki fəaliyyət sferası xüsüsi bir tədqiqat mövzusu ola bilər. Naxcıvanla bağlı xəbərlərə qoyulan qadağalar qorxu və təpki hissləri aşılasa da, bu qəzetlərin məsul işciləri, eyni zamanda o dövrdə də Azərbaycan jurnalistikasının fədakar nümayəndələri olan Mirzə Əsgərov (“Azərtac”ın müxbiri), Əmir Mustafayev (“Respublika”qəzetinin baş redaktor müavini, sonralar “Azərbaycan” qəzetinin baş redaktotu), Vüqar Rəhimzadə (“İki sahil”qəzetinin baş redaktoru), Əhməd İsayev (“Respublika” qəzetinin baş redaktoru), Şahmar Əkbərzadə (“Mədəniyyət” qəzetinin baş redaktoru), Teymur Əhmədov (“Vətən səsi” qəzetinin baş redaktoru, sonralar “Respublika”qəzetinin baş redaktoru), Möhsün Möhsünov (“Şərq qapısı” qəzetinin əməkdaşı), Mais Səfərli (“Yurddaş” qəzetinin baş redaktoru), Eldar Baxış (“Səs” qəzeti), Xeyrəddin Qoca ("Açıq söz" qəzetinin redaktor müavini) və onlarca başqaları Naxçıvan həqiqətlərinə və Heydər Əliyevin fəaliyyəti ilə bağlı olan xəbərlərə müntəzəm yer ayırmalarını özlərinin vətəndaşlıq və jurnalist borcu adlandırırdılar. Maraqlıdır ki, bir sıra ümumittifaq mətbuatında, o cümlədən mərkəzi mətbuatda da hadisələrə real və ədalətli münasibətlərin ortaya qoyulması gündəmdə olmuşdur. Ara-sıra da olsa “Pravda”, “İzvestiya” kimi mərkəzi mətbuat orqanlarının Naxçıvan reallıqlarına səhifələrində yer ayırması həm də Heydər Əliyev dühasının qüdrətindən irəli gəlirdi. Yeri gəlmişkən qeyd edilməlidir ki, bu baxımdan Heydər Əliyevin hələ Naxçıvana qayıdışından xeyli əvvəl “Teatralnaya jizn” (1989) yurnalı üçün Andrey Karaulova verdiyi tarixi müsahibə bu yolda ciddi bir örnək sayıla bilər (1, s.20-41).

Düzdür, o dönəm Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək ictimaiyyət nümayəndələri qarşısında cəsarətli və özünəməxsus çıxışı, 20 yanvar faciəsinə verdiyi tarixi qiymət, onun günahkarlarının cəzalandırılması tələbi mətbuatın xalqa açıqladığı bir reallıq olmaqla, həm də onun şəxsi həyatına təhlükə yaratmaqda idi. Sov.İKP MK-nın baş təbliğat maşını olan “Pravda” qəzetində dərc olun-

muş “Əliyevçilik, yaxud əyyamların xiffəti” məqaləsi (4) əslində Heydər Əliyevə qarşı siyasi təqiblərin başlanmasından xəbər verirdi. Bundan az sonra “Kommunist” qəzetində “Bu da tayfa oyunudur?” məqaləsinin (5) yer almasının önəmli məqsədi Heydər Əliyevin Azərbaycana, canı və varlığı qədər sevərək bağlı olduğu məmləkətinə gələn yollarının bağlanması üçün idi.

Nə qədər fitnə-fəsad və təcavüz cəhdləri olsa belə, ulu öndərin haqq yolunu bağlamaq mümkün olmadı. Düzdü onun Bakıda yaşamasına izn verilməsə də, doğma Naxçıvan nəinki nəvazişlərini əsirgəmədi, həm də öz xilaskarını qəbul etməklə, onu yenidən yüksəltdi. Onda Naxçıvan son dərəcə çətin bir şəraitdə yaşayırdı. İqtisadiyyat tamamilə dağıdılmış, əhalinin maddi durumu olduqca pis bir həddə düşmüş, ərzaq qıtlığı yaranmış, hərc-mərclik bütün hədləri aşmışdı. Xain ermənilərin hücumları bölgədəki ağır situasiyanı daha da gərginləşdirdiyi bir zamanda, o zamankı Azərbaycan rəhbərliyinin Naxçıvana ögey münasibəti də muxtar respublikanı son dərəcə acınacaqlı bir durumla üzləşdirmişdi. “Belə bir vaxtda xalqımızın böyük oğlu Heydər Əliyevin Naxçıvana gəlişi əhalinin əsl nicatına çevrilmiş, hamı onun timsalında böyük xilaskarını tapmışdır. 22 iyul 1990-cı il tariximizə böyük bir mərhələnin başlanğıcı kimi daxil olmuşdur. On minlərlə insan muxtar respublikanın şəhər, qəsəbə və kəndlərindən axın-axın Naxçıvan şəhərinə, ulu öndərin ziyarətinə gəlir, ona tükənməz sevgisini bildirirdi. Elə həmin gün Naxçıvan şəhərinin mərkəzi meydanında keçirilən möhtəşəm mitinqdə yüz minə yaxın insanın iştirakı da dahi rəhbərə xalqın hüdudsuz məhəbbət və inamının təntənəsi idi” (20, s.56).

Beləliklə, Heydər Əliyevin Naxçıvana qayıdışı həm də bütün azərbaycanın tarixində yeni bir eranın başlanğıcı oldu. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: “Moskvadan Naxçıvana qayıdış o dövrün bəzi qəzetlərində yazıldığı kimi, əyalət mərkəzinə yox, Vətənə qayıdış idi; böyük siyasətə yenidən və fəal şəkildə, birmənalı, ardıcıl, qətiyyətli qayıdış idi” (3).

AR Prezidentinin İctimai-siyasi məsələlər üzrə köməkçisi, professor Əli Həsənov Naxçıvanın 1990-cu ilin 22 iyulu haqqında sonralar belə yazırdı: “İyulun 22-i naxçıvanlıların yaddaşında həmişəlik qalacaqdır. Həmin gün saat 10.35-də Heydər Əliyev təyyarə ilə Naxçıvana gəldi. Gəlişini ailə üzvlərindən başqa heç kimin bilmədiyi keçmiş sovet rəhbərlərindən biri olan Heydər Əliyev 20 yanvar Bakı hadisələri ilə bağlı ittifaq və respublika rəhbərlərini ciddi tənqid etdiyinə görə siyasi təqiblərə, partiya mətbuatında böhtanlara məruz qalmışdı. Ona qarşı yönəlmiş siyasi təcridetmə kampaniyasının nə ilə bitəcəyini təsəvvür etmək çətin deyildi. Doğma vətən torpağına qədəm basandan dərhal sonra H.Cavidin məzarını ziyarət edən Heydər Əliyevin sorağı bir anda ildırım sürəti ilə Naxçıvan Muxtar Respublikasının hər tərəfini bürüdü. Minlərlə adam onunla görüşmək istəyirdi. Həmin gün axşamçağı Naxçıvan şəhərindəki mərkəzi meydana 100 min nəfərdən çox adam toplaşmışdı. Ayağının altında onlarca qurban kəsilən H.Əliyevə ağır müharibə və iqtisadi böhran şəraitində yaşayan naxçıvanlılar özünün nicatı və son ümidi kimi baxırdılar. Heydər Əliyev meydana - xalqın görüşünə gəldi. Bu böyük şəxsiyyətlə görüşə gələnlərin, onu uzaqdan müşahidə edənlərin şadlığını təsvir etmək çətindir. Heydər Əliyevin sevinc dolu alqışlar altında etdiyi qısa çıxış xalqına sonsuz məhəbbətlə dolu böyük ürəyin səsi idi… Beləcə, bütün ömrünü Azərbaycan xalqına xidmətdə keçirən, öz rahatlığını, dincliyini gecə-gündüz xalqının xoşbəxtliyinə sərf edən Heydər Əliyevlə onu dünyalar qədər sevən xalqı vahid bir tam kimi birləşib-qovuşdu…” (“http://www.1990-1993.nakhchivan.az/22i.htm).

Təbii ki, Naxçıvanda baş verənlər gündəmi get-gedə daha ciddi bir şəkildə zəbt etməkdə idi. “Ulduz” jurnalının 6-cı sayında Heydər Əliyevlə müsahibənin (6) dərc edilməsi, ardınca “Respublika” qəzetində Azər Abdullanın “Mən adamlara inanmışam” adlı müsahibənin (7) və Tbilisidə çıxan “Sovet Gürcüstanı” qəzetinin müxbirlərinə müsahibəsi (8) xalqın Heydər Əliyev fenomeninə dəyərinin ifadəsi idi. “Xalq qəzeti”nin müxbiri Əlipənah Bayramovun görkəmli alim Tələt Qayıbovla müsahibəsində bu fakt bir daha öz əksini tapır: “1920-ci il aprel çevrilişindən sonra mən Azərbaycanın tarixində iki böyük şəxsiyyət tanıyıram: Sovet İttifaqının möhkəmləndiyi dövrdə hakimiyyətə gələn Mircəfər Bağırov və bu dövlətin süqutu ərəfəsində hakimiyyətdə olan Heydər Əliyev. Yenə də siyasi mədəniyyətimiz çatmadığı üçün özümüz tarixi şəxsiyyətlərimizi məhv edirik” (18). Bu az imiş kimi bir sıra rayonlardan belə rayonlarda dərc edilən yerli qəzetlərin müxbirlərinin Heydər Əliyevlə görüş və müsahibələrə can atması xalqın ona məhəbbətinin təzahüründən doğurdu. Həmin dövrdə Heydər Əliyevin fikirlərini mətbuata çıxarmaq yasaq edilmişdi. Azərbaycanın sabiq rəhbərliyi bu böyük şəxsiyyəti tam blokadaya almağa cəhd göstərirdi. Bununla belə, vətənsevər, cəsarətli Azərbaycan jurnalistləri ölkənin taleyi ilə əlaqədar görkəmli siyasətçinin fikirlərini xalqa çatdırmaq üçün əllərindən gələni əsirgəməmiş, hər cür məhrumiyyətlərə dözmüşlər. Belələrindən biri də həmin vaxtlar Saatlıda çıxan “Dönüş” qəzenin şöbə müdiri Fəxrəddin Ağamirzəyev olmuşdur.

Saatlıda nəşr olunan “Dönüş” qəzetinin əməkdaşı Fəxrəddin Ağamirzəyevin Heydər Əliyevlə dəfələrlə görüşməsi və 1990-cı ilin avqust ayında “Dönüş”ün ardıcıl olaraq 3 sayında müsahibələrin dərc olunması (9) ona xalq məhəbbətinin ifadəsi olmaqla, həm də o dönəmdə partiya-sovet mətbuatının nümayəndəsi olan bir müxbirin - Fəxrəddin Ağamirzəyevin göstərdiyi fədakarlıq nümunəsi idi. Bu tarixi müsahibələrdə Fəxrəddin Ağamirzəyevin “Respublikaya qayıdandan sonra jurnalistlərlə çoxmu görüşünüz olub? Daha çox hansı jurnalistləri maraqlandırmısınız?” suallarına ulu öndər belə cavab vermişdir: “Naxçıvana qayıdandan daha çox, əsasən Naxçıvan Muxtar Respublikasının jurnalistləri ilə görüşüm olub. Təəssüf ki, Bakıdan olan jurnalistlərin heç biri mənim yanıma gəlməyib. Mən bura gələndən bir neçə gün sonra Moskva qəzetlərinin bir neçəsi mənim Naxçıvanda olmağımı və burada olan boyuk izdihamlı görüşüm haqqında məlumat vermişdilər. O cümlədən “Arqumentı i faktı” qəzetində yazılmışdır ki, Əliyev yenidən siyasətə qayıtmışdır, onun Naxcıvanda əhali ilə görüşü olmuşdur, görüşdə 30 min nəfərə qədər adam iştirak etmişdir. Bundan xeyli çox adam olmuşdur əslində. Ancaq belə bir qısa məlumat olmuşdur. Bakıdan bir-iki azad qəzetlərin jurnalistləri gəlib mənimlə görüşüblər. Ancaq rəsmi mətbuat orqanlarının jurnalistləri mənim yanıma gəlmirlər. Mərkəzi televiziyanın “Zaman” xəbərlər redaksiyasının Azərbaycan Respublikası uzrə muxbiri Mais Məmmədov mənə zəng etdi və çatdırdı ki, Moskvadan ona göstəriş var ki, mənimlə görüşsün, mərkəzi televiziyaya material hazırlasın. Mən də razılığımı verdim ki, gəlsin. O dedi ki, onda sabahları mən gəlirəm Naxcıvana, sizinlə görüşməyə. Ancaq ondan sonra o gəlmədi. Mənə belə gəlir ki, burada nəsə bir səbəb var. Çünki, bu onun özünün təşəbbüsü deyildi. Bu mərkəzi televiziyanın təşəbbüsü idi. Gəlmədi gəlməsin, eybi yoxdur. Bundan başqa Litvadan, Estoniyadan mənim yanımda jurnalistlər olmuşlar. Sonra Moskvadan bir-iki jurnalist telefon vasitəsilə məndən müsahibə almışdır” (24, s.43).

Müəllif o zaman Heydər Əliyevlə görüşün çətinliklərindən söhbət acaraq yazırdı: “Heydər Əliyevlə görüşüb müsahibə götürmək fikrinə düşəndə tam aydınlığı ilə dərk edirdim ki, bundan sonra məni nələr gözləyir. Ən azı, bunu həmin dövrdə mərhum Əjdər

Xanbabayevin başına gətirilənlərdən bilirdim. Həm də müsahibə alıb dərc etdirmək fikrim yaranandan uca bir zirvəyə doğru yön aldığımı dərk edirdim" (24, s.10). Düzdü, fədakar jurnalist Fəxrəddin Ağamirzəyev böyük naşir Əjdər Xanbabayevin taleyini yaşamasa da, ciddi təqiblərlərlə üzləşdi, qəzetin nəşri dayandırıldı, hətta ona jurnalistlik fəaliyyəti qadağan edildi...

Saatlı rayon "Dönüş" qəzetnin 1990-cı il avqust tarixli 100, 101 və 102-ci saylarında "Heydər Əliyevlə müsahibə"ni (9) çap etdirən Fəxrəddin Ağamirzəyev dərhal "öz ərizəsi ilə" işdən azad edildi. Bundan sonra jurnalisin özünə və ailə üzvlərinə qarşı təqiblər başlandı. Ondan iltzam aldılar ki, bir daha əlinə qələm almayacaqdır. Bir jurnalist üçün bundan daha ağır cəza ola bilərmi? Beləliklə, Fəxrəddin Ağamirzəyev 1990-cı ilin avqustundan işsiz qaldı.

Uzun illərdən sonra bu müsahibə "Dönüşdən Qurtuluşa" adlı kitab (24) kimi çap olundu. Nəşrin ön sözündə, bundan da bir az əvvəl "Xalq qəzeti"ndə kitabın redaktoru, əməkdar jurnalist Tahir Aydınoğlu müxbirin fəaliyyətini belə qiymətləndirir: "Heydər Əliyev şəxsiyyətinə həmişə sonsuz sevgi bəsləyən Ağamirzəyevlər ailəsinin "Dönüş" qəzetində şöbə müdiri işləyən 30 yaşlı oğlu jurnalist Fəxrəddin Ağamirzəyev Heydər Əliyevə qarşı yönəlmiş şiddətli böhtan və təkləmə kampanyasına dözməyərək, qarşıda onu nələr gözlədiyinin fərqinə varmayaraq, çox çətinliklə blokadada olan Naxçıvana getmiş, ikiqat blokadada yaşayan əfsanəvi soydaşımız Heydər Əliyevlə şəxsən görüşmüş, onunla müsahibə aparmışdı. Jurnalist aldığı geniş müsahibədə Heydər Əliyevlə bağlı həqiqətləri ortaya qoymuş, o günlərin ən vacib, bu gün də aktuallığını itirməmiş suallarına tarixi cavablar almışdı. Bu müsahibə Heydər Əliyev Moskvada yüksək postlardan istefa verdikdən sonra onun kommunist mətbuatında sözünü deməyə ilk və yeganə imkanı olmuşdu. "Dönüşdən Qurtuluşa" kitabında Fəxrəddin Ağamirzəyevin həmin müsahibə ilə bağlı xatirə yazısı, ulu öndərlə tarixi görüşün müsahibədənkənar bir çox təfərrüatları əksini tapmış, çağdaş oxucu üçün suallar doğuracaq bir sıra məqamlara aydınlıq gətirmişdir" (23 və 24, s.4).

Naxçıvana gəlişindən çox az bir müddət sonra Heydər Əliyev siyasi fəaliyyətə başladı, o, özü siyasətdən tam uzaq olmaq arzusunu dəfələrlə bəyan etsə belə, xalqın milli iradəsi önündə təslim olduğunu da etiraf etdi: "Doğma Vətən torpağına heç də yenidən hakimiyyətə qalxmaq ... üçün yox, ancaq və ancaq respublikanın bu ağır və çətin dövründə xalqın dərdinə şərik olmağa, vətəndaşlıq borcumu yerinə yetirməyə, azadlıq uğrunda mübarizəyə qoşulmağa gəlmişəm" (1, s.99). Naxçıvanda o vaxtlar səfərdə olan professor Şamil Qurbanov "Xalq qəzeti"idə dərc olunan "Naxçıvanda nələr gördüm" yazısında deyilənləri bir daha təsdiq edir: "Naxçıvan boğulur, ona təcili kömək lazımdır. Mən bunu gözlərimlə gördüm, qəlbimlə duydum. Buna görə də yazımı bayram təntənəsindən, yubiley övqatından yox, onun sosial problemlərindən başlamağa məcbur oldum" (14). Eyni zamanda Heydər Əliyev 1993-cü il aprelin 3-də "Rossiyskiy fermer" qəzetinin müxbirləri ilə söhbətində deyirdi: "Öz adıma artıq heç bir şey çıxmayaraq, deyə bilərəm və həyatda fəxr etməyə həqiqətən dəyər ki, mən həmin müddət ərzində Naxçıvanı müharibədən qorudum" (13).

Ələkbər Cabbarlının "Heydər Əliyev və Naxçıvan tarixi məsələləri" monoqrafiyasında deyildiyi kimi "Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrünü əhatə edən 1990-1993-cü illər Azərbaycan tarixinin şanlı, yaddaqalan səhifələrinə çevrildi. Çünki bu dövr Naxçıvan üçün çox mühüm hadisələrin, ciddi ictimai-siyasi məsələlərin həlli ilə əlamətdardır. Əslində taleyin ümidinə buraxılan Naxçıvan məhz Heydər Əliyevin

dərin zəkası, uzaqgörən siyasəti nəticəsində yaşayıb mübarizə apara bildi. Heydər Əliyevlə xalqın birgə, uğurla kombinə edilmiş fəaliyyəti nəticəsində Naxçıvanda çox mühüm işlər görüldü” (26, s.211). “Naxçıvan dünya şöhrətli siyasətçi Heydər Əliyevin cəsarəti və uzaqgörənliyi nəticəsində düşmən tapdağına çevrilməkdən xilas ola bildi. Ümummilli liderin qəbul etdiyi qərarlar, gecə-gündüz yorulmaq bilmədən apardığı siyasət blokadaya alınmış Naxçıvanı yaşatdı” (26, s.125).

Dövrün mətbuat orqanlarında hadisələrin Naxçıvanda olduqca qaynar bir temp ilə inkişafı qiqqəti cəlb edir. İstər-istəməz Naxçıvanın diqqət mərkəzində olması onu gündəlik xəbərlərin baş mövzusuna çevrilməkdə idi. Naxçıvana qayıdışdan iki ay sonra-30 sentyabr 1990-cı ildə keçirilən seçkilərdə Naxçıvan Muxtar Respublikasının əhalisi yekdilliklə ulu öndəri Azərbaycan SSR-in və Naxçıvan MSSR-in xalq deputatı seçdi. 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə fəaliyyətə başladı. Yeri gəlmişkən qeyd edilməlidir ki, həmin sessiya-on ikinci çağırış Naxçıvan MSSR Ali Sovetinin birinci sesiyası bütün ölkə mətbuatında, eləcə də ümümittifaq və xarici KİV-lərdə böyük sensasiya ilə qarşılandı. Bu sesiyada təkcə Naxçıvan üçün deyil, ümumən, bütün Azərbaycan üçün son dərəcə böyük əhəmiyyətə malik taleyüklü qərarlar qəbul olundu. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adından “Sovet Sosialist” sözlərinin çıxarılması, Naxçıvan MSSR Ali Sovetinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, milli istiqlal rəmzi olan üçrəngli bayrağın Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında tarixi qərarların qəbul olunması istər cəmiyyət üçün, istərsə də yuxarılar üçün gözlənilməz idi. Sesiyada Naxçıvan MR Ali Məclisi üçrəngli bayrağın Azərbaycan Respublikasının rəsmi dövlət rəmzi kimi tanınması haqqında Azərbaycan SSR Ali Soveti qarşısında vəsatət də qaldırmışdı (1, s.129, s.130, s.131, s.134).

Naxçıvana qayıdışından az sonra Muxtar Respublikası Ali Məclisinin sədri seçilməsi muxtar respublikada vəziyyətin yaxşı bir axara düşməsinə inam yaratmaqda idi. ”...müstəqillik dövründə Heydər Əliyevin Naxçıvanda yaşayıb çalışdığı, Naxçıvan Muxtar Respublikasının rəhbəri olduğu illərdə Azərbaycan üçün çox əhəmiyyətli olan ölkənin ərazi bütövlüyünün təmin edilməsində böyük tarixi vəzifələri şərəflə həyata keçirmişdir. Azərbaycanın bu diyarının – Naxçıvanın mürəkkəb hərbi-siyasi şəraitdə işğaldan xilas olmasının ən başlıca səbəbi Heydər Əliyevin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri kimi xalqı öz ətrafında birləşdirərək, region dövlətləri ilə əlaqələri möhkəmləndirərək, böyük güclərin təcavüzünə qarşı müqavimət hərəkatına bacarıqla rəhbərlik etməsi idi. Sözün böyük və gerçək mənasında işğaldan xilas edilib, Azərbaycan torpağı kimi qorunub saxlanılan Naxçıvan Muxtar Respublikası görkəmli dövlət xadimi Heydər Əliyevin müstəqil dövlətimizə çox mühüm ərməğanı, ölkə və xalq qarşısında böyük xidmətidir“ (21).

Düzdü xarici qüvvələrin təcavüz və fitnəkarlıqları azalmadığı kimi, daxildə də basqılar davam edirdi. Bu on birinci çağırış Azərbaycan Ali Sovetinin birinci sesiyasında açıq şəkildə hiss olundu. “Aydınlq” və “Vətən səsi” qəzetləri deputat Heydər Əliyevin sesiyadakı cıxışının tam mətnini (10, 11) yaymaqla xalqın böyük siyasətciyə olan inamını təsdiqlədi. Ali Sovetin 7 mart 1991-ci il sesiyasında cıxış edən Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması barədə referendumun əleyhinə səs verməklə o zamankı iqtidarın bütün planlarını alt-üst etdi. ”Səs” qəzetinin 15 mart tarixi sayında dərc edilən bu çıxış Azərbaycanın siyasi həyatında müstəqilliyə doğru atılan adımın bir nümunəsi idi (12). Heydər Əliyevin təklifi ilə Naxçıvan MR Ali Məclisinin Ümumittifaq referendumunda

Naxçıvan MR-in iştirak etməməsi barədə qərarın qəbul edilməsi hakimiyyət-Naxçıvan münasibətlərini daha da kəskinləşdirdi. Bu kəskin münasibətlər 1991-ci ilin bütün siyasi hadisələrində özünü göstərmiş, dövrün mətbuat orqnlarında cəbhələşmiş polemikalara yol açmışdır. Hətta Moskvada üzdəniraq “avqust qiyamının” baş verməsi və onun Azərbaycan hakimiyyəti tərəfindən dəstəklənməsi Naxçıvanda ciddi rezonans yaratmışdı. Naxçıvan MR Ali Məclisini fövqaladə sesiyası Dövlət Fövqaladə Vəziyyət Komitəsinə mənfi münasibət bildirməklə, onu dəstəkləyən yerli partiya və sovet orqanlarını ləğv etmişdir. Azərbaycan Respublikası Ali Sovetinin növbədənkənar sesiyasında (29 avqust 1991-ci il) “Respublikada siyasi vəziyyət haqqında”məsələnin müzakirəsi zamanı etdiyi çıxışa görə siyasi təqibə məruz qalan Heydər Əliyev 1993-cü il iyun ayının 13-dək Ali Sovetin sesiyalarında, Milli şuranın və Milli Məclisin iclaslarında iştirak etməmişdir.

Heydər Əliyevin bu dövrdəki fəaliyyəyi Naxçıvanın gələcək taleyi və inkişafı ilə üzvü şəkildə bağlı olsa da, Azərbaycan reallıqları, ölkənin və xalqın çətin vəziyyəti, bu yöndə yolların axtarılması onu düşündürən ümdə vəzifələrdən idi. Türkiyənin nüfuzlu “Milliyyət” və “Hürriyyət” qəzetlərinin, Amerikanın “Vaşinqton post”qəzetini Naxcıvanda ezamiyyətdə olan müxbirləri ilə görüşündə də Naxçıvanın Azərbaycanın tərkib hissəsi olduğu vurğulanmış, ölkənin erməni təcavüzünə məruz qaldığı önəmli dəlillərlə nəzə çatdırılmışdır. Heydər Əliyevin 1991-ci il oktyabrın 14-də Türkiyənin “Samanyolu” telekanalına müsahibəsində dediyi kimi, “Naxçıvan Azərbaycanın ayrılmaz bir hissəsidir, muxtar respublikadır. Naxçıvanın xüsusiyyəti ondan ibarətdir ki, vaxtilə Azərbaycana qarşı ədalətsizlik edilib və Zəngəzur diyarının Ermənistana verilməsi ilə əlaqədar Naxçıvan Azərbaycanın əsas torpağından ərazi nöqteyi-nəzərindən ayrı düşübdür. Ona görə də burada muxtariyyət dövründə yaşayış o qədər də asan olmamışdır. Ancaq Naxçıvanın muxtariyyətinin olması ərazi cəhətdən ayrı düşmüş Naxçıvanın inkişaf etməsinin əsas şərtlərindən biridir” (15).

Prezident İlham Əliyevin Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş təntənəli mərasimdəki nitqində həmin tarixi proseslərin mühüm nəticələrini ümumiləşmiş şəkildə bir daha yada salması Heydər Əliyev yolunun milli tariximizdəki rolunun əhəmiyyətinə diqqəti cəlb etmək üçün ibrətamiz faktlardır: “Məhz 1990-cı illərin əvvəllərində Naxçıvanın taleyi həll edilirdi. Əgər o illərdə Heydər Əliyev Naxçıvanda olmasaydı və naxçıvanlılar ulu öndərin ətrafında sıx birləşməsəydilər, Naxçıvanın taleyi çox ağır ola bilərdi. Çünki artıq erməni millətçiləri Azərbaycana qarşı işğalçı siyasətini başlamışdılar və onların məkrli planlarında Naxçıvanın işğalı da var idi... O vaxtkı Azərbaycan rəhbərliyi də Naxçıvana ögey münasibət bəsləyirdi... Naxçıvanda sabitliyi pozmaq və vəziyyəti gərginləşdirmək üçün çox çirkin əməllər edirdi. Ancaq naxçıvanlılar həmişə olduğu kimi müdrikliyini göstərərək ulu öndərin ətrafında yumruq kimi sıx birləşdilər və həm erməni işğalına tutarlı cavab verdilər, onları yerində oturtdular, həm də Azərbaycanın mərkəzi hökumətinə də öz etiraz səslərini qaldıraraq bildirdilər ki, Naxçıvanda o məkrli ssenari keçməyəcəkdir” (2). Həmin tarixi proseslərin yaşandığı bütün gərginliklərin içərisində olmuş, böyük öndərin sınaqlardan çıxmış sadiq silahdaşı, Naxçıvan Muxtar Respublikasının rəhbəri kimi əsl sədaqət və əməlpərvərlik nümunəsi göstərən Ali Məclisin Sədri Vasif Talıbov da rəsmi dövlət mərasimindəki çıxışında keçilmiş 90 illik yola mərhələlər üzrə nəzər salarkən ümummilli lider Heydər Əliyevin mühüm xidmətlərini dərin məntiqlə və ümumiləşmiş şəkildə, böyük borc duyğusu ilə ifadə etməyi zəruri hesab etmişdir: “1990-cı ilin iyul ayında Moskvadan Naxçıvana gəlməsi, burada siyasi fəaliyyət göstərməsi muxtar respublikanı siyasi oyunlardan, ərazisini erməni iş-

ğalından, muxtariyyətini isə ləğv olunmaq təhlükəsindən xilas etdi" (2).

Bir tərəfdən düşmən ermənilərlə müharibəni davam etdirilməsi vəziyyəti çətinləşdirirdi, digər tərəfdən bütün yolların (havadan başqa) bağlanması Naxçıvanın tam blokadaya alınması ilə nəticələnmışdi. Türkiyə və İran dövlətləri ilə diplomatik münasibətlərin qurulmasında uğurlu addımlar atılsa da hələ ciddi çətinliklər qalmaqda idi. İnformasiya blokadası daha ciddi fasadları ilə gündəmdə idi. 1992-ci ilin 7 iyununda "Real" informasiya agentliyinin fəaliyyətə başlaması informasiya blokadasının yarılması üçün atılan yeni bir addım oldu."Azərbaycan" nəşriyyatında "Real" informasiya agentliyinin hazırladığı "Naxçıvan yaşayır, döyüşür" fotoalbomunun (16) bir neçə dildə nəşr edilərək yayımlanması Naxçıvan reallıqlarının daha bariz şəkildə içtimaiyyətə çatdırılmasında mühüm rol oynadı. Bundan dörd ay sonra Bakıda "Naxçıvan" həftəlik ictimai-siyasi qəzetinin nəşrə başlaması ictimaiyyətin böyük marağına səbəb oldu. Gərgin mübarizə və blokada şəraitində yaşayan Naxçıvan həqiqətlərinin ictimaiyyətə çatdırılmasında mühüm rol oynayan qəzetə Heydər Əliyev təbrik məktubu göndərdi.

Bu dövrdə Azərbaycan ziyalılarının-sonralar 91-lərin müraciəti adlanan-müraciəti mətbuatda dərc olundu. Buna cavab olaraq demək olar ki, bütün mətbuat orqanlarında Heydər Əliyevin Azəərbaycan ziyalılarına cavab olaraq "Yeni, Müstəqil Azərbaycan uğrunda" sərlövhəli məktubunun dərc olunması ciddi sensasiya yaratmaqla, Heydər Əliyev ideyalarını möhtəşəmliyini ortaya qoydu. Bu zaman AXC Naxçıvan və Ordubad şöbələrinin Naxçıvanda dövlət çevrilişinə cəhd göstərməsi mətbuatın gündəmini zəbt etdi. Yerli və xarici jurnalistlər üçün 27 oktyabrda mətbuat konfransı keçirən Heydər Əliyev bu dəfə də ağıllı və müdrik siyasəti ilə Naxçıvanda nisbi sakitliyə nail oldu. Bir gün sonra Naxçıvan Televiziyası ilə xalqa müraciət edən Heydər Əliyev əhalini şayələrə uymamağa, yaranmış gərginliyi aradan qaldırmaq üçün sabitliyi gözləməyə çağırış etdi. Eyni zamanda həmən gün "Naxçıvan" qəzeti onun "İnsan xalq üçün yaşayanda xoşbəxt olur" sərlövhəli müsahibəsini (17) dərc etdi. Bu qayğılı və gərgin günlər həm də YAP təşkilat komitəsinin yığıncağının və təsis konfransının keçirildiyi, eləcə də Heydər Əliyevin açıq səsvermə yolu ilə partiyanın sədri seçildiyi günlərə təsadüf edir.

1991-ci ilin 22 iyulunda Naxçıvan üz tutan böyük siyasətci və dövlət xadimi Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində 1993-cü ilin iyununadək çalışmışdır. 1991-1993-cü illəri, daha dəqiq desək iki ilə qədər bir dövrü əhatə edən ağır və böhranlı bir zamanda Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvanın illərdən bəri planlaşdırılan işğalına nəinki imkan verilməmiş, əksinə bu qədim diyarın müdafiə qüdrəti möhkəmləndirilmiş, hərtərəfli inkişafı üçün ardıcıl tədbirlər həyata keçirilmişdir.

## Ədəbiyyat

1. Qayıdış (1990-1993). Sənədlər toplusu. Təkmilləşdirilmiş və yenidən işlənmiş ikinci nəşr. Bakı: Azərbaycan, 2008, 840 s.
2. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim. 8 aprel 2014-cü il. Azərbaycan Prezidenti İlham Əliyevin nitqi, "Xalq qəzeti", 9 aprel 2014
3. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasim. 8 aprel 2014-cü il. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Vasif Talıbovun çıxışı. "Xalq qəzeti", 9 aprel 2014
4. "Əliyevçilik, yaxud xoş əyyamların xiffəti". "Pravda" qəzeti, 4 fevral 1990

5. Ş.Yaqubov. "Bu da tayfa oyunudur?". " Kommunist" qəzeti, 5 may 1990
6. E.Əhmədov. Heydər Əliyevlə müsahibə. "Ulduz" jurnalı, N.6, iyun 1990
7. A.Abdulla. "Heydər Əliyev: Mən adamlara inanmışam." Respublika" qəzeti, 25 avqust 1990
8. Heydər Əliyevin "Sovet Gürcüstanı" (Tbilisi) qəzetinin müxbirlərinə müsahibəsi. "Sovet Gürcüstanı" qəzeti, 26 avqust 1990
9. Fəxrəddin Ağamirzəyev. Heydər Əliyevlə müsahibə. "Dönüş" qəzeti, 23, 25, 28 avqust 1990
10. Azərbaycan SSR Ali Sovetinin birinci sesiyasında xalq deputatı H.Əliyevin cıxışı. "Aydınlıq" qəzeti, 15-21 fevral 1991
11. Azərbaycan SSR Ali Sovetinin birinci sesiyasında xalq deputatı H.Əliyevin cıxışı. "Vətən səsi" qəzeti, 27 fevral 1991
12. Azərbaycan Respublikası Ali Sovetin 7 mart 1991-ci il sesiyasında cıxış edən Heydər Əliyev SSRİ-nin qorunub saxlanılması barədə referendumun əleyhinə səs verməklə iqtidarın bütün planlarını alt-üst etdi. "Səs" qəzeti, 15 mart 1991
13. Heydər Əliyevin "Rossiyskiy fermer" qəzetinin müxbirləri ilə söhbəti. "Rossiyskiy fermer" qəzeti, 3 aprel 1993
14. Ş.Qurbanov. "Naxçıvanda nələr gördüm". "Xalq qəzeti", 4 noyabr 1992
15. Heydər Əliyevin Türkiyənin "Samanyolu" telekanalına müsahibəsi, "Samanyolu" telekanalı, 14 oktyabr 1991
16. "Naxçıvan yaşayır, döyüşür" fotoalbomu. "Real" informasiya agentliyinin nəşri, "Azərbaycan" nəşriyyatı, 7 iyun 1992
17. "İnsan xalq üçün yaşayanda xoşbəxt olur". Heydər Əliyevin "Naxçıvan" qəzetinə müsahibəsi. "Naxçıvan" qəzeti, 29 dekabr 1992
18. Ə.Bayramov. "Nicat yolunu özümüz tapmalıyıq. Görkəmli alim Tələt Qayıbovla müsahibə". 6 mart 1993
19. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 90 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Xalq qəzeti", 22 yanvar 2013
20. M.Y.Məmmədov. Siyasətdə Naxçıvan dərsləri. Bakı: Araz, 2009, 416 s.
21. İ.Həbibbəyli. "Heydər Əliyev yolu: Naxçıvan reallıqları. Azərbaycan tarixinin ən şərəfli dövrü olan dövlət müstəqilliyi mərhələsinin taleyində, möhkəmləndirilməsində və gələcək inkişafında ümummilli lider Heydər Əliyevin milli dövlətçilik təlimi dayanır". "Azərbaycan" qəzeti, 16 aprel 2014
22. H.Həşimli. "Heydər Əliyev və Naxçıvan". "Şərq qapısı" qəzeti, 14 may 2014
23. T.Aydınoğlu. "Bir müsahibənin tarixçəsi". "Xalq qəzeti", 8 may 2011
24. F.Ağamirzəyev. "Dönüşdən qayıdışa". "Adiloğlu" nəşriyyatı, Bakı, 2012, 168 səh.
25. A.Sadıqoğlu. "Heydər Əliyevin böyük siyasətə qayıdışı." "Xalq qəzeti"qəzeti, 6 may 2013
26. Ə.Cabbarlı. Heydər Əliyev və Naxçıvan tarixi məsələləri. "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan, 2015, 232 səh.

# NAKHCHIVAN PERIOD OF HEYDAR ALIYEV’S POLITICAL ACTIVITIES AS COVERED BY MEDIA

**N.G.Ahmedov**

## SUMMARY

This article deals with the media coverage of the Nakhchivan period of life (1990-1993) of the outstanding Azerbaijani statesman Heydar Aliyev. The importance of this historically not too long period of time for the country is stressed and supported by the facts.

# НАХЧЫВАНСКИЙ ПЕРИОД ПОЛИТИЧЕСКОЙ ДЕЯТЕЛЬНОСТИ ГЕЙДАРА АЛИЕВА В ПЛОСКОСТИ МЕДИА

**Н.Г.Ахмедов**

## РЕЗЮМЕ

В статье исследуются вопросы освещения в печати нахчыванского периода жизни и деятельности (1990-1993 гг.) выдающегося азербайджанского государственного деятеля Гейдара Алиева. То, что этот исторически не столь большой период времени имел крайне важное значение для Азербайджана, подтверждается фактами.

# M Ü N D Ə R İ C A T


T İ B B   B Ö L M Ə S İ

**H.Jabrayilov, C.Kara, M.Y.Koparal, E.C.Bulut, S.Cetin.** Retrograde intrarenal surgery versus percutaneous nephrolithotomy to treat renal stones with a diameter of 20 to 30 mm 5

İ N F O R M A T İ K A   B Ö L M Ə S İ

**Л.М.Зейналова.** U-числа и операции над ними…………………………………….. 13

**K.A.Məmmədova.** İstilik elektrik stansiyalarında enerji istehsalı prosesinin qeyri-səlis modeli........................................................................................................................ 24

**R.A.İmamquluyev.** Memarlıq-dizayn layihələrində məkan seçimi məsələsinin həlli üçün qeyri-səlis məntiq aparatının tətbiqi yolları............................................................................ 30

**Л.М.Зейналова.** Множественный регрессионный анализ в условиях Z-информации 35

Y E R   E L M L Ə R İ   B Ö L M Ə S İ

**X.A.Feyzullayev, A.A.Dəmirov, B.Z.Kazımov.** Qazkondensat qarışığının süzülməsi zamanı deformasiya olunan layın parametrlərinin təyini........................................................ 46

P R O Q R A M L A Ş D I R M A   B Ö L M Ə S İ

**R.Kh.Zulfugarova.** Forecasting technology using Prophet API………………………….. 54

T E X N İ K A   E L M L Ə R İ   B Ö L M Ə S İ

**E.X.İskəndərov, Q.Q.İsmayılov, F.B.İsmayılova.** Multifazalı qaz kəmərlərində hidrodinamik korroziya problemləri və onların həlli yolları........................................................ 60

İ Q T İ S A D İ Y Y A T   B Ö L M Ə S İ

**C.K.Əliyev.** Rusiya regionlarında dövlət-özəl tərəfdaşlığının maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi.................................................................................... 68

**E.Y.Qasımzadə.** Müasir ərəb ölkələrinin qarşılıqlı iqtisadi münasibətlərinin formalaşması xüsusiyyətləri.................................................................................................................. 78

**Ə.B.Quliyev.** Kənd təsərrüfatına dövlət dəstəyinin forma və metodları............................. 88

**И.Т.Искендерова.** Теоретические аспекты комплексного маркетингового исследования на современном этапе…………………………………………………………... 97

**A.R.Aslanov.** Qlobal investisiya-innovasiya tendensiyaları ölkələr arasında ticari-iqtisadi əlaqələrin inkişafının stimulu kimi.............................................................................. 104

H Ü Q U Q   B Ö L M Ə S İ

**Ş.H.Xösrəvi.** İranın vergi hüququnun prinsipləri və beynəlxalq vergi hüququ................... 112

**N.Ə.Baxşıyeva.** İnzibati məhkəmə icraatı kompleks hüquq institutu kimi........................ 124

**Q.R.Xəlilov.** Xalqların öz müqəddəratını təyinetmə hüququ və milli (etnik) azlıqların öz müqəddəratını təyinetmə muxtariyyəti.................................................................................... 129

**D.M.Qənbərov.** Vətəndaş cəmiyyətinin inkişafında birləşmək hüququnun rolu................ 135

**X.R.Məmmədov.** Milli azlıqların Avropa Şurası çərçivəsində müdafiəsi........................... 144

**G.Z.Məmmədli.** Hüquqi şəxslərin cinayət məsuliyyəti Azərbaycan Respublikasının cinayət hüququnun yeni institutu kimi.................................................................................... 152

PEDAQOGİKA BÖLMƏSİ
**T.X.Керимова.** Экологическое воспитание в процессе обучения биологии………… 164
**S.V.Vəliyeva.** Pedaqoji prosesin mahiyyəti və müəllim nüfuzu......................................... 169

TARİX BÖLMƏSİ
**A.T.Hüseynov.** Xəzər dənizinin hüquqi statusu məsələsində Rusiya Federasiyasının mövqeyi........................................................................................................................ 177
**M.S.Şabanov.** Şirvanşahlar dövlətinin Derovda sikkə zərbi.............................................. 182
**M.S.Şabanov.** Səfəviyəqədərki dövrün Gəncədə zərb olunmuş mis sikkələri.................... 193

SİYASƏTŞÜNASLIQ BÖLMƏSİ
**M.A.Özen.** Cənubi Qafqazda Türkiyə-Rusiya münasibətlərində ziddiyyətlər..................... 202
**Н.Р.Юсубова.** Сербско-косовские отношения после суверенизации Косово и международные организации……………………………………………………………… 210

DİLÇİLİK BÖLMƏSİ
**Z.M.Mammadkarimova.** The role of multilingual diversity in education and society of Azerbaijan Republic………………………………………………………………….. 217

PSİXOLOGİYA BÖLMƏSİ
**R.R.Nəzərli.** Bəşəriyyətin psixoloji problemləri................................................................ 224
**M.İ.Cabbarlı.** Humanist dəyərlər və onların Azərbaycan gənclərinin şəxsiyyətinin formalaşmasına təsir imkanları.......................................................................................... 230

JURNALİSTİKA BÖLMƏSİ
**N.Q.Əhmədov.** Heydər Əliyevin siyasi fəaliyyətinin Naxçıvan dövrü mətbuat müstəvisində........................................................................................................................ 242

# C O N T E N T S


S E C T I O N  O F  M E D I C I N E

**H.Jabrayilov, C.Kara, M.Y.Koparal, E.C.Bulut, S.Cetin.** Retrograde intrarenal surgery versus percutaneous nephrolithotomy to treat renal stones with a diameter of 20 to 30 mm 5

S E C T I O N  O F  I N F O R M A T I C S

**L.M.Zeinalova.** U-numbers and operations over them *(in Russian)*……………………... 13
**K.A.Mammadova.** Fuzzy model of the process of energy production in thermal power plants *(in Azeri)*........................................................................................................... 24
**R.A.Imamguluyev.** Ways to apply non-fuzzy logic apparatus when solving the site selection problem in architectural design projects *(in Azeri)*................................................. 30
**L.M.Zeinalova.** Multiple regression analysis under Z-information *(in Russian)*………… 35

S E C T I O N  O F  E A R T H  S C I E N C E

**Kh.A.Feyzullayev, A.A.Damirov, B.Z.Kazymov.** Determination of parameters of deformable layer at gas-condensate mixture filtration *(in Azeri)*................................................ 46

S E C T I O N  O F  P R O G R A M M I N G

**R.Kh.Zulfugarova.** Forecasting technology using Prophet API………………………….. 54

S E C T I O N  O F  T E C H N I C A L  S C I E N C E S

**E.K.Iskandarov, G.G.Ismayilov, F.B.Ismayilova.** Problems of hydrodynamic corrosion in multiphase gas pipelines and the ways to solve them *(in Azeri)*...................................... 60

S E C T I O N  O F  E C O N O M I C S

**J.K.Aliyev.** Improving PPP financing mechanisms in the regions of Russia *(in Azeri)*....... 68
**E.Y.Gasimzadeh.** The main features of the formation of economic relationship between contemporary Arab countries *(in Azeri)*.............................................................................. 78
**A.B.Guliyev.** Forms and methods of state support to agriculture *(in Azeri)*........................ 88
**I.T.Iskenderova.** Theoretıcal aspects of complex marketıng research at the present stage *(in Russian)*…………………………………………………………………………… 97
**A.R.Aslanov.** Qlobal investment and innovative tendencies as a stimulus for the development of trade and economic relations between countries *(in Azeri)*..................................... 104

S E C T I O N  O F  L A W

**Sh.H.Khosravi.** Principles of tax law of Iran and international tax law *(in Azeri)*.............. 112
**N.A.Bakhshiyeva.** Administrative proceedings as a complex legal institution *(in Azeri)*.... 124
**G.R.Khalilov.** The right of peoples to self-determination and autonomy for self-determination of national (ethnic) minorities *(in Azeri)*.................................................................. 129
**D.M.Ganberov.** The role of the right of association in development of civil society *(in Azeri)*…………………………………………………………………………............. 135
**Kh.R.Mammadov.** The protection of national minorities in the framework of the Council of Europe *(in Azeri)*.................................................................................................. 144
**G.Z.Mammadli.** Criminal liability of legal persons as a new institution of the criminal law of the Republic of Azerbaijan *(in Azeri)*....................................................................... 152

S E C T I O N   O F   P E D A G O G Y

**T.H.Karimova.** Ecological education in teaching biology *(in Russian)*………………….. 164

**S.V.Veliyeva.** The essence of pedagogical process and the prestige of a teacher *(in Azeri).* 169

S E C T I O N   O F   H I S T O R Y

**A.T.Huseynov.** The position of the Russian Federation on the legal status of the Caspian Sea *(in Azeri)*........................................................................................................... 177

**M.S.Shabanov.** Shirvanshah coinage in Derow mint *(in Azeri)*………………………….. 182

**M.S.Shabanov.** Copper coins of pre-Safavid period minted in Ganja *(in Azeri)*………… 193

S E C T I O N   O F   P O L I T I C A L   S C I E N C E

**M.A.Ozen.** Contradictions of Turkish-Russian relations in the South Caucasus *(in Azeri).* 202

**N.R.Yusubova.** Serbia-Kosovo relations and international organizations after Kosovo affirmed its sovereignty *(in Russian)*……………….......................................................... 210

S E C T I O N   O F   L I N G U I S T I C S

**Z.M.Mammadkarimova.** The role of multilingual diversity in education and society of Azerbaijan Republic……………………………………………………………….. 217

S E C T I O N   O F   P S Y C H O L O G Y

**R.R.Nazarli.** Psychological problems of mankind *(in Azeri)*…………………………….. 224

**M.I.Jabbarli.** Humanitarian values and their ability to influence the formation of personality of younger generation in Azerbaijan *(in Azeri)*……………...................................... 230

S E C T I O N   O F   J O U R N A L I S M

**N.G.Ahmedov.** Nakhchivan period of Heydar Aliyev's political activities as covered by media *(in Azeri)*…………………………........................................................................ 242

**“ODLAR YURDU UNİVERSİTETİNİN ELMİ VƏ PEDAQOJİ XƏBƏRLƏRİ” JURNALINA TƏQDİM OLUNAN MƏQALƏLƏRİN TƏRTİBAT QAYDALARI**

1. Elmlər doktorları və professorlar istisna olmaqla, hər məqalə üçün müvafiq elm sahəsi üzrə elmlər doktorunun rəyi təqdim edilməlidir.

2. Jurnala təqdim olunan məqalənin strukturu ümumdünya miqyasında elmi məqalələrə şamil edilən tələblərə cavab verməlidir. Yəni, məqalədə toxunulan problem ümumi şəkildə müəyyənləşdirilməli, onun mühüm elmi və praktiki məsələlərlə olan əlaqəsi göstərilməli, müəllifin bu problem üzrə istinad etdiyi ən son işlərin təhlili verilməli, məqalənin həsr olunduğu problemin həll olunmamış hissələri, habelə alınan nəticələr və onların perspektivləri göstərilməlidir.

3. Mövzusunun səthi və tezissayağı olduğu, elmi baxımdan kifayət qədər əsaslandırılmadığı məqalələr qəbul edilmir.

4. Məqalənin başlığı qısa olmalı, məzmunu əks etdirməli və 100 işarədən artıq olmamalıdır. Məqaləyə üç dildə (Azərbaycan, ingilis və rus dillərində) açar sözlər əlavə olunmalıdır. Azərbaycan dilində təqdim olunan məqalənin sonunda ingilis və rus dillərində, ingilis dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və rus dillərində, rus dilində təqdim olunan məqalənin sonunda Azərbaycan və ingilis dillərində eyni məzmunlu xülasələr verilməlidir.

5. Məqalə jurnalın redaksiyasına bir nüsxədə printerdən çıxarılmış şəkildə (A4 formatda) və elektron variantda (kompakt diskdə) təqdim olunmalı, nüsxə müəllif tərəfindən imzalanmalıdır. Alternativ olaraq, məqaləni journal@oyu.edu.az ünvanına da göndərmək olar.

6. Məqalənun mətni Microsoft Word 2003 proqramında Times New Roman şrifti ilə yığılmalıdır. Şriftin ölçüsü 12, sətirlərarası interval 1 olmalıdır. Sol və sağ tərəfdən məsafə 2,8 sm, yuxarı və aşağıdan isə 3 sm olmalıdır. Birinci sətirdəki boşluq 1,25 sm, düstur, rəsm və cədvəllərdə interval məsafələri (yuxarı və aşağıdan) 6 punkt olmalıdır. Şəkillər (rəsmlər) 11 ölçülü rəsmaltı yazılarla müşayiət olunmalı və mətnə skan edilmiş şəkildə (yəni skannerdən keçirilmiş şəkildə) daxil edilməlidir. Cədvəllərdə şriftin ölçüsü 11 olmalıdır. Düsturlar Word Equation redaktorunda yığılmalıdır.

7. Təqdim olunun məqalə 5-15 səhifə həcmində olmalıdır. Həcmi 15 səhifəni aşan məqalə yalnız redaksiya heyətinin razılığı ilə qəbul olunur. Mətnin qrammatik cəhətdən düzgünlüyü müəllif tərəfindən yoxlanılmalıdır.

8. Qoşma səhifədə müəllifin adı, soyadı, atasının adı, elmi dərəcəsi (varsa), iş yeri, iş yerinin ünvanı, müəllifin e-mail ünvanı və əlaqə telefonları göstərilməli, habelə əlyazmanın əvvəllər heç bir elmi nəşrdə dərc olunmadığı və elmin hansı sahəsinə aid olduğu qeyd olunmalıdır.

*əlaqə telefonu: (051) 572 34 36*
*email: journal@oyu.edu.az*
*ünvan: Bakı AZ1072, Koroğlu Rəhimov küçəsi 13, Odlar Yurdu Universiteti, Ümumi şöbə*
*http://www.journal.oyu.edu.az*

## GUIDE FOR AUTHORS

1. All the submitted articles must be peer-reviewed. The peer-reviewers name and affiliation must be included as part of the article to be located at the end after the References. It should be on a separate line 2 lines below the last reference and start with the words “Reviewed by…”.
2. The contents of an article must meet generally accepted international scientific norms. The aim and the purpose of the article as well as its feasibility must be clearly indicated. It should deal with innovative ideas, developments, directions, misdirections, areas which need to be explored, future outlook, prior errors, problems, personnel, funding, or trends in the chosen field.
3. The manuscript with incomplete coverage of the subject will not be accepted.
4. The title of the article must be concise not to exceed 100 characters and be in full conformity with the contents. The article should include keywords. Also, an abstract is required consisting of 50-100 words.
5. Overseas authors are expected to submit their articles electronically to fuadhud@yahoo.com. Local contributors should submit a hard copy (in A4 format) and electronic version of their articles (in a compact disk) directly to the editorial office (see contact addresses at the bottom of this page) or mail it to journal@oyu.edu.az.
6. Microsoft Word 2003 is the only preferred input program. The font used should be Times New Roman of 12 points. Text must be single spaced with 2.8 cm left/right margins and 3 cm top/bottom margins. Figures must be scanned and captioned in 11-points Times New Roman. Formulae should be input using Word Equation. And tabular data should be input using 11-points Times New Roman.
7. Authors are encouraged to submit articles ranging from 5-15 pages (including appendixes, references, figures and tables). Sanction of editorial board is required for the acceptance of manuscripts exceeding 15 pages. The author should check the text for grammar.
8. Each article should include title, name, patronymic, current affiliation, postal address, e-mail and phone numbers of the author who should also provide a written evidence that the presented manuscript has been never published before. Also, the author must indicate the field of science to which his (her) manuscript belongs.

*Tel.: (+994 51) 572 34 36*
*email: journal@oyu.edu.az*
*Postal Address: General Department, Odlar Yurdu University, 13 K.Rahimov St., Baku AZ1072, Azerbaijan*
*http://www.journal.oyu.edu.az*

## ПРАВИЛА ДЛЯ АВТОРОВ

1. За исключением докторов наук и профессоров, каждая статья должна иметь рецензию доктора наук в соответствующей области науки.

2. Структура представляемой в журнал статьи должна отвечать общемировым требованиям к научным статьям. То есть, статья должна включать определение проблемы в общем виде, её связь с важными научными и практическими задачами; анализ последних достижений и публикаций по данной проблеме, на которые опирается автор; выделение нерешённых частей проблемы, которым посвящается данная статья; формирование целей статьи (постановка задачи); содержание основного исследования с полным обоснованием полученных научных результатов; выводы из проведенного исследования и перспективы в данном направлении.

3. Рукопись, в которой материал изложен поверхностно, тезисно, без достаточного научного обоснования - не принимается.

4. Заголовок должен быть кратким, отражать содержание статьи и не превышать 100 знаков. Статья должна содержать ключевые слова на трёх языках (азербайджанском, английском и русском). Если язык статьи – азербайджанский, в конце приводятся идентичные по содержанию резюме на английском и русском языках. Аналогично, англоязычная статья сопровождается азербайджанским и русским, а русскоязычная – азербайджанским и английским резюме (идентичного содержания).

5. Рукопись представляется в редакцию журнала в одном экземпляре хорошего качества формата А4 вместе с электронным вариантом (на компактном диске). Экземпляр подписывается автором. Электронный вариант можно прислать и по адресу journal@oyu.edu.az.

6. Текст статьи должен быть набран в программе Microsoft Word 2003 шрифтом Times New Roman 12 размера с одиночным междустрочным интервалом. Верхние и нижние поля – 3 см, левые и правые – 2.8 см. Отступы: первой строки (абзац) – 1,25 см, интервалы (выше и ниже) от формул, рисунков, таблиц – 6 п.т. Рисунки и фото сопровождаются подрисуночными текстами в шрифте Times New Roman 11 размера и вставляются в текст в отсканированном виде. Формулы набираются в редакторе Word Equation с полуторным междустрочным интервалом.

7. Объём представляемой статьи должен быть в пределах 5-15 страниц. Статьи большего объема принимаются только по согласованию с редколлегией журнала. Текст должен быть проверен на грамматические ошибки, вычитан и просмотрен автором.

8. На отдельной странице указываются фамилии, инициалы автора, учёная степень (если имеется), место работы, почтовый адрес места работы, а также электронный адрес и контактные телефоны автора. В сопроводительном письме следует указать, что рукопись ранее нигде не публиковалась. Также необходимо указать принадлежность статьи к той или иной научной сфере.

*контактный телефон редакции: (+994 51) 572 34 36*
*email: journal@oyu.edu.az*
*адрес: Баку AZ1072, ул.Кёроглу Рахимова 13, Университет Одлар Юрду, Общий отдел*
*http://www.journal.oyu.edu.az*

Jurnal Azərbaycan Respublikası Mətbuat və İnformasiya
Nazirliyində qeydiyyatdan keçmişdir

This Journal is registered at the Ministry of Press
and Information of the Republic of Azerbaijan

Lisenziya №138
10 fevral 1999-cu il
********
License No. 138
February 10, 1999

Yığılmağa verilmişdir: 22.12.2017. Çapa imzalanmışdır: 27.12.2017
Formatı: 60x84 1/8. Həcmi: 32,5 ç.v. Ofset çap üsulu. Tiraj: 100

Sent for print: 22.12.2017. Authorized for printing: 27.12.2017
Format: 60x84 1/8. Volume: 32.5 p.l. Offset printing. 100 copies

AZERBAIJAN REPUBLIC ODLAR YURDU UNIVERSITY

OYU

1995

ISSN 1682-9123

9 771682 912004